AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

MUXTAR KAZIMOĞLU

# SÖZ HAQQINDA SÖZ

Bakı - 2020

**Redaktoru:** **Sönməz ABBASLI**
filologiya üzrə fəlsəfə doktoru,
dosent

**Muxtar Kazımoğlu. Söz haqqında söz.** Məqalələr və müsahibələr. Bakı, "Elm və təhsil", 2020, 276 səh.

folklor.az

K $\frac{4603000000}{N\text{-}098\text{-}2020}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2020.
© M.Kazımoğlu, 2020.

# DÖVLƏTÇİLİK DÜŞÜNCƏSİ VƏ FOLKLOR

## Giriş

Dövlətçilik düşüncəsini tarix, fəlsəfə, sosiologiya, politologiya kimi elm sahələri üzrə öyrənmək nə qədər vacibdirsə, folklorşünaslıq üzrə öyrənmək də bir o qədər vacibdir. Dövlətçilik düşüncəsi folklorşünaslıq predmetinə çevrilərkən bu düşüncəyə, hər şeydən qabaq, arxaik qatlar baxımından yanaşmaq lazım gəlir. Dövlətçilik düşüncəsində arxaik elementlər axtarmaq isə mifologiyadan gələn nöqtələrə diqqət yetirməkdən, qədim dövrlərin inanclar sistemini nəzərə almaqdan başlanır. Söhbət Azərbaycan dövlətçilik təfəkkürünün arxaik qatlarından gedirsə, burada, təbii ki, ümumtürk mifologiyasını bir kontekst kimi götürmədən ötüşmək mümkün deyil. Səbəb aydındır: Azərbaycan dövlətçiliyi ümumtürk dövlətçiliyinin, Azərbaycan mifologiyası da ümumtürk mifologiyasının tərkib hissəsidir. Türk xalqlarında dövlət atributlarının arxaik köklərini vahid bir kontekstdə araşdırmaq Azərbaycan dövlətçilik düşüncəsini araşdırmağın mühüm bir yoludur. Azərbaycan dövlətçiliyinin tarixi kökləri ilə bağlı bir sıra vacib suallara məhz ümumtürk kontekstində cavab axtarmaq bir zərurət kimi ortaya çıxır.

Dövlətçiliyin arxaik köklərini araşdırarkən folklorşünasın üz tutub istinad etdiyi qaynaqlar filosof, tarixçi, sosioloq və politoloqun əsaslandığı mənbələrdən fərqlənir. Dövlətçiliklə bağlı əfsanə və rəvayətlər, nağıl və dastanlar, mərasim və bayramlar tarixçi, sosioloq, politoloq və filosof üçün ikinci dərəcəli mənbələrdirsə, folklorşünas üçün ən mühüm qaynaqlar sırasına daxildir. Hökmdar kultu ilə, hakimiyyət simvolları ilə, dövlətçiliyə daxil olan digər amillərlə bağlı motivlərin mif, əfsanə, rəvayət, nağıl, dastan, lətifə, atalar sözü, məsəl, bayatı… kimi

folklor janrlarında necə əks olunması başqa mütəxəssisləri az maraqlandırdığı halda, folklor və dövlətçilikdən bəhs edən folklorşünasın diqqət mərkəzində dayanır.

## 1.

Məlumdur ki, dövlət və dövlətçilik anlayışı dörd əsas amillə bağlıdır: sosial qurum – xalq, coğrafi məkan – vətən, hakimiyyət və ordu. Bu amillər folklorda mif, əfsanə, rəvayət, nağıl, dastan, lətifə, atalar sözü, məsəl, bayatı və s. kimi janrlar vasitəsilə, özünəməxsus şəkildə təqdim olunur. Özünəməxsusluq, ilk növbədə, ideallaşdırmadan, dövlətçilik anlayışına daxil olan amillərin müəyyən qədər ilahi mənşəyə bağlanmasından ibarət olur.

Haqqında danışmaq istədiyimiz xalq anlayışı folklorda ata-baba kultunu özündə birləşdirən bir anlayış kimi təqdim olunur. Qorqud Ata kimi bir övliyanın təmsil olunduğu xalq, konkret olaraq Oğuz eli igidlərin iman yeridir, uğrunda ölməyə hazır olduqları müqəddəs toplumdur. Xalqın şanlı keçmişini təmsil edən əcdadlar ehtiramla yad edilir, uca dağlar başında əcdadların ruhuna qurbanlar kəsilir. Əcdad qəbirlərinin düşmənlər tərəfindən dağıdılması ən böyük türk savaşlarının mühüm səbəblərindən birinə çevrilir. Əcdadları yad etmə hökmdar seçmə mərasimlərində mühüm yer tutur. Qədim türklərlə xeyli miqdarda oxşar mərasimləri olan proto-monqollarda hökmdar seçilən adamın özündən əvvəlki hökmdarın xatirəsini yad etməsi; yenidən doğulma (inisiasiya) mərasimi üçün tikilmiş xüsusi məbədə girib, ölən ata və anasına dualar oxuması, yeddi ata (əcdadlar) məbədini ziyarət etməsi (Ögel 1989: 297, 299) və s. kimi adətlər qeydə alınıb.

«Xalq»la yanaşı, «vətən» və «dövlət» mənalarını da bildirməsi el (il) istilahının hər topluma yox, qorunan ərazisi və siyasi müstəqilliyi olan topluma aid edilməsi məsələsini orta-

ya çıxarır. Aydın olur ki, məhz bu səbəblərdən (yəni ordu ilə qorunan əraziyə və müstəqil siyasi hakimiyyətə sahib olması səbəblərindən) el (il) ən yüksək sosial qurum sayılır. Kiçikdən böyüyə müxtəlif sosial qurumları özündə ehtiva edən elin yeri və mövqeyi aşağıdakı sıralanmada daha aydın görünür:

oğuş – ailə;

uruq – ailələr birliyi;

boy – qəbilə, tayfa (siyasi birliyinə görə qəbilələr, tayfalar «ok» adlanır);

bodun/budun – boylar birliyi (bu birlik siyasi baxımdan müstəqil ola da bilər, olmaya da bilər);

il (el) – müstəqil topluluq, dövlət, imperatorluq (Kafesoğlu 1991: 215).

Göründüyü kimi, budundan fərqli olaraq, elin başlıca mahiyyəti müstəqil topluluq olmasında, müstəqil siyasi iradə ortaya qoymasındadır. Əgər belədirsə, yəni dövlətçilik el anlayışı üçün ən başlıca amillərdən və şərtlərdən biridirsə, onda biz xalq məsələsinin folklorda necə təqdim olunmasından danışarkən həmin aspekti xüsusi olaraq nəzərə almalıyıq. Nəzərə almalıyıq ki, «Kitabi-Dədə Qorqud»un da daxil olduğu Oğuznamələr silsiləsində sadəcə olaraq xalqdan, ata-baba və ulu əcdaddan yox, dövlət quran, bu dövlətin güc-qüdrətini artırmaq yolunda döyüşüb-çarpışan bir xalqdan, həmin xalqın təmsilçiləri olan konkret adamlardan, yarıtarixi-yarıəfsanəvi ata-babalardan və ulu əcdadlardan söhbət açılır: «Oğuznamənin türkman etnik mühitində etnik kimlik şüurunun ifadəsi olaraq əcdadlar haqqında dastanlar kimi yarandığını qəti şəkildə söyləmək mümkündür. Bir etnosiyasi birlik olaraq oğuzlar, doğrudan da, türkmanların əcdadı idi. Onlar bu tarixi hadisəni epik hadisəyə çevirib öz əcdadları olan oğuzlar haqqında dastanlar yaratdılar. Burada «ol zəmanlar», «oğuz zəmanı» kimi vəsf olunan epik dünya türkman düşüncəsində tarixə qovuşmuş

əcdadların dünyası idi» (Əsgər 2013: 53). Tədqiqatçılar Oğuznamələrin yaranmasını soykimliyi şüurunun güclənməsi amili ilə əlaqələndirirlər. Məsələn, F.Sümər türkçülük şüurunun güclənməsini «Oğuz kağan» dastanı ilə yanaşı, İbn Dəvadarinin bəhs etdiyi Oğuznamənin, həmçinin Rəşidəddin Oğuznaməsinin yazılmasında başlıca səbəb kimi nişan verir (Sümər 2013: 329). Oğuznamələrin meydana çıxmasına təkan verən türkçülük şüurunun mayasında, heç şübhəsiz, cahan dövləti qurmaq ideyası durur. Ulu əcdadların «günəş – bayrağımız» deyib, cahan dövləti qurmaq uğrunda apardığı mübarizə Oğuznamələrdən ana xətt kimi keçir: «Oğuz haqqında dastanın həm uyğur, həm də Oğuznamə versiyasında cahangirlik yürüşlərindən sonra Oğuz öz övladları arasında hakimiyyət bölgüsü aparır… Dastanın uyğur versiyasından fərqli olaraq, Oğuznamə versiyası Oğuzun altı oğlunun 24 törəməsinin də adlarını sıralayır. Bu, 24 törəmənin adlarının əksəriyyəti başqa bir şey yox, oba-oba, oymaq-oymaq türkman dünyasının hər tərəfinə səpələnmiş oğuz mənşəli tayfaların adlarıdır. Oğuznamənin funksional mahiyyəti də elə bu yerdə üzə çıxır. Görmək çətin deyil ki, boyların adları şəxsləndirilərək boyun mənsublarının əcdadları kimi təqdim olunur və «Oğuz övladı» kimi Oğuznamənin qəhrəmanlarına çevrilir… Orta əsrlərdə hər bir türkman ailəsinin gerçək əcdadla başlayıb Oğuznamə qəhrəmanları ilə sona yetən soykötükləri olmuşdur. Ağqoyunlu sultanları Bayandır xanın, Osmanlı sultanları Kayı xanın övladları sayılırdı» (Əsgər 2013: 52-53). "Atanın adı övlad üçün ən böyük mülkdür" düşüncəsi ilə yaşayan hər hansı türk boyuna məxsus soykötükdə real əcdadla bərabər, Oğuznamə qəhrəmanlarının da əsaslı yer tutması orta əsrlərdə Oğuznamələrin bir şəcərə göstəricisi kimi nə qədər böyük əhəmiyyət daşımasından xəbər verir. Ehtiyac yaranır ki, Oğuznamələrdə, o cümlədən «Dədə Qorqud» boylarında Oğuz, Qalın Oğuz, Oğuz qövmü, Oğuz eli adları ilə

təqdim edilən toplumun dövlətçiliklə bağlı bəzi səciyyəvi cəhətlərinə diqqət yetirilsin.

«Dədə Qorqud» boylarında tanış olduğumuz toplumun ən çox nəzər-diqqətə çarpan qurumu ailədir, ailədəki ərlə arvad, ata-ana ilə oğul, qardaşla qardaş münasibətləridir. Bu münasibətlər bir-birinə sədaqət, birinin o biri yolunda fədakarlığı üzərində qurulub. Burla xatın oğlu Uruzun qıyma-qıyma doğranmağına belə razı olar, təki əri Qazan xanın namusuna ləkə gəlməsin. Valideyn oğulu (Dirsə xanın xatunu Buğacı, Salur Qazan və Burla xatun Uruzu) ölümdən xilas etdiyi kimi, oğul da valideyni (Buğac Dirsə xanı, Uruz Qazan xanı, Yegnək Uşun qocanı) ölümdən xilas edir. Bu cür qarşılıqlı məhəbbət, sədaqət və fədakarlıq qardaşlar arasında da özünü göstərir. Qardaşı Əgrəyin əsir olduğunu biləndə döyüş təcrübəsi olmayan yeniyetmə Səgrəyi düşmən üzərinə yürüşdən saxlamaq mümkün olmur. Qardaşı Qıyan Səlcuqun öldürülməsi Basatın Təpəgöz kimi müdhiş bir varlığa qarşı döyüşə atılmasında başlıca səbəblərdən birinə çevrilir. Bütün bunlar öz yerində. Amma ötəri xatırlatdığımız ər – arvad, valideyn – övlad, qardaş – qardaş münasibətləri ailədaxili münasibətlər olaraq qalırmı? Əlbəttə, yox. Məsələ burasındadır ki, misal çəkdiyimiz qarşılıqlı məhəbbət, sədaqət və fədakarlıq faktları dastanda bu və ya digər şəkildə dövlətçilik mənafeyi ilə əlaqələndirilir. Oğulun ata-ana, ata-ananın oğul, qardaşın qardaş yolunda fədakarlığı həm də dövlət, dövlətçilik yolunda fədakarlıq mahiyyəti daşıyır. Oğuz elində ailənin başçısı və sıravi üzvləri atdığı hər mühüm addıma görə dövlət qarşısında məsuliyyət daşıyır. Atılan addımın hünər nümunəsi olub-olmaması onun nədən ötrü atılması ilə üzə çıxır. El üçün, elin tərkib hissəsi olan ev üçün atılmayan addım, görülməyən iş hünər yox, üzüdönüklük, namərdlik kimi qiymətləndirilir. Bunu Oğuz igidlərinin hamısı bilir və hər kəs də çalışır ki, hadisə-

lərin fövqündə duran iki varlığa, iki böyük qüdrət sahibinə – Allaha və hökmdara xoş gəlməyən hər hansı bir əmələ yol verməsin. Qırx silahdaşın sözünə inanıb Buğacın nalayiq hərəkətlərə yol verməsinə, sərxoş olub ağsaqqal-ağbirçək kultunu pozmasına inanan Dirsə xan bu xəbərin xanlar xanı Bayındır xana çatacağından narahatdır. O dərəcədə narahatdır ki, Dirsə xan nəzir-niyazla tapdığı yeganə oğlunu ən ağır cəzaya – ölüm cəzasına məhkum etməli olur. Övladının cəmiyyətdəki davranışına görə Dirsə xan xanlar xanı qarşısında məsuliyyət daşıyırsa, bu o deməkdir ki, Oğuz elində ailə, doğrudan da, dövlətin ayrılmaz bir parçasıdır. Bunu boyda təsvir olunan mərasimlər də aydın şəkildə göstərir. Belə mərasimlərdən biri "toy" adlanan dövlət mərasimidir. Bu mərasimi xanlar xanı Bayındır xan ildə bir dəfə keçirib Oğuz bəylərini «qonaqlayır». Yenə «toy edib» atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdıran Bayındır xan ağ, qırmızı və qara rəngli üç müxtəlif otağın qurulması haqda buyruq verir: «Kimin ki, oğlı-qızı yoq, qara otağa qondurun, qara keçə altına döşən, qara qoyun yaxnısından öninə gətürün, yer isə yesün, yeməzsə, dursun, getsün… Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa qondurun» (Kitabi-Dədə Qorqud 2000: 39). Bayındır xanın bu hökmünü ədalətsizlik saymaq olarmı? Suala cavab verməyə tələsməyək. Əvvəl görək Bayındır xan bu hökmü verərkən özünə necə haqq qazandırır?! Bayındır xan deyir: «Oğlı-qızı olmayanı Tanrı-Taala qarğayıbdır, biz dəxi qarğarız, bəllü bilsün» (Kitabi-Dədə Qorqud 2000: 39). Deməli, övladsızlıq, Bayındır xanın, həmçinin Oğuz bəylərinin nəzərində bir bədbəxtlikdir. Ailədə nəslin-kökün kəsilməyi kimi başa düşülən övladsızlıq cəmiyyət və dövlət üçün də ciddi narahatlıq doğuran bir məsələdir. Ailədə oğul-uşağın doğulmaması ilə orduda döyüşəcək adamların sayı azalmış olur. Əgər belədirsə, onda biz Bayındır xanın övladsızlıqla bağlı sərt qərarına «hər ailədə

oğul-uşaq doğulsun» istəyindən irəli gələn bir qərar kimi baxmalıyıq. Məsələyə bu cür baxdıqda dastançının sadədil müdrikliyi arxasında hansı mətləbin gizləndiyini başa düşmək çətin olmur. Dastançı sadədil bir məntiqlə belə hesab edir ki, Bayındır xanın sərt qərarı Allah-təalanın Dirsə xana övlad bəxş etməsinin mühüm səbəbidir. Bayındır xanın verdiyi qərardan mütəəssir olan Dirsə xan, xatununun məsləhəti ilə acları doyurur, yalınları geydirir, borcluları borcdan qurtarır və bir ağzıdualının alqışıyla Allah-təala onlara bir əyal verir. Sərt qərar igid bir oğlanın dünyaya gəlməsi ilə nəticələnirsə, dastançının nəzərində, həmin qərara haqq qazandırmaq olar.

Mərasimlərin təsviri baxımından səciyyəvi olan «Buğac» boyunda «toy»dan sonrakı mərasimlərdən biri adqoyma mərasimidir. Buğanı öldürməklə ilk dəfə xüsusi hünər göstərmiş olan on beş yaşlı yeniyetməyə adqoyma mərasimi necə, hansı şəkildə keçirilməlidir? Bütün başqa mərasimlər kimi, bu mərasimin də keçirilmə qaydaları qabaqcadan hamıya bəllidir. Bunu dastandan gətirdiyimiz aşağıdakı parça açıq-aydın göstərir: «Oğuz bəgləri gəlüb oğlan üstünə yığnaq oldılar, təhsin dedilər. «Dədəm Qorqut gəlsün, bu oğlana ad qosun, biləsincə alub babasına varsun, babasından oğlana bəglik istəsün, taxt alı versün», – dedilər. Çağırdılar, Dədə Qorqut gəlür oldu. Oğlanı alıb babasına vardı. Dədəm Qorqut oğlanın babasına soylamış, görəlim, xanım, nə soylamış – aydır:

Hey Dirsə xan, bəglik vergil bu oğlana,
Taxt vergil, ərdəmlidir!” (Kitabi-Dədə Qorqud 2000: 40)

On beş yaşında göstərdiyi hünərə görə bəylik taxtı qazanan Buğacın bir vətəndaş kimi rəsmən qiymətləndirilməsinin ən mühüm göstəricisi isə xanlar xanı Bayındır xanın ona münasibətində ortaya çıxır. Qırx namərdin xəyanətinin qarşısını almaqla atasını ölümdən, Oğuz elini siyasi böhrandan xilas etməklə Buğac bu dəfə bəylik taxtını ölkə başçısından

almış olur. Buğac «ikinci mərhələdə ümumdövlət səviyyəsində mövqe tutur – ona xanlar xanı Bayındır xan bəylik verir. Birinci bəylikdə Dədə Qorqudun məsləhəti əsasdır – o, siyasi ağsaqqal deyil, ancaq Bayındır xan siyasi ağsaqqaldır. İkinci bəylik ictimai əhatənin, bəylik mühitinin Buğaca münasibətinin nəticəsidir» (Hacıyev 2014: 149). Əslində, Buğaca verilən birinci bəylik də «ictimai əhatə»nin münasibətini ifadə edir. Yəni Oğuz bəyləri – məhz ictimai əhatə Buğaca bəylik verilməsi fikrini Dirsə xanın özündən əvvəl irəli sürürlər. Bu o deməkdir ki, boyda təsvir olunan hadisələr bir ailə daxilində baş versə də, həmin hadisələrin arxasında ciddi ictimai-siyasi mətləblər dayanır. Öz başlanğıcını dövlət səviyyəli «toy» mərasimindən götürən hadisələr boyda dövlətdən – ailəyə, ailədən – dövlətə xətti üzrə cərəyan edir. Hadisələrin inkişaf xəttindəki bu mənzərənin təsadüfi olmadığını dastandakı başqa boylardan da görmək olur.

Əgər «Buğac» boyundakı dövlət və övlad məsələsindən çıxış etsək, həmin məsələnin başqa boylardakı mənzərəsini izləsək, onda ilk olaraq yada düşən «Bamsı Beyrək» boyu olacaq. Çünki bu boyda da dövlət başçısının «toy» mərasimi övlad məsələsinin qabarıq ortaya çıxması ilə yadda qalır. Mərasim zamanı Bayındır xanın qarşısında Qaragünə oğlu Qarabudağın, sağ yanında Qazan oğlu Uruzun, sol yanında Qazılıq qoca oğlu Yegnəyin durduğunu bildirməklə ozan diqqəti dövlətin sabahkı durumunun başlıca təminatçısı olan oğullara yönəldir və dərhal Baybörə bəyin narahatlığını, onun ah çəkdiyini, dəsmal çıxarıb hönkür-hönkür ağladığını dilə gətirir. Məlum olur ki, neçə qızı olsa da, Baybörə bəy oğul həsrətindədir. Oğul istəyini Baybörə bəy ən çox dövlətçilik işləri ilə əlaqələndirir: «Bəglər, tacım-taxtım içün ağlaram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdumda kimsə qalmaya... Mənim dəxi oğlum olsa, xan Bayındırın qarşusın alsa-dursa, qul-

luq eyləsə, mən dəxi baqsam, sevinsəm, qıvansam, güvənsəyim!» (Kitabi-Dədə Qorqud 2000: 54). İstər taxt-taca sahib çıxacaq bir oğulun olmamasından narahatlığını bildirəndə, istərsə də doğulub-böyüyəcək oğulun Bayındır xana xidmət göstərməsindən danışanda Baybörə bəy məhz dövlətçilik düşüncəsi ifadə etmiş olur. Baybörə bəyin oğul övladdan başlıca umacağı Oğuz eli uğrunda qılınc çalıb, hünər göstərməkdir.

On altı yaşa çatsa da, oğulun bir hünər göstərməməsi Oğuz bəyləri üçün böyük dərddir. Bunu Qazan xanın Uruza münasibətindən görmək çətin deyil. Baybörə bəy "toy" törənində oğulsuzluq dərdindən kövrəlib ağlayırsa, Qazan xan da özünün təşkil etdiyi "toy" törənində fərsiz oğul dərdindən kövrəlib ağlayır. Ağlamağımın səbəbini Qazan xan Uruza belə başa salır:

Bərü gəlgil, qulunum oğul!
Sağım ələ baqduğumda
qardaşım Qaragünəyi gördüm,
Baş kəsübdür, qan dökübdür,
Çöndi alubdur, ad qazanıbdır.
Solum ələ baqduğumda
dayım Aruzı gördüm,
Baş kəsübdür, qan döküpdür,
Çöldi alubdur, ad qazanıbdır.
Qarşım ələ baqduğumda səni gördüm,
On altı yaş yaşladın,
Bir gün ola, düşəm öləm, sən qalasan –
Yay çəkmədün, ox atmadın,
Baş kəsmədin, qan dökmədin,
Qanlu Oğuz içində çöldi almadın.

(Kitabi-Dədə Qorqud 2000: 66)

Demək, Oğuz bəylərinin nəzərində oğulsuzluq bir dərddirsə, fərsiz oğul atası olmaq da başqa bir dərddir. Qazan xan

bu dərddən yalnız o zaman yaxa qurtarır ki, oğlu Uruzun hünər göstərməsinin şahidi olur və yaxud bu hünərin səsini-sorağını eşidir. Uruzun göstərdiyi igidliklərdən biri atasını əsirlikdən xilas etməkdir. Yegnəyin Qazılıq qocanı, Səgrəyin Əgrəyi əsirlikdən qurtarması kimi, Uruzun da Salur Qazanı əsirlikdən qurtarması öz mahiyyətinə görə ailə çərçivəsindən çıxıb sosial-siyasi əhəmiyyət daşıyır. Qardaşın qardaş, oğulun ata yolunda fədakarlığı nəticə etibarilə Oğuz dövlətinin güclənməsi amalına yönəlmiş olur.

Oğuz elində ailələr dövlətə nə qədər bağlıdırsa, boy (tayfa) birlikləri də dövlətə bir o qədər bağlıdır. «Dədə Qorqud» dastanında dövlətin güc-qüdrətinin iki əsas boy birliyindən asılı olduğunu görürük: Üç Oq, Boz Oq. Məlumdur ki, bu boy birlikləri Oğuz xanın oğlanları ilə bağlıdır. Rəşidəddin Oğuznaməsinə əsaslanıb qeyd edə bilərik ki, Oğuz xanın üç böyük oğlu ovda qızıl bir yay, üç kiçik oğlu isə üç qızıl ox tapır. Oğuz xan qızıl yayı bölüb hər parasını böyük oğlanlarından birinə, həmçinin oxları kiçik oğlanlarına verir. Beləliklə, böyük oğlanlar Boz Oq, kiçik oğlanlar Üç Oq adlanır (Rəşidəddin 2003; 51-52). «Dədə Qorqud» dastanında Üç Oq – İç Oğuz, Boz Oq isə Daş Oğuz kimi tanınır. İç Oğuz və Daş Oğuz boy birliklərini düşmənə qarşı döyüşdə həmişə bir yerdə görürük. Oğuz elinin qorunmasında Alp Aruzun başçılıq etdiyi Daş Oğuz (Bozoq) boy birliyi Qazan xanın mənsub olduğu İç Oğuz (Üçoq) tayfa birliyindən heç də az hünər göstərmir. Daş Oğuzun başçısı Alp Aruzun adını ozan on ikinci boydakı məlum toqquşmaya qədər hər yerdə məhəbbətlə çəkir. «Çal qılıcın, ağam Qazan, yetdim» deyib köməyə gələn Oğuz igidləri sırasında ozan Alp Aruzun da adını fəxrlə çəkməyi yaddan çıxarmır. On ikinci boyda isə vəziyyət dəyişir. Bu boyda Alp Aruz boy birlikləri arasında qanlı toqquşmaya bais olan bir adam kimi qınaq hədəfinə çevrilir. Daxili

münaqişə baiskarının qınaq hədəfinə çevrilməsi də göstərir ki, boy birliklərinin hakimiyyətə qarşı silah qaldırması türk epik düşüncəsi üçün səciyyəvi olmayan bir haldır. Amma bu hal (Alp Aruzun başçılıq etdiyi tayfa birliyinin hakimiyyətə qarşı qiyam qaldırması) türk dövlətçilik düşüncəsi üçün səciyyəvi olan bir məsələ üzərinə işıq salır. Həmin məsələ aşağılarla yuxarılar arasında münasibət məsələsidir.

Oğuz xanlıq və bəylik sistemində mövqe və vəzifə tutan adamlarla bağlı iki qayda ciddi şəkildə qorunur: a) mövqe və vəzifə sahibi ictimai-siyasi mövqeyinə uyğun hərəkət etməli, öz vəzifəsini axıracan yerinə yetirməlidir; b) mövqe və vəzifə sahiblərinə, müvafiq səlahiyyətlər verilməli, gördükləri iş müqabilində onlara diqqət və qayğı göstərilməlidir. Birinci qayda pozulduqda yuxarıların, ikinci qayda pozulduqda aşağıların narazılığı başlayır. Qırx igidin Buğacı və Dirsə xanı aradan götürmək planlarının kökündə diqqətdən kənarda qalmaq qorxusu dayanır. Adaxlı köynəyi geyən Beyrək dərhal qırx yoldaşı barədə düşünməli, sıra ilə onların hər birinin nişan-toy qayğısına qalmalı olur. Yoldaşlarını əsirlikdən qurtarmayınca Beyrək öz nişanlısına qovuşmaq, murad verib, murad almaq istəmir. Diqqət və qayğının hesabınadır ki, qırx igid Beyrək yolunda candan keçməyə hazırdır. Umduqlarından lazımi diqqət görməyən igidlər çox gərgin anlar yaşayır, diqqətsizliyi ən doğma adamlarına belə bağışlamaq istəmirlər. Atası tərəfindən layiqincə qiymətləndirilmədiyini güman edən Uruz öz narazılığını kifayət qədər ağır sözlərlə bildirir:

Qalqubanı yerimdən mən duraram.
Qara gözli yigitlərimi boyuma aluram.
Qan Abqaz elinə mən gedərəm,
Altun xaça mən əlümi basaram,
Pilon geyən keşişin əlin öpərəm,
Qara gözlü kafir qızın mən aluram.

Dəxi sənin yüzünə mən gəlməzəm.
Ağladuğuna səbəb nə, degil mana!
Qara başım qurban olsun, ağam, sana!

(“Kitabi-Dədə Qorqud” 2000: 66)

Sonuncu misra göstərir ki, Uruzu atasına böyük sevgi və sədaqət hissi bağlayır. Amma əvvəlki misralar bu sevgi və sədaqətin hər hansı ciddi laqeydlik müqabilində düşmənçiliklə əvəz oluna biləcəyindən xəbər verir. Qazan xanın ətrafındakı adamların Uruza qısqanc münasibəti ata ilə oğul arasında hər hansı münaqişə ehtimalını daha da gücləndirir. Düzdür, Qazan xanla Uruz arasında heç bir münaqişə baş vermir. Amma Uruzun Qazan xana dediyi ağır sözlər düşündürübdaşındırır və həmin düşüncələr axarında Qazan xan – Bəkil toqquşmasına da nəzər salmaq ehtiyacı yaranır. Toqquşma Bəkilin ovda göstərdiyi məharətin qiymətləndirilməməsi üstündə baş verir. Qazan xandan inciyib Abxaz elinə gedəcəyini bildirən Uruz kimi, Bəkil də Qazan xandan öz incikliyini doqquz tümən Gürcüstana gedəcəyi ilə bildirir. Xoşbəxtlikdən xatununun ağıllı məsləhətindən sonra Bəkil “padşahına asi olanın işi rast gəlməz” fikri ilə razılaşır və hər şey öz yoluna düşür.

Buğacla qırx yoldaşı, Beyrəklə yaxın silahdaşları, Qazan xanla Uruz, Qazan xanla Bəkil arasındakı münasibətin xatırlatdığımız epizodları məzmun və mahiyyətcə Qazan xan – Alp Aruz münaqişəsinə oxşardır. Fərq olsa-olsa münaqişənin miqyasında, necə və nə ilə başa çatmasındadır. Qazan xan – Alp Aruz münaqişəsinin miqyası geniş, nəticəsi isə acınacaqlıdır. Miqyas ona görə genişdir ki, iki şəxs arasındakı münaqişə ölkənin və dövlətin iki böyük tirəsi arasındakı münaqişə şəkli alır. Nəticə ona görə acınacaqlıdır ki, qardaş qardaşa əl qaldırır, Beyrək kimi yenilməz qəhrəman məhz “qardaş” əli ilə öldürülür.

İç Oğuz – Daş Oğuz toqquşmasına gətirib çıxaran Qazan xan – Alp Aruz münaqişəsinin səbəbini aydınlaşdırmaq istərkən dövlət törənlərini nəzərə almamaq mümkün deyil. Ona görə ki, döyüşdə olduğu kimi, Bayındır xanın təşkil etdiyi «toy» törənlərində də İç Oğuzla Daş Oğuzu həmişə bir yerdə görürük. Qazan xanın «yağma» törəninə gəldikdə isə qeyd etməliyik ki, bu törən, adətən, Üç Oq və Boz Oq «yığnaq olanda» – bir yerə toplananda keçirilir. Amma son yağma törəninə Qazan xan Daş Oğuz bəylərini çağırmır. Yağma mərasiminə çağırılmamaq boyda Alp Aruzun qəzəblənib Qazan xana qarşı çıxmasının əsas səbəbi kimi göstərilir. Qarşıya cavab verilməsi vacib olan belə bir sual çıxır: bəylərbəyinin saygısızlığı müqabilində bəyin kəskin etiraz etməsi nə dərəcədə məqbuldur? Suala cavab vermək üçün boy sistemindəki ümumi qaydalara – pozulmaz Oğuz törəsinə üz tutmalı oluruq. Nəzərə almalı oluruq ki, «Dədə Qorqud» dastanında təsvir edilən Oğuz elində «hər bəyin özünə aid və üzərində yalnız özünün hakim olduğu bir ərazisi var. Bəylər yurdlarındakı ordalarında yaşayaraq, başında durduqları boyu idarə edirlər… Bəylərin ağaları öz qol bəyləridir. Üçoxların qol bəyi eyni zamanda bozox qolu bəyinin də rəhbəridir. O bu sifətlə bəylərbəyi ünvanını daşıyır… Bozox başbuğu Aruz məiyyətində öz qolunun bəyləri (ağası – M.K.) olduğu halda, bəylərbəyi Salur Qazanı ziyarət edir. Rəhbərlərin vəzifələrinə gəlincə, onlar tabeliklərindəkiləri vəzifəyə təyin etməli, yanlarına gələnləri, yaxud çağırılanları ənənələrə uyğun olaraq qarşılamalı, eyni səviyyədəki adamlara eyni rəftar göstərməli, onların heysiyyətinə toxunacaq, qəlblərini qıracaq heç bir davranışa yol verməməlidirlər» (Sümər 2013: 343-344). On ikinci boyaqədərki əhvalatlarda Salur Qazanla Alp Aruz arasındakı münasibətlər bəylərbəyi ilə bəy arasında törəyə uyğun münasibətlərdir. On ikinci boyda yağma törəninə çağırılmayan Alp Aruzun Salur Qazana qarşı çıxması da əslin-

də öz mayasını müəyyən qədər törədən götürür. Törəyə görə «tabelər hakimlərinə qarşı sayğılı olmaqla bərabər, hərəkətləri bir kölənin ağasına qarşı davranışından çox uzaq idi. Onlar son dərəcə izzəti-nəfs sahibi, məğrur insanlar idi. Hakimlərinin ən əhəmiyyətsiz söz və hərəkətlərinə sərt reaksiya verirdilər» (Sümər 2013: 345). Deməli, yuxarı – aşağı münasibətində yuxarıların haqsızlığına qarşı aşağıların etiraz etmə hüquqları var. Bu həmin hüquqlardır ki, Buğac – qırx silahdaş, Beyrək – qırx igid, Qazan xan – Uruz, Qazan xan – Bəkil münasibətlərində olduğu kimi, Qazan xan – Alp Aruz münasibətində də özünü göstərir. Bu nümunələrin hər birində dastanı söyləyən ozan, Oğuz törəsini əzbər bilən bir şəxs kimi, igidlərin etiraz hüququnu o nöqtəyə qədər dəstəkləyir ki, həmin etiraz daxili toqquşmaya gətirib çıxarmasın. Məhz daxili toqquşmaya gətirib çıxardığına görə Buğacın qırx silahdaşının etirazı, eləcə də haqqında xüsusi danışdığımız Alp Aruzun etirazı dastanda mənfi planda təqdim edilir.

İstər ailə, istərsə də boy və boy birliyi kontekstində yanaşdıqda xalq anlayışının türk epik ənənəsində ümumi-səciyyəvi cəhətlərini müşahidə edirik. Belə ümumi-səciyyəvi cəhətlərdən biri yuxarıda müəyyən qədər nəzərdən keçirdiyimiz xalqın bütövlüyü məsələsidir. Türk epik düşüncəsinə görə, yaşından, cinsindən, sosial mənsubiyyətindən asılı olmayaraq, toplumun bütövlüyündə hamı məsuliyyət daşıyır. Uşaqdan-böyüyə, qadından-kişiyə, çobandan-hökmdara qədər hər kəs öz imkanı, sosial və siyasi mövqeyi daxilində vahidliyin pozulmaması naminə səy göstərir, yaxud göstərməlidir.

**2.**

Dövlətçiliyin əsas amillərindən olan coğrafi məkan məsələsindən danışarkən bu anlayışın «Oğuz eli»ndən başlayıb, «Azərbaycan»a gəlib çıxan ümumi yoluna nəzərə salmaq eh-

tiyacı yaranır. Qeyd etmək lazım gəlir ki, yazılı ədəbiyyatımızda "mənim vətənim haradır?", "mənim milliyyətim nədir?", "mən hansı dildə danışıram?" kimi suallardan başlayan, H.Zərdabi, M.F.Axundzadə, M.Şahtaxtlı, C.Məmmədquluzadə, A.Səhhət, Ü.Hacıbəyov, S.Vurğun, B.Vahabzadə, M.Araz kimi ədiblərin yaradıcılığında mühüm ideya istiqamətinə çevrilən azərbaycançılıq təfəkkürü öz mayasını folklordan, folklorun mühüm bir sahəsini təşkil edən xalq ədəbiyyatından götürür. Yazılı ədəbiyyatımızda "mənim vətənim haradır?" sualına ədiblər "Şərqdir", "İrandır", "Turandır", "Qafqazdır" cavablarının əvəzinə, tədricən "Azərbaycandır" cavabını verirlərsə, bu cür təfəkkür dəyişməsi xalqın özündən gəlir, dəyişən ictimai-siyasi şəraitə uyğun olaraq vətən anlayışına xalqın yeni və fərqli münasibət bəsləməsindən doğulur. Vətən anlayışına xalqın yeni və fərqli münasibəti xalq ədəbiyyatının qismən yığcam və çevik janrlarında diqqəti daha tez cəlb edir. Belə janrlardan biri bayatılardır. Vətənin insan üçün əziz bir varlıq olması motivi ilə bayatılarda tez-tez qarşılaşırıq:

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən yaxşı.

Azərbaycan XVIII əsrin sonlarında İran və Rusiya məngənəsində qalıb öz yolunu seçmək məcburiyyəti ilə üzləşdikdə bu məşhur bayatı motivi yeni məzmun çaları qazanmağa başlayır, mücərrəd vətən anlayışını konkret coğrafi məkanlar (Şəki, Şirvan, Qarabağ) əvəz edir:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Nümunə gətirilən ikinci bayatı, rəvayətə görə, Qarabağ hakimi İbrahimxəlil xanın İrana – Fətəli şahın sarayına göndərilmiş qızı Ağabəyim ağa tərəfindən söylənilib. Həmin bayatının birinci bayatıdan başlıca məzmun fərqi ondadır ki, burada Şəki, Şirvan və Qarabağ timsalında vətəndən öz sərhədləri olan, bu sərhədlərlə İrandan ayrılan bir məmləkət kimi bəhs olunur.

Azərbaycanın öz sərhədləri olan bir tarixi-coğrafi məkan, vahid vətən kimi dərk və təsvir edilməsi xalq ədəbiyyatının lirik janrları ilə yanaşı, epik janrları, xüsusən əfsanə və rəvayətlər üçün də səciyyəvidir. Təsadüfi deyil ki, əfsanə və rəvayətlərimizin böyük bir qismi Azərbaycan ərazisindəki yaşayış yerləri (Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Naxçıvan, Gəncə, Lənkəran, Bakı, Şamaxı, Quba, Şəki...); dağ, qaya və qalalar (Şah dağı, Qoşqar, Kəpəz, Qırxqız, Yanardağ, Gəmiqaya, Əlincə, Qız qalası...); çaylar və göllər (Araz, Kür, Arpa çayı, Həkəri, Bərgüşad, Göy göl, Maral göl, Göyçə gölü...) və s. kimi konkret coğrafi məkanlarla bağlıdır. Coğrafi məkan kimi Azərbaycanın nişan verilməsi “Koroğlu” dastanı üçün də səciyyəvi sayıla bilər. “Koroğlu”da baş qəhrəman «Qafın o tərəfindənəm» deyib yerini-yurdunu Qafqazla əlaqələndirirsə, bu fakt həmin dastanda vətən anlayışı altında məhz Azərbaycanın nəzərdə tutulduğunu göstərir.

Unutmaq olmaz ki, folklorda vətən anlayışını Azərbaycan timsalında, Azərbaycanın konkret coğrafi məkanları nümunəsində araşdırmaq nə qədər əhəmiyyətlidirsə, həmin anlayışı Oğuz eli timsalında, Oğuz elinin coğrafiyası nümunəsində araşdırmaq da mifoloji-tarixi baxımdan bir o qədər əhəmiyyətlidir.

«Dədə Qorqud» dastanında «vətən» mənasında Oğuz eli iyirmi dörd sancaq bəyliyini əhatə edir. Bu, vətən torpağının genişliyinin bir göstəricisidir. Yeri gəlmişkən qeyd edək ki,

vətən torpağının gündoğandan günbatana qədər uzanan böyük bir ərazini əhatə etməsi türk epik düşüncəsi üçün səciyyəvi bir haldır. «Oğuz kağan» dastanında Oğuz kağanın «günəş – bayrağımız, göy üzü – çadırımız» deməsi bunun bariz nümunəsidir. Bu cür nümunələr türklərin «tək Tanrı, tək xalq» deyib, cahan dövləti qurmaq istəyindən və düşüncəsindən xəbər verir.

«Günəş – bayrağımız» fikri qədim türklərin vətən anlayışı ilə bağlı başqa bir inancını da yada salır. Həmin inancın başlıca mahiyyəti gündoğan tərəfin müqəddəs sayılması ilə bağlıdır: «Dünya düzəni ilə dövlət təşkilatı arasında bir bənzərlik və uyğunluq meydana gəlirdi. Günəşin doğması, batması, gecə-gündüz, yer və göy, uca dağlar, müqəddəs ormanlar dövlət təşkilatında və idarəçiliyində bir simvol mahiyyəti daşıyıb, çox mühüm rol oynayırdı. Dövlətçilik düşüncəsi özünü çox qabarıq olaraq mifologiyada da göstərirdi. Şərq tərəf günəşin doğduğu yer olduğuna görə xüsusi önəm qazanırdı. Halbuki Göytürk dövlətinin Qərb tərəfləri Şərqə nisbətən daha zəngin torpaqları əhatə edirdi. Göytürk dövlətini quran türk tayfaları Qərb bölgələrində yaşayırdı. Əsl Göytürk dövləti qərbdəki on tayfa tərəfindən qurulduğu halda, sonralar paytaxtın gündoğandakı Orhon çayının hövzəsində yerləşən Ötükenə köçürüldüyünü görürük. Böyük Hun dövlətinin, Uyğur xaqanlığının, Çingiz xan imperatorluğunun da paytaxtı məhz Ötükendə idi» (Ögel 1989: 274-275). Bir neçə türk dövlətinin paytaxt olaraq Ötükeni seçməsi bu coğrafi məkanın müqəddəsləşdirilməsini və bu müqəddəsliyin isə, hər şeydən qabaq, günəşlə, gündoğanla əlaqədar olmasını təsdiq edir.

«Dədə Qorqud» dastanında da vətən müqəddəs torpaq, ilahi mənşəli sular, dağlar və ağaclar deməkdir. «Dədə Qorqud» qəhrəmanları ən çətin məqamda göylə bərabər, yerə – torpağa da and içirlər, «göy tanıq olsun, yer tanıq olsun» deyirlər, daş-

qın sulara, uca dağlara, qollu-budaqlı ağaclara ilahi güc mənbəyi kimi baxırlar.

Türk mifoloji təsəvvüründə uca dağ yerlə göyü birləşdirən dirəkdir. Uca dağ göyə və Tanrıya daha yaxın olan bir məkandır. Qədim türklərdə vətən anlayışı göyə və Tanrıya daha yaxın olan dağ anlayışından başlayır. Bu gün dilimizdə "yurd yeri", "kiçik vətən" mənalarında işlənən "oba" sözü öz mənşəyini məhz həmin inamdan alır. Qədim türklər və monqollar bozqırlarda torpağı, dağ ətəklərində isə daşı üst-üstə qalayıb düzəltdikləri təpəcikləri "oba" adlandırırdılar. "Oba"-lar müqəddəs dağları əvəz edir və ibadət yerinə çevrilirdi (Ögel 1994: 133). B.Ögel oba haqqındakı bu qeydlərlə bir tərəfdən vətən adı altında ilk öncə dağların başa düşülməsini, digər tərəfdən də dağların səcdəgaha çevrilməsini diqqətə çatdırır. Mifoloji-etnoqrafik materiallardan məlum olur ki, türk xaqanlarının başçılıq etdiyi möhtəşəm törənlərin (xüsusən qurban törənlərinin) çoxu müqəddəs dağların başında keçirilirmiş (Jan Pol Ru 1998: 119-120). Düşmən təzyiq və təqibi ilə üzləşən Çingiz xan kimi qüdrətli bahadırlar belə ən çətin məqamlarda dağlara sığınmalı olmuşlar (Jan Pol Ru 1998: 122). Ölən xaqanların dağ başında dəfn olunması da dağın müqəddəsliyinə etiqadın mühüm göstəricilərindən biri kimi diqqətə çatdırılır (Ögel 1988: 763).

Dağ kimi ağacın da qutsallığı göylə bağlı olmasındadır. Mifoloji baxımdan ağac da dağ kimi göyün dirəyidir. Qədim türk düşüncəsinə görə, göyə dayaq olan dəmir dağlar kimi, göyə dayaq olan dəmir ağaclar da var. Yerdən boy verib qalxan bu cür mifoloji ağacların başı göy üzünə gedib çatır (Jan Pol Ru 1998: 118-119). Türk xalqlarında dünya ağacı ilə bağlı geniş yayılmış adətlərdən biri xüsusi dirəklərin yerə basdırılması və həmin dirəklərə mavi, ağ, sarı rəngli parçaların bağlanmasıdır. Dirəklər, söz yox ki, dünya ağacına, müxtəlif rəng-

lər isə göyün və yerin müqəddəs rənglərinə bir işarədir (Ögel 1994: 44-45). O da məlumdur ki, pir – ağaclar altında, həmin ağacların rəmzi olan dirəklər yanında qurbanlar kəsilib, müxtəlif mərasimlər keçirilib. Çadırlarda keçirilən şaman mərasimləri ağac dirəklərin mifoloji mahiyyətini doğru-düzgün anlamağa kömək edir. Göylər aləminə qalxmağı imitasiya etmək istəyən şaman davul çala-çala, dualar edə-edə çadırın dirəyinə yaxınlaşır və dirək boyu yuxarı dırmanmağa başlayır. Şaman dirəyin başına – çadırın bacasına çatıb dayanır. Bəzi hallarda isə bacadan da keçib çadırın üstünə çıxmalı olur (Ögel 1994: 43). Çadır göy qübbəsinin, çadır dirəyi dünya ağacının rəmzi olduğu kimi, çadır bacası da göyün qapısına bir işarədir. Şaman çadırın bacasına çatmaqla, yaxud o bacadan keçib bir az da yuxarı qalxmaqla göy üzünə, ruhlar aləminə qovuşmağı imitasiya etmiş olur. Ağacın göylə mifoloji bağlılığı hesabınadır ki, türk xaqanları dağ kimi, ağaca da magik güc mənbəyi kimi baxıblar. Ötüken yalnız dağlarına görə yox, həm də ağaclarına, ormanlarına görə qutsal vətən, qutsal xaqanlıq məkanı sayılıb.

Türk xalqları müqəddəs sayılan ağaclarda Tanrının əlamətlərini axtarıblar. Tanrı tək olduğu kimi, müqəddəs ağac da tək olmalıdır; Tanrı əbədi olduğu kimi, müqəddəs ağac da yaz-qış yarpaqlarını tökməməli, yamyaşıl olmalıdır; Tanrı var olanların hamısından böyük, ehtişamlı, əzəmətli olduğu kimi, müqəddəs ağac da ətrafdakı ağaclardan daha yüksək, daha qollu-budaqlı, daha əzəmətli olmalıdır; Tanrı doğulmayan və doğmayan olduğu kimi, müqəddəs ağac da meyvəsiz olmalıdır; Tanrı sığınılacaq varlıq olduğu kimi, müqəddəs ağac da hər yana kölgə salmalı, insanların sığınacağı bir yer olmalıdır (Ərqun 2002: 5-6).

Qədim türklərin suya tapınması dağa və ağaca tapınması ilə yan-yana, iç-içədir. Yakutlar belə hesab edirlər ki, dünya ağacının kökləri kükrəyib keçən bir sarı suya dirənir və bu su

ağaca əbədi güc verir (Jan Pol Ru 1998: 119). Tanrı taxtının yerləşdiyi süd kimi ağ bir dağın başında süd rəngində bir dəniz var (Ögel 1994: 143). Yakutların mifoloji təsəvvürünə görə, Lena və Yenisey çaylarının mənbəyi dünyanın başlanğıcı, bu çayların okeana töküldüyü yer isə dünyanın qurtaracağıdır. Bu çaylar öz mənbəyini cənnətdən alan, yəni göydən enən və bir müddət yer üzündə axdıqdan sonra okeana tökülərək yeraltı dünyaya qovuşan qutsal çaylardır (Ögel 1994: 140). Türk bahadırları dağlara sığındığı kimi, qutsal çaylara da sığınırlar. Çingiz xan ağır məğlubiyyətdən sonra Balcuna adlı çaya sığınır, bu çaydan su içib silahdaşları ilə əhd-peyman bağlayır və yeni döyüşlərə atılır (Ögel 1994: 139).

«Dədə Qorqud» dastanında dağ, ağac və su obrazlarının nə qədər mühüm yer tutduğunu boyların sonundakı ozan alqışları açıq-aydın göstərir:

Yerlü qara dağların yıqılmasun!
Kölgəlicə qaba ağacın kəsilməsün!
Qamın aqan görkli suyun qurımasun!
(Kitabi-Dədə Qorqud 2000: 45)

Dağ, ağac və su obrazları dastanda qəhrəmanları yüksək mərtəbədə təqdim etmək üçün ozana tez-tez gərək olur:

Qarşu yatan qara dağım yüksəgi oğul!
Qanlu suyum daşqunı oğul!
(Kitabi-Dədə Qorqud 2000: 69, 71)

Oğuz igidinin uca dağa, daşqın suya tay tutulması kimi, onun dirəyə bənzədilməsi, yəni onun haqqında «dünlügü altun ban evimin qəbzəsi oğul» deyilməsi də, heç şübhəsiz, qəhrəmanı böyütmə, onu uca mərtəbəyə qaldırma əlamətidir. «Dədə Qorqud»da ara-sıra rast gəldiyimiz «Türkistanın dirəyi» və bu gün danışıqda tez-tez işlətdiyimiz «filankəs evimin dirəyidir» bənzətmələri, çox güman ki, kök etibarilə «göyün dirəyi» mifoloji təsəvvüründən törəmədir. Dünya ağacının göy qüb-

bəsinə dayaq olması inancı, ehtimal ki, insanın evə dayaq olması anlayışını doğurur, yəni mifoloji düşüncədən metaforik düşüncəyə keçməyin səciyyəvi bir nümunəsi ortaya çıxır.

Əlbəttə, mövzumuza uyğun olaraq bizi burda maraqlandıran vətən anlayışı ilə bağlı dağ, ağac və su obrazlarının mifoloji tərəfləri, həmin obrazların hansı səviyyədə müqəddəsləşdirilməsi, ideallaşdırılmasıdır. Şübhə yoxdur ki, «qarşu yatan qara dağım» deməklə ozan mifoloji dünyagörüşə uyğun olaraq dağı canlı varlıq, hami ruh kimi təsəvvür edir. «Su Haq didarın görmüşdür» deməklə (Kitabi-Dədə Qorqud 2000: 47) Qazan xan suyun müqəddəsliyinə, onun sakral aləmlə bağlılığına işarə edir. Ağacın müqəddəs varlıq kimi təqdim edilməsinə gəlincə, dastandakı bu parçanı xatırlatmaq lazım gəlir:

Məkkə ilə Mədinənin qapusı ağac!
Musa Kəlimün əsası ağac!
… Şahi-mərdan Əlinin Düldülinin əyəri ağac!
Zülfiqarın qınıyla qəbzəsi ağac!
Şah Həsənlə Hüseynün beşigi ağac!
… Başın ala baqar olsam, başsız ağac!
Dibin ala baqar olsam, dibsüz ağac!

(Kitabi-Dədə Qorqud 2000: 50)

Uruzun dilindən verilən bu nümunədə ağac müqəddəs məkanlar və müqəddəs şəxsiyyətlərlə əlaqələndirilməkdən başqa, həm də «başsız» və «dibsiz» adlandırılır və bununla müqəddəsliyin mifoloji kökünə işarə edilir. Jan Pol Runun fikrinə şərik olub biz də belə hesab edirik ki, «başsız» və «dibsiz» adlandırılmaqla dastanda ağacın kökünün və başının bu dünya ilə (profan aləmlə) bağlı olmaması, yəni ağacın adi ağac yox, dünya ağacı olması nəzərdə tutulur (Jan Pol Ru 1998: 118).

Dağın, ağacın və suyun müqəddəs sayılması dastanda Oğuz eli adlı vətəni müqəddəsləşdirməyin, ideallaşdırmağın mühüm bir vasitəsi kimi yadda qalır.

Dövlətçilik təfəkkürü, o cümlədən vətən anlayışı "Koroğlu" dastanında "Kitabi-Dədə Qorqud" dastanında gördüyümüzdən müəyyən qədər fərqli şəkildə ortaya çıxır. Başlıca fərq Koroğlu və silahdaşlarının mövcud İran şahlığını və Osmanlı sultanlığını qəbul etməyib azadlıq uğrunda mübarizəyə qalxması, dövlət içində dövlət yaratmasıdır. Məsələ burasındadır ki, Azərbaycan XVI əsrin sonları, XVII əsrin əvvəllərində İran və Osmanlı dövlətlərinin savaş meydanına çevrilir, mövcud siyasi vəziyyətə etiraz əlaməti olaraq başlayan Cəlalilər hərəkatı "Koroğlu" dastanının yaranmasına təkan verir. Amma "Koroğlu" "Kitabi-Dədə Qorqud"la eyni epik ənənənin məhsulu olduğuna görə bu dastanların ideya-bədii sistemində, eləcə də dövlətçilik məsələsinə münasibətində üst-üstə düşən məqamlar istənilən qədərdir. Belə məqamlardan biri Oğuz eli və Çənlibel paralelidir. "Dədə Qorqud"dakı Oğuz eli kimi, "Koroğlu"da da Çənlibel həm bir vətən, həm də bir dövlət rəmzidir. Çənlibeldəki davranış normaları Oğuz elindəki davranış normalarına xeyli dərəcədə oxşardır. Ən başlıca oxşarlıq xalq mənafeyi naminə döyüşə hazır olmaq, döyüşdə misilsiz şücaət göstərib qalib gəlmək, bu çətin və şərəfli yolda ölümdən zərrə qədər qorxmamaqdır.

**3.**

Dövlətçiliyin mühüm şərtlərindən biri olan hakimiyyət məsələsinə gəlincə, ilk növbədə, onu qeyd etmək lazımdır ki, dövlətçilik tarixi olan başqa xalqlar kimi, türk xalqları da hökmdarın taxta Tanrının iradəsilə çıxmasına inam bəsləmişlər. Qədim türk təsəvvürünə görə, Tanrı işıq vasitəsilə göydən insana qut, yəni ilahi güc-qüvvət göndərir və bu qut həmin insanın hökmdar olmasında başlıca amilə çevrilir. Hökmdarlığı ilahi mənşəyə bağlamağın ifadəsidir ki, nağıllarda padşah olmaq başına dövlət quşu qonmaqla mümkün olur. Dövlət

quşu nağıllarda məhz İlahidən gələn qismətin işarəsi kimi ortaya çıxır. Hökmdar seçilən zaman qədim türklərin həyata keçirdikləri bir çox mərasimlər də hökmdarın göylə, Tanrı iradəsilə bağlılığından xəbər verir: «Çin mənbələrinin məlumatlarına görə, xan elan edilməsi təntənəli mərasimlə müşayiət olunurdu: xidmətçilər onu keçə üzərində əyləşdirir və doqquz dəfə iştirakçıların alqış sədaları altında günəş istiqamətində dövrə vururdular. Sonra onu ata mindirir, boğazına ipək parça dolayır və düyünü bir anlığa boşaldaraq neçə il xan olmaq istədiyini soruşurdular» (Qumilyov 1993: 66). Bu mərasimdə, hər şeydən qabaq, boyuna ip salıb sıxmaq məsələsi üzərində dayansaq, qeyd etməliyik ki, həmin məsələ ölüb-dirilmə inamı ilə bağlıdır. Hökmdar seçilən adamın iplə boğulub, bayılmaq həddinə çatdırılıb, sonra «bizə neçə il xaqanlıq edəcəksən?» deyə sorğu-sual edilməsi məhz ölüb təzədən dirilmə ritualının bir göstəricisidir. Məlumdur ki, bu ritualda başlıca məqsəd hökmdar seçilən adama yenidən dirilən və yaxud dirçələn adam kimi xüsusi güc-qüvvət verməkdir. O ki, qaldı hökmdarı keçə və ya xalı üzərində oturdub göyə qaldırmaq məsələsinə, bu adətin mifoloji mənasını doğru-dürüst başa düşmək üçün nəzərə almaq lazımdır ki, həmin adət şaman mərasimləri ilə yaxından səsləşir. Səsləşmənin əsas məqamı ondan ibarətdir ki, göyə yüksəlmə ritualından qabaq şamanlar da keçə üstündə oturdulur və göyə qaldırılırdı. Həm şaman rituallarında, həm də hökmdar seçmə mərasimlərində adamın keçə və ya xalı üzərində yuxarı qaldırılması qədim türklərin göyə və günəşə tapınmalarından irəli gəlirdi. Hökmdar seçilmə mərasimlərində günəşə tapınmanı təsdiq edən başqa səciyyəvi adətlə də qarşılaşırıq: hökmdar seçilən adam günəşə tərəf dörd dəfə ox atır (Ögel 1989: 299). Bütün bunlar taxta çıxmanın Tanrı iradəsi ilə bağlı olması inamını əks etdirən faktlardır.

Hökmdarın Tanrı ilə bağlılığı «Dədə Qorqud» dastanında kifayət qədər qabarıq nəzərə çarpır. "Dədə Qorqud"da söz, epos üslubuna uyğun olaraq, hər şeydən qabaq, yuxarıya, yuxarını ifadə etməyə doğru yönəlib. Dastanda bədii söz yerdən qabaq göyü, bəndədən qabaq Allahı, rəiyyətdən qabaq hökmdarı təqdim etməyə hesablanıb. Göyü, Allahı, hökmdarı yerdən, bəndə və rəiyyətdən qabaq təqdim etmək, heç şübhəsiz, miqdar və həcm mənasında başa düşülməməlidir. Belə hesab edilməməlidir ki, dastanda (yəni "Dədə Qorqud"da) ozan başqa predmetlərlə müqayisədə göydən, Allahdan, hökmdardan daha çox danışır, əhvalatları bu surətlər üstündə daha çox qurur. Bəli, məsələ miqdar və həcmdə yox, mahiyyətdədir. Mahiyyət isə bundan ibarətdir ki, dastanda göy, Allah və hökmdar hadisələrin fəal iştirakçısı olmasa da, müqəddəs varlıqlar kimi dastan boyu ciddi şəkildə nəzərə alınır. Oğuz igidləri göydən, Allahdan və hökmdardan güc alırlar və bu gücalmanı ozan dastanın əvvəlindən axırına qədər hiss etdirir. Oğuz igidləri ən çətin məqamlarda "göy tanıq olsun" deyə göyə and içirlər, "Allahım kömək oldu" deyib bütün uğur və qələbələrini ilahi qüdrətə bağlayırlar; "padşahlar Allahın kölgəsidir" deyib hökmdara itaət etməyi cəmiyyətin pozulmaz qanunlarından biri sayırlar. Göyü, Allahı və hökmdarı bir mühüm əlamət birləşdirir: ucalıq, yüksəklik.

Dastanın "Buğac", "Bamsı Beyrək", "Yegnək", "Əmran" boyları, Bayındır xan haqqındakı ənənəvi məlumat – formulla söhbətə başlamaq baxımından diqqəti cəlb edir. Ozan həmin boylarda söhbətə Bayındır xanın hündür çadırlar qurdurmasından, neçə-neçə yerdə ipək xalçalar döşədib, böyük şadlıq məclisi keçirməsindən başlayır. Boyun əvvəlindəcə ozanın hökmdardan söz açmağını əslində göydən, Göy Tanrıdan söz açmaq kimi də başa düşmək olar. Bu cür semantik məzmunu hökmdar göyün və Tanrının təmsilçisi olmaqla qa-

zanır. Amma adlarını çəkdiyimiz boyların əvvəlindəki məlumat – formulda ozan dolayı ifadə tərzi ilə kifayətlənmir, hökmdardan bəhs etməklə yanaşı, ayrıca göy üzünü də xatırlatmalı olur: "Bir gün Qamğan oğlu xan Bayındır yerindən durmışdı. Şami günlügi yer yüzinə dikdirmişdi. Ala sayvanı gög yüzinə aşanmışdı. Bin yerdə ipək xalıçası döşənmişdi" (Kitabi-Dədə Qorqud 2000: 39). Çadırın, gərdəyin qədim türk düşüncəsində göy qübbəsinin rəmzi olması bəlli məsələdir. Dastanda çadırların və gərdəklərin qurulmasından danışmaq, övladsıza övlad diləməyə, nişanı-toyu xeyirliklə başa çatdırmağa, Oğuz elini xəta-bəladan qorumağa… hesablanmış məclislərin çadırlarda keçirilməsindən söhbət açmaq məhz həmin məsələdən, yəni çadır – göy mifoloji bağlılığından xəbər verir. Bu, öz yerində. Amma bizim burada diqqət yetirmək istədiyimiz məqam çadırdan danışarkən "sayvan" sözündən sonra ozanın "göy yüzi" kəlməsini istisnasız olaraq işlətməsidir. Belə hesab edirik ki, dörd boyun dördündə də Bayındır xan çadırlarının göy üzünə dirənməsindən bəhs edilməsinə təsadüfi hal kimi baxmaq olmaz. Bizcə, həmin faktı hökmdarın göylə bağlı ucalıq və qüdrətinin bir işarəsi saymaq lazımdır. Maraqlıdır ki, dörd boyun əvvəlində qarşılaşdığımız məlumat – formula "Salur Qazanın evinin yağmalanması" və "Uruz bəyin dustaq olması" boylarında da rast gəlirik. Bu boyların da əvvəlində Salur Qazanın eynilə Bayındır xan kimi uca evlər tikdirməsindən, çadırlar qurdurmasından, neçə yerdə ipək xalı döşətməsindən söhbət açılır. Çadırın göy üzünə dirənməsi – Bayındır xana şamil edilən bir mənzərə Salur Qazana yalnız bir boyda – "Uruz bəyin dustaq olması" boyunda şamil edilir, yəni "ala sayvanı gög yüzinə aşanmışdı" cümləsinin Salur Qazanla bağlı işlənməsini həmin boyda görürük. Heç şübhəsiz, bəylər bəyi Salur Qazan da hakimiyyətin bir nümayəndəsidir və göyü, Tanrını təmsil etmək müəyyən qədər ona da

aiddir. Buna baxmayaraq, göydən gələn sakral ucalıq və qüdrəti ozan daha çox vahid şəxsin (Bayındır xanın) simasında görür və bu dünyagörüşdə o, yəqin ki, tək Tanrı – tək hökmdar inamına əsaslanır. Bayındır xanın dastanda hadisələrin fəal iştirakçısı olmaması isə tək Tanrı – tək hökmdar inamı ilə ziddiyyət yaratmır, əksinə, həmin inamın özünəməxsus ifadə formasına çevrilir. Özünəməxsusluq ondadır ki, Bayındır xanı baş vermiş hadisələrin fövqündə saxlamaqla ozan göy üzü və Tanrı kimi Bayındır xanın da mübhəm bir ucalıq daşıyıcısı olması təsəvvürünü gücləndirmək istəyir.

Hökmdarın Tanrı ilə bağlılığı məsələsində türk dünyagörüşü bir çox xalqların dünyagörüşündən müəyyən qədər fərqlənir. Başlıca fərq hökmdarın Tanrı sayılıb-sayılmamasındadır. Məsələn, qədim misirlilər və bizanslılar hökmdarı məhz Tanrı sayırdılar. Türklərdə isə hökmdarın Tanrı sayılması inamı ilə qarşılaşmaq çətindir. «Dədə Qorqud» eposundakı «padşahlar Allahın kölgəsidir» deyimi də göstərir ki, qədim türklər hökmdarla Tanrını eyniləşdirmək təsəvvüründən uzaqdırlar. Bunu hakimiyyət simvolu da aydın göstərir. Qədim şumerlər hökmdarı əlində əsa (skipetr) olan çoban, toplumu isə sürü kimi təsəvvür edirlər. Bununla da əsa şumerlərdə, daha sonra isə dünyanın bir çox başqa xalqlarında hakimiyyət rəmzi sayılır. Başqa xalqlardan fərqli olaraq, türklərdə hakimiyyət rəmzi əsa yox, yaydır (Ağasıoğlu 2014: 7, 9). Göy qurşağının işarəsi olan yayın (hökmdarın) başlıca vəzifəsi tabeliyində olan oxların (yəni xalq nümayəndələrinin) firavanlıq və əmin-amanlıq içində yaşamasını təmin etmək, «Dədə Qorqud» dastanında deyildiyi kmi, «acları doyurmaq, çılpaqları donatmaqdır». «Dədə Qorqud» dastanında Oğuz bəyləri ad-sanı yalnız qılıncları ilə yox, həm də süfrələri ilə qazanırlar. Cəmiyyətdə ad-san qazanmağın və hakimiyyətdə mövqe tutmağın qılıncdan və süfrədən keçən yolu hökmdarın öz oğluna da aiddir.

Başqaları kimi hökmdarın doğmaca oğlu da ad-sanı hünər göstərmək və xalqa arxa-dayaq olmaqla qazana bilir.

İti ağlı və kəskin qılıncı ilə hökmdarı daim qüdrətli görmək tarix boyu insanların başlıca istək və arzularından olub. Firavanlıq və əmin-amanlıq şəraitində yaşaya bilməyin xeyli dərəcədə hökmdar qüdrətindən asılı olduğuna inanan xalqlar bu qüdrətin daha da artması üçün müxtəlif mərasimlər keçiriblər. Belə mərasimlərdən ən geniş yayılanı ölüb-dirilmə (inisiasiya) mərasimidir. Mərasimin mahiyyətinin nədən ibarət olması dünyaca məlum və məşhur bir məsələdir: hökmdar müvəqqəti ölüm mərhələsindən keçməli və bundan sonra yeni güc-qüvvətlə ortaya çıxmalıdır. Hökmdarın müvəqqəti ölüm mərhələsindən keçməsinin müxtəlif formaları var. Bu formalardan biri qul və ya təlxək hesabına ölümdən qurtarmaqdır. Qul sayəsində hökmdarın ölümdən qurtarıb yeni güc-qüvvət qazanmasına aid səciyyəvi mifoloji-tarixi faktla Rəşidəddin Oğuznaməsində qarşılaşırıq: Arslan xanın Suvar adlı bir qulu var. Çox hünərli və istiqanlı olan Suvar Arslan xana çox yaxındır. Elə yaxındır ki, bəylərin və vəzirlərin yanında xanın qulağına söz pıçıldaya bilir. Hacıblər və inaklar Suvara paxıllıq edirlər və onu aradan götürmək istəyirlər. Xana deyirlər ki, Suvar səni öldürüb taxt-tacına sahib olmaq fikrindədir. Arslan xan Suvarı iş dalınca başqa bir yerə göndərir və özünü ölülüyə vurub tabuta uzanır. Hacıblər Arslan xanı ölmüş bilib, onun var-dövlətinə sahib çıxırlar. Suvar səfərdən qayıdır. Böyük yas məclisi qurur, göz yaşı töküb özünü öldürəcəyini bildirir. Onun ağlamağını eşidən Arslan xan tabutu sındırıb ayağa qalxır. Arslan xanın bu məqamdakı hiss-həyəcanı Oğuznamədə belə ifadə olunur: "Qara Arslan Suvarı bərk-bərk qucaqladı və sevinclə öpdü. Onun könlü çox sevincli və məmnun idi: "Uca Tanrı mənə yenidən can bağışladı, həyat verdi" (Rəşidəddin 2003: 78-80). Bu əhvalatda qədim inisasiya mərasiminin

əlamətləri gizlənib. Başlıca əlamət hökmdarın qul vasitəsilə yenidən dirilib-dirçəlməsi, yeni güc-qüvvət qazanmasıdır.

Hökmdarın qul sayəsində dirilib-dirçəlməsinə inam hökmdar və təlxək münasibətlərində daha qabarıq şəkildə üzə çıxır. Məlumdur ki, təlxəyin üzdə görünən əsas işi hökmdarı əyləndirməkdən, qanının qara vaxtlarında hökmdarın eynini açmaqdan ibarətdir. Bu komik fiqurun alt qatda gizlənən magik funksiyası isə hökmdar cildinə girib bədxah ruhların diqqətini özünə cəlb etmək və hökmdara gələcək bəlanı bu yolla sovuşdurmaqdır. Sarayda bu cür xüsusi yeri olan təlxəklər xalq arasında da məşhur olublar. Məsələn, Lotu Qulunun adı Qarabağda bu gün də dillər əzbəridir. Lotu Qulu Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın təlxəyi olub. Əvvəllər meşədən odun yığıb satmaqla məşğul olan Qulunun hansı cəhəti Pənahəli xanın diqqətini cəlb edib ki, xan onu özünə təlxək götürüb? Təkcə baməzə olmasımı? Atmacalar deyib, əhvalatlar danışıb adamları güldürməsimi? Əlbəttə, yox. Pənahəli xana gərək olan Qulunun adamları yamsılamaq qabiliyyəti idi. Bəli, adamları yamsılamaq ustası olan Lotu Qulu Pənahəli xanı da təqlid etməli və yeri gələndə onun məzəli əvəzedicisi – dublyoru olmalı idi. Bunu Lotu Qulu haqqındakı rəvayətlər də sübut edir. Həmin rəvayətlərin biri belədir: “Lotu Qulu xanın bütün danışıq və hərəkətlərini elə təqlid edirdi ki, görən deyərdi, bəs elə Pənah xanın özüdür ki, var. Bir saray adamı Quluya yaxınlaşıb Ərdəbildən gəlmiş varlı bir tacirin Pənah xana qiymətli hədiyyələr bağışlamaq istədiyini söyləyir. Tərs kimi xan da o gün şəhərdə olmur. O adam Qulunu dilə tutub yola gətirməyə çalışır ki, hədiyyələr əldən çıxmasın deyə Qulu bir neçə saatlığa xanı əvəz etsin… Qulu xanın rolunu məharətlə oynayıb Pənah xan olmasına ərdəbilli taciri tam inandırır. Tacir gətirdiyi qiymətli Xorasan kürkünü gümüş toqqa və xəncərlə birlikdə ona bağışlayır… Xan şəhərə

qayıdandan sonra Qulu əhvalatı ona olduğu kimi söyləyib... üzr istəyir. Pənah xan... əhvalını dəyişmədən: – O axmaq ki, təlxəklə xana fərq qoya bilməyib, onun malı da, pulu da haladır, – deyir" (Məmmədov 1992: 152). Bu rəvayət bizə iki cəhətdən maraqlı görsənir: rəvayət bir yandan təlxəyin yüksək təqlidetmə qabiliyyətindən xəbər verir, o biri yandan aydın olur ki, təlxək hökmdarı nə qədər böyük ustalıqla yamsılasa da, ağlı üstündə olan hər bir kəs onu (təlxəyi) tanıya bilir. Çünki təlxək, bildiyimiz kimi, hökmdarın gülməli "nüxsə"-sidir. "Ciddi" ilə qeyri-ciddini, vahiməli ilə məzəlini bir-birindən ayırmaq isə elə bir hünər tələb etmir.

Pənahəli xan və Lotu Qulu nümunəsində hökmdarı magik yolla şərdən-yamandan qorumağın mühüm şərti hökmdarın cildinə girib onu yamsılamaq və bədxah qüvvələrin nəzərini hökmdardan məhz bu yolla yayındırmaqdırsa, onda Arslan xan və Suvar nümunəsində də həmin inamın izlərini axtarmaq lazım gəlir. Ona görə ki, hökmdarı magik hifzetmə funksiyası daşıyan hökmdar və təlxək, hökmdar və qul münasibətlərinin istənilən səciyyəvi nümunəsi eyni mifoloji düşüncə sisteminin təzahürü kimi ortaya çıxır. Vahid düşüncə sisteminin təzahürü olduğundan Suvar və Lotu Qulu obrazlarında bir-biri ilə səsləşən cəhətlər müşahidə edilir. Belə cəhətlərdən biri hökmdarın ikinci nüsxəsinə, «dvoynik»inə çevrilməkdir. Bəli, Lotu Qulu Pənahəli xanın komik məzmunlu, Suvar isə Arslan xanın «ciddi» məzmunlu ikinci nüsxəsi, «dvoynik»idir. Lotu Quluda bütün başqa təlxəklərdə olduğu kimi, hökmdarın hazırcavablığı, iti ağlı, müdrikliyi öz ifadəsini tapırsa, Suvarda hökmdarın cəsarətli, hünərvər və kəskin qılınc sahibi olması öz ifadəsini tapır. Öz rəğbət, məhəbbət və sədaqətini hökmdara Lotu Qulu gülüşlə, Suvar isə göz yaşı ilə bildirir. Həm Qulu, həm də Suvar hökmdar yolunda ölməyə

hazırdırlar. Hökmdarı (Pənahəli xan və Arslan xanı) dirildib-dirçəldən, ona yeni güc-qüvvət verən də məhz budur.

Qulun və ya təlxəyin (hökmdarın ikinci nüsxəsinin) istər hərfi, istərsə də məcazi mənada ölümünün hökmdara yeni güc-qüvvət verməsini qədim zamanlardan bəri dünya xalqlarının keçirdiyi yalançı hökmdar mərasimi də göstərir. Bu mərasim zamanı hökmdar müvəqqəti olaraq taxt-tacdan uzaqlaşıb hakimiyyəti başqa birinə verir və mərasim başa çatdıqdan sonra yenidən öz səlahiyyətlərini yerinə yetirir. Məsələn, qədim Babilistanda ildə bir dəfə beşgünlük bayram keçirilirdi. Həmin bayram günlərində ağalar və nökərlər öz yerlərini dəyişirdilər: nökərlər buyruq verir, ağalar verilən buyruğu yerinə yetirirdilər. Ölümə məhkum olunmuş bir caniyə hökmdarın libası geydirilir və o, hökmdar taxtında əyləşdirilirdi. Ona ixtiyar verilirdi ki, hökmdarın yediklərindən yesin, içdiklərindən içsin, hökmdarın cariyələri ilə eyş-işrətdə olsun. Bayram başa çatan kimi beşgünlük hökmdar taxtdan salınır, təmtəraqlı libası əynindən çıxarılır və öldürülürdü. Beşgünlük hökmdarın əsl hökmdara məxsus səlahiyyətlər daşıması, hətta qısqanc taxt-tac sahibinin cariyələri ilə cinsi əlaqədə olması yalnız bir məqsədə xidmət edirdi: müvəqqəti hökmdar əsl hökmdarın əvəzinə öldürülməli idi (Frezer 1980: 317). C.C.Frezer hökmdarın bir neçə günlüyə yalançı hökmdarla əvəz olunması məsələsindən danışarkən 1591-ci ildə baş vermiş Şah Abbas – Yusif Sərrac əhvalatına da toxunur. Bu, həmin əhvalatdır ki, M.F.Axundov onun əsasında "Aldanmış kəvakib" povestini yazıb. Təbii ki, böyük maarifçi, Şah Abbas – Yusif Sərrac əhvalatına cəhalət, nadanlıq və rəzaləti tənqid etmək məqsədilə üz tutub. Azərbaycan ədəbiyyatşünasları bunu nəzərə almaqla bərabər, tarixi faktın mifoloji köklərinə də toxunmağı vacib biliblər. A.Əmrahoğlu (Əmrahoğlu 1987: 26-30) və M.Seyidov (Seyidov 1990: 39) kimi ədəbiyyatşünaslar “Aldanmış

kəvakib"dəki Şah Abbas – Yusif Sərrac əhvalatında yalançı hökmdar vasitəsilə həqiqi hökmdarı ölümdən qorumaq inamının ifadəsini görüblər. Bu inam "Xan bəzəmə" adlı xalq tamaşasında öz izlərini indi də saxlamaqdadır. Naxçıvan bölgəsindən qeydə alınmış bir variantda həmin tamaşa belə təsvir edilir: "Yeddiləvin günü sübh tezdən hamı böyük meydana yığışır. Şənlik başlanır. Cəngi çalınır, zorxana qurulur… Pəhlivanlar güləşib qurtarandan sonra zorxana yığışdırılır… Meydana Kosa çıxır… Bundan ("Kosa-kosa" tamaşasından – M.K.) sonra ağsaqqallardan biri meydana yığılanlara üz tutub deyir: – Camaat, bu gün bir xan seçməliyik. Xan gərək qaşqabaqlı, sözü ötkəm adam olsun. Ona bir vəzir, bir vəkil, üç fərraş, bir də bir cəllad seçib verin. Adamlar yer-yerdən deyirlər: – Xanımız olsun başmaqçı Mərdan... Xanı təmtəraqla meydanın yuxarı başında qurulmuş taxtda oturdurlar. Vəzir-vəkil də gəlib taxtın sağ-solunda əyləşir. Yaraqlı-yasaqlı fərraşlar xanın hüzurunda əmrə müntəzir dayanırlar. Cəllad qırmızı libas geyib, əlində balta meydanın aşağı başında gözləyir. Xan gözlənilməz əmrlər verir, adamları da onun buyruqlarını canbaşla yerinə yetirirlər. Kosayla təlxək də tez-tez meydana girib xanı güldürməyə çalışır. Min bir hoqqadan sonra xanı güldürüb taxtdan yendirirlər, aparıb suya basırlar" (Naxçıvan folkloru 1994: 18-21). Bu xalq oyunu müxtəlif ölkələrdə qeydə alınan yalançı hökmdar mərasimi ilə səsləşir. Yalançı hökmdar mərasimi kimi, "Xan bəzəmə" də ilin xüsusi günündə keçirilir. Mətndə "yeddiləvin günü" adlandırılan həmin gün bayram günüdür, köhnə ilin tamam olub, yeni ilin başlandığı bir vaxtdır. Yazıya alınmış başqa variantları da göstərir ki, "Xan bəzəmə"də yalançı xanın gülməsinə yasaq qoyulması səciyyəvi cəhətdir. Yuxarıda misal çəkdiyimiz mətndə xan seçiləcək adamın "qaşqabaqlı, sözü ötkəm" olmasına xüsusi işarə edilməsi məhz yasağa münasib əlamətlərin sada-

lanması deməkdir. Xanın gülməməsi ciddi olmağın, özünü əsl hökm sahibi kimi apara bilməyin işarəsidir. Çal-çağırın, məzəli oyunların, gülməcələrin, atmacaların müqabilində yalançı xanın böyük bir ciddiyyətlə öz vəzifəsini icra etməsi Babil mərasimində beşgünlük hökmdarın həqiqi hökmdar səlahiyyətlərini mənimsəməsini yada salır. Şah Abbas – Yusif Sərrac əhvalatından danışarkən M.Seyidovun diqqətini cəlb edən Babil mərasimi də (Seyidov 1990: 39) "Xan bəzəmə" kimi başdan-başa xalq gülüşü ilə müşayiət olunur və bu mərasim camaatın küçə və meydanlara çıxması, şadlanıb-əylənməsi şəraitində keçirilir. Həm Babil mərasimində, həm də “Xan bəzəmə”də min cür oyundan, hoqqadan çıxan camaata qoşulub gülməmək sadəcə olaraq mümkün deyil. Beşgünlük Babil hökmdarı güldü, gülmədi – onsuz da ölümə məhkumdur. “Xan bəzəmə”nin baş qəhrəmanı isə gülmədikdə onu cəzalandırmağa ehtiyac qalmır. Görünür, ona görə ehtiyac qalmır ki, hədsiz gülməli əhvalatlara soyuqqanlı yanaşmaqla xan öz qüdrətini nümayiş etdirmiş olur. Uydurma xanın bu əzmkarlığı isə, inama görə, həqiqi xanın gücündən xəbər verir. Mərasim keçirməkdə də insanlar elə bu niyyəti güdmürlərmi? Mərasim iştirakçılarının məqsədi xanı güclü görmək deyilmi? Əgər belədirsə, onda gülməkdən özünü saxlayıb yasağı pozmayan xanı cəzalandırmağın, doğrudan da, mənası yoxdur (Kazımoğlu 2011: 71-75).

Müvəqqəti hökmdar ayinlərinin qədim variantlarında müvəqqəti hökmdar rolunun ölümə layiq adama həvalə edilməsi və rol bitəndən sonra onun öldürülməsi göstərir ki, ayində əsas mətləb yalançı hökmdarda yox, gerçək hökmdardadır. Gerçək hökmdar kosmosu, yalançı hökmdar isə xaosu təmsil edir. Yalançı hökmdarın müvəqqəti hakimiyyəti məhz xaosa məxsus əlamətlərlə ortaya çıxır. Yəni mövcud nizam pozulur, üz astara, astar üzə çevrilir, hər yerdə və hər şeydə bir tər-

sinəlik hökm sürür. Ən sıravi bir adamın başına tac qoyulub taxta çıxardılması xaos mənzərəsi – o dünya mənzərəsi yaratmaq addımıdır. "Xan bəzəmə" oyununun ən incə məqamlarını və qaranlıq nöqtələrini məhz həmin addım fonunda doğru-dürüst anlamaq olur. Yalançı xanın gülməyinə yasaq qoyulması belə məqam və nöqtələrdən biridir. Bu yasaq, artıq qeyd etdiyimiz kimi, ilk növbədə, oyunun üzdə olan qaydası ilə bağlıdır. Qaydaya görə, yalançı hökmdarın gülməməsi özünü əsl hökm sahibi kimi apara bilməyin işarəsidir. Amma məsələyə O dünya ölçüləri ilə yanaşdıqda vəziyyət dəyişir. Məlum olur ki, gülməmək ölülərə – sakral aləm varlıqlarına məxsus əlamətlərdən biridir. Məzəli hərəkətlər müqabilində gülməmək qətiyyəti nümayiş etdirməklə yalançı hökmdar həm real hökmdar roluna girdiyini, həm də xaos dünyasına məxsus qeyri-adi varlıqları imitasiya etdiyini göstərmiş olur. Bu cür imitasiya addımlarına elliklə hamının şərik olması məsələnin nə qədər dərin köklərə bağlı olmasını, ictimai şüurda nə qədər dərin iz buraxmasını bizlərə təkrar-təkrar xatırladır. Xaosdan keçməyin zəruri addım kimi şüurda dərin iz buraxmasının səbəbi isə aydındır: xaosdan keçməklə kosmosu yenidən diriltmək, onu əvvəlkindən də güclü-qüvvətli və yenilməz görmək. Kosmosun yer üzündə ən birinci təmsilçisi hökmdardırsa, onda bu dirilmək və yeni güc-qüvvət qazanmaq prosesi də, ilk növbədə, ondan (hökmdardan) başlanmalıdır. Bundan ötrü əsas vasitə xaosun bir nömrəli təmsilçisinin – yalançı hökmdarın taxtdan salınması və sıradan çıxarılmasıdır (Kazımoğlu 2015: 36-37). Xaosdan kosmosa keçid prosesində çox qabarıq şəkildə hiss olunan gülüşün isə həyatverici amil kimi başlıca funksiyası hökmdarın, bütövlükdə cəmiyyətin yenidən doğulmasına əlverişli zəmin yaratmaqdan ibarətdir.

## 4.

Dövlətçiliyin əsas şərtlərindən olan ordu məsələsində də qədim türklər başqa xalqlardan müəyyən qədər fərqlənirlər. Başlıca fərq muzdlu ordu məsələsində daha qabarıq şəkildə ortaya çıxır. Türk ordusu başqa ordulardan fərqli olaraq, muzdlu əsgərlər yox, könüllülər əsasında yaradılırdı. Cəmiyyət bütövlükdə, yəni qadınlı-kişili, qocalı-cavanlı bir ordu şəklində qurulurdu və bu orduda hər kəs hər an döyüşə hazır olmalı idi (Kafesoğlu 1991: 269). Qədim türklərdə bütövlükdə xalq ordu, ordu da xalq demək idi. Ölkənin əli silah tutan hər vətəndaşı bir əsgər və döyüşçü sayılırdı. Hakimiyyəti təmsil edənlərin hər birinin orduda öz yeri, öz rütbəsi vardı. Döyüş ruhu vətəndaşa kiçik yaşlarında aşılanırdı. Qədim türklər azyaşlı uşağı qoça mindirib quşlara və siçovullara ox atdırırdılar. «Yakutların əsgəri təlim haqqında bir rəvayəti qədim türklərin necə sərt bir əsgəri təlim keçdiklərini göstərməkdədir. Təlim üç yaşından başlayırdı. Öncə uşağın üstünə qızarmış kömür atırdılar ki, onda zərbədən yayınmaq bacarığı yaransın. Bundan sonra silahla rəftar təlimi keçirilirdi. Dəyənəklə döyüb, uşağa zərbədən yayınma bacarığı aşılayırdılar. Gənclər on səkkiz yaşında hərbi hazırlığı bitirməli idilər.

Təlim görmüş gənci son sınaqdan da keçirirdilər. O, evdə oturanda mahir bir əsgər siyirmə-qılınc gözlənilmədən onun üzərinə hücum edib haradan gəldi vururdu. Sonra gəncin paltarını soyundurub, onun bədənini yoxlayırdılar. Bədəndə yara görünsəydi, təlim bitməmiş hesab olunurdu.

Sınaqdan keçənə bacadan bir tikə ət atırdılar. Gənc əti bıçağın ucu ilə tutmalı idi. Bundan sonra onun üzünə eninə tikiş qoyurdular. Tikiş onun ən yaxşı əsgər olmasının işarəsi idi» (Əsgər, Qıpçaq 1996: 11-12). Çin qaynaqlarından məlum olur ki, göytürklər savaşda ölməyi şərəf saymışlar, xəstələnib yorğan-döşəkdə ölməkdən isə utanmışlar. Bu həmin dünya-

görüşdür ki, XIV əsrdə yaşamış şair-hökmdar Qazi Bürhanəddinin şeirlərində də öz əksini tapır. Həm Qazi Bürhanəddin kimi hökmdarların, həm də sıravi vətəndaşların hər an döyüşə hazır olduğu cəmiyyətdə muzdlu əsgər toplamağa, əlbəttə, ehtiyac qalmır.

Muzdlu əsgər və könüllü əsgər məsələsinə «Dədə Qorqud» dastanındakı «Yegnək» boyunda ibrətamiz bir misal var. Yegnəyin dayısı Əmən yeddi dəfə hücum etsə də, Düzmürd qalasını ala və Qazılıq qocanı əsirlikdən xilas edə bilmir. Dayısının uğursuzluğunun səbəbini Yegnək belə əsaslandırır:

Qalqubanı yerindən durduğında,
Ala gözlü bəg yigitləri yanına salmadın.
Adı bəllü bəglərlə sən yortmadın.
Beş aqçalu əlüfəçilər yoldaş etdin,
Anunçun ol qalayı sən alımadun!

(Kitabi-Dədə Qorqud 2000: 88)

Deməli, Yegnək, dayısı Əmənin Düzmürd qalasını tuta bilməməsinin səbəbini yürüşə "bəy igidlər" – könüllülərlə yox, "beş axçalı"larla – muzdlu döyüşçülərlə başlamasında görür.

Qədim türk təsəvvüründə ordu obrazı qurd obrazı ilə sıx surətdə bağlıdır. Bu cür sıx bağlılığın başlıca səbəbi ordu kimi qurda (daha doğrusu boz qurda) bir xilaskar qüvvə kimi baxılmasındadır. Boz qurdu qədim türklərin xilaskar əcdad obrazında təsəvvür etməsi məlum məsələdir və həmin məsələ türklərin mənşəyi ilə bağlı əfsanələrdə əsas motivlərdən biri kimi diqqəti cəlb edir: «Qonşular bu nəsli (hunlar nəslini – M.K.) qırmışdılar, yalnız… bir oğlan xilas ola bilmişdi. Düşmənlər onun əllərini və ayaqlarını kəsmiş, bədənini isə bataqlığa atmışdılar. Burada dişi qurd həmin oğlandan hamilə olmuşdu. Oğlanı sonra öldürmüşdülər, dişi qurd isə Altaya qaçıb orada on oğul doğmuşdu» (Qumilyov 1993: 32). Bu əfsanədə qurdun xilaskarlığı nəsil-kökün kəsilməsinin qarşısını

almasında, hunların bir qövm kimi yaşamasına rəvac verməsindədir. Boz qurda aid edilən xilaskarlıq funksiyası, heç şübhəsiz, mif və əfsanələrdən başlanğıcını götürüb folklorun başqa janrlarında, o cümlədən dastanlarda qabarıq ifadəsini tapır. Təsadüfi deyil ki, «Oğuz kağan» dastanında Oğuz kağanın yürüş edən ordusunun qabağında gök börü – boz qurd gedir. Ordu və qurd bağlılığının bir təzahürüdür ki, türklər ordunun özünü də bir qurd kimi təsəvvür edirlər. Bu təsəvvürə görə, ordu düşmən üzərinə qəflətən atılıb, bir qurd çəldliyi ilə düşməni məhv etməlidir, tufan kimi gəlib, şimşək kimi yoxa çıxmalıdır. Ordu və qurd bağlılığı «qurd oyunu» adlı döyüş taktikasında özünü qabarıq şəkildə göstərir. Bu taktikaya görə öndəki suvari dəstəsi qəfildən geri çəkilib düşməni öz ardınca aparmalı, pusquda dayanan sağ və sol süvari dəstələri düşməni mühasirəyə salıb məhv etməlidir. Ə.Əsgər və M.Qıpçağın araşdırmalarına əsaslanıb deyə bilərik ki, «qurd oyunu» adlı döyüş taktikası «Koroğlu» dastanında öz əksini tapıb. «Qaçmaq da igidlikdəndir» deyən Koroğlu məhz qaçmaqla hiylə işlətmək və geri qayıdıb ac qurda dönmək taktikasını nəzərdə tutur. Belə olmasaydı, Koroğlu bu sözləri deməzdi:

Mərd meydandan qaçmaz, qaçsa aldadı.
(Koroğlu 1982: 90)

Boz qurd və ordu arasındakı mifoloji bağlılıqdan danışarkən tədqiqatçılar boz qurdun savaşda hami ruh funksiyası daşımasını da xüsusi olaraq qeyd edirlər: «1097-ci ildə Qıpçaq xanı Bonyak Vyaqre yaxınlığındakı savaşdan öncə gecəyarısı durub düşərgədən aralanır, qurd kimi ulayaraq ibadət edir. Beləliklə, xan qurddan qələbə üçün yardım və uğur diləyir» (Pletnyova 1990: 102). Bu kimi faktlara, həmçinin boz qurdun Oğuz kağan yürüşlərinə bələdçilik etməsinə əsaslanan Ə.Əsgər və M.Qıpçağın fikrincə, boz qurdda Savaş Tanrısına xas əlamətlər var. Döyüşqabağı müəyyən ibadətlərin həyata keçiril-

məsi, söz yox ki, Tanrı rəğbətini qazanmaq və nəticədə döyüşü udmaq məqsədi daşıyır. Boz qurda hami ruh kimi baxmaq və ondan savaşqabağı yardım istəmək, təbii ki, tarixin sonrakı mərhələsində İslam dünyagörüşü ilə qaynayıb-qarışır. «Dədə Qorqud» dastanında «qurd üzü mübarəkdir» deyimi ilə qurdun sakral varlıq olmasına işarə edilsə də, bu dastanda Oğuz igidlərinin döyüşqabağı qurddan kömək diləməklərinin şahidi olmuruq. Bunun əvəzində müşahidə etdiyimiz səciyyəvi məqam savaş ərəfəsində Oğuz igidlərinin namaz qılıb ibadət etmələridir: «Sayılmaqla Oğuz bəgləri tükənsə olmaz. Həp yetdilər. Arı sudan abdəst aldılar. Ağ alınların yerə qodılar. İki rükət namaz qıldılar. Adı görklü Məhəmmədə salavat gətürdilər» (Kitabi-Dədə Qorqud 2000: 52). Döyüşdən qabaq təmiz sudan abdəst (dəstəmaz) almaq, iki rükət namaz qılıb Məhəmməd peyğəmbərin gül camalına salavat çevirmək, əlbəttə ki, ilk növbədə Allahdan kömək istəməkdir. Bunun belə olduğunu döyüşdən sonrakı səhnələr də açıq-aydın göstərir: Oğuz igidləri qazandıqları hər hansı qələbəni məhz Allahın adı ilə bağlayırlar, ölümdən qurtulmağı Allahın köməyi ilə əlaqələndirirlər, «Allahım kömək oldu, qurtuldum» deyirlər. Göründüyü kimi, savaşqabağı ibadət mərasiminin məzmununda dəyişmə baş verir, boz qurd himayəçiliyinin yerini Allah və peyğəmbər himayəçiliyi tutur. Bu cür tarixi dəyişikliyə baxmayaraq, əslində mahiyyət öz yerində qalmaqda davam edir. Öz yerində qalmaqda davam edən və əsaslı bir dəyişikliyə uğramayan mahiyyət ondan ibarətdir ki, istər islamaqədərki, istərsə də islamdansonrakı dövrdə türk ordusunun fəaliyyəti inanclar və rituallar sistemi ilə qırılmaz surətdə bağlıdır.

Türk xalqlarında ordu anlayışının inanclar və rituallar sistemi ilə sıx bağlılığı bayrağa və savaş musiqisinə münasibətdə daha qabarıq şəkildə ortaya çıxır. Türk düşüncə tərzinə görə, «bayraq bir ruhdur… Ovda və savaşda ondan yardım di-

ləyirlər. Uğur ondadır… yaxşı qismətin açarı da odur… Hər şeyin tilsimi ondadır. Bayraq qoruyucu ruhdur!» (Ögel 1991: VII). Uğurun, qismətin açarı olan bayrağa güc-qüvvət vermək inancı türk xalqlarında bayrağa qurban mərasimini, o cümlədən bayrağı qana boyama mərasimini meydana çıxarıb. Bu cür mərasimlərin mahiyyətini düzgün başa düşmək üçün yakut türklərindən qeydə alınmış bir mərasimi yada salmaq yerinə düşər: «Əsgərlər üzük şəklində düzüldülər. Ortada dirəyə bağlanmış at var idi. Şaman dua oxudu. Onun işarəsi ilə əsgərlər hər tərəfdən ata hücum edib silahlarını dəstəyinə qədər atın bədəninə soxdular. At təlaş içində səksənib o dəqiqə öldü. Bundan sonra Günney öz əsgərlərini doqquz bölüyə ayırdı və əmr etdi ki, hamısı birdən Ürekenin doqquz yurduna hücum etsinlər» (Ksenefontov 1977: 145). Şahid şəxsin dilindən qeydə alınan bu mətndə mərasimin başlıca funksiyasının savaşqabağı hami ruhu razı salmaqdan ibarət olduğunu görmək çətin deyil. Görmək çətin deyil ki, atın qəfildən öldürülüb al qana boyanması qana susayan savaş hamisinin «könlünü almaq» üçündür.

Savaş musiqisinin magik funksiyası bayrağın magik funksiyasına oxşardır. Bu oxşarlığın başlıca mahiyyətini doğru-düzgün başa düşmək üçün boz qurd obrazına ötəri də olsa, yenidən qayıtmaq lazım gəlir. Ehtiyac yaranır ki, göytürklərin bayrağında qızıl başlı boz qurd şəklinin həkk edildiyini yada salaq; boz qurd obrazının mifoloji baxımdan göylərlə, günəşlə bağlılığına diqqət yetirək; boz qurdun savaş hamisi olmasının kökünü məhz bu nöqtədə – onun göy aləmi və günəşlə bağlılığında axtaraq. Məsələyə bu cür yanaşdıqda, yəni boz qurd işarəli bayraqdan savaş musiqisinə və həmin musiqinin ifa olunduğu davul, kös, nağara, boru, gərənay, zurna və s. kimi musiqi alətlərinə keçid aldıqda oxşarlığın ana xəttini üzə çıxarmaq mümkün olur. Aydın olur ki, mifoloji təsəvvürə

görə, şaman davulunu insanlara İldırım tanrıçası bəxş edib; davul səsini türklər göy gurultusuna bənzədiblər. Davulun İldırım tanrıçası ilə, qaval səsinin göy gurultusu ilə əlaqələndirilməsi özlüyündə savaş musiqisinin, boz qurd şəkilli bayraq kimi, səma ilə bağlı olması qənaətini doğurur. Amma tədqiqatçılar savaş musiqisi sırasında insan nərəsini də qeyd etməyi vacib sayırlar: «Ən əski zamanlardan türklər savaşa sürənlə (nərə ilə) başlayırdılar… Sürən İldırım tanrıçasının şərəfinə çəkilmişdir. Biz artıq boz qurdun İldırım tanrıçasının rəmzi olduğunu və buradan da Savaş tanrıçası olduğunu bilirik. Deməli, həm musiqi alətləri, həm də əsgər səsləri bir mərasim funksiyasını yerinə yetirirdi, onlar (qədim türklər – M.K.) Tanrı oğlunun, ata-babanın, ilk xaqanın, xilaskarın, Savaş tanrıçasının, bir sözlə, mübarək boz qurdun tükürpədici səsini düşmən qarşısında nümayiş etdirir, dünyanı onun böyüklüyü, möhtəşəmliyi qarşısında baş əyməyə çağırır, onun mərhəmətinə sığınmağa səsləyirdilər» (Əsgər, Qıpçaq 1996: 96-97). Həm bayraq, həm də savaş musiqisinin göylər aləmi ilə əlaqələndirilməsi, türk ordusunun «Tanrı ordusu» adlandırılması faktları dövlətçilikdəki sosial qurum, coğrafi məkan və hakimiyyət məsələləri ilə bağlı qənaətlərimizi tezisvari olaraq yenidən xatırlatmaq və yazını bu şəkildə yekunlaşdırmaq ehtiyacı yaradır.

## Nəticə

Dövlətçiliyin əsas amilləri olan xalq, vətən, hakimiyyət və ordu folklorda ideallaşdırılmış şəkildə təqdim edilir. Folklorda xalq əcdad kultunu özündə ehtiva edən bir anlayışdır. Dədə Qorqud kimi bir övliyanın yaşadığı Oğuz eli igidlərin, uğrunda başdan keçməyə hazır olduqları bir cəmiyyətdir. Xalqın şanlı keçmişinin təmsilçiləri olan əcdadlar çox

böyük ehtiramla yad edilir, Oğuznamə silsiləsinə daxil olan dastanlar məhz ulu əcdadların şəninə qoşulub ifa olunur.

Türk epik düşüncəsinə görə, vətən torpağı gündoğandan günbatana qədər geniş bir ərazini əhatə edir. «Oğuz kağan» dastanında Oğuz xanın «günəş – bayrağımız, göy üzü – çadırımız» deməsi bu epik düşüncənin ifadəsi kimi ortaya çıxır. «Günəş – bayrağımız, göy üzü – çadırımız» ifadəsi qədim türklərin səma ilə, günəşlə bağlı inanclar sistemindən xəbər verir. Qədim türk təsəvvürünə görə, vətən torpağı gündoğandan güc alır və göylər aləmi ilə bağlı olur. Bu təsəvvürün təzahürüdür ki, «Dədə Qorqud» dastanında vətən müqəddəs torpaq, ilahi mənşəli sular, dağlar və ağaclar deməkdir. «Dədə Qorqud» qəhrəmanları göylə bərabər, yerə – torpağa da and içirlər, «göy tanıq olsun, yer tanıq olsun» deyirlər, daşqın sulara, uca dağlara, qollu-budaqlı ağaclara ilahi güc mənbəyi kimi baxırlar.

Başqa xalqlar kimi, türk xalqları da hökmdarın taxta Tanrının iradəsi ilə çıxmasına inanmışlar. Qədim türk təsəvvürünə görə, Tanrı işıq vasitəsilə göydən insana qut, yəni ilahi güc-qüvvət göndərir və bu qut həmin insanın hökmdar olmasında başlıca amilə çevrilir. Hökmdarlığı ilahi mənşəyə bağlamağın ifadəsidir ki, nağıllarda padşah olmaq başına dövlət quşu (göylərlə bağlı ilahi qismət) qonmaqla mümkün olur. Hökmdar seçmə mərasimlərində hökmdar seçiləcək adamın keçə və ya xalı üzərində göyə qaldırılması, günəşin hərəkəti istiqamətində doqquz dəfə döndərilərək irəli aparılması, onun (hökmdar seçiləcək adamın) göyə – günəşə tərəf dörd dəfə ox atması hakimiyyəti ilahi mənşə ilə əlaqələndirmək faktlarıdır. Bütün bu kimi faktlara baxmayaraq, türk xalqları hökmdarı Tanrı ilə eyniləşdirmək təsəvvüründən uzaq olmuşlar. Təsadüfi deyil ki, «Dədə Qorqud» eposunda «padşahlar Allahın kölgəsidir» deyimi ilə qarşılaşırıq. İlahi mənşə ilə əlaqələndirilən, amma Tanrı ilə eyniləşdirilməyən türk hökmdarlarının

hakimiyyət rəmzi əsa yox, yaydır. Göy qurşağının işarəsi olan yayın (hökmdarın) başlıca vəzifəsi tabeliyində olan oxların (yəni xalq nümayəndələrinin) firavanlıq və əmin-amanlıq içində yaşamasını təmin etməkdir.

Həm sosial qurum, həm coğrafi məkan, həm də hakimiyyət bu və ya digər dərəcədə ideallaşdırılıb göylər aləmi ilə əlaqələndirilirsə, ordunun «Tanrı ordusu» adlandırılması, bayrağın günəş rəmzi boz qurdla, savaş musiqisinin isə ildırım hamisi ilə əlaqələndirilməsi tamamilə təbiidir. Bu cür əlaqələndirmə və ideallaşdırmalar folklorda dövlətçiliyin ideal anlayış kimi təsəvvür və təqdim edildiyini göstərir.

## Qaynaqlar


Ağasıoğlu 2014 – Ağasıoğlu F. Azərbaycan türklərinin islamaqədər tarixi. Doqquz bitik, III bitik. Bakı: Ağrıdağ, 2014.

Əsgər, Qıpçaq 1996 – Əsgər Ə., Qıpçaq M. Türk savaş sənəti. Bakı: Yazıçı, 1996.

Əmrahoğlu 1987 – Əmrahoğlu A. «Aldanmış Kəvakib»də mifik dünyagörüş / «Azərbaycan» jurnalı, 1987, №12, s.26-30

Əsgər 2013 – Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 2013.

Ərqun 2002 – Ərqun M. Türk ağac kultunun «Dədə Qorqud» oğuznamələrindəki izləri / «Dədə Qorqud» jurnalı, 2002, №1, s.3-18

Frezer 1980 – Фрезер Д.Д. Золотая ветвь. Москва: Политическая Литература, 1980.

Hacıyev 2014 – Hacıyev T. «Dədə Qorqud kitabı»: tariximizin ilk yazılı dərsliyi. Bakı: Elm və təhsil, 2014.

Jan Pol Ru 1998 – Ru J.P. Türklerin ve moğolların eski dini. Türkçeye çeviren A.Kazancıgil. İstanbul: İşaret Yayınları, 1998.

Kafesoğlu 1991 –Kafesoğlu İ. Türk mili kültürü. İstanbul: Boğaziçi Yayınları, 1991.

Kazımoğlu 2011 – Kazımoğlu M. Folklorda obrazın ikiləşməsi. Bakı: Elm, 2011.

Kazımoğlu 2015 – Kazımoğlu M. Sənət qayğıları. Bakı: Elm və təhsil, 2015.

Kitabi-Dədə Qorqud 2000 – Kitabi-Dədə Qorqud ensiklopediyası. 2 cilddə, I cild. Bakı: Yeni Nəşrlər Evi, 2000.

Koroğlu. Nəşrə hazırlayan M.H.Təhmasib. Bakı: Gənclik, 1982.

Ksenefontov 1977 – Ксенефонтов Т.В. Эллеяда. Москва: 1977

Qumilyov 1993 – Qumilyov L. Qədim türklər. Tərcümə edənlər V.Quliyev, V.Həbiboğlu. Bakı: Gənclik, 1993.

Məmmədov 1992 – Məmmədov B. Qarabağın baməzə adamları. Bakı: Yazıçı, 1992.

Naxçıvan folkloru 1994 – Azərbaycan folkloru antologiyası. I kitab, Naxçıvan folkloru. Tərtib edənlər T.Fərzəliyev, M.Qasımlı. Bakı: Sabah, 1994.

Ögel 1988 – Ögel B. Türk kültürünün gelişme çağları. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1988.

Ögel 1989 – Ögel B. Türk mitolojisi. I cilt. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989.

Ögel 1991 – Ögel B. Turk kültür tarihine giriş. VI cilt. Ankara: Kültür Bakanlığı, 1991.

Ögel 1994 – Ögel B. Türk mitolojisi. II cilt. İstanbul: Milli Eytim Basımevi, 1994.

Pletnyova 1990 – Плетнева С.А. Половцы. Москва: 1990.

Rəşidəddin 2003 – Rəşidəddin F. Oğuznamə. Türkiyə türkcəsindən tərcümə edən İ.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003.

Seyidov 1990 – Seyidov M. Yaz bayramı. Bakı: Gənclik, 1990.

Sümər 2013 – Sümər F. Oğuzlar. Türkmənlər. Tarixləri, boy təşkilatı, dastanları. Tərcümə edən R.Əsgər. Bakı: BXQ, 2013.

# MİLLİ MƏDƏNİYYƏT MÜCADİLƏSİNİN İBRƏT DƏRSLƏRİ

## 1.

Azərbaycan folklorşünaslığının tarixi inkişafı timsalında milli mədəniyyət mücadiləsinin XIX əsrin sonu, XX əsrin birinci yarısına aid mənzərəsinə ümumi nəzər salıb bəzi vacib məqamlara toxunmaq istədiyim bu yazıda söhbətə Mirzə Fətəli Axundzadədən başlamaq lazım gəlir. Əvvəla, ona görə ki, bizim folklor elmimizin yaranmasında və formalaşmasında Mirzə Fətəli Axundzadənin də müəyyən xidməti var. Bu xidmət, ilk növbədə, xalq ədəbiyyat nümunələrinin imkan daxilində toplanmasından ibarətdir. «Ayrana doyran demədim mən Dədə Qorqud» misrası ilə başlayan və Dədə Qorqudun bir mifoloji obraz kimi XIX əsrdə Azərbaycan türkləri arasında yaşamasından xəbər verən məşhur şeir örnəyini tərtib etdiyi yeni əlifbada bizlərə məhz Mirzə Fətəli Axundzadə çatdırıb. Mirzə Fətəli Axundzadə bayatılarımızın, eləcə də el şairlərinə və aşıqlara məxsus bir çox şeirlərin toplanması ilə məşğul olub. Görkəmli maarifçinin topladığı bayatılardan bir qisminin Xaçatur Abovyan tərəfindən erməni dilinə tərcümə olunub «Ermənistan yaraları» romanına daxil edilməsi folklorşünaslıq tariximizdə məlum faktlardan biridir. O da məlumdur ki, Adolf Berje «Məcmueyi-əşari-şüərayi-Azərbaycan» adlı kitabın tərtibində Mirzə Fətəli Axundzadənin xalqdan topladığı şifahi ədəbiyyat nümunələrindən istifadə edib. Kitabın ön sözündə Adolf Berje yazır: «Müsəlmanlar arasında şairlərin xüsusi həyat və yaşayışına aid lazımi sənədlər olmadığından, mən burada onların tərcümeyi-halından bəhs edə bilməyəcəyəm. Bu barədə verəcəyim məlumat qismən rəfiqim Mirzə Fətəlidən və qismən onun vasitəsilə Qarabağdan toplanmış şifahi məlumatdan ibarət olacaqdır». Bu sözlərdən ay-

dın olur ki, Adolf Berje nəinki el şairlərinin şeirlərindən bir qismini Mirzə Fətəli Axundzadədən alıb, həm də bununla yanaşı, el şairlərinin həyatı ilə bağlı məlumatın əldə edilməsində Mirzə Fətəli Axundzadənin yardımından istifadə edib. Bu kimi faktlara əsaslanıb Mirzə Fətəli Axundzadənin, xalq ədəbiyyatı nümunələrinin toplanması ilə bağlı fəaliyyətindən danışırıqsa, bu o deməkdir ki, biz bu görkəmli maarifçimizin folklorşünaslıq sahəsində müəyyən xidmət göstərdiyini təsdiq etmiş oluruq. Çünki folklorşünaslığın bir elm olaraq meydana gəlib formalaşması əslində folklor örnəklərinin elmi prinsiplərə uyğun şəkildə toplanmasından başlayır. Mirzə Fətəli Axundzadənin isə, Şərq mənbələri ilə yanaşı, Qərb filologiyasına da dərindən bələd olan bir mütəfəkkir kimi, xalq ədəbiyyatı örnəklərini mövcud elmi tələblərə cavab verəcək bir səviyyədə, necə var o şəkildə toplaması heç bir şübhə doğurmur.

XX əsrin birinci yarısında aparılan milli mədəniyyət mücadiləsinin bəzi səciyyəvi məqamlarından bəhs edərkən bu yazıda Mirzə Fətəli Axundzadəni ehtiramla yada salmağın vacibliyi bir tərəfdən onun folklora münasibətilə bağlıdırsa, digər tərəfdən onun ictimai-ədəbi fikir tariximizə gətirdiyi milli ruhla, milli mənlik duyğusu ilə bağlıdır. Bəli, Mirzə Fətəli Axundzadə irsi başqa cəhətləri ilə bir sırada (bəlkə onlardan da əvvəl!) milli özünüdərk düşüncəsini əks etdirmək baxımından əhəmiyyətli və qiymətlidir. Sələflərindən fərqli olaraq, sənət evinin pəncərələrini Avropa ab-havasına taybatay açan, Firidun bəy Köçərlinin sözləri ilə desək, «əvvəlinci reformator olub müsəlman məişətinin köhnə və çürümüş əsaslarını pozan» Mirzə Fətəli Axundzadənin öz xələflərinə qoyduğu ən böyük miras ədəbiyyatı milli varlığın ifadəsinə yönəltmək yolu və ənənəsidir. Avropa ab-havasından bəhrələnmək heç də bu ənənənin (milli varlığı ortaya qoymaq ənə-

nəsinin) bədii ifadəsinə mane olmur, əksinə, bu ənənənin formalaşmasında əsaslı rol oynayır. Mirzə Fətəli Axundzadənin Avropa maarifçilik təliminə üz tutması onun ədəbi irsinin məzmun və formasında dərin iz buraxmış olur. Məlumdur ki, maarifçilik bir mədəni-fəlsəfi hərəkat olaraq, xalqın taleyüklü məsələlərini ön plana çıxarır, milli mənlik şüurunun formalaşmasını və milli özünüdərki həlli vacib olan problemlər sırasına daxil edir. Xalqın tarixi taleyi ilə bağlı məsələlər sırasında Mirzə Fətəli Axundzadəni bir maarifçi kimi, ən çox narahat edən məsələlərdən biri köləlik psixologiyasıdır. Əsrlərdən bəri xalqın zehnində, şüurunda kök salmış bu psixologiyanın səbəbini Mirzə Fətəli Axundzadə fikir azadlığını boğan istibdad üsul-idarəsində və müstəbidə yardımçı olan ruhanilərin fəaliyyətində axtarır. Təbriz «nayibül-vüzarəsi» Mirzə Yusif xana məktubunda Mirzə Fətəli Axundzadə dövlət və din münasibətlərinə toxunaraq deyir: «Sizə elə gəlir ki, şəriət hökmlərinin köməyi ilə Fransa konstitusyonunu Şərqdə həyata keçirmək olar; yəni zülmü aradan qaldırmaq olar. Yox, qətiyyən belə deyil! Bu çətindir və mümkün olan şey deyil. Əməvilər və Abbasilər əsri şəriətə daha yaxın idi. Zülmün və despotizmin binasını islamiyyətdə əvvəlcə bunlar qoydular. Elə isə şəriət hökmləri nə üçün onları zülm və despotizmdən çəkindirmədi və o vaxtdan ta bu günə qədər islam milləti arasında şəriət hökmləri var olduğu halda, zülm davam edir?!» Nümunədə «islam milləti» ifadəsi «islam dininə mənsub xalq» mənasındadır və həmin ifadəni işlətməklə Mirzə Fətəli Axundzadə sivil dövlət quruluşundan, insanlara fikir azadlığı verə biləcək siyasi sistemdən uzaq düşməkdə şəriət hökmlərinin də mənfi rol oynamasına diqqəti yönəltmək istəyir. Əsrlər boyu davam edib gələn və xalqı zəlil bir şəklə gətirib çıxaran əsarət tilsimindən qurtarmağın yolunu isə Mirzə Fətəli Axundzadə maariflənməkdə, elm sahibi olub qəflət yuxusundan oyan-

maqda və bir toplum olaraq yekdillik nümayiş etdirib zülmə «yox» deməkdə görür. Mirzə Fətəli Axundzadənin nəzərində nicat yolu ayrı-ayrı adamların, tək-tək fərdlərin ağıl, fərasət və rəşadətində yox, bütövlükdə xalqın tədrici oyanışında, tərpənişindədir. Üz tutduğu, dəyişəcəyinə ümid bəslədiyi əsas ünvan xalq olduğuna görə Mirzə Fətəli Axundzadənin qələmə aldığı ayrı-ayrı obrazlar bu və ya digər dərəcədə həmin ünvana bağlanır. Mirzə Fətəli dramaturgiyasında və nəsrində ayrı-ayrı fərdlərin taleyi bütövlükdə xalqın taleyini qələmə almağın vasitəsinə çevrilir. Yeri gəlmişkən qeyd edək ki, fərd və xalq münasibətinin Mirzə Fətəli yaradıcılığında gördüyümüz modeli kök etibarilə folklora da gedib çıxır. Mirzə Fətəli komediyalarının nikbin ruhu öz başlanğıcını, ilk növbədə, xalq ədəbiyyatından götürür. Tacirə, mollaya, qazıya, padşaha, başqa sözlə, xəsisə, tamahkara, əzazilə gülən lətifə qəhrəmanı güldüyü adamlarla birlikdə eyni oyunun iştirakçısı, eyni orqanizmin üzvi tərkib hissəsidir. Lətifə qəhrəmanı özünü başqalarından ayırmır, ətrafdakılara güldüyü kimi, özünə də gülür. Qəhrəmanla ətraf aləm arasında düşmən münasibəti yox, oyundaş, tərəfi-müqabil münasibəti olduğuna görə lətifənin heç bir detal və epizodunda kin-küdurət, qəzəb və nifrət notu, «öldürücü» gülüş elementi axtarmaq mümkün olmur. Lətifələrdə, həmçinin qaravəlli, komik nağıl və xalq dramlarında xalq yumorunun özünəməxsus fəlsəfəsi Mirzə Fətəli «Təmsilat»ının da canına və ruhuna hopur. Bu fəlsəfənin başlıca mahiyyəti ondadır ki, hər hansı komediyada qələmə alınan adamların (yaxşılı-pisli) hamısı bir yerdə eyni bir mühitin təmsilçisidir. O adamların heç biri – nə Hacı Nuru, nə Şahbaz bəy, nə Teymur ağa, nə də Səkinə xanım mühitə qarşı çıxan, mühitin fövqünə qalxan obraz səciyyəsi daşımır. Adıçəkilən obrazlar içərisində mübarizliyi ilə seçilən Səkinə xanımın öz haqqını axıracan tələb edib fırıldaqçı mürafiə vəkillərinin iç

üzünü açması heç də mühitə qarşı çıxmaq məzmun və mahiyyəti kəsb etmir. «Təmsilat»da mürafiə vəkilləri tipdə mənfi obrazlara gəlincə, qeyd etməliyik ki, Molla İbrahimxəlil, Dərviş Məstəli şah, Lənkəran xanı, onun vəziri və bu kimi başqa obrazların kəskin satira hədəfinə çevrilməsini iddia etmək özünü o qədər də doğrultmur. Aydınlıq naminə Molla İbrahimxəlillə «Ölülər»dəki Şeyx Nəsrullahı müqayisə etmək olar. Tamahkar nuxuluları aldadıb varlanmaq fikrinə düşən Molla İbrahimxəlildən fərqli olaraq, Hacı Həsən ağaların mövhumat və xurafat içində olmağından istifadə edib insanların heysiyyətinə toxunan Şeyx Nəsrullah artıq yumor yox, kəskin satira hədəfidir. Bu cür kəskin satira hədəflərini biz «Təmsilat»dan daha çox «Aldanmış kəvakib»də və «Kəmalüddövlə məktubları»nda müşahidə edirik. Dram əsərlərindən nəsr əsərlərinə keçid prosesində Mirzə Fətəli üslubunda dəyişən nədir? Dəyişən budur ki, tənqid hədəfi kimi götürülən obrazların təsvirində rənglər kifayət dərəcədə tündləşdirilir, hər iki nəsr əsərində xalqın köləliyinə bais olan istibdad nümayəndələrindən nikbin ruhda, yumoristik ahəngdə danışmaq artıq mümkün olmur. İstibdadın və ona hər cür şərait yaradan şəriət hökmlərinin əsl mahiyyətini çəkinmədən, axıracan açıb göstərməyə çalışan müəllif bu məqamda xalq gülüşünə məxsus poetika ilə məhdudlaşa bilmir, fərd və xalq münasibətini fərqli bir kontekstdə təqdim edir. «Sərgüzəşti-vəziri-xani-Lənkəran» komediyasında Teymur ağanın xandan və vəzirdən mütləq mənada ayrı bir mənəvi dünya adamı olmasından danışmaq çətin olduğu halda (başqa cür desək, Teymur ağa xanın qardaşı oğlu, vəzirin isə gələcək bacanağı kimi, yaramaz iqtidarla qohumluq əlaqəsində olduğu halda), «Aldanmış kəvakib» povestində Yusif Sərrac və Şah Abbas münasibəti bu meyarların heç birinə uyğun gəlmir. Yaranmış təsadüfi fürsətdən istifadə edən Yusif Sərracı Şah Abbasa yaxınlaşdıran

hər hansı bir nöqtə yoxdur, onlar bir-birindən tam ayrı olan dünyaların adamlarıdır. Yaranmış təsadüfi fürsətdən istifadə edən Yusif Sərrac istibdad yuvası olan sarayın, Şah Abbasa məxsus mühitin fövqünə qalxmış olur. Komik tərəfi-müqabil-lik, məzəli oyunun tərəfdaşları olmaq Molla Nəsrəddinlə Tey-murləngi vahid orqanizmin üzvi tərkib hissəsinə çevirirsə, Teymur ağanı Lənkəran xanına və onun vəzirinə müəyyən qə-dər yaxınlaşdırıb bağlayırsa, Yusif Sərrac — Şah Abbas mü-nasibəti nə vahid orqanizmdən danışmağa əsas verir, nə qarşı-lıqlı yaxınlaşma və bağlılıqdan. Povestdə kifayət qədər özünə yer tapan komik detallar qara rəngin ağırlığını aradan qaldı-rıb, əsərin oxunuşunu asanlaşdırsa da, oxucu mühitin fövqünə qalxan qəhrəmanla ətrafdakı adamlar arasında hər hansı isti və mərhəmanə ünsiyyət nöqtəsinə rast gəlmir. Şah Abbasa və onun əmrinə müntəzir olanlara mənfi münasibət öz yerində. Bəs ətrafda Yusif Sərracın oturub-durduğu məhrəm adamlar yoxdurmu? Varsa həmin adamlarla bir yerdə "vahid orqa-nizm" dediyimiz o aləmi qurub-yaratmaq mümkün deyilmi? Elə məsələnin məğzi də bu sualın cavabını vermək məqamın-da ortaya çıxır. Ətrafda Yusif Sərracın əməli-saleh hesab edib ürək qızdırdığı adamlar var və onlardan bir neçəsini o yaran-mış vəziyyətdən istifadə edib, dövlət işlərinə cəlb edir. Ancaq təəssüf ki, tək-tük dost-müsahiblə yeni mühit yaratmaq və za-man-zaman oturuşub yerini bərkitmiş Şah Abbas mühitini aradan qaldırmaq heç cür mümkün olmur. Gündə neçə-neçə adamın dara çəkilməsinə adət eləmiş camaat islahatçı Yusif Sərracın yox, müstəbid Şah Abbasın dalınca getmək qərarını verir. Nəticədə Yusif Sərrac məğlub olur. Lətifələrdə, qara-vəllilərdə, komik nağıllarda, məzəli xalq dramlarında ölüm-itim məqamlarını gülüş doğuran epizod və səhnələr sırasında çox görmüşük və bu ənənədən öz komediyalarında Mirzə Fə-təli Axundzadə də yerli-yerində bəhrələnib. «Ar-namusu itir-

miş» Paris əhlinin Dərviş Məstəli şah cadusuna düçar olub «yer üzündən silinməsi», Lənkəran xanının dərya gəzintisinə çıxıb öz ömrünü bizlərə bağışlaması səciyyəvi komediya səhnələridir. «Aldanmış kəvakib» povestində gülüşə kifayət qədər yer verilsə də, sonda Yusif Sərracın yoxa çıxması, söz yox ki, komik səhnələr sırasına yox, qəm-qüssə doğuran səhnələr sırasına daxil olur. Bu qəm-qüssə həm Yusif Sərracın bir fərd kimi taleyindən, həm də Yusif Sərracı anlamayan, ona qənim kəsilən avam kütlənin taleyindən doğur. «Süjet kəvakibin yox, povestdəki həqiqi işıqlı ulduzun – Sərracın aldanması süjetidir. Lakin aldanmış kəvakib – aldanmış Sərrac və aldanmış xalq süjetində ən tragik obraz heç də Sərrac deyil, öz işığını tanımayan, ona kor qalan avam kütlədir. Məhz buna görə də nə Mərrixin (Marsın) əqrəb bürcünə yaxınlaşması, nə də Sərracın və «avam camaatın» bir-birinə yaxınlaşması şahın vücuduna sədəmə gətirə bilmir. «Bəsirət və elm hasil etməmiş» bir cəmiyyətdə nadanlar qəsd edib Yusif Sərracı taxtdan kənar edirlər. Fərdi maarifçi islahat dövrü ictimai islahat üsulu kimi özünü doğrultmur» (Yaşar Qarayev). Əgər belədirsə, povestdə ən tragik obraz «avam kütlə»dirsə, bu o deməkdir ki, Mirzə Fətəli Axundzadə bir maarifçi kimi, xalqın taleyini əsas mövzuya çevirir, fərdin taleyi timsalında xalqın acınacaqlı taleyini diqqət mərkəzinə çəkir, cəhalət içində yaşamağı, özünüdərk duyğusundan uzaq olmağı ictimai bir problem kimi irəli sürür və onun uğurlu bədii həllinə nail olur.

Xalqın tarixi taleyi ilə bağlı məsələnin qoyuluşunda Mirzə Fətəli Axundzadəni düşündürən məqamlardan biri köləlikdən qurtarmağın ideya olaraq geniş miqyas alması, xalqı birləşdirə biləcək əqidəyə çevrilməsidir. Görkəmli maarifçi xalqa üz tutaraq deyir: «Sən ədəddə və istitaətdə (bacarıqda – M.K.) despotdan bəməratib artıqsan. Sənə ancaq yekcəhətlik

və yekdillik lazımdır ki, revolyusiya edib übudiyyətdən (köləlikdən – M.K.) nicat tapasan. Əgər bu halət, yəni ittifaq sənə müyəssər olsaydı, özünə bir fikir çəkərdin və özünə puç əqaidin qeydindən və despotun zülmündən nicat verərdin». Mirzə Fətəli Axundzadənin bu cür maarifçi ideyaları yenicə yaranmağa və təşəkkül tapmağa başlayan Azərbaycan mətbuatında əks-səda tapır. Milli mətbuatımızın ilk örnəyi olan «Əkinçi» qəzetində Həsən bəy Zərdabi yeri düşdükcə milli məsələlərə yer verir və Mirzə Fətəli Axundzadənin maarifçi ideyalarını davam və inkişaf etdirir. Atalar sözlərinin, xüsusən də xalq mahnılarının toplanması ilə məşğul olan, topladığı nümunələrin bir çoxunu kitab şəklində nəşr etdirən Həsən bəy Zərdabi qəzetin 1 sentyabr 1877-ci il tarixli nömrəsində «Daxilliyə» bölməsinin ikinci yazısını mahnılara həsr edir və oxucu diqqətini bu sənət nümunələrinin xalqı birləşdirmək cəhətinə yönəldir: «Hər tayfanın vətəndarlıq və millətin keçmişində olan yaman və yaxşı günlərini şərh edən mahnıları olur ki, bu mahnılar ağızdan-ağıza düşüb milləti birləşdirməyə bais olur…

Yaxşı olurdu ki, bizim şüəralar bir-birini həcv və ya mədh etmək əvəzinə, zikr olan məzmunda mahnılar düzəldilər ki, onlar ağızdan-ağıza düşüb xalqı nadanlıqdan danalığa (alimliyə – M.K.) təhrik etməyə bais oleydi». Həsən bəy Zərdabi şifahi şəkildə nəsildən-nəslə keçib yaşamaqda olan mahnıların xalqı birləşdirmək cəhətini qeyd etməklə kifayətlənməyib bu ənənənin yazılı sənət nümayəndələri tərəfindən davam etdirilməsini, milləti bir araya gətirə biləcək mahnıların yazılmasını vacib sayır. Maarifçi fikirlərin təbliğində sözlə musiqinin vəhdətinə xüsusi önəm verən Həsən bəy Zərdabi aşıq sənətinə, bu sənətdə nə zamandan bəri məlum və məşhur olan havacatın müasir ruhlu şeir mətnləri ilə qaynayıb-qarışmasına zamanın tələblərindən biri kimi baxır: «Keçmişdə «Əkinçi» qəzeti çıxanda o vaxtın şairlərindən yazıb təvəqqe

etmişdim ki… elmə təhsil etməyin nəflərindən və biz müsəlmanlara olan zülmlərin barəsində şeirlər yazıb aşıqlara xoş şövq ilə oxumağı öyrətsinlər ki, aşıqlar onları toylarda oxuyub əhalini oyatmağa səbəb olsunlar». «Əkinçi» qəzetindən gətirdiyim birinci nümunədə Həsən bəy Zərdabi mahnılarda vətənpərvərlik duyğularının ifadəsini, həmçinin «millətin keçmişdə olan yaman və yaxşı günlərinin» əks olunmasını diqqətə çatdırırsa, sonra gətirdiyim nümunədə elmin, təhsilin təbliğ edilməsini oxunan nəğmələrin, o cümlədən aşıq havalarının ən mühüm cəhətləri sırasına daxil edir. Bu baxımdan Həsən bəy Zərdabinin çağdaş qələm sahiblərindən, ən çox isə adlısanlı şairlərdən təvəqqəsi xalqa ortaq düşüncə aşılaya biləcək bədii əsərlərin yazılıb çap edilməsi, təbliğ edilib yayılması, milli şüurun tədrici inkişafı üçün zəmin yaradılmasıdır.

Əlbəttə, xalq arasında bərqərar olacaq ortaq düşüncə və ideoloji sistem öz başlanğıcını müxtəlif amillərdən götürə bilər. Arif Rəhimoğluna istinadən qeyd edim ki, bu amillər sırasında fərd, sinif, millət və ümmət kimi dörd başlanğıc nöqtəsi ictimai fikir tarixində özünü daha çox büruzə verib. Sosioloqlardan bir qismi ayrı-ayrı fərdlərin və siniflərin maraqlarını, başqa bir qismi isə eyni millətə və eyni dinə mənsub çoxluqların maraqlarını ortaq düşüncə üçün əsas çıxış nöqtəsi hesab edib. Ortaq düşüncəyə maddi təməl, yaxud mənəvi təməl baxımından yanaşmaq sosioloqlar arasında mövqe ayrılığına səbəb olub. Fərd və sinif maraqlarına əsaslanan liberal və sosialist düşüncə tərzi maddi təmələ üstünlük veribsə, milli və dini maraqlara əsaslanan milliyətçilik və ümmətçilik düşüncə tərzi mənəvi təmələ üstünlük verib. Mirzə Fətəli Axundzadədən başlayıb XX əsrin birinci yarısında həm realist maarifçilər, həm də romantik maarifçilər tərəfindən davam etdirilən Azərbaycan ictimai fikrinə gəldikdə isə nəzərə almalıyıq ki, dünyada özünü göstərmiş təmayüllərin hər biri bu və

ya digər dərəcədə bizdəki istiqlal ideologiyasının təzahür istiqamətlərinə çevrilib. XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana çıxan, milli bayrağımızın rənglərində rəmzləşən türkləşmək, müasirləşmək və islamlaşmaq təlimindən də açıq-aydın görmək olar ki, istiqlal ideologiyamızda milli maraqlar dini maraqları da özündə ehtiva edir. Və bu məqamda Mirzə Fətəli təliminə yenidən qayıdıb müqayisə aparmaq, sonrakı maarifçilərdə nəyin Mirzə Fətəli Axundzadə ilə oxşar, nəyin isə Mirzə Fətəli Axundzadədən fərqli şəkildə ortaya çıxmasını aydınlaşdırmaq lazım gəlir. Oxşarlıqdan başlasaq, qeyd etməliyik ki, müasirləşmək təlimi, qəbul olunmuş elmi qənaətə görə, Mirzə Fətəli Axundzadəyə məxsusdur. İctimai-siyasi gerilikdən xilas olmağın və tərəqqiyə qovuşmağın yolunu Avropaya üz tutmaqda görən Mirzə Fətəli Axundzadə, heç şübhəsiz, əsrlərlə davam edib gələn ənənələrdən üzülüşüb Şərqdən uzaq düşməyi ağlına belə gətirmir. Doğma dilə, milli adət-ənənələrə qırılmaz tellərlə bağlı olan və öz əsərlərində, xüsusən də komediyalarında ana dilinin və milli həyat tərzinin parlaq bədii mənzərəsini yaradan Mirzə Fətəli Axundzadə Avropa elm və mədəniyyətindən bəhrələnməyi Şərqin qüdrətini artırmağın bir vasitəsi və yolu kimi irəli sürür. Bu təlim XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin əsərlərində öz şərhini Mirzə Fətəli Axundzadə mövqeyindən tapmağa başlayır. Şərq və Qərb sintezinin bəhrələr verəcəyinə Mirzə Fətəli Axundzadə kimi böyük ümidlər bəsləyən Əli bəy Hüseynzadə yazır: «Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istiyoruz, özlərinə deyil! Biz istəriz ki, islam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin! İstəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın». Əli bəy Hüseynzadə Avropanın elm və mədəniyyət sahəsindəki nailiyyətlərinə üz tutmağı,

eynilə Mirzə Fətəli Axundzadə kimi, gerilikdən qurtarmağın yollarından biri saysa da, mütləq mənada Avropa təsiri altına düşməyi heç cür qəbul edə bilməzdi və qəbul etmir. Çünki avropalıların təsiri altına düşmək, «onların mədələrində həzm olunmaq» başqa bir şey yox, köləliyin yeni bir variantı olardı.

İstiqlal məfkurəsinin XX əsrin əvvəllərindəki tarixi mənzərəsində Mirzə Fətəli Axundzadə təliminə uyğun gəlməyən məqamlardan danışsaq, söz yox ki, dinə münasibət məsələsi üzərində dayanmalıyıq. Biz bu gün ruhanilərin geniş əl-qol açdıqları, hətta bir çox oxumuşlarımızın, xitabət kürsüsünə, efir və ekrana molla qiyafəsində çıxmağa xüsusi həvəs göstərdikləri bir şəraitdə nə qədər ört-basdır eləməyə çalışsaq da, dinə münasibətdə Mirzə Fətəli Axundzadənin inkarçı mövqe tutmasını dana və bu mövqenin üstündən xətt çəkə bilmərik. Necə ki, Mirzə Fətəli Axundzadənin Füzuliyə münasibətdə inkarçı mövqe tutmasını danmırıq və belə bir mövqenin üstündən xətt çəkmərik. Sadəcə olaraq anlamağa çalışırıq ki, XVI əsrdən üzü bəri poeziyamızda bir Füzuli tilsimi və «əsarəti» hökm sürürdü. Realist ədəbiyyatın köklü şəkildə ortaya çıxıb inkişaf etməsi yolunda bu tilsim və «əsarət»dən qurtarmağı vacib bilən Mirzə Fətəli Axundzadə «Füzuli şair deyil və xəyalatında əsla təsir yoxdur; ancaq nazimi-ustaddır» fikrini irəli sürməli olur. Mirzə Fətəli Axundzadənin dinə münasibəti müəyyən qədər onun Füzuliyə münasibətini xatırladır. İstər Şərqdə, istərsə də Qərbdə dini hökmlərin zaman-zaman istibdada yardımçı olması qənaətinə gələn Mirzə Fətəli Axundzadə öz qəhrəmanı Kəmalüddövlənin dili ilə «mən külli-ədyanı (bütün dinləri – M.K.) puç və əfsanə hesab edirəm… Mən o dini tərcih edirəm ki, onun vasitəsilə insan bu dünyada xoşbəxt və azadə ola bilsin» fikrini ortaya qoyur. Fikrin diqqəti daha çox cəlb etməsi üçün, Füzuli məsələsində olduğu kimi, din məsələsində də Mirzə Fətəli Axundzadə

bilərəkdən və hücumlara məruz qalacağını qabaqcadan nəzərə alaraq, ifratçı mövqe nümayiş etdirməli olur.

XX əsrin əvvəllərində fəaliyyət göstərən maarifçilərdən, o cümlədən folklorun toplanmasında və folklorşünaslığın formalaşmasında xidməti olan maarifçilərdən bir çoxu dini dəyərləri milli istiqlal məfkurəsinin tərkib hissəsi kimi qiymətləndirir. Firidun bəy Köçərli belə maarifçilərdən biridir. Ədəbiyyatşünaslığa dair məqalələrində yeri düşdükcə folklorun bəzi elmi-nəzəri məsələlərinə də toxunan, «Balalara hədiyyə» adlı dərs vəsaitinə xalq ədəbiyyatının ən zərif nümunələrini daxil edən Firidun bəy Köçərlinin dinə münasibətini doğru-düzgün başa düşməkdə onun dillə bağlı mövqeyini nəzərə almaq mühüm əhəmiyyət daşıyır. Firidun bəy Köçərli mənəvi dəyərlər sisteminin tərkib hissəsi olan dilə və dinə münasibətdə yol verilmiş nöqsanlara kifayət qədər kəskin etirazını bildirir. Həm dil, həm də din haqqındakı məqalələrində Firidun bəy Köçərlinin üz tutub sözünü dediyi və etirazını bildirdiyi adamlar sıravi şəxslərdən daha çox həmin sahələrin cavabdehləri — ədiblər və ruhanilərdir. Firidun bəyin nəzərində ədiblərin və ruhanilərin ən ümdə vəzifəsi fikrin aydınlığına çalışmaq, qəliz və mürəkkəb ifadə tərzindən mümkün qədər qaçıb mətləbi sadə şəkildə çatdırmaqdır: «Bizim yəqinimizdir ki, dili dolaşıq şəxsin fikri də dolaşıqdır. İbarəpərdazlıq fikrin boşluğuna və bir dərəcədə yoxluğuna dəlalət eləyir, doğru və səlamət fikirli adamların kəlamı həmişə aydın, açıq və düzgün olur». Firidun bəy Köçərli, dilin «dolaşıq», «başsız və binasız» çatdırılmasında bir səbəbi ibarəpərdazlıqda görürsə, başqa bir səbəbi ərəb-fars sözlərinin və tərkiblərinin yersiz olaraq işlədilməsində görür. Onun nəzərində anlaşıqlı dildə danışmaq ittifaq və ittihada aparan mühüm yollardan biridir: «Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən, şairlərimiz-

dən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəksinlər, fikirlərini açıq və sadə dildə yazsınlar, ta ki, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazan və oxuyanın arasında dostluq, ittifaq və birlik əmələ gələ bilər». Firidun bəy Köçərlinin yazıçılara müraciətlə dediyi bu sözlər, heç şübhəsiz, xalqa qəliz bir dildə moizə oxuyan din xadimlərinə də aiddir. Qori Müəllimlər Seminariyasında türk dili ilə yanaşı, şəriətdən də dərs deyən Firidun bəy Köçərli Quranda elm öyrənməklə bağlı ayələrin olmasını diqqətə çatdırır və həmin ayələri dilə gətirmək istəyən və insanları xurafata sürükləyən ruhanilərlə heç cür barışa bilməyəcəyini bildirir: «Dünya beş gündur, beşi də qara. Mühtərəm üləma, vaizlərimizin məscidlərdə və məclislərdə camaata xitabən söylədikləri sözlər və nitqlər əksər ovqat bu qisim vəz və nəsihətlərdən ibarət olduğu cümləyə məlumdur». Dünyanı fani elan edib insanların beynini axirət xülyaları ilə dolduran ruhanilərə qarşı barışmaz mövqe tutarkən Firidun bəy Köçərli müsəlman ətalətinə qarşı çıxır və xalqın oyanmasını, hərəkətə gəlib tərəqqi yoluna qədəm basmasını bir hədəf olaraq ortaya qoyur.

Əlbəttə, ortaq milli düşüncənin, istiqlaliyyət məfkurəsinin formalaşmasında, gediləcək hədəflərin müəyyənləşməsində fikir ayrılıqları da vardı. Fərqli mövqelər yalnız dinə münasibətdə yox, həm də dilə münasibətdə özünü göstərirdi. Dil məsələsi türkləşmək təliminin əsas tərkib hissəsi, ana xətti idi. «Dildə bir, fikirdə bir, əməldə bir» ideyasına həm maarifçi romantiklər, həm də maarifçi realistlər tərəfdar idilər. İdeyanın müəllifi İsmayıl bəy Qaspıralı həm "Füyuzat"çılar, həm də "Molla Nəsrəddin"çilər arasında çox böyük nüfuz sahibi idi. Təsadüfi deyil ki, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında İsmayıl bəy Qaspıralının adını hörmət və ehtiramla çəkir və onun redaktorluğu ilə çıxan «Tərcüman» qəzetini

milli ruhlu mətbuat orqanı kimi yüksək qiymətləndirir. 1908-ci ildə «Tərcüman» qəzetinin 25 illiyi münasibətilə «Molla Nəsrəddin» jurnalında çap etdirdiyi məqalələrindən birini Cəlil Məmmədquluzadə «Milli bayram» adlandırır. Cəlil Məmmədquluzadə həmin məqalədə İsmayıl bəy Qaspıralı haqda bu sözləri yazır: «İsmayıl bəy haziq (mahir – M.K.) həkim kimi millətimizin dirilməyini məktəbdə, maarifin nəşrində gördü, qüvvətinin ən çoxunu bu yolda sərf elədi. Üsuli-cədidəsini, üsuli-cədidə kitablarını Bağçasaraydan Çinə, Kazandan İrana qədər nəşr elədi. Mülayimanə, lakin təsirli məqalələr ilə uyumuş beyinlərdə «mühakimə» qüvvəsini oyandırdı, köhnə üsulu, bütpərəst adətlərimizi silməyə çalışdı. İsmayıl bəy millətinin oyanmağına lazım olan heç bir vasitədən geri qalmadı: bir tərəfdən mətbuatla çalışdı, digər tərəfdən daxildə, xaricdə cəmiyyətlər təşkil edib millətdə «müşavirə» hüsnü oyandırdı… İsmayıl bəyə nə qədər hörmət göstərilsə, millət o mərtəbə mədəni dərəcəsini, öz qədirşünaslığını, öz diriliyini göstərmiş olur». Cəlil Məmmədquluzadə həmin məqalədə İsmayıl bəy Qaspıralını «millətimiz yolunda qələm çalan böyük yoldaşımız» adlandırır. Bu o deməkdir ki, Mirzə Cəlil əslən Krım türkü olan İsmayıl bəyi Azərbaycan maarifçilərindən ayırmır və onu özünün böyük əqidə dostu hesab edir. Əqidə dostları arasında fikir ayrılığı daha çox ortaq dil məsələsi üstündə idi. İsmayıl bəy Qaspıralı, həmçinin Ziya Göyalp, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və başqa maarifçilər İstanbul ləhcəsi əsasında, ərəb-fars sözləri və tərkiblərindən də istifadə etməklə türk xalqları üçün vahid ədəbi dilin formalaşması tərəfdarı idilər və bunu türk dünyasının bütövlüyünü təmin etməyin mühüm yollarından biri sayırdılar. Cəlil Məmmədquluzadə, həmçinin Firidun bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Ələkbər Sabir və başqa maarifçilər isə türk dünyasına qovuşmağın real yollarından birini Azərbaycan

türkcəsinin, Türkiyə türkcəsinin, tatar, qazax, özbək… dillərinin müstəqil ədəbi dillər kimi formalaşmasında görürdülər. Bu cür fikir ayrılığı mətbuat səhifələrində müzakirə və mübahisə mövzusuna çevriləndə, söz yox ki, bu taleyüklü məsələnin çözülməsində bir-birinin bostanına daş atma, bir-birindən incimə, küsmə halları da olurdu. Məsələn, Firidun bəy Köçərli dil məsələsində mövqeyi ilə razılaşmadığı Əli bəy Hüseynzadə barədə yazır: «O cənabın elm və kamalına sözümüz yoxdur, sadəcə Azərbaycan dilinə çoxlu sayda Osmanlı sözləri gətirdi. Bu səbəbdən də kitablarımızda çox və əziz işlənən sözlər sıradan çıxmağa başladı. Qəzet, kitab və jurnallarda dilimizə yatmayan sözlər və ifadələr yerləşməyə başladı». Bu sözlərdə tənqid var, amma bu, umu-küsüdən xəbər verəcək bir tənqid deyil. İnciklik və umu-küsü notları Firidun bəyin dillə, Əli bəy Hüseynzadə ilə bağlı aşağıdakı sözlərindədir: «Kaş o alicənab İstanbulda rahat əyləşib bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi». Bu məsələdə, Yaşar Qarayevin fikrincə, bu sözlər «müəyyən zümrənin fikrini ifadə edir, lakin belə ovqat tək-tək mülahizələrdə özünə yer tapan ötəri vurğu və «xaric səs» idi». Bu məsələdə Yaşar Qarayevlə o baxımdan razılaşmaq olar ki, Firidun bəy Köçərli Əli bəy Hüseynzadənin dillə bağlı mövqeyindən, konkret şəkildə desək, ərəb-fars tərkibləri ilə yüklənmiş Osmanlı ədəbi dilini təbliğ etməyindən narazılığını sərt şəkildə bildirir. Amma bu sərtliyə görə Firidun bəy Köçərlinin Əli bəy Hüseynzadə timsalında dilə münasibətini «tək-tək mülahizələrdə özünə yer tapan ötəri vurğu və xaric səs» sözləri ilə səciyyələndirmək o qədər də özünü doğrultmur. Bəli, Firidun bəy Köçərlinin yuxarıda xatırlatdığımız cümləsi «müəyyən zümrənin fikrini ifadə edir», amma Əli bəy Hüseynzadənin dilə aid fikirlərinə qarşı çıxan bu zümrə heç də "ötəri mülahizə" sahibləri yox, ardıcıl mövqe sahibləri idilər. Azərbaycan istiqlal məfkurə-

sinin formalaşmasında Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun xüsusi xidməti olduğu kimi, Firidun bəy Köçərlinin və onun mənsub olduğu realist maarifçilər zümrəsinin də özünəməxsus xidməti var. Sovet humanitariyasının vulqarcasına yanaşıb cidd-cəhdlə gözdən salmağa çalışdığı Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu irsinə bu gün yenidən qayıdırıq. Ortaq türk dəyərlərinin, o cümlədən ortaq türk ədəbi dilinin gündəmə gəldiyi bu şəraitdə Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu irsinin nə qədər aktuallıq kəsb etdiyini dərindən dərk edib bu irsə layiq olduğu yüksək elmi dəyəri verməyə çalışırıq. Belə yüksək dəyərləndirmənin bir təzahürüdür ki, bədii-publisistik kontekstdə yox, ciddi elmi təhlil kontekstində Əli bəy Hüseynzadə «müdrik Şərqin bizim əsrdəki son peyğəmbəri» (Yaşar Qarayev) adlandırılır. Bütün bunlar qədirşünaslıqdan xəbər verir və ürəkdə məmnunluq hissi doğurur. Yalnız ona təəssüflənirsən ki, bu qədirşünaslıq bəzən Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlundan fərqli mövqe tutmuş maarifçilərin üzərinə kölgə salmaq hesabına ortaya çıxır. Əlbəttə, kölgə salmaq məsələsinin Yaşar Qarayevlə – qələminə böyük ehtiram bəslədiyim görkəmli ədəbiyyatşünasla heç bir əlaqəsi yoxdur. Bunun belə olmasına, yəni ictimai və ədəbi fikir tariximizdə, tutaq ki, Məhəmməd Əmin Rəsulzadənin də, Nəriman Nərimanovun da; Əli bəy Hüseynzadənin də, Cəlil Məmmədquluzadənin də; Hüseyn Cavidin də, Səməd Vurğunun da yerini dəqiq bilməsinə Yaşar müəllimdən nə qədər desən misal çəkmək olar. Amma mən belə misalların birini xatırladıb fikrimi davam etdirmək istəyirəm. Yaşar müəllim yazır: «Azərbaycanın ilk linqvistik və tarixi-coğrafi xəritəsi Cəlil Məmmədquluzadənin, Türk dünyasınınkı isə Əli bəy Hüseynzadənin əsərlərində cızılmışdır. «Türk kimdir və kimlərdən ibarətdir» – bu ad altında Əli bəy Hüseynzadənin yalnız bir əsərini yox, bütün əsərlərini toplayıb

nəşr etmək olar». İctimai və ədəbi fikirdə fərqli təmayüllərin olmasına təbii bir hal kimi baxan, Cəlil Məmmədquluzadə və Əli bəy Hüseynzadə kimi müxtəlif təmayül təmsilçilərinin istiqlal məfkurəsindəki özünəməxsus yerini doğru-düzgün səciyyələndirməyə çalışan Yaşar Qarayevlə həmfikir olmamaq mümkün deyil. Razılaşmadığım «xarici səs» məsələsinə gəldikdə isə qeyd etməliyəm ki, həmin məsələ Yaşar Qarayev irsində bu iti qələm sahibinin üslubuna o qədər də uyğun gəlməyən bir detal şəklində öz əksini tapır. Həmin detala toxunmaqda məqsədim sovet sisteminin süqutundan sonrakı dövrdə yazı-pozu adamlarından bir qisminin ələ qələm götürüb Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və başqa ədiblərimizə qarşı qaralama və hücum kampaniyası təşkil etməsinə diqqəti yönəltməkdir. Ad çəkməyə, misal gətirməyə lüzum görmədən bildirmək istəyirəm ki, dünən Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğluna yanaşdığımız üsulla bu gün Cəlil Məmmədquluzadəni və Mirzə Ələkbər Sabiri təftiş etməyimiz, bu sənətkarları türkün şanlı zəfər tarixinə göz yummaqda, milləti «aşağılamaqda» günahlandırmağımız yalançı millətsevərlikdən başqa bir şey deyil. Gerçək olan budur ki, istiqlal düşüncəsini oxucuya tariximizin şanlı səhifələrindən danışmaqla aşılamaq mümkün olduğu kimi, tariximizin ibrətamiz səhifələrindən danışmaqla da aşılamaq mümkün olub. «Sizlərsiniz, ey qövmi macar, bizlərə ixvan, Əcdadımızın müştərəkən mənşəyi Turan» deyib şanlı türk tarixi ilə öyünən Əli bəy Hüseynzadə Azərbaycan Cümhuriyyətini yetişdirən milli düşüncənin təmsilçisi olubsa, sənətdə Cəlil Məmmədquluzadənin silahdaşı kimi tanıdığımız Mirzə Ələkbər Sabir «Turanlılarız... öz qövmümüzin başına əngəlkələfiz biz» deməklə heç də milli düşüncədən aralı düşməyib, əksinə, o öz kəskin tənqidi ruhlu şeirləri ilə müstəqil dövlətçiliyə gətirib çıxaran istiqlal savaşına, Abbas Səhhətin sözləri

ilə desək, «bir ordudan ziyadə xidmət edib». Tamamilə təbii bir haldır ki, Azərbaycan Cümhuriyyətinin ideologiyasında və 23 aylıq əməli fəaliyyətində Mirzə Fətəli Axundzadədən başlayıb gələn Azərbaycan maarifçiliyinin həm romantik, həm də realist qanadının ideya və ideallarından silinməz nişanələr var.

## 2.

Azərbaycan Cümhuriyyəti dini yox, dünyəvi təməllər üzərində qurulan bir dövlət idi. Dini dəyərlərə böyük ehtiramla yanaşan, bayrağındakı yaşıl rəngin rəmzi mənasına sadiq qalaraq ölkədə İslam dini ilə bağlı qurumların sağlam əsaslarla fəaliyyət göstərməsinə hər cür şərait yaradan Azərbaycan Cümhuriyyətinin özündən əvvəlki Şərq dövlətlərindən mühüm bir fərqi onda idi ki, Cümhuriyyət dini qurumların siyasi proseslərdə iştirakını nəzərdə tutmurdu, məlum və məşhur bir ifadə ilə desək, Cümhuriyyət «dindən ayrı» dövlət idi. Şərqdə ilk parlamentli dövlət kimi tarixə düşən Azərbaycan Cümhuriyyətinin din siyasətini doğru-düzgün dəyərləndirmək baxımından gərək olan səciyyəvi tarixi faktlardan biri budur: 1919-cu ildə Azərbaycan parlamentində seçki qanunu müzakirə olunarkən Məmməd Əmin Rəsulzadənin təklifi ilə həmin qanun layihəsinə məscidlərdə və dini ayinlər üçün nəzərdə tutulmuş digər yerlərdə seçki təbliğatı aparmağı qadağan edən xüsusi bənd əlavə olunur. Qanun layihəsinin bu bəndində qeyd edilir ki, məscidlərdə və dini ayinlər üçün nəzərdə tutulan digər yerlərdə qanuna zidd olaraq seçki təbliğatı aparanları altı aya kimi həbs cəzası gözləyir. Din xadimlərinin və ayrı-ayrı dini qurumların dövlət işlərinə birbaşa müdaxiləsinin acınacaqlı nümunəsini İran idarəçilik sistemində görən Məmməd Əmin Rəsulzadə açıq şəkildə bildirir ki, Azərbaycanın çağdaş siyasi inkişaf kursu İranın dərviş, falçı, mərsiyəxan və

mövludxanlar yetişdirən köhnə idarəçiliyi ilə bir araya sığmır. Bu siyasi kursa uyğun olaraq, dini qurumlara imkan daxilində istiqlal məfkurəsi ilə bağlı olan din xadimləri təyin edilir. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri – Şeyxülislam təyin edilən axund Ağa Əlizadə belə din xadimlərindən idi. Cümhuriyyətin bir illiyi münasibətilə dediyi sözlər bu din xadimi haqda müəyyən təsəvvür yaradır: «Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar. Öz əqidəsini və fikrini şövqlə söyləmək və öz bəşəri iradəsini ifadə etmək yalnız müstəqil ölkədə mümkündür. Asılı olmayan tədris ocaqlarında – orta və ali məktəblərdə ölkə camaatının faydalana biləcəyi bütün biliklərə yiyələnmiş şüurlu adamlar yetişər. Allah-təalanın buyruqlarını yalnız ölkənin istiqlaliyyəti şəraitində müvəffəqiyyətlə intişara yetirmək olar. İstiqlal hər bir tayfaya və hər bir şəxsiyyətə lazımdır». Göründüyü kimi, müstəqil dövlətçiliyi ayrı-ayrı fərdlərin və bütövlükdə xalqın azadlığa qovuşmasının başlıca şərti sayan Şeyxülislam şəriət qaydalarının sağlam əsasda həyata keçirilməsində «istiqlaliyyət şəraitinin» mövcudluğunu ən vacib amil hesab edir.

Azərbaycan Cümhuriyyətinin irəli sürdüyü və ardıcıl olaraq həyata keçirdiyi siyasi kursda ən önəmli məsələlərdən biri milli mədəniyyət məsələsi idi. «Milliyyət din üzərində deyil, dil və mədəniyyət üzərində qurulur» (Mirzə Bala Məmmədzadə) – deyən cümhuriyyətçilər milli şüurun formalaşmasında, müstəqil dövlətçilik ideyalarının cəmiyyətdə tədricən oturuşması və reallığa çevrilməsində ədəbiyyat və incəsənətin rolunu xüsusi qiymətləndirirdilər. Məmməd Əmin Rəsulzadə deyirdi: «Azadlıq və istiqlaliyyət süngülərlə yox, ədəbiyyat və incəsənət vasitəsilə əldə olunur». Hakimiyyətə süngülərlə gələn və bu hakimiyyətin sərhədlərini genişləndirib yeni bir imperiya qurmağa çalışan bolşeviklər də ədəbiyyat və incəsənə-

tin necə bir təsir gücünə sahib olduğunu yaxşı bilirdilər. Fərq onda idi ki, bolşeviklər sinfi mübarizə ideologiyasına uyğun olaraq ədəbiyyat və incəsənətdə sinfilik axtarır və bu sinfiliyi necə olursa-olsun ədəbiyyat və incəsənətin ana xəttinə çevirmək istəyirdilər. Mədəniyyətin milliliyi mövqeyində duran və bu mövqeyi möhkəmləndirmək istiqamətində zəruri addımlar atan Cümhuriyyət liderləri isə «kültür sinfi deyil, millidir» – deyirdilər, həm məzmun, həm də formaca milli olan mədəniyyətin inkişafı üçün hər cür şərait yaratmağa çalışırdılar. Bakıda milli kitabxananın, milli muzeyin, milli teatrın, milli təhsil ocaqlarının yaradılması Cümhuriyyətin mədəniyyət, elm və təhsil siyasətinin əsas isiqamətlərindən xəbər verən səciyyəvi tarixi faktlardır. Cümhuriyyətin təhsil siyasəti ilə bağlı belə bir fakt xüsusi maraq doğurur: maarif naziri Həmid bəy Şahtaxtinski təhsil proqramını Qazax Müəllimlər Seminariyasının direktoru Firidun bəy Köçərliyə göndərir ki, Firidun bəy proqramla bağlı öz tövsiyələrini bildirsin. Firidun bəy nazirin göndərdiyi "Azərbaycan tarixi" proqramını daha çox bəyəndiyini bildirir, çünki bu proqramda Azərbaycan tarixi ümumtürk tarixinin tərkib hissəsi kimi nəzərdə tutulmuşdu. Həmin proqram əsasında təhsil alan tələbə ümumtürk, o cümlədən Azərbaycan tarixinin ən mühüm, ən şanlı səhifələrindən xəbərdar olurdu. Tarix proqramı ilə bağlı xatırlatdığım bu fakt onu göstərir ki, Azərbaycan Cümhuriyyəti digər sahələrdə olduğu kimi, təhsil sahəsində də milliləşməni vacibdən vacib məsələ sayır və bu istiqamətdə qətiyyətli addımlar atırdı. Belə tarixi faktlar sırasında 1918-ci ildə Bakıda «Türk gecələri» adı ilə təşkil edilən konsert proqramlarını da xatırlatmaq yerinə düşür. Bu konsertlərin yüksək dövlət səviyyəsində təşkil olunduğunu ondan bilmək olar ki, həmin tədbirlərdə Məmməd Əmin Rəsulzadə «məsul müdir» vəzifəsini yerinə yetirirdi. «Türk gecələri»nin bədii tərtibatı görkəmli

rəssam Əzim Əzimzadəyə həvalə edilmişdi. Konsertlərdə ədəbi parçaların seçilib səsləndirilməsi ilə “Yaşıl qələm” cəmiyyətinin üzvü olan tanınmış yazıçılar məşğul olurdular. Azərbaycan yazıçıları və sənət adamları ilə yanaşı, Türkiyədən, Tatarıstandan da sənətkarların iştirak etdiyi konsert tədbirlərindən əvvəl xüsusi sərgilərin təşkil olunması mühüm əhəmiyyət daşıyırdı. «Türk ocağı», «Türkmən çadrası», «Atəşgah», «Şərq salonları» kimi adlar altında təşkil olunmuş sərgilərdə türk xalqlarının folklor və etnoqrafiyasına aid materiallar nümayiş etdirilir və bununla da soydaşlarımıza türkçülük ruhu aşılanırdı.

Yaxın Şərq ölkələrinin bir çoxunda bayram kimi qəbul edilən Novruzda cümhuriyyətçilər milli ruh axtarır, bu bayramın türk mifoloji dünyagörüşü və türk dövlətçilik tarixi ilə bağlı tərəflərini xüsusi olaraq diqqət mərkəzinə çəkirdilər: «Novruz İranın və Turanın birgə bayramıdır… Novruz bayramı bir vaxtlar ərəblərin istilasından sonra İranda tamamilə tərk edilmiş və ya etdirilmişdi. Yalnız səkkiz əsr əvvəl türk hökmdarlarından Cəlaləddin Məlikşah Səlcuqi tərəfindən bu bayram dirçəldilmiş və buna görə də bayramın adını Novruz Sultan qoymuşdular…

Türk üsuli-təqvimi – illərin birər heyvan adı ilə adlandırılması İranda hala baqidir. Məlum olduğu kimi, illərə heyvan adının verilməsi türk münəccimlərinin, Turan kahinlərinin adı ilə bağlıdır. Və indi də İran münəccimləri bundan istifadə edirlər» (Məmməd Əmin Rəsulzadə). Novruz bayramına bu cür yanaşmasından da görmək olur ki, Cümhuriyyət liderlərinin nəzərində millilik bəşəriliklə vəhdətdədir. Novruz bayramını türk mifologiyası, qədim türk təqvim sistemi ilə əlaqələndirən cümhuriyyətçilər «İran-Turan bayramı» adlandırmaqla bu bayramın beynəlxalq mahiyyətinə işarə etməyi vacib bilirlər.

Beləliklə, aydın olur ki, dövlətçilikdə dünyəvi dəyərləri milli dəyərlərlə üzvi şəkildə qovuşduran Cümhuriyyət liderləri bu xətti mədəniyyətə münasibətdə də nəzərə alır və bu istiqamətdə tarixdə iz buraxan mühüm işlər görürdülər.

Sovet dövründə, xüsusən bu dövrün 20-30-cu illər mərhələsində Azərbaycan folklorşünaslığının keçib gəldiyi çətin və məşəqqətli yaradıcılıq yoluna ümumi nəzər saldıqda qabaqcadan məlum olan bir məsələ zəngin faktlarla bir daha öz təsdiqini tapır: folklorşünaslıq yalnız şifahi xalq ədəbiyyatının problemlərini araşdırmaqla məhdudlaşmır və milli mədəniyyətin folklorla yanaşı, digər sahələrini də imkan daxilində əhatə etməyə çalışır. Konkret olaraq məsələyə 1920-1930-cu illər Azərbaycan folklorşünaslığı nümunəsində baxsaq, qeyd etməliyik ki, həmin onilliklərdə folklor elmimizin çoxşaxəli, çoxcəhətli olmasını və yaxud buna can atmasını, hər şeydən əvvəl, predmetin öz mahiyyəti diqtə edir. Bu elmin hədəf seçdiyi folklor adlı predmet heç də yalnız xalq ədəbiyyatı anlayışı ilə öz sərhədlərini bitirmir və şifahi ənənəyə əsaslanan böyük bir mədəniyyətin xalq teatrı, xalq musiqisi, xalq rəqsləri, xalq təbabəti və s. kimi başqa sahələrini də özündə ehtiva edir. Təsadüfi deyil ki, xalq ədəbiyyatına dair araşdırmalarında Yusif Vəzir Çəmənzəminli bu ədəbiyyatın mərasimlərlə bağlılığını xüsusi nəzərə alır; Hənəfi Zeynallı və Əmin Abid lirik folklor janrlarının formalaşmasında xalq musiqisinin müstəsna yerinin və rolunun olduğunu diqqət mərkəzində saxlayır. Şifahi ənənə üstündə yaranan və bu şəkildə yaşamaqda davam edən xalq mədəniyyətinin yazılı mədəniyyətlə müqayisələr kontekstində araşdırılması, heç şübhəsiz, 1920-1930-cu illər Azərbaycan folklorşünaslığını dar çərçivədən elmin geniş üfüqlərinə çıxaran başqa mühüm amildir. Hənəfi Zeynallı, Əmin Abid, Yusif Vəzir Çəmənzəminli, Vəli Xuluflu, Salman Mümtazın tədqiqatçı kimi yazılı ədəbiyyatla

qırılmaz bağlılığı onların folklorşünaslıq fəaliyyətinə, söz yox ki, əlavə üstünlüklər gətirir və bu üstünlüklər Azərbaycan folklorunun, bu folklorun ən mühüm sahələrindən biri olan Azərbaycan şifahi xalq ədəbiyyatının müasir elmi təməllər üzərində öyrənilməsinə geniş imkanlar açır. Həm şifahi, həm də yazılı sənətin sirlərinə bələdlik imkan verir ki, bu folklorşünaslar, xüsusən də Hənəfi Zeynallı və Vəli Xuluflu 1920-1930-cu illərdə gedən ən ciddi filoloji müzakirə və mübahisələrdə, milli mədəniyyətin taleyüklü məsələlərinin həllində yaxından iştirak etsinlər. Ana dili, bu dilin fonetik, leksik və qrammatik normalarının və yazı qaydalarının müəyyənləşdirilməsi belə məsələlərdən biri idi və tamamilə təbii haldır ki, həmin məsələ ilə bağlı elmi mövqe ortaya qoyan ziyalılarımız arasında Hənəfi Zeynallı və Vəli Xuluflunun da adı vardır. Vəli Xuluflu 1925-ci ildə «Yeni türk əlifbası ilə yazı qaydaları» kitabını, 1929-cu ildə «İmla lüğəti»ni çap etdirir. 1926-cı ildə I Türkoloji Qurultayda terminlər barədə məruzə edən və türk dillərində elmi istilahların sistemini müəyyənləşdirməyə çalışan bir neçə türkoloqdan biri Hənəfi Zeynallı olur.

1920-1930-cu illərdə Azərbaycanda gedən mürəkkəb milli-filoloji prosesin əsas istiqamətlərini doğru-düzgün anlamaqda I Türkoloji Qurultayın materialları əhəmiyyət daşıyır. Qurultayda terminologiya müzakirə olunan məsələlərdən yalnız biri idi. Terminologiya ilə yanaşı, əlifba, orfoqrafiya, orfoepiya, tədris metodikası, tarix, etnoqrafiya, ədəbi dil, türk xalqlarında ortaq ədəbi dil Qurultayın gündəliyində duran və çox ciddi elmi təhlil predmetinə çevrilən türkoloji məsələlər idi. Bütün bu məsələlər içərisində Qurultayı ən çox məşğul edən və daha qızğın müzakirələrə səbəb olan məsələ isə, heç şübhəsiz, əlifba məsələsi, ərəb hürufatından latın qrafikasına keçib-keçməmək məsələsi idi. Əslində 131 nəfərlik nümayəndə heyətini, görkəmli türkoloqları əhatə edən bu möhtəşəm

Qurultay, hər şeydən əvvəl, əlifba məsələsinə görə çağrılmışdı. I Türkoloji Qurultay haqda sanballı tədqiqat əsərinin müəllifi olan Cəlal Qasımov yazır: «Birinci Türkoloji Qurultayda bir çox məsələlər müzakirəyə çıxarılaraq özünün elmi həllini tapmasına baxmayaraq, onun ana xəttini yeni əlifbanın (latın əlifbasının) qəbulu məsələsi təşkil edirdi. Başqa sözlə desək, Qurultaya aparan yol əlifbadan başlayan yol idi». Qurultay nümayəndələrindən çoxuna bəlli idi ki, Moskva türk xalqlarının ərəb əlifbasından latın əlifbasına keçməsi qərarında israrlıdır və qərarın yerinə yetirilməsində Azərbaycan, hələ çar Rusiyası dövründən əlifba dəyişikliyi ətrafında müzakirələrin getdiyi bir ölkə kimi, mühüm rol oynamalıdır.

Əlbəttə, əlifba islahatı aparmaqda Moskvanın öz marağı, Azərbaycan ziyalılarının isə öz marağı vardı. Mərkəzi hakimiyyətin siyasi marağının nədən ibarət olması barədə söhbəti bir az sonraya saxlayıb, Azərbaycan maarifçilərinin əlifba islahatı sahəsindəki fəaliyyətindən danışsaq, heç şübhəsiz, hamıdan əvvəl Mirzə Fətəli Axundzadənin adını çəkməliyik. Ərəb əlifbasını islah edib təkmilləşdirmək və ərəb əlifbasından latın əlifbasına keçmək kimi iki əsas ideya irəli sürən və hər iki ideyanın (xüsusən də ikincinin) həyata keçməsi üçün gərgin əməli fəaliyyət göstərən Mirzə Fətəli Axundzadə bu sahədə öz istəklərini gerçəkləşdirə bilməsə də, onun əlifba ilə bağlı ideyalarının hər ikisi qüvvədə qaldı və özündən sonrakı Azərbaycan maarifçilərinin bir çoxu tərəfindən davam və inkişaf etdirildi. Məhəmmədağa Şahtaxtlı belə maarifçilərdən biri idi. Ərəb əlifbasının dəyişdirilməsi – Mirzə Fətəli Axundzadənin başladığı və Məhəmmədağa Şahtaxtlının inkişaf etdirdiyi bu işin XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Fərhad Ağazadə, Abdulla Əfəndizadə, Süleyman Sani Axundov kimi tərəfdarları və icraçıları ortaya çıxdı. Yazılı ədəbiyyatla bərabər, şifahi xalq ədəbiyyatının da

araşdırılmasında xüsusi xidməti olan Firidun bəy Köçərli ərəb əlifbası barədə yazırdı: «Bütün müsəlmanlar tərəfindən qəbul edilmiş ərəb əlifbası müsəlman dünyasında tərəqqiyə ciddi surətdə maneçilik törədir və əsaslı dəyişikliyə ehtiyacı vardır. Lakin bütün məsələ köhnə, əsrlərlə işlənən əlifbanı ləğv edib, onun əvəzinə daha əlverişli və daha mükəmməl əlifba təqdim etməkdir». Firidun bəy Köçərlinin bu sözləri Mirzə Fətəli Axundzadədən başlayan əlifba mücadiləsinin XX əsrin əvvəllərində qismən geniş vüsət almasının nədən, hansı problemdən qaynaqlandığını, ümumi şəkildə olsa da, nişan verir.

Əlifba məsələsi dövlət səviyyəsində gündəmə ilk dəfə Azərbaycan Cümhuriyyəti dövründə gəldi. Mirzə Fətəli Axundzadənin qoyduğu suala – «islah olunmuş ərəb əlifbası, ya latın əlifbası?» sualına Cümhuriyyət Mirzə Fətəlinin son qənaətinə uyğun bir cavabı – «latın əlifbası!» cavabını verdi. Bu dövrdə latın əlifbasına keçidin tərəfdarlarından biri də yazıçı-folklorşünas Yusif Vəzir Çəmənzəminli oldu. Yusif Vəzir Çəmənzəminli belə hesab edirdi ki, hürufat yalnız Azərbaycan üçün deyil, bütövlükdə Şərq üçün ən zəruri məsələlərdən biridir; hürufatımız latın hürufatı olsa, milli maarifimiz az bir zamanda ölkəmizin hər nöqtəsinə yayılar. Məhəmmədağa Şahtaxtlı, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mahmud bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə kimi nüfuzlu ziyalıların müdafiə etdiyi latın əlifbasına keçid məsələsi dövlət əhəmiyyətli məsələlər sırasına daxil oldu və Cümhuriyyət bu sahədə zəruri addımlar atdı. Maarif Nazirliyi nəzdində yaradılmış xüsusi komissiya Məhəmmədağa Şahtaxtlının, Abdulla Əfəndizadənin layihəsinə, eləcə də Abdulla Tağızadənin Mirəziz Seyidovla birlikdə hazırladığı layihəyə baxıb Abdulla Əfəndizadənin layihəsini qəbul etdi. Cümhuriyyətin süqutu bir çox başqa mühüm

işlər kimi əlifba layihəsinin də həyata keçirilməsi işini yarımçıq qoydu.

Sovet Azərbaycanında əlifba müzakirələri bolşevik hakimiyyətinin ilk illərindən Nəriman Nərimanovun göstərişi ilə başladı. 1921-ci ildə Fərhad Ağazadənin sədrliyi ilə əlifba komissiyası yaradıldı. Bir az keçmiş Yeni Türk Əlifba Komitəsi təşkil olundu və 1922-ci ildə Səmədağa Ağamalıoğlu həmin Komitənin sədri təyin edildi. Cəlil Məmmədquluzadə, Fərhad Ağazadə, Xalid Səid Xocayev, Vəli Xuluflu kimi ziyalılar Komitə xətti ilə əlifbanın dəyişdirilməsi istiqamətində gərgin fəaliyyət göstərdilər. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri kimi Səmədağa Ağamalıoğlunun böyük səlahiyyət sahibi olması, onun Moskvada Vladimir Leninlə görüşüb əlifbanı dəyişmək barədə xüsusi tapşırıq alması, təbii ki, bu sahədə işlərin sürətlənməsinə əsaslı təsir göstərdi. Səmədağa Ağamalıoğlunun başçılıq etdiyi nümayəndə heyəti Simferopol, Daşkənd, Orenburq, Ufa və Kazan şəhərlərində əlifba müzakirələri keçirdi. Həmin müzakirələr barədə ətraflı məlumatı qeyd etdiyimiz nümayəndə heyətinin üzvü Xalid Səid Xocayevin 1929-cu ildə Bakıda çap etdirdiyi «Yeni əlifba yollarında əski xatirə və duyğularım» kitabından almaq olur. Xalid Səid Xocayevin xatirələrindən bəlli olur ki, Krımda keçirilən əlifba müzakirələrinə Həsən Səbri Ayvazov, Bəkir Çobanzadə kimi ziyalılar da qoşulur. Krımdakı müzakirələrin birində Səmədağa Ağamalıoğlunun çıxışından sonra Həsən Səbri Ayvazovun əlifba ilə bağlı mövqeyində dəyişiklik olmasını Xalid Səid Xocayev oxucuya belə çatdırır: «Mən bu dəqiqələrə qədər əski əlifbanı mühafizə etmək tərəfdarı idim. Bu onun nöqsanlarını bilmədiyimdən dolayı deyildi, onun nöqsanlarını mən də hər kəs qədər bilirdim, amma yenə mühafizə tərəfdarı idim… İndi gərək möhtərəm Ağamalıoğlunun sözlərindən və gərəksə başqa yoldaşların sözlərindən mənə

qənaət hasil oldu. Mənim qorxularım bətərəf oldu. Bundan sonra, artıq qəti surətdə yeni əlifba tərəfdarı olduğumu elan edirəm… Səməd ağa sözündə, məsləkində sabit bir adam olduğundan, verdiyi sözləri də yerinə yetirəcəyindən əminəm». Həsən Səbri Ayvazovun sonradan Xalid Səid Xocayev tərəfindən yazıya alınıb xatırlanan bu nitqindən «mənim qorxularım bətərəf oldu» fikrinin üstündən adlayıb keçmək çətindir. Əski əlifba tərəfdarı olan Həsən Səbri Ayvazovun nədən qorxduğunun, nəyin həyəcan və təlaşını keçirdiyinin fərqinə varsaq, I Türkoloji Qurultayda əlifba dəyişikliyinə kəskin etiraz edən ziyalıların da mövqeyini az-çox anlamış olarıq. O ziyalılar ki, ərəb əlifbasının nöqsanlarını bilə-bilə «mühafizəkarlıq» nümayiş etdirməli olurdular. «Mühafizəkar» mövqe tutmalı olanlar heç də bilməmiş deyildilər ki, ərəb əlifbasında danışıq səslərinin hamısını işarə edəcək qədər hərf yoxdur; sait səslər bir çox hallarda samit səslərin yanında yazılmadığına görə sözü doğru-düzgün oxumaq çətinləşir; bəzi hərflər bir-birindən yalnız nöqtələrlə fərqləndiyindən nöqtənin yerində olmaması sözün yanlış oxunmasına səbəb olur və s. Ərəb əlifbasının qüsurlu olduğunu çox yaxşı başa düşən Həsən Səbri Ayvazov kimi maarifçilərin bu əlifbanı dəyişməklə bağlı tərəddüd və narahatlığının səbəbini araşdırmaq istərkən Xalid Səid Xocayevin «Xatirələr»i yenə yardımçımız olur. Xalid Səid Xocayev Krımdakı əlifba müzakirəsində Bəkir Çobanzadənin də çıxış etdiyini bildirir və onun çıxışında belə bir fikrin səsləndiyini diqqətə çatdırır: «Bizə bir-birinə yaxın dildə danışan türk-tatar xalqlarını kəndi ətrafına toplayıb elm və mədəniyyət yolu ilə sürətlə irəlilədəcək bir əlifba lazımdır». Bu sözlərdən aydın olur ki, ziyalılardan bir çoxunun latın əlifbasına keçməkdə başlıca umacağı türk xalqlarının bu əlifba vasitəsilə bir-birlərini rahat oxuyub anlaya bilməsi, yazı mədəniyyəti baxımından sıx birləşə bilməsi olub. Çox güman

ki, Həsən Səbri Ayvazov kimi ziyalılar Səmədağa Ağamalıoğlu ilə söhbətlərdə türk xalqlarının yazı əsasında daha da yaxınlaşacağına əmin olub latın əlifbasının tərəfdarı kimi çıxış etmişdilər.

Latın əlifbasından nigaranlığın başqa bir səbəbi də vardı: bu vaxta qədər ərəb əlifbası ilə yazılmış elmi-mədəni irsdən uzaq düşmək. Belə bir nigaranlıq və narahatlıq I Türkoloji Qurultaydakı əlifba müzakirələrində əski əlifba tərəfdarlarının, xüsusən tatar türkoloqu Qalimcan Şərəfin və qazax türkoloqu Əhməd Baytursunun çıxışlarında öz əksini qabarıq şəkildə tapdı. Qalimcan Şərəf yazı sistemi ərəb əlifbasından da qəliz olan yaponları misal çəkib qeyd edirdi ki, yaponlar doxsan milyon funt sterlinq civarında pul xərcləyib əlifbanı dəyişmək istədilər. Amma o boyda xərc çəksələr də, 1914-cü ildə qərar çıxarıb latın əlifbasına keçməkdən rəsmi şəkildə imtina etdilər. Qalimcan Şərəfin yaponlardan gətirdiyi bu misal latın əlifbasına keçib ərəb əlifbasındakı zəngin ədəbi irsdən uzaq düşəcəyimizin təhlükəsini diqqətə çatdırmaq məqsədi daşıyırdı. Hadisələrin gedişatı göstərdi ki, Həsən Səbri Ayvazov, Qalimcan Şərəf, Əhməd Baytursun kimi ziyalıların əlifba ilə bağlı narahatlıq və təlaşı əsassız deyilmiş, mərkəzi hakimiyyəti maraqlandıran heç də türk xalqlarını yazı sistemi ətrafında bir-birinə yaxınlaşdırmaq yox, əksinə, uzaqlaşdırmaq imiş; türk xalqlarını, eləcə də qeyri-türk əsilli digər müsəlman xalqlarını klassik irsə bağlamaq yox, onları klassik irsdən mümkün qədər ayrı salmaq Moskvanın daha çox maraq dairəsində imiş. Bu siyasətin ən başlıca sübutu latın əlifbasının türk xalqlarında fərqli-fərqli variantlarda qəbul olunması, üstündən bir neçə il keçəndən sonra latın əlifbasından kiril əlifbasına keçmək kampaniyasının başlanması oldu. Maraqlıdır ki, latın təhlükəsi ilə yanaşı, kiril təhlükəsinin də mümkünlüyünü qabaqcadan hiss edən türkoloqlar da vardı. Qazax

türkoloqu Əhməd Baytursun onlardan biri idi. Əhməd Baytursun deyirdi: "O adamlar ki, əvvəlcə rus əlifbasından istifadə etmişlər, onda yenidən onlardan ötrü latın əlifbası məsələsi qoymaq ağılsızlıqdır. Ərəb əlifbası, ya latın əlifbası – fərqi yoxdur, hər ikisinin müsbət və mənfi cəhətləri vardır". Əhməd Baytursunun Qurultayda kiril söhbətini ortaya atması səbəbsiz deyildi. Məsələ burasındadır ki, SSRİ tərkibindəki bəzi xalqlar (məsələn, kalmıklar) I Türkoloji Qurultaya qədərki bir dövrdə artıq kiril əlifbasını qəbul etmişdilər. Qurultayda bir cox digər xalqlarla yanaşı, kirili təzəcə qəbul etmiş xalqların da latın əlifbasına keçmək məsələsi ortaya çıxmışdı. Belə olan halda "məntiq" göstərirdi ki, Qurultaydan sonra başqa xalqların da başına eyni oyun açıla bilər, yəni onların da latını az müddətdən sonra kirillə əvəz oluna bilər. Çox təəssüf ki, "məntiq" özünü doğrultdu: çox çəkmədi ki, Azərbaycan da daxil olmaqla neçə-neçə respublikada latın yazısının mürəkkəbi qurumamış kiril yazısı ortaya atıldı. Latında olduğu kimi, kirildə də islahatın əsas "fəlsəfəsi" xalqları yaxınlaşdırmaq yox, uzaqlaşdırmaqdan ibarət oldu. Oxşar kirillər əvəzinə, fərqli kirillər yarışı başladı və bu yarışda iştirakçıların hamısı məğlubiyyətə uğradı, udan tərəf yalnız yarışın Moskvada oturan təşkilatçısı oldu.

Vaxt keçdi, zaman dəyişdi, əlifba islahatını "ayır, buyur" siyasətinin tərkib hissəsinə çevirən siyasi mərkəz çökdü. 1920-ci ildə əldən verdiyimiz müstəqilliyə yenidən qovuşduq və Cümhuriyyətin vaxtilə başlayıb yarımcıq qoyduğu digər mühüm işlər sırasında latın əlifbasına qayıtmaq məsələsini dövlət səviyyəsində müzakirəyə çıxardıq. Kənar siyasi təsir yox idi, tam da olmasa, qismən ortaq mahiyyət daşıyan və türk xalqlarının bir-birini oxumasını asanlaşdıra bilən bir əlifbanın ortaya çıxarılması üçün əlverişli şərait yaranmışdı. Mümkün ortaqlığa nail olmağın yolu Türkiyə latını ilə ortaq

məxrəcə gəlməkdən keçirdi. Nə yazıq ki, içimizdəki «milli özünəməxsusluq» hissi Türkiyə latını ilə ortaq məxrəcə gəlməyə imkan vermədi. Nəticədə q, ə, x işarələrinin yazıya gətirilməsi kimi «özünəməxsusluq hesabına» latın əlifbasının Azərbaycan variantı əlifbanın Türkiyə variantından uzaq düşdü. Bu cür «özünəməxsusluq» hesabına özbək, türkmən, tatar… latınları bir-birindən, həmçinin Türkiyə və Azərbaycan latınlarından fərqləndi. Sovet dövründə türk respublikalarında həyata keçməsi mümkün olmayan ortaq əlifba ideyası müstəqillik illərində də bir arzu olaraq qaldı.

«Formaca milli, məzmunca sosialist» yarlıqlı mədəniyyətin diqqət mərkəzində durduğu bir dövrdə həm forma, həm də məzmunca milli olan klassik irsə ögey münasibət, təbii ki, köhnə əlifbanın tədrisinə də öz təsirini göstərirdi. Sovet dövründə ərəb və fars dillərinin bir fənn kimi keçildiyi orta məktəblərdə və ali təhsil müəssisələrində ərəb əlifbasının tədrisi qaçılmaz idi. Bəli, o vaxt şərqşünaslıq üzrə, ərəb-fars dilləri və klassik ədəbiyyat üzrə mütəxəssislər, həmçinin mollalıq yolunu tutanlar əski əlifbanı öyrənir və bu əlifbadan sərbəst şəkildə istifadə edə bilirdilər, amma əlifbanın kütləvi şəkildə mənimsənilməsindən söhbət belə gedə bilməzdi.

Bəs bu gün vəziyyət necədir? Çox təəssüf ki, ərəb əlifbasına münasibətdə bugünkü vəziyyət dünənkindən çox da fərqlənmir. Sovet dövrü ilə müqayisədə hiss olunan, gözə çarpan əsas fərq İslam dininə maraq göstərənlərin xeyli miqdarda artması hesabına dindarlar arasında əski əlifbadan istifadənin daha geniş miqyas almasıdır. Amma fakt faktlığında qalır. Fakt ondan ibarətdir ki, bu gün bizdə nəinki sıravi adamlar, hətta adlı-sanlı alimlərin bir çoxu ərəb əlifbası ilə yazılmış mətnləri normal şəkildə oxuya bilmir. Belə bir acınacaqlı vəziyyətin yarana biləcəyini 1920-ci illərdə əlifba islahatı ilə məşğul olan maarifçilərimiz qabaqcadan görür və öz tövsiyə-

lərini bildirirdilər. Məsələn, Soltan Məcid Əfəndiyev I Türkoloji Qurultayın kürsüsündən deyirdi: «Latın əlifbası ilə yanaşı, ərəb əlifbası da mövcud ola bilər və ondan istifadə etmək mümkündür. Almaniyanın nümunəsini götürək. Orada latın əlifbası ilə yanaşı, texniki baxımdan, demək olar ki, ərəb əlifbası qədər çətin olan qotik əlifba da var və … hər iki əlifba dinc-yanaşı mövcuddur». İstisnasız olaraq bütün orta ümumtəhsil məktəblərində tədris olunması hesabına və kütləvi mənimsəmə sayəsində ərəb əlifbasının latın əlifbası ilə «dinc-yanaşı» mövcudluğu həm də ona görə vacibdir ki, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın yazı-pozusundan bixəbər qalmayaq. Yaşar Qarayevin sözləri ilə desək, «təkcə torpağımız yox, əlifbamız da iki yerə parçalanıb. İki əlifbalı bir xalq! Dünyada ikinci belə fenomen yoxdur. Əlifba bizim tariximizi də, coğrafiyamızı da iki yerə bölüb. Yalnız indimizlə keçmişimiz arasında yox, Şimalımızla Cənubumuz arasında da Araza çevrilib, hansının – əlifbanın, yoxsa Arazın? – bizi daha zirehli, keçilməz sərhədlə ayırdığı barədə hətta mübahisə etmək olar: axı onlardan biri torpaqdan, ikincisi – mənəviyyatdan keçir. Birincini qılıncla tarix, ikincini qələmlə özümüz yaratmışıq». Yaşar Qarayevin bu sözlərini xatırlatmaqla heç də ərəb əlifbasını ideallaşdırmaq fikrində deyiləm. Ərəb əlifbasını necə ideallaşdırmaq olar ki, ədəbiyyatımızın vicdanı sayılacaq Mirzə Fətəli Axundzadə və Mirzə Cəlil Məmmədquluzadə kimi yazıçılarımız bu əlifbaya qarşı çıxıblar və onun dəyişdirilməsi arzusunda olublar. Çar və sovet Rusiyasının əlifba islahatı ilə bağlı məkrli siyasətini bir qırağa qoyub ədəbi vicdanına şübhə etmədiyimiz həmin sənətkarların əlifbaya dair fikirlərinə əsaslansaq, ərəb qrafikasından latın qrafikasına keçməyi məqbul hal saymalıyıq və sayırıq da. Azərbaycan folklorşünaslığının fəaliyyəti timsalında milli-mədəniyyət mücadiləsindən danışmaq istərkən haşiyə çıxıb əlifba məsə-

ləsinə qismən geniş yer verməkdə əsas fikrim istər təzəcə qəbul etdiyimiz latın əlifbasının, istərsə də «əski» adlandırdığımız ərəb əlifbasının verdiyi imkanlar daxilində həm Güney Azərbaycanla, həm də türk dünyası ilə əlaqələri daha da möhkəmləndirmək məsələsini bir daha diqqətə çatdırmaq idi.

**3.**

Birbaşa və yaxud dolayı şəkildə folklorşünalığa da aidiyyatı olan I Türkoloji Qurultaydan və onun baş mövzusundan – əlifba islahatından danışmaq milli mədəniyyətə məxsus türkləşmək təliminin sovet dövründəki acınacaqlı vəziyyətindən söhbət açmaq zərurəti yaradır. Belə bir zərurət ortaya çıxır ki, I Türkoloji Qurultayda da tez-tez gündəmə gələn bir məsələnin – fəhlə və kəndli məsələsinin milli mədəniyyətdəki yeri nəzərə alınsın, həmin məsələnin geniş şəkildə işıqlandırıldığı bədii əsərlərdə türkləşmək təliminə yer verilib-verilməməsi imkanları götür-qoy edilsin. Unudulmasın ki, I Türkoloji Qurultayla bağlı tarixi faktların ardınca xatırlatmağa ehtiyac duyulan aşağı təbəqə məsələsi yeni məsələ deyildi və sovetləşməyə qədərki dövrdə həmin məsələ müəyyən inkişaf yolu artıq keçmişdi.

Keçilən yola nəzər salıb yenidən Mirzə Fətəli Axundzadə irsinə qayıtdıqda diqqətimzi daha çox cəlb edən Yusif Sərrac obrazı olur. Sərraclıqla (yəhər düzəltməklə) məşğul olan bu adam «Aldanmış kəvakib» povestinin baş qəhrəmanlarından biridir. Amma onu aşağı təbəqəyə mənsub sıravi adam saymaq olmaz. Ruhani təhsili almış Yusifin sərraclıqla məşğul olması ruhanilikdən üz döndərdikdən sonra məcburiyyət qarşısında qalıb atdığı bir addımdır. Yusif Sərracla saray əhli arasında münasibət əslində yuxarı təbəqə təmsilçiləri arasında ortaya çıxan bir münasibətdir. «Aldanmış kəvakib» povestində kəskin toqquşma şəklində gördüyümüz bu müna-

sibət daha yumşaq və nikbin ifadəsini müəllifin komediyalarında tapır. Dramaturqun işıqlı boyalarla qələmə aldığı Hacı Nuru, Şahbaz bəy, Teymur ağa və Səkinə xanım yuxarıların nadanlıq və mənəvi yoxsulluğundan narazı qalıb çıxış yolu axtaran, amma aşağı təbəqəyə mənsub olmayan qəhrəmanlardır. Mirzə Fətəli Axundzadə komediyalarında əkinçi-biçinçi obrazlarına nə toplumu (məsələn, nuxuluları) təmsil edən mənəvi yoxsulların, nə də işıqlı boyalarla təsvir edilən baş qəhrəmanların arasında rast gəlmək olur. Realist ədəbiyyatımız tarixində aşağı təbəqə nümayəndələrinin baş qəhrəman yerində təsvirini ən çox Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığında görürük. «Kiçik adamı böyük ədəbiyyata gətirən» Cəlil Məmmədquluzadə (İsa Həbibbəyli), «öz sələflərindən fərqli olaraq, düşmənə yox, dosta gülən, zalimə yox, məzluma müraciət edən» (Məmməd Cəfər) Mirzə Ələkbər Sabir xalq dedikdə, ilk növbədə, əliqabarlı əkinçi-biçinçini və fəhləni nəzərdə tutur. Bu sənətkarların qənaətinə görə, əkinçi-biçinçi və fəhlənin zəlil vəziyyətə düşməsində bəy-xan və fabrik-zavod sahibi xeyli dərəcədə baiskar və günahkardır. Uzağa getmədən «Danabaş kəndinin əhvalatları» povestini, «Əkinçi» və «Bakı fəhlələrinə» şeirlərini yada salmaq kifayətdir ki, Cəlil Məmmədquluzadənin qələmə aldığı Məhəmmədhəsən əmi ilə Xudayar bəy arasında, Mirzə Ələkbər Sabirin təsvir etdiyi əkinçi ilə torpaq sahibi, fəhlə ilə mədən sahibi arasında zalım və məzlum, əzən və əzilən münasibətinin olduğunu bir daha təsdiq edəsən. Amma bu kimi məlum və məşhur ədəbi faktlar Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir irsi barədə birtərəfli mülahizələr irəli sürməyə heç bir əsas vermir. Heç bir əsas yoxdur, deyək ki, bu sənətkarlar (eləcə də onların qələm yoldaşları) baş qəhrəman səviyyəsinə qaldırdığı məzlumu mütləq olaraq xalqın digər təbəqələrinə qarşı qoyurlar. Nə varlı – kasıb qarşılaş-

ması, nə də «Molla Nəsrəddin» səhifələrində tez-tez müraciət olunan «obrazovannı» və sadədil insan paraleli Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığında xalqa bütöv varlıq kimi baxma prinsipini poza bilmir. Xalqa bütöv varlıq kimi baxmağın hesabınadır ki, bu sənətkarlar məzlumun mütiliyini və nadanlığını zalımın mütiliyi və nadanlığı ilə bir yerdə götürüb təqdim etməyə çalışırlar. Məhəmmədhəsən əmi Xudayar bəyin qarşısında müti quldursa, Xudayar bəy də özündən bir pillə yuxarıda olanların qarşısında müti quldur. Xudayar bəyin nadanlığına baxanda Məhəmmədhəsən əminin nadanlığı toya getməlidir. Bu cür müqayisəni Cəlil Məmmədquluzadənin bir çox başqa əsərləri, o cümlədən "Qurbanəli bəy" hekayəsi əsasında da aparmaq olar. Həmin hekayədə də Mirzə Cəlilin ürək ağrısı ilə toxunduğu əsas məsələ köləlik, nökərçilik psixologiyasıdır. Bu psixologiyanı müəllif oxucuya bəy və rəiyyət obrazlarının timsalında çatdırır. Kərbəlayı Qasım rəiyyət nümayəndəsi kimi, Qurbanəli bəyə itaətkarlıqda nə qədər miskin haldadırsa, Qurbanəli bəy də naçalnikə və digər vəzifəli məmurlara itaətkarlıqda bir o qədər miskin halda, ondan da artıq dərəcədə rəzil vəziyyətdədir. Daxili miskinlik və rəzalətin tənqidində aşağı və yuxarı təbəqə nümayəndələri arasında fərq qoymamaq, nöqsanlara toplumun ümumi nöqsanı kimi yanaşmaq Mirzə Ələkbər Sabir şeiri üçün də səciyyəvidir. Əkinçinin və fəhlənin ayılacağını, öz haqqını tələb edəcəyini düşünüb qorxu-təlaş keçirməsi Mirzə Ələkbər Sabirin təsvir etdiyi sahibkarların daxili miskinliyindən xəbər verir. «Gör millətinin dərdini, axtarma dəvasın» deyən sahibkarların dar düşüncəli olub burnundan beş qarış irəlini görə bilməməsinə sənətkar geniş müstəvidə xalqın bədbəxtliyinin bir əlaməti kimi baxır. Milli-azadlıq hərəkatını ardıcıl olaraq dəstəkləyən Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir xalqın bütövlüyünü bu hərəkatın baş

tutmasının əsas şərtlərindən biri sayır, bəy və kəndli, sahibkar və fəhlə münasibətini, bu münasibətin sağlam əsaslarla qurulmasını taleyüklü məsələlər sırasına daxil edir.

Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir irsində məzlum obrazı ilə bağlı məlum məsələləri yığcam şəkildə xatırlatmaq proletar mədəniyyətinin məğzinin və ideoloji istiqamətinin nədən ibarət olduğunu daha aydın görməyə kömək edir. Aydın görünən, hər şeydən əvvəl, budur ki, sovet platformasını ilk vaxtlardan qeyd-şərtsiz qəbul edən yazıçıların hamısında baş qəhrəman fəhlə-kəndli sinfinin nümayəndəsidir. Amma bu qəhrəmanda Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir qəhrəmanlarında gördüyümüz məzlumluqdan əsər-əlamət yoxdur. Məsələn, Səməd Vurğunun Xanları, Süleyman Rəhimovun Şamosu sıravi fəhlə və kəndli olmaqdan qat-qat artıq dərəcədə bolşevik hərəkatının öndə gedən nümayəndələridir və onlar fəal inqilabçı kimi xanlara, bəylərə, fabrik-zavod sahiblərinə meydan oxuyurlar. 1920-1930-cu illərin ədəbiyyat və incəsənətində fəhlə və kəndlinin mütləq müsbət qəhrəmana çevrilməsi, bu qəhrəmanın tərəddüd etmədən yuxarı təbəqə nümayəndələrinə ölüm hökmü oxuması, söz yox ki, öz qidasını o dövrün siyasi direktivlərindən alır. Proletariat mövzusu dövrün siyasi sənədlərindən qırmızı xətt kimi keçir, dövrün siyasi ittihamnamələrində «zəhmətkeşlərin arzu və istəklərini» nəzərə almaq başlıca meyar kimi götürülür. 1920-1930-cu illər repressiyalarında xalqın yüzlərlə ləyaqətli övladı «fəhlə-kəndli mənafeyini qorumaq naminə» qətlə yetirilir. Cəlal Qasımovun tədqiqatlarına əsaslanıb Firidun bəy Köçərli, Əmin Abid, Hənəfi Zeynallı, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz, Bəhlul Bəhcət, Hümmət Əlizadə kimi folklorşünasların ölüm tarixçəsinə nəzər saldıqda proletar diktaturasının qanlı səhifələri ilə qarşılaşırıq.

Firidun bəy Köçərlinin otuz beş il pedaqoji sahədə çalışması və yüksək səviyyəli müəllimlərin yetişməsində əvəzsiz rol oynaması, Qori Müəllimlər Seminariyasının türk bölməsini Qazağa köçürməkdə xüsusi fədakarlıq göstərməsi, ilk sistemli ədəbiyyat tariximizi iki cilddə yazıb ortaya qoyması, bu günün özündə belə dəyərini itirməyən «Balalara hədiyyə» kimi dərs vəsaiti hazırlaması bolşeviklərdən ötrü heç bir məna və əhəmiyyət kəsb etmir. Həyat və fəaliyyətinin yalnız bircə faktını – Müsavat partiyasının Qazax bölməsinə rəhbərlik etməsini bilmək bəs edir ki, Firidun bəy Köçərli həbs olunsun və güllələnsin. «Bizim müsəlmanların nücəba və əhli-kəmalı öz kökləri və rişələri mənziləsində olan rəiyyət tayfasını, əkinçi və cütçü qardaşlarını unudub, bilmərrə onların qeydinə qalmazlar» deyib ziyalıları xalqın aşağı təbəqəsinə biganə qalmaqda qınayan və onları əkinçi-biçinçi qədrini bilməyə çağıran Firidun bəy Köçərli həbs edilərkən daha çox nədə ittiham olunsa yaxşıdır? Xalqı istismar etməkdə, hədə-qorxu gəlib kəndlilərin əlindən torpaq sahələrini almaqda! İttihama cavab olaraq Firidun bəy Köçərli belə ifadə verir: «Mənim atamın 60 desyatindən artıq torpaq sahəsi olmuşdur… Artıq üç ildir ki, bu torpaqları təmənnasız olaraq kəndlilərə vermişəm… Mən heç vaxt bu malikanədən bir qəpik də olsun qazanc əldə etməmişəm». Bu izahatda əksini tapan faktlar Firidun bəy Köçərlinin sözü ilə əməlinin bir olduğunu göstərən faktlardır. Bir ədəbiyyatşünas və pedaqoq kimi ziyalıları əliqabarlı rəncbərin qədrini bilməyə, ona imkan daxilində maddi və mənəvi dəstək olmağa çağıran Firidun bəy Köçərli torpaq sahələrini heç bir təmənna güdmədən kəndlilərə paylamaqla sübut edir ki, zəhmətkeş kütlə ilə bağlı çağırış etməyə onun mənəvi haqqı vardır. Xalqa bütöv varlıq kimi baxan Firidun bəy Köçərlinin haqqı var ki, aşağı təbəqə ilə yuxarı təbəqə

arasında sədd çəkənlərin yanlış yolda olduqlarını onlara başa salsın.

Firidun bəy Köçərlinin bir ədəbiyyatşünas kimi, xalqla bağlı mövqeyinin qabarıq ifadəsini, heç şübhəsiz, “Azərbaycan türklərinin ədəbiyyatı” kitabında görürük. Şimali Azərbaycanın Cənubi Azərbaycandan ayrı salınıb Rusiya tərkibinə birləşdirilməsindən sonrakı dövrdə yazılmış bu əsər o taylı-bu taylı bütöv Azərbaycan ədəbiyyatı tələbinə qismən də olsa, cavab verir. XIX əsr ədəbiyyatımızı Şimalda Gəncə, Qarabağ, Şirvan, Naxçıvan, İrəvan, Quba, Dərbənd kimi bölgələr üzrə izləyən müəllif Cənubun Əbülqasım Nəbati, Əbülhəsən Raci, Pürqəm, Molla Hüseyn Marağalı Dəxil, Məhəmməd Bağır Xalxali, Məhəmməd Əmin Dilsuz kimi sənətkarlarına yer verməklə o tay-bu tay nisbətini müəyyən qədər gözləməyə çalışır. Ümumtürk kontekstini də yaddan çıxarmayan Firidun bəy Köçərli cığatay-türk ədəbiyyatının klassiki Əlişir Nəvaiyə və osmanlı-türk ədəbiyyatının nümayəndəsi Yusif Nabiyə ayrıca oçerk həsr edir.

Bəs 1930-cu illərdə vəziyyət necədir? Azərbaycan folklorşünaslarının bütöv xalq və vahid türk mədəniyyəti anlayışlarına münasibəti 1930-cu illərdə hansı şəkildə özünü göstərir? 1930-cu illərdə vəziyyətin acınacaqlı olması, folklorşünaslarımızın qanlı repressiyaya məruz qalması bəlli məsələdir. Lakin bu bəlli məsələ kontekstində bəzi ibrətamiz məqamlara toxunmaq ehtiyacı yaranır. Belə məqamlardan biri 1930-cu illərdə dövrün tələbinə uyğun olaraq, xalq ədəbiyyatına folklorşünasların sinfilik ideologiyası baxımından yanaşmasıdır. Bu cür yanaşma tənqidçilərin şeir, nəsr və dramaturgiyaya münasibətdə rəhbər tutduqları ideoloji-estetik meyarlarla, söz yox ki, yaxından səsləşirdi. Tənqidçilər fəhlə-kəndli sinfinin cəmiyyətdəki aparıcı mövqeyini əks etdirən bədii əsərlərə üstünlük verdikləri, həmin əsərləri “köhnə” ədəbiy-

yata qarşı qoyduqları kimi, folklorşünaslar da "yeni" ədəbiyyatın formalaşmasında folkloru mühüm mənbə və istinad nöqtəsi sayırdılar. Məsələn, Hənəfi Zeynallı "el yaradıcılığından" bəhs edərkən yazırdı: "Özgə dillərin və ellərin təsirinə uyub öz elini unudan kişilər özləri ilə xalq arasında atılınmaz uçurumlar qazımışdılar, elin şifahi ədəbiyyatını, onda olan hikmətamiz, dərin mənalı sözləri görməməklə bərabər, işbu xalqa yabançı olan bir ruhda, bir dildə "ədəbiyyat" yaratmaq istəyirdilər. Məlum ki, xalq da təbiəti iqtizasınca onu tanımayanları tanımayacaqdı. Ondan ayrılanların quş baxışı qarşısında öz yaratdıqlarına daha bərk sarılacaq, daha mütəəssibanə onu saxlayacaqdı. Öylə də oldu: "ədəbiyyat" yaradanlar başqa bir cığırla getdi, kitablar yazdı, xalq dəxi öz yolunu izlədi". Hənəfi Zeynallı "öz elini unudan kişilər", özləri ilə xalq arasında "atılınmaz" uçurum yaradanlar dedikdə kimləri nəzərdə tutur, dırnaqarası ədəbiyyatdan bəhs etməklə konkret olaraq hansı yazıçıların yaradıcılığına işarə edir? Bu sualın cavabı aydın olmasa da, gətirilən sitatda siyasi "dəstədən geridə qalmamağa" təşəbbüs göstərmək faktı ilə qarşılaşırıq. Belə faktlara Hənəfi Zeynallının başqa yazılarında da rast gəlmək mümkündür. Məsələn, toplayıb nəşrə hazırladığı nağıllara ön söz kimi nəzərdə tutduğu "Azərbaycan nağılları haqqında" adlı məqaləsində Hənəfi Zeynallı deyir: "Şah üsul-idarəsi tərəfindən dəfələrlə soyulan kəndli nağıllar vasitəsilə özünün əsrlər boyu çəkdiyi əziyyətlər tarixini əks etdirmişdir. Bu cəhətdən nağıl əməkçi kütlənin yeni nəsillərində zalımlara – ağalara qarşı kin və ədavət bəsləmək üçün ən kəskin bir alət olur". Azərbaycan nağıllarındakı mifoloji düşüncə tərzini və beynəlxalq motivləri aydınlaşdırmaq, söyləyicilik sənətinin incə məqamlarına toxunmaq baxımından mühüm elmi əhəmiyyət daşıyan bir məqalədə imkan düşdükcə sinfi mübarizədən danışılması və nağılın "ağalara qarşı kin və ədavət bəs-

ləmək üçün kəskin bir alət" hesab edilməsi, heç şübhəsiz, 1930-cu illərdəki siyasi ab-havaya uyğun addım atmaq mahiyyəti daşıyır. Hənəfi Zeynallı çox gözəl bilir ki, nağıllarda hökmdar kultu var və bu kult öz başlanğıcını mifoloji düşüncədən götürür. Mifoloji təsəvvürə görə, hökmdar Allahın yerdəki təmsilçisidir və o, taxt-taca məhz böyük Yaradanın iradəsi ilə sahib olur. Təsadüfi deyil ki, "Dədə Qorqud" dastanının "Bəkil oğlu İmran" boyunda "padşahlar Tanrının kölgəsidir" fikri səslənir və bu fikir yalnız həmin boy üçün yox, bütövlükdə dastan üçün əsas ideya istiqamətlərindən birinə çevrilir. Hökmdar kultunun nağıllar üçün nə qədər səciyyəvi olması dövlət quşu (şahlıq quşu) motivində özünü daha qabarıq göstərir. Dövlət quşu kimin çiyninə qonursa, o adamı taxtda oturdurlar. Bu yolla, yəni Allahın iradəsi ilə padşah seçilən adamın ədalətsizliyə yol verməsi mümkün olmayan bir işdir. Belə olduğu halda padşahın və onun əlaltılarının əməkçi sinfi istismar etməsini nağılların əsas mövzularından biri elan etmək, əlbəttə, özünü doğrultmur.

Şifahi sənətə sinfilik ideologiyası baxımından yanaşmanın izləri Vəli Xuluflunun da əsərlərində açıq-aşkar özünü büruzə verir. Oktyabr inqilabının dalğası üstündə meydana atılan mədəni inqilabın mahiyyətini aydınlaşdırmaq istərkən Vəli Xuluflu deyir: "Bizim mədəni inqilabımız proletariat və əməkçi kəndli kütləsinin yeni sosializm mədəniyyəti, yeni nəsil və yeni insan, yeni sosializm həyatı uğrunda aparılan mübarizədən ibarətdir. Bizim təsərrüfat aləmində rekonstruksiya etdiyimiz kimi, mənəvi cəhətdən də hər şeyin quruluşunu dəyişməliyik. Bütün köhnə adət, köhnə quruluş, əski düşüncə, xülasə, bütün əski münasibət tamamilə yerli-dibli dəyişməlidir". Deməli, Vəli Xuluflu dövrün siyasi-estetik tələblərindən çıxış edərək bu qənaətə gəlir ki, mədəni inqilabın başlıca məqsəd və məramı köhnəni yerli-dibli dəyişdirmək, onun əvə-

zində yeni sosialist mədəniyyətini, bütövlükdə yeni sosialist düşüncə və həyat tərzini bərqərar etməkdir. Bəs inqilabi dəyişmə prosesində xalq ədəbiyyatının yeri və rolu nədən ibarət olmalıdır? Bu suala Vəli Xuluflunun aşağıdakı sözləri müəyyən qədər aydınlıq gətirir: “Onlar (xalq ədəbiyyatı yaradan ulu babalar – M.K.) öz zamanələrində hər nə qədər mükəmməl və mədəni bir həyat keçirmiş olsalar da, yüzlərcə illər bundan qabaq keçirilən həyatın bizim üçün heç bir fayda verməyəcəyi məlumdur. Bu ədəbiyyatdan (şifahi xalq yaradıcılığından – M.K.) məqsəd bizdən əvvəl yaşayıb getmiş olan kütlənin həyatı ilə tanış olmaq və indiki həyatı ondan daha yüksək dərəcədə qurmaqdır”. Vəli Xuluflu folklor örnəklərini yaratmış ulu babalarımızın “mükəmməl və mədəni” bir həyat keçirmələrini qətiyyən inkar etmir. Amma bununla bərabər, həmin “mükəmməl və mədəni” həyatın qurulmaqda olan yeni sosialist həyat tərzindən tamamilə uzaq olmasını da qeyd etməyi yaddan çıxarmır.

Gətirilən misallardan aydın olur ki, həm Hənəfi Zeynallı, həm də Vəli Xuluflu əməkçi sinfin “mənafeyinə” əsaslanan sosialist həyat tərzini və sosialist mədəniyyətini ideallaşdırıb köhnə həyat tərzi və köhnə mədəniyyətə qarşı qoyur. Onların qənaətinə görə, köhnə və yeni qarşıdurmasında folklorun imkanlarından yeni mədəniyyətin bərqərar olması naminə yararlanmaq lazımdır. Yararlanmalı cəhətlərdən ən başlıcası, həmin folklorşünasların fikrincə, xalq ədəbiyyatının son dərəcə anlaşıqlı bir dildə olması, əməkçi kütlənin həyat tərzini, istək və arzularını əks etdirməsidir.

1930-cu illərdə folkloru siyasi-ideoloji baxımdan qiymətləndirmə, təbii ki, elmi əsər səhifələrində qapanıb qalmır və tədricən şifahi xalq ədəbiyyatı mətnlərinin tərtib və nəşr olunmasına da öz təsirini göstərirdi. Aşağı təbəqə nümayəndələrinin müsbət, “istismarçı” sinif nümayəndələrinin isə

mənfi planda təsvir və təqdim edildiyi xalq ədəbiyyatı nümunələri diqqət mərkəzində saxlanır və folklor toplularında xüsusi yer tuturdu. Folklor toplayıcısı el sənətkarlarına kolxozdan, pambıqdan, şura hökumətinin qüdrətindən bəhs edən şeirlər, hətta dastanlar sifariş verir və həmin "folklor" nümunələrini tələm-tələsik toplulara daxil edirdi. Folklor toplayıcısı Hümmət Əlizadənin "El ədəbiyyatını necə topladım" adlı məqaləsindən aşağıdakı parça dediyimizə bir misaldır: "Məni toy məclisinə dəvət etdilər... Tanıdığım aşıqlardan Aşıq Əli, Aşıq Hüseyn, Aşıq Əsəd, Aşıq Mirzə, Şair Vəli və Aşıq Ələs burada idilər... Məclis əhlinin arzusuna görə indi də Aşıq Hüseyn (Bozalqanlı – M.K.) oxumalı idi. Hamı müntəzir ikən birdən o, saz əlində ortaya çıxdı. Camaat hər nə dedisə də, birər xamdan oxudu və sonra oturmaq istərkən dedim:

– Hüseyn yoldaş! Bənim də bir ricam var, olarmı ərz edim?

– Olar, olar, de, görüm, nədir.

– Hərgah mümkün olsa, Şuralar hökümləti haqqında bir söz oxu.

Cavabında şən çöhrəsi gülümsəyərək "baş üstə, komsomol yoldaş" – dedi. Aşıq Hüseyn heç düşünmədən, fikirləşmədən sədəfli sazı sinəsinə basıb Şuralar haqqında oxumağa başladı:

Şuraların rəyi budur:
Dünyada bir ad eyləsin.
Hər yanda ki, xərabə var
Şenləsin abad eyləsin...

Aşıq Hüseyn sözünü qurtarar-qurtarmaz məclis tərəfindən gurultulu alqışlarla qarşılandı". Sifariş əsasında 1920-1930-cu illərdə, eləcə də sonrakı onilliklərdə şura hökumətini vəsf edən bu cür gəraylı və qoşmaların, hətta "Tarlaçı qız" kimi dastanların ortaya çıxması məlum faktlardır. O da mə-

lumdur ki, həmin faktlara əsaslanan Paşa Əfəndiyev və Azad Nəbiyev kimi folklorşünaslarımız xalq ədəbiyyatına aid dərsliklərinə “Sovet dövrü folklor yaradıcılığı” adlı bölmələr daxil ediblər. Həmin bölmələrin xüsusi müzakirəsinə lüzum görmədən bildirirəm ki, siyasi sifarişlə yaranan, amma qətiyyən populyarlıq qazana bilməyən hər hansı bədii materialı folklor nümunəsi adlandırmaq mümkün deyil.

Əlbəttə, Hümmət Əlizadədən çəkdiyim misal bu folklorşünasın toplayıcılıq sahəsindəki əvəzsiz xidmətləri üzərinə kölgə sala bilməz. Necə ki, bir az ondan əvvəl Hənəfi Zeynallıdan, Vəli Xuluftudan çəkdiyim misallar onların folklorşünaslığımız sahəsindəki xidmətləri üzərinə kölgə sala bilməz. Toxunduğum yaralı yerlər sadəcə folklorşünaslığımızın keçib gəldiyi yola nəzər salmaq, bu yolda yaşadığımız ağrı-acını bir daha götür-qoy edib nəticə çıxarmaq üçündür.

Gənc yaşlarından bolşevik hərəkatına qoşulan, 1930-cu illərdə məsul vəzifələrdə çalışan Hənəfi Zeynallı və Vəli Xuluflunun sovet ideologiyasına ürəkdən bağlanmasına, folklorun tərtib, nəşr və tədqiqində marksist-leninçi mövqe tutarkən bu məsələdə onların səmimiyyət nümayiş etdirməsinə şübhə ilə yanaşmaq doğru-düzgün olmazdı. Amma belə bir faktı da inkar etmək olmaz ki, Hənəfi Zeynallı, Vəli Xuluflu və o dövrün digər folklorşünasları Firidun bəy Köçərlinin faciəvi taleyindən ibrət götürür və ehtiyatı əldən vermək istəmirdilər. “Folklorun milli-mənəvi düşüncədəki yerini dərindən-dərinə anlayan bu alimlərdən birinin (Hənəfi Zeynallının – M.K.) folkloru “yalançı klassik ədəbiyyata” qarşı qoyması, ikincisinin (Vəli Xuluflunun – M.K.) isə folklorda yaşayan həyat təcrübəsinin bu gün üçün heç bir fayda verməməsini söyləməsi, bizcə, onların iç dünyasındakı həqiqəti əks etdirmirdi. Klassik ənənələrlə tərbiyə olunmuş, klassik Şərq ədəbiyyatının incəliklərinə, dini-təsəvvüfi sehrinə, irfani-idraki füsun-

karlığına dərindən bələd olan bu iki alimə həmin fikirləri dedizdirən dövrün amansız ideologiyası idi" (Cəlal Qasımov). Bəli, Firidun bəy Köçərli taleyini yaşamaq istəməyən folklorşünaslar siyasi sayıqlıq nümayiş etdirməyə çalışırdılar. Siyasi sayıqlıq yalnız sinfilik ideologiyasına sadiqlik nümayiş etdirməkdə yox, həm də bolşeviklərin millətçilik adı ilə damğaladığı Müsavat hökumətinə mənfi münasibət bildirməkdə özünü göstərirdi. Belə bir münasibətə bir vaxt Azərbaycan Cümhuriyyətinin İstanbulda konsulu olmuş Yusif Vəzir Çəmənzəminlinin daha çox ehtiyacı vardı. Sovet hökumətinə məktubla müraciət edib 1926-cı ildə Fransadan Vətənə qayıdan Yusif Vəzir Çəmənzəminli özünə qarşı şübhəni aradan qaldırsın deyə Müsavat hökumətini pisləməli oldu: "Əgər Məhəmməd Əminlər Azərbaycanda feodalizmin ehyasına və qolçomaqların təkrar iş başına gəlməsinə inanırlarsa, əmin olsunlar ki, bu olmayacaqdır. Bütün Azərbaycan gəncləri ölərlər, lakin əskimiş idarənin təkrar hökm sürməsinə razı olmazlar. Çünki böyük inqilabın feyzləri geri alınmaz...

Əgər "milli məfkurə" bizə zülm bəxş edəcəksə, ölsün o məfkurə. Əgər məfkurə dediyimiz ibtidai bir idarədə qövmi bir təşkilat isə, yox olsun o məfkurə.

Yeniliyin və inqilabın şüarı bu". Yusif Vəzir Çəmənzəminlinin ürək ağrıdan bu sözlərini xüsusi təhlil və təkzibə ehtiyac yoxdur. Yalnız onu deməyə ehtiyac var ki, 1920-30-cu illərdə Müsavat hökuməti və Cümhuriyyət liderləri haqda ayrı-ayrı ədəbiyyat adamlarının (yazıçıların, ədəbiyyatşünas, tənqidçi və folklorşünasların) dediyi bu kimi sözlər siyasi gedişdən başqa bir şey deyildi. Siyasi gedişin arxasında gizlənən əsas niyyət isə repressiyadan yaxa qurtarmaq idi.

1930-cu illər Azərbaycan folklorşünaslığının müsbət mənada ibrət götürməli cəhətlərindən biri budur ki, az qala hər səhifəsinə repressiya təlaşı hopmuş bu folklorşünaslıq

imkan daxilində dünya standartlarından çıxış etməyə çalışdı, Azərbaycan şifahi xalq ədəbiyyatı örnəklərinin araşdırılmasında ümumdünya və ümumtürk kontekstlərini nəzərə ala bildi. Hənəfi Zeynallı və Yusif Vəzir Çəmənzəminlinin folklora dair məqalələri ümumdünya kontekstini, Əmin Abidin folklora dair məqalələri isə ümumtürk kontekstini nəzərə almaq baxımından xüsusi olaraq seçildi. Sovet hökumətinin "burjua" elminə düşmən münasibət bəslədiyi və türkçülüyə qənim kəsildyi bir vaxtda Azərbaycan folklorşünaslarının dünya standartlarına can atması və ümumtürk mədəniyyət amilini az-çox diqqət mərkəzində saxlaması mühüm tarixi əhəmiyyət daşıdı.

İstiqlal məfkurəsindəki türkləşmək təlimi kimi, islamlaşmaq təlimi də amansız müqavimətlə üzləşdiyinə görə 1920-30-cu illərdə folklor və folklorşünaslıqda din mövzusu yalnız və yalnız tənqidi istiqamətdə öz əksini tapır. İstiqlal məfkurəsindəki müasirləşmək təliminin sovetləşmək şəklində ortaya çıxdığı, məscidlərin anbarlara çevrildiyi, abırlı ruhanilərin əksinqilabçı damğası ilə dustaqxana küncünə atıldığı bir şəraitdə dindən mənəvi-əxlaqi dəyər göstəricisi kimi bəhs etmək çətinləşir. Dinə bolşevik münasibəti, söz yox ki, dinə Mirzə Fətəli Axundzadə münasibətindən fərqli mahiyyətdə ortaya çıxır. Bir daha Mirzə Fətəli Axundzadənin sözlərini yada salaq: "Müəllif istəmir ki, xalq ateist olsun, dinsiz və imansız olsun. Bəlkə, müəllifin məqsədi islam dininin əsr və zəmanəyə müvafiq olaraq protestantizmə möhtac olduğunu göstərməkdir". Deməli, Mirzə Fətəli Axundzadə dinin islah olunub zəmanənin tələbinə uyğunlaşdırılması arzusundadır. Ölkə boyunca Allahsızlar İttifaqının özəklərini yaradan bolşeviklərin arzusu isə dinin yerinə marksizm-leninizm təlimini təbliğ edib bu təlimi insanların şüuruna hopdurmaqdır. Sinfilik ideologiyasına əsaslanan marksizm-leninizm təlimi cəmiyyətdəki bütün insanları qardaş elan edən dini təlimi heç

cür qəbul edə bilməzdi və qəbul etmədi. Belə bir siyasi-ideoloji mövqe istər-istəməz folklorşünaslığa da öz təsirini göstərdi. Vəli Xuluflunun sözləridir. O deyir: "Panislamistlər əhalinin sinfə bulunduğunu bilmərrə inkar edirdilər. Onların fikrincə, müsəlman olan hər kəs, hamısı qardaşdır. Bəy, mülkədar, tacir, fabrikant, xəlifə, padşah da müsəlmandır, kəndli, rəncbər, fəhlə də müsəlmandır. Ona görə də bunların arasında heç bir təfavüt yoxdur... Hamını qardaş hesab etmək adı ilə panislamistlər proletariatın, yoxsul kəndlinin sinfi düşüncəsini və sinfi dərrakəsini qaraldır və istismardan azad olmaq yolunda çalışmağa qoymurdular". Vəli Xuluflunun dili ilə ifadə olunan bu bolşevik təlimi Mirzə Fətəli Axundzadənin dini görüşləri ilə bir araya sığmadığı kimi, "nicat məhəbbətdədir" deyən Əli bəy Hüseynzadənin, insanları qardaşlığa çağıran Əhməd bəy Ağaoğlunun dini görüşləri ilə də qətiyyən üst-üstə düşmürdü. Bu o demək idi ki, istiqlal məfkurəsindəki irs və varislik əlaqələri sovet dövründə qırılmış, bu dövrdə sinfilik ideologiyası millilik ideologiyasını əvəz etməklə dünən və bu gün arasında keçilməz bir sədd yaratmışdı. Hənəfi Zeynallı, Yusif Vəzir Çəmənzəminli, Vəli Xuluflu, Əmin Abid, Salman Mümtaz, Bəhlul Bəhcət, Hümmət Əlizadə kimi folklorşünasların milli ideallara bağlılığı onda idi ki, onlar ölümün gözlə qaş arasında olduğu son dərəcə ağır sosial-siyasi şəraitdə xalq yaradıcılığının nadir incilərini yazıya alıb bizlərə çatdıra bildilər, ideoloji çərçivəyə salınmış tədqiqat əsərlərində bugünkü folklorşünaslığımız üçün əsaslı zəmin rolu oynayan elmi fikirlər irəli sürə bildilər. Adını dərin ehtiramla çəkdiyim bu folklorşünasların repressiya qurbanına çevrilməsinin də başlıca səbəbi onların milli ideallara bağlı olması, bu bağlılığı, dolayı şəkildə olsa da, ifadə etməsi idi...

# ŞİFAHİ VƏ YAZILI ƏDƏBİYYATIMIZDA DEMONİZM

## 1.

Yeraltı dünya ilə bağlı müxtəlif obrazları əhatə edən demonizmin həmin obrazlardan birinin (demonun – iblisin) adı ilə adlandırılmasına təbii hal kimi baxmaq lazımdır. Çünki demonik obrazlar arasında daha populyar olanı, şifahi və yazılı ədəbiyyatda daha geniş yer tutanı məhz iblisdir. Xalq arasında ən çox şeytan adı ilə tanınan bu obrazın folklordakı səciyyəvi funksiyasının nədən ibarət olmasını aydınlaşdırmaqda nağılların beynəlxalq süjet sistemi mühüm əhəmiyyət daşıyır. Aarne – Tomson beynəlxalq nağıl sisteminə, eləcə də folklorşünas İlkin Rüstəmzadə tərəfindən işlənib hazırlanmış «Azərbaycan nağıllarının süjet göstəricisi»nə əsaslanıb deyə bilərik ki, dünya xalqlarının nağıllarında şeytan daha çox öz axmaqlığı ilə seçilən, baş qəhrəmanın ağıl-dərrakəsi müqabilində məğlubiyyətə uğrayan bir obraz kimi təqdim olunur. Təsadüfi deyil ki, İlkin Rüstəmzadə «Azərbaycan nağıllarının süjet göstəricisi»ndə «Axmaq div (şeytan) haqqında nağıllar»ı ayrıca bir bölmə olaraq qeyd edir (1, 287). Bu bölmədə şeytan və div obrazlarını eyni funksiyalı obrazlar kimi götürməkdə İlkin Rüstəmzadə, əlbəttə, haqlıdır. Doğrudan da, demonik obrazlar içərisində məzmun və mahiyyətcə şeytana yaxın olan obrazlardan biri məhz divdir. Belə yaxınlığın hesabınadır ki, şeytanla bağlı məlum və məşhur nağıl süjetlərinin bir çoxunda div – şeytan əvəzlənməsinin şahidi oluruq. İnsan və şeytan münasibətindən bəhs edən hər hansı nağıl süjetinin başqa bir variantında insan və div münasibətindən bəhs edilməsinə məntiqəuyğun folklor faktı kimi baxırıq. Həm şeytanın, həm də divin axmaq yerinə qoyulmasından bəhs edən nağılların baş qəhrəmanı, adətən, trikster təbiəti ilə seçilir. Belə qəhrə-

manlar sırasında Azərbaycan nağılları üçün səciyyəvi olanı keçəldir. «Keçəl» adlı nağılların birində şeytana qalib gəlmək və onun qeyri-adi gücündən faydalanmaq məhz trikster kələkbazlığı sayəsində mümkün olur: Göyün üzünü qara bulud alır, yağış yağmağa başlayır. Çöldə buzov otaran keçəl soyunub paltarını bir daşın altına qoyur. Yağış kəsəndən sonra daşın altından paltarını götürüb geyinir. Adam libasında gəzən şeytan keçəldən yağış yağanda paltarın necə quru qalmasının sirrini soruşur. Üfürməklə adamı divara yapışdırmaq əməlini şeytandan öyrəndikdən sonra keçəl paltarı yağışdan quru saxlamağın "sirrini" açmalı olur. Şeytan aldadıldığını görüb keçəllə davaya başlayır. Ağıl-dərrakədə şeytana üstün gələn keçəl əlbəyaxa savaşda da çomaqla rəqibi meydandan qovub çıxarmağı bacarır (2, 141-142). Bu nağılda keçəlin şeytandan sonra qarşılaşdığı demonik varlıqlardan biri əjdahadırsa, biri də divdir. Biz əjdaha (ilan) və şeytan əlaqələrinə ayrıca toxunacağıq. Əjdaha (ilan) məsələsini bir az sonraya saxlayıb bu məqamda şeytanla divin funksiya yaxınlığına diqqəti yönəltmək istəyirik. Qeyd etməyi vacib bilirik ki, yuxarıda xatırlatdığımız keçəl və div qarşılaşmasına oxşar qarşılaşmanı bir çox nağıllarda keçəllə div arasında da görürük. «Keçəl» adlı nağılların başqa birində trikster təbiətli qəhrəman yeddi divi çox asanca aldada və onların axırına çıxa bilir: Qapısında nökərçilik etdiyi xəsis tacirlə, tamahkarlıqda tacirdən geri qalmayan darğa və molla ilə haqq-hesab çəkən keçəl bir gözəl qız tapıb evlənmək üçün uzun səfərə çıxır. İşıq gələn tərəfə gedib bir mağarda ifritə qarıya rast gəlir. Qarını təndirə salıb öldürə bilir. Qarının oğlanları – Yeddi divlə haqq-hesab çəkmək daha böyük fərasət və iti ağıl tələb edir. Keçəl divlərə deyir: «Ananız getdi bulaxdan su gətirməyə, mənə dedi oğlanlarım gələndə de ki, bura yeddi düşmən gələcək, onları öldürmək üçün oğlanlarım gərək yeddi dəyirman daşını çıxarıb

damın üstünə qoysunlar. Düşmənlər gəlib evə girəndə başlarına salıb hamısını öldürsünlər». Divlər keçəlin sözünə inanıb yeddi dəyirman daşını damın lap qırağına qoyurlar. Keçəl deyir: «Siz hamınız baş-başa verib qapının ağzında dayanın, mən çıxıb damın üstünnən o daşların birini salım sizin başınıza, əgər sizə kar eləsə, düşmənlərimizə də kar eləyər». Bu sözə inanıb divin yeddisi də baş-başa dəyirman daşının altında dururlar. Keçəl dəyirman daşlarının yeddisini də itələyib salır divlərin başına (3, 200). Keçəlin şeytanla və divlə qarşılaşmasından bəhs edən nağıllarda adi bir çomaqla şeytanın meydandan qovulub çıxarılması, dəyirman daşı ilə divlərin öldürülməsi təəccüb doğurmamalıdır. Təəccüb doğurmamalıdır ki, xatırlatdığımız nağıllarda rəqibin çomaqla hücumu müqabilində şeytan niyə sehr və möcüzə nümayiş etdirmir və yaxud divlərin canı şüşədədirsə, onları dəyirman daşı ilə öldürmək neçə mümkün olur? Nəzərə alınmalıdır ki, keçəlin şeytanla və divlə qarşılaşmasından bəhs edən nağılların mənşəyində sehrli nağıllar dayansa da, əslində onlar mahiyyətcə məişət nağıllarıdır. Həmin nağıllarda qəhrəmanın ən çox hiylə işlətməklə düşmənə qalib gəlməsi məhz məişət nağıllarının poetikasından irəli gələn bir xüsusiyyətdir. Sehrli nağıllardan törədiyinə görə bu nağıllarda yeri gəldikcə sehrli nağıl elementlərindən də istifadə edilməsi tamamilə təbiidir. Keçəlin yeddi divə qarşı mübarizəsindən söhbət açan nağıllarda sehrli nağıllardan gəlmə başlıca element sehrli bulaqla bağlı elementdir. Həmin bulaqda çimməklə keçəl dönüb gözəl bir oğlan olur. Bu o deməkdir ki, nağıl söyləyicisi keçəlin o dünya ilə bağlılığına, onun qeyri-adi mənşə sahibi olmasına işarə edir. Məhz bu cür qeyri-adi mənşə sahibi olmağın göstəricisidir ki, bir çox nağıllarda keçəl yalnız ağılın gücünü yox, həm də qılıncın gücünü təmsil edən bir qəhrəman kimi təqdim olunur. Uzağa getmədən belə yenilməzlik cizgisini şeytana

yağışlı havada paltar islatmamağın “sirrini” açan keçəldə də görə bilərik: başqa igidlər qırx divin canının yerləşdiyi şüşəni bir oxla vura bilməyib daşa döndükləri halda, keçəl bu çətin işin öhdəsindən məharətlə gəlməyi bacarır (2, 144). Maraqlıdır ki, nağıllarda triksterlik sərgüzəştləri ön plana keçdikcə, kələkbazlıq qəhrəmanın aparıcı xüsusiyyəti kimi təqdim olunduqca və süjet yumoristik məzmun daşıdıqca demonik obrazların qeyri-adilik mərtəbəsindən endirilib sıravi obrazlara çevrilməsinin şahidi oluruq. Belə sıraviliyi trikster təbiətli qəhrəmanla hünər yarışına çıxan demonik obrazların timsalında da görürük. Hünər yarışmasında demonik obrazların sıraviliyi o səviyyədədir ki, onları ən aciz və ən qorxaq adam belə məğlub edə bilir: arvadın evdən qovub çölə atdığı qəhrəman divlə rastlaşdıqda divin hədə-qorxusu müqabilində dilini işə salmalı, divi hünər meydanına çağırmalı olur. Hünər göstərməyin şərtlərindən biri ovucda sıxıb daşdan su çıxarmaqdan ibarətdir. Div daşı ovcunda sıxıb toza döndərsə də, daşdan su çıxara bilmir. Nağıl qəhrəmanı gizlətdiyi yumurtanı xəlvətcə cibindən çıxarıb daş adı ilə sıxır və “daşdan su çıxarmaq məharəti” nümayiş etdirməklə divə qalib gəlir (4, 91-92). Yeri gəlmişkən qeyd edək ki, trikster təbiətli qəhrəmanın div və şeytanla yarışması və yarışdan xatırlatdığımız səkildə qalib çıxması məişət nağılları arasında ayrıca bir süjet qrupunu təşkil edir. Ancaq biz məişət nağılları ilə yanaşı, sehrli nağılları, əfsanə və rəvayətləri, müxtəlif növlü mifoloji mətnləri nəzərə almasaq, demonik varlıqların, xüsusən də şeytanın folklordakı funksiyasını natamam şəkildə öyrənmiş olarıq.

Mifoloji düşüncədə şeytan (iblis) qədər dərin iz buraxan ikinci bir demonik varlıq tapmaq çətindir. Şeytanın (iblisin) qüdrəti, mifoloji təsəvvürə görə, cilddən-cildə girib insan qəlbini ələ almasında və insanı onun (şeytanın) iradəsinə uyğun addımlar atmağa təhrik etməsindədir. Əgər belədirsə, yəni

şeytan gücün-qüdrətin bir rəmzidirsə, onda insan düşüncəsində bu güc-qüdrəti dəf etmək arzusu da yer tapmalıdır və tapır da. Məişət nağıllarında şeytan güc-qüdrətini dəf etmək arzusunun həmin nağılların poetikasına uyğun ifadəsini görürük. Öz qəhrəmanını ideallaşdıran xalq şeytana üstün gəlməyi qəhrəmanın iti ağıl-dərrakəsinin mühüm bir göstəricisi hesab edir. Şeytan kimi güc-qüdrət sahibinə qalib gəlmək nağıl qəhrəmanının necə bir fərasət yiyəsi olmasını dinləyiciyə çatdırmağın meyarına çevrilir.

Nağıl qəhrəmanının gücü şeytanın gücünə nisbətdə öz ifadəsini tapdığı kimi, şeytanın da gücü daha çox Allaha münasibətdə ortaya çıxır. Tanrı dərgahında şeytan yeganə varlıqdır ki, yeri-göyü yaradanın hər buyruğuna müti qul kimi əməl etmək istəmir. Mifoloji təsəvvürə görə, şeytanın Tanrı dərgahından qovulmasının da başlıca səbəbi onun Tanrı buyruğunu yerinə yetirməməsidir. Əlbəttə, şeytanın ilahi hökmə şəkk-şübhə ilə yanaşması və Allahın üzünə ağ olmaq iddiasında bulunması mifoloji mətnlərdə mənfi planda, şeytanı lənətləmək baxımından təqdim olunur. Amma fakt da faktlığında qalır. Fakt budur ki, şeytan müti şükranlığa, səssiz-səmirsiz itaətkarlığa qarşıdır. Onun bu cəhətini daha qabarıq əks etdirmək üçün mifoloji mətnlərdə əks qütblərin qarşılaşdırılmasından geniş şəkildə istifadə olunur. Qütbün bir tərəfində hədsiz şükranlıq nümunəsi göstərən şəxs, digər tərəfində bu şükranlığı heç cür qəbul etməyən şeytan dayanır. Əyyub peyğəmbər və Yaqub peyğəmbərin şükranlığından bəhs edən rəvayətlər bu baxımdan çox səciyyəvidir. Əslində həmin rəvayətlər eyni süjetin müxtəlif variantları üzərində qurulub. Süjetin ümumi məzmunu belədir: Peyğəmbərin on üç (bəzi variantlarda qırx) oğlu, çoxlu var-dövləti var, canı da gümrahdır. O, Allahdan yerlə göy qədər razıdır. Alah onu sınağa çəkir – oğlanlarının hamısını öldürür. Peyğəmbər Allaha şükür edir, «Allah vermiş-

di, Allah da aldı» deyir. Allah peyğəmbərin bütün var-dövlətini əlindən alır. Peyğəmbər yenə «Allah vermişdi, Allah da aldı» deyib Allaha şükür edir. Allah peyğəmbəri üçüncü sınağa çəkir – onun sağlamlığını əlindən alır. Peyğəmbərin bədəninə qurd düşür. Yarasındakı qurd yerə düşdükcə götürüb yarasının üstünə qoyur ki, ey Allahın heyvanı, Allah məni sənə yem verib, niyə yerə düşürsən?! Peyğəmbərin ağlasığmaz şükranlığını görən şeytan onu məzəmmət edir: «Ay Allah səən öyüü yıxsın, o Allah səə nə gün ağleeb ki, aa bı qədər şükür-səna eleersən?» (AMEA Folklor İnstitutunun arxivi). Göründüyü kimi, peyğəmbərin ifrat şükranlığı şeytanın ölçü-biçisi ilə bir araya sığmır və o, peyğəmbəri Allaha etiraz etməyə çağırır.

Allah və şeytan münasibətindən bəhs edən rəvayətlərin bir çoxunda şeytandan allahlıq iddiasına düşən bir varlıq kimi söhbət açılır. Son vaxtlar Ağdaşdan toplanan mifoloji rəvayətlərin birində şeytanın Allah-taala hüzuruna gəlib «Allahlığını ver mənə» deməsi (5, 98) diqqət mərkəzində duran əsas məsələdir. Həmin bölgədən toplanmış başqa bir mətndə isə şeytan, Allahla yanaşı yaradıcı bir qüvvə kimi təqdim olunur: Allah torpaqdan insan yaradır, insanı hərəkətə gətirmək üçün ruh yaradır, ancaq nə qədər çalışırsa, ruh bədənə daxil olmaq istəmir, «içəri qarannıxdı, mən içəri girə bilmərəm» deyib durur. Şeytan böyürdən çıxır, Allahdan icazə alıb insan bədəninə daxil olur və orada «dınqıltı salır». Ruh deyir: «Girim görüm orda nə səs var». Ruh bədənə daxil olan kimi şeytan «ağzın qapayır», ruh qalır bədəndə (5, 96). Bu gün Azərbaycanın ayrı-ayrı bölgələrindən toplanan və şeytanın allahlıq iddiasından xəbər verən mətnlər ümumtürk yaradılış mifləri ilə yaxından səsləşir. V.Radlovun qeydə aldığı qədim türk yaradılış miflərindən biri bu məzmundadır: Nə yer, nə göy, nə günəş, nə də ay varmış. Yalnız su varmış. Tanrı və insan iki qara qaz şəklində uçurmuş. İnsan külək yaradıb suyu hərəkətə gətirir və Tan-

rının üzünə sıçradır. Tanrıdan daha yüksəyə qalxmaq istəyən insan suyun içinə düşüb boğulmağa başlayır, «aman, Tanrım, məni qurtar» deyib imdad diləyir (6, 175). Bu nümunədə insanın Tanrı ilə yan-yanaşı durması, hətta Tanrıdan daha üstün mövqeyə can atması göz qabağındadır və süjet davam etdikcə bu motiv müxtəlif yönlərdən özünü büruzə verir: Tanrı yer üzünü yaratmaq üçün insanlara su dibinə enib ordan torpaq gətirməyi tapşırır. İnsan su dibinə enməli olur. İkinci dəfəsində su dibindən bir yox, iki ovuc torpaq götürür. Bir ovuc torpağı Tanrıya verib, ikinci ovuc torpağı ağzında gizlədir ki, özünün ayrıca torpağı olsun. Ancaq insan bu istəyinə də çata bilmir. Çünki torpaq insanın ağzında böyüyür və az qalır ki, insanı boğmuş olsun (6, 176). Bu mifdə xaosun təsvirinə və Tanrı – insan münasibətlərinə xüsusi diqqət yetirən folklorşünas Səfa Qarayev yazır: «Günəş və ayın, yer və göyün olmaması ilkin xaosun təsvirinin verilməsinə xidmət edir. Amma bu xaos heç də boş deyildir, diqqət etsək, gələcək yaradıcılığın inkişaf nöqtəsi olan dualizmin bu xaosun içində gizləndiyini görə bilərik. Bu dualizmin bir tərəfini Tanrı, digər bir tərəfini isə insan təşkil edir» (7, 44). Əlbəttə, Səfa Qarayev xatırlatdığımız mifoloji mətndə insanın «Tanrı əmri altında olan bir obraz» kimi təsvirinə göz yummur. Bununla yanaşı, Tanrı və insan qarşılaşmasının mətndə bir dualizm nümunəsi kimi əks olunmasına da qətiyyən şübhə etmir. Maraqlıdır ki, həmin mətndə Səfa Qarayevin xüsusi diqqət yetirdiyi Tanrı və insan qarşılaşması Tanrı və şeytan qarşılaşmasının başlanğıc nöqtəsidir. Bunun ən mühüm göstəricisi odur ki, Tanrı insanın günahkarlığını görüb onu Erlik adlandırır və özü ilə Erlik arasında hakimiyyət bölgüsü aparır: kim günahlarını məndən gizlətsə, o sənin olsun; sənin günahından özlərini qoruyanlar mənim olsun (6, 176). Türk mifologiyasında Ülgenlə birlikdə Erliyin xüsusi yer tutması məlum məsələdir. O da məlum məsələdir ki, yaradılış

miflərində Erlik şeytan funksiyasının daşıyıcısıdır. V.Radlovun yazıya aldığı və yuxarıda bir parçasını misal çəkdiyimiz mifoloji mətnin başqa bir parçası Adəm və Həvva süjetinin oxşarıdır və burada şeytan yerində Erliyin, Adəm və Həvva yerində isə Töröngöy və Edji adlı kişi və qadının təsvir edilməsinin şahidi oluruq: Bir ağac var, Tanrıdan buyruq belədir ki, o ağacın dörd budağındakı meyvədən yox, yalnız beşinci budağındakı meyvədən yemək olar. Şeytan yaxın düşməsin deyə bir it və bir ilan ağacın keşiyini çəkir. Ağacın beşinci budağı Töröngöy və Edjinin ixtiyarındadır. Erlik gözə görünmədən gəlib ilanın içinə daxil olur. İlanın sözü ilə Edji Tanrının yasaq buyurduğu meyvədən yeyir və həmin meyvədən qoparıb Töröngöyün də ağzına sürtür (6, 177). Erliklə (şeytanla) bağlı başqa məsələlərin şərhinə keçməmişdən qabaq insan – Erlik – şeytan əvəzlənməsi üzərində, ötəri də olsa, dayanmağı vacib bilirik. Belə hesab edirik ki, insanı şeytan xislətində təqdim edən mətnlərin folklorda kifayət qədər geniş yer tutması yalnız və yalnız insan nanəcibliyini açıb göstərmək niyyəti ilə izah edilə bilməz. Saysız-hesabsız folklor mətnlərində insanın şeytana tay tutulmasının «nanəciblik» məsələsi ilə bağlılığını inkar etmədən məsələyə başqa yöndən də yanaşmaq və qiymət vermək lazım gəlir. Məsələ burasındadır ki, insanın şeytandan daha cüvəllağı, daha kələkbaz olması, aravuranlıqda şeytanı geridə qoyması, folklor mətnlərinin alt qatda gizlənən mənasına görə, Allahın hər buyurduğunu yerinə yetirməmək mətləbindən xəbər verir. Və insan obrazının Erlik obrazına çevrilməsi, insan obrazının şeytan obrazının yerini tutması əslində həmin mətləbdən doğur. Arxaik mətnlər əsasında Allah və şeytan qarşılaşması və qarşıdurmasını səciyyəvi fakt olaraq qəbul ediriksə, onu da qəbul etməliyik ki, insan obrazının şeytan obrazına bənzər cizgilərlə yaradılmasının arxasında məhz həmin qarşılaşma və qarşıdurma məsələsi dayanır. Başqa sözlə desək, Allah və şeytan

münasibəti əslində Allah və insan münasibətinin dolayı ifadəsi kimi özünü göstərmiş olur. Dolayı ifadə Allah buyruğuna insan şəkk və şübhəsinin şeytan şəkk-şübhəsi adı altında pərdələnməsindədir. Pərdələnmənin ən bariz nümunələrindən biri dünyaca məşhur Adəm və Həvva süjetində özünü göstərir.

Adəm və Həvva süjeti şeytan və insan yaxınlığını inkar edən bir əhvalatdan başlayır: Allah bütün mələklərə torpaqdan yaratdığı insana səcdə etmək buyruğu verdikdə şeytan bununla heç cür razılaşmaq istəmir, «sən məni oddan yaratmısan, Adəmi palçıqdan» deyib insana səcdə etməkdən boyun qaçırır. Allah lənətləyib şeytanı dərgahından qovduqda şeytan Allahdan diləyir ki, ona insanların «canında-qanında gəzə bilmək» ixtiyarı versin. Şeytanın diləyi yerinə yetirilir (8, 3-4). Dildə-ağızda dolaşan bu məşhur əhvalatda şeytanın insanla yaxınlığından əsər-əlamət yoxdur. Əhvalatdan belə məlum olur ki, şeytanın insana qısqanc münasibəti var və Allah dərgahından qovulmasında insanı baiskar sayan şeytan bu qısqanclığı düşmənçiliyə çevirir. Şeytan insandan intiqam almaq qərarına gəlir. Adəm və Həvvanın yoldan çıxarılması, onların Allaha günah işlətmiş məxluqlar kimi tanıdılması və cənnətdən qovulması mifoloji mətnlərdə məhz şeytanın insana düşmən münasibətinin təzahürü kimi qələmə verilir. Şeytanın intiqam niyyəti ilə cənnətə yol axtarmasında ilan (əjdaha) obrazı diqqət mərkəzindədir. Mifoloji rəvayətlərin bir çoxunda şeytan Adəm və Həvvanı cənnətdə məhz ilanın vasitəsilə yoldan çıxarır. Məsələn, rəvayətlərin biri bu məzmundadır: Əjdaha cənnətin qoruqçusudur. Şeytan girir əjdahanın dilinin altına, başlayır orda ağlamağa. Adəm əjdahadan ağlamağının səbəbini soruşanda əjdaha belə cavab verir: «Bax bir belə bağçada-bağda hər şeydən gözəl o ağaşdı, onun meyvəsinnən yemirsən. O dərdə ağlayıram ki, o ağacı gözdüyürəm, bir belə zəhmət çəkirəm, onnan yemirsən» (9, 21). Bəzi rəvayətlərdə şeytanın cənnətə düşməkdə ilandan

(əjdahadan) bir vasitə kimi istifadə etməsindən və cənnətə düşəndən sonra başqa bir cildə girib Adəm və Həvvaya təsir göstərməsindən bəhs edilir: Şeytan cildini dəyişib toza dönür, cənnətin qarşısında duran əjdaha nəfəs alanda girir onun qarnına, qarına düşən kimi şeytan cildini dəyişib bir quş olur və Adəmlə Həvvanı quş dilində danışdırmağa başlayır (AMEA Folklor İnstitutunun arxivi). Xatırlatdığımız rəvayətlə bağlı, hər şeydən əvvəl, onu qeyd edək ki, quş mifologiyada şeytanı təmsil edən obrazlardan biridir. Məsələni konkretləşdirsək, hansı quşun şeytanı daha çox təmsil etdiyini aydınlaşdırmaq istəsək, başqa quşlardan əvvəl qarğanın adını çəkməliyik. Təsadüfi deyil ki, dünya xalqlarında trikster təbiətli obraz kimi qarğa haqqında silsilə təşkil edən mifoloji süjetlər var. Xatırlatdığımız rəvayətlə bağlı diqqətə xüsusi olaraq çatdırmaq istədiyimiz məsələ isə şeytanın Adəm və Həvva ilə danışığında Allaha müxaliflik notlarının əksini tapmasıdır: «Şeytan başdadı buları (Adəmlə Həvvanı – M.K.) gəzdirməyə. Gəzdirdihcən dedi: - Bı bağları mən saldırmışam.

Gəzdirdi, gətdi bıları bığdanın yanına. Dedi ki, mınnan yemisüz? Bılar dedi ki, yox, oyu Xudavəndi-aləm bıyrığ ver-miyib, deeb ki, hamısınnan yeyün, onnan yox. Şeytan dedi ki, gördüz Allah xaindi?! Allahın sözünə inanırsuz siz? Bıların hamısını mən əkib-becərmişəm. Nə qədənə bırda gördüyünüz şeylər var, oların hamısınnan bı daddıdı… Allah oyu sizə qıy-madı, görün mın xayınnığın» (AMEA Folklor İnstitutunun arxivi). Şeytanın bu sözlərindən sonra Adəm və Həvvanın qa-dağın edilmiş buğdanı götürüb yeməsi şeytanın insandan inti-qam almaq niyyətinin gerçəkləşməsi ilə nəticələnir. Beləliklə, insan şeytanın Allah dərgahından qovulmasına səbəb olduğu kimi, şeytan da insanın cənnətdən qovulmasına səbəb olur. Amma burada bir məqama xüsusi diqqət yetirmək lazım gəlir: şeytan Allahı xain (paxıl) adlandırmaqla insanda Allah buyru-

ğuna şəkk-şübhə yaratmağa çalışır. Şeytanın bu səyindən sonra yasaq nemətin yeyilməsi insanda Allah buyruğuna şəkk-şübhə yaranmasının, dolayı da olsa, təsdiqinə çevrilir. İlahi hökmə etinasız münasibətdə şeytan və insan eyni nöqtədə birləşir. Məlum olur ki, ilahi hökmə etinasız münasibətin daha qabarıq üzə çıxdığı məqam insanın məhz nəfsə məğlub olduğu məqamdır. İnsan öz daxilindəki nəfsi boğa bilmədikdə şeytan və insan əlaqəsi tədricən fikri birlikdən əməli birliyə keçmiş olur.

Xalq arasında şeytanla bağlı məlum və məşhur qənaətlərdən biri budur ki, şeytan şər təmsilçisidir. Təsadüfi deyil ki, şeytandan danışmağa başlayan hər bir kəs sözə «Allah şeytana lənət eləsin» ifadəsi ilə başlayır. Qızğın başla hər hansı xoşagəlməz addımı atmaq istəyən adam «lənət sənə kor şeytan» deyib səbirli olmağa çalışır, peşmançılıq gətirəcək şeytani addımı atmaqdan çəkinir. Təəccüblü deyil ki, şeytanla bağlı rəvayətlərin bir çoxu bu demonik varlığın lənətə layiq olmasını konkret əhvalatlar timsalında göstərmək məqsədi daşıyır. Şeytanın şər təmsilçisi olmasından bəhs edən bir rəvayətin qısa məzmunu belədir: Bir qadın inək sağmağa gedir. Aranı qatıb qan salmaq istəyən şeytan buzovu xəlvətcə açıb inəyin üstünə buraxır. Buzov inəyi əmməyə başlayanda inək təpik atıb qadının sağdığı südü tökür. Qadın acıqlanıb inəyi vuranda inək buynuzu ilə vurub qadını öldürür. Qadının qayınatası gəlir. Gəlinin qan içində olduğunu görüb tüfəngi götürür və inəyi öldürür. Gəlinin əri gəlir. Görür atasının əlində tüfəng, arvadı da qan içində yerə uzanıb. Elə bilir ki, arvadını atası vurub öldürüb. Oğlan da doğma atasını öldürür (9, 14). Şeytanın bu cür qan-qadaya səbəb olmağını, şər toxumu səpməyini göstərən rəvayətlərin bir qismi insanın şeytanla yarışmasına həsr olunub. Diqqət yetirdikdə aydın olur ki, bu yarışmada insanın «üstünlüyü» belə fəlakət törətməkdə şeytanın xüsusi məharət sahibi olmasını inkar etmir. Bir nümunəyə nəzər

salaq: Şeytanla insan mərcləşir ki, görək kim daha çox mərdiməzarlıq eləyə bilər?! İnsan bir ərlə arvadın arasına girib ərə arvadın, arvada ərin gəzəyən olmasından danışır. Ər arvadı döyməyə başlayanda mərdiməzar qaçıb arvadın qardaşlarını köməyə çağırır. Arvadın qardaşları kişini döyməyə başlayanda qaçıb kişinin qohum-qardaşını köməyə çağırır. Qırğın-qiyamət qopur, ölən ölür, yaralanan yaralanır. Mərdiməzar törətdiyi qırğın-qiyamətdən danışıb qürrələnmək istəyəndə şeytan deyir: "Bir dəfə iki adamı başdan çıxartdım, gəlif bu kolun dibində zina elədilər. Onnan sən əmələ gəlmisən" (10, 136). Bu kimi rəvayətlərdə irəli sürülən başlıca fikir ondan ibarətdir ki, ara vurmağa, qanlar tökməyə həris olan insan da şeytan törəməsidir, bir növ şeytandır. Təsadüfi deyil ki, xalq arasında ondan-buna söz gəzdirən, ara vuran adamlara "şeytan" deyirlər. Bəzi adamların bu cür adlandırılması və şeytan xislətli adamlar sırasına daxil edilməsi V.Radlovun yazıya aldığı yaradılış mifində Tanrının Erliklə hakimiyyət bölgüsü aparmasını, xeyirxah insanların Tanrı, bədxah insanların Erlik ixtiyarına verilməsini yada salır. Axtarsaq Allahla şeytan arasında bu cür hakimiyyət bölgüsünü son vaxtlar Azərbaycanın ayrı-ayrı bölgələrindən toplanmış dini rəvayətlərdə də tapa bilərik. Məsələn, dini rəvayətlərin birində deyilir: "Şeytan Allaha qırx il qullux eliyif. Axırda Allah nə qədər eliyif bı (şeytan – M.K.) yola gəlmiyif. Deyif, get, səni deyən sənin olsun, məni deyən mənim olsun" (11, 17). Gətirdiyimiz nümunə bir daha göstərir ki, xalqın təsəvvüründə yaxşı adam və pis adam, Allaha qulluq edən adam və şeytana qulluq edən adam bölgüsü var. Amma bu bölgünü götür-qoy etdikdə qarşıya başqa bir məsələ çıxır: Allaha qulluq edən adamların şeytanla hər hansı bir bağlılığından danışmaq mümkündürmü? Xalqın təsəvvüründə bu məsələ öz yerini necə tapır? Suala doğru-dürüst cavab vermək üçün yenidən dini rəvayətlərə

müraciət etmək lazım gəlir. Bir çox rəvayətlər göstərir ki, xalq dünyanı şeytansız təsəvvür edə bilmir. Xalqın təsəvvürünə görə, şeytan dünyada yalnız bədxah adamları yox, həm də xeyirxah adamları hərəkətə gətirir, insanların (yaxşılı, pisli) çalışıb-çapalamasında, özlərinə gün ağlamaq üçün dəridən-qabıqdan çıxmasında şeytan əvəzsiz rol oynayır. Bu fikrin ifadə olunmasına həsr edilən səciyyəvi süjetlərdən biri şeytanın aradan götürülməsi ilə bağlıdır: Musa peyğəmbər Allahdan bir günlüyə allahlıq ixtiyarı alandan sonra bütün şeytanları bir quyuya doldurub quyunun ağzını bağlayır. Evə qayıdanda görür ki, ətrafda bir adam belə görünmür, adamlar qəbiristanlığa gediblər və hərə özünə bir qəbir qazmaqla məşğuldur. Musa peyğəmbər niyə belə elədiklərini soruşur, adamlar deyirlər: "Ya peyğəmbər, axırı ölüm döyül? Bax bu qavırı qazırıx, uzanışajeyih bura. Neynirih tutaşa-tutaşa, vuruşa-vuruşa yaşıyax" (12, 41). Bu süjetin başqa bir variantında şeytan aradan götürüləndən sonra adamların gedib özlərinə qəbir qazmalarının səbəbi Allahın dilindən belə izah edilir: "Hər bir insanın qəlbinə şeytan girir ki, dur bu divarı sök, qapını genəlt, darvazanı hör. İndi də sən (peyğəmbər – M.K.) bunu (şeytanı – M.K.) tutub saxlamısan. Bunu öldürməh mənim əlimdə çətin iş döyül. Onu öldürsəm, onda insannar kütdəşejeh, heş kim işə əl uzatmıyejeh" (10, 14). Bu süjet Qurandan gələn və saysız-hesabsız rəvayətlərdə öz əksini tapan bir motivə yenidən qayıtmaq zərurəti yaradır. Həmin motiv insan qəlbinin şeytana verilməsi ilə bağlıdır. Bir daha yadımıza salaq ki, ilahi dərgahdan qovularkən şeytan Allahdan insan qəlbinin ona verilməsini xahiş edir və Allah bu xahişi yerinə yetirir. Hər şeydən agah olan Allah bu xahişi yerinə yetirməklə şeytanın əməlini məhz bəri başdan müəyyənləşdirmiş olur. Bu əməl insanları süstlükdən, ətalətdən qurtarmaq, canına od salıb onları işə-gücə qoşmaqdan ibarətdir. Şeytanın ürəklərdə

oyatdığı od-ataş bəzi insanları xeyir, bəzi insanları şər işlərə qoşursa, bu məsələdə də təəccüb doğuracaq bir şey yoxdur. Məsələ burasındadır ki, digər xtonik varlıqlar kimi, şeytan da ikili mahiyyət daşıyır, onun simasında xeyirlə şər, yaxşı ilə yaman, qurmaqla dağıtmaq üzvi şəkildə birləşir. Tamamilə təbii haldır ki, şər qüvvə kimi qarşıya çıxan şeytan son nəticədə nağıl qəhrəmanının sehrli köməkçisinə çevrilir. Bu cəhəti yazının əvvəlində misal çəkdiyimiz "Keçəl" adlı nağıllardan birində görmək çətin deyil: Şeytanın öyrətdiyi sehr – adamı divara yapışdırmaq sehri düşmənləri sıradan çıxarmaqda keçəlin ən başlıca silahı olur. "Cıraxlı İsa" adlı nağılda isə şeytanla baş qəhrəman arasında heç bir toqquşma-filan yoxdur. Şeytan darğa və qazı ilə toqquşan baş qəhrəmanın yardımçısıdır. İsa darğa və qazının haqsızlığına məruz qaldıqda "şeytan qazının düşmənidir" deyib kömək üçün məhz şeytanın dalınca yollanır. Əlbəttə, burada şeytanla qazının düşmənçiliyi məsələsinə də aydınlıq gətirməyə ehtiyac var. Məlumdur ki, nağılların beynəlxalq süjet sistemində şeytan obrazının funksiyaca yaxın olduğu obrazlardan biri də ağa obrazıdır. Belə yaxınlığın hesabınadır ki, İlkin Rüstəmzadə "Azərbaycan nağıllarının süjet göstəricisi"ndə Aarne-Tomson sisteminə uyğun olaraq, şeytanla bağlı nağıl süjetlərinin bir qismini "Nökər ağa ilə (şeytanla) haqq-hesab çəkir" başlığı altında təqdim edir (1, 287-288). Bu təqdimat bir daha təsdir edir ki, bir çox nağıllarda nağıl qəhrəmanı və şeytan arasındakı konflikt nağıl qəhrəmanı və ağa arasındakı konfliktlə tipoloji yaxınlıq təşkil edir. Bu cür tipoloji yaxınlıq «qazı şeytanın düşmənidir» fikrinin ifadə olunduğu «Çıraxlı İsa» kimi nağıllar üçün səciyyəvi sayıla bilməz. Şeytan obrazının ağa obrazı ilə eyni mövqedə dayandığı və baş qəhrəmanla toqquşduğu nağıllarda şeytan, əsasən, mənfi planda təsvir edildiyi halda, şeytanın başdan-binadan baş qəhrəmana kömək etdiyi nağıl-

larda bu cür mənfi planda təsvirdən danışmaq xeyli dərəcədə çətindir. «Çıraxlı İsa» nağılında şeytanın bir xeyirxah qüvvə kimi sorağını alan baş qəhrəman uzun bir yol qət edib onu bir kahada (yeraltı dünyanın işarəsi olan bir məkanda) tapır. Şeytanın verdiyi sehrli toppuzun möcüzələri sayəsində baş qəhrəman öz arzusuna çata bilir (2, 260-266). Bu kimi faktlar göstərir ki, ambivalent səciyyə daşıyan şeytan obrazına birtərəfli şəkildə yanaşmaq və onu yalnız şər simvolu saymaq mümkün deyil. Ambivalent səciyyəsi daşımağın təzahürüdür ki, xaos aləminin nümayəndəsi olan şeytan bir çox hallarda yaradılış prosesinin iştirakçısı kimi qarşımıza çıxır. Bunun ən səciyyəvi nümunələrindən biri qopuz alətinin yaranmasında şeytanın yardımçı olmasıdır. Dədə Qorqudla bağlı əfsanələrin birində söylənilir ki, Dədə Qorqud qopuzun necə hazırlanmasının sirrini məhz şeytanlardan öyrənir (13, 36). Doğrudur, əfsanədə şeytanların Qorqud Ata ilə birbaşa ünsiyyətindən söhbət getmir və Qorqud Ata qopuzun sirrinə şeytanların öz aralarındakı danışığına qulaq asmaqla vaqif olur. Amma bu heç də şeytanların əfsanədə sehrli köməkçi rolunda təqdim olunmasını inkar etməyə əsas vermir.

## 2.

Yazılı ədəbiyyatda demonizmin folklordan gələn cəhətlərindən danışsaq, ilk növbədə, şeytan obrazının ikili mahiyyət daşımasını qeyd etməliyik. Şeytan obrazının dünya ədəbiyyatı, bütövlükdə dünya mədəniyyəti üçün böyük maraq kəsb etməsinin, demonizm mövzusuna tez-tez müraciət olunmasının kökündə, hər şeydən əvvəl, obrazdakı çoxmənalılıq, çoxqatlılıq imkanlarının genişliyi durur. Bu çoxmənalılıq, çoxqatlılıq sənətkar üçün nə qədər mühüm əhəmiyyət daşıyırsa, oxucu üçün də bir o qədər mühüm əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Dante, Marlo, Milton, Bayron, Höte, Lermontov, Dostoyev-

ski, Haqverdiyev, Cavid və başqa sənətkarların qələmindən çıxan İblis obrazları bu günün özündə belə müxtəlif yönlü müzakirə və mübahisələrin predmeti olaraq qalır.

Azərbaycan ədəbiyyatında demonizm mövzusu ilə bağlı xeyli sayda bədii əsər adı çəkmək olar. Amma bu əsərlər içərisində ən çox müzakirə və mübahisə predmetinə çevriləni «İblis» faciəsidir. Bu əsərdən bəhs edən ədəbiyyatşünasların isə ən çox toxunduğu məsələ İblis obrazı, həmin obrazın əsərdəki mövqeyi məsələsidir. Hüseyn Cavidin «İblis» əsəri və əsərin baş qəhrəmanı İblislə bağlı o tədqiqatlar daha çox maraq doğurur ki, onlar «İblis mütləq şəkildə şərin simvoludur və obrazın hər hansı müsbət cəhətindən danışmaq mümkün deyil» kimi birtərəfli mülahizələrdən uzaqdır. Hüseyn Cavidin İblis obrazına geniş müstəvidə yanaşan ədəbiyyatşünaslardan biri Məmmədcəfər Cəfərovdur. XX əsr Azərbaycan romantizminin görkəmli tədqiqatçısı olan və Hüseyn Cavid yaradıcılığına ayrıca monoqrafiya həsr edən Məmmədcəfər Cəfərov yazır: «Ənənəvi, fantastik surət olan İblis bu əsərdə bir tərəfdən «altuna, qüvvətə tabe dünya» deyən müharibə ideyalarını, “XX əsrin müstəbid övladlarının” fitnəkarlığını ifşa etmək, ikinci tərəfdən isə bu qanlı müharibələr dövründə qəflətən dəhşətli bir fırtınaya tutulmuş qərib yolçu kimi özünü itirən, köhnəlmiş dini zehniyyətə, mərhəmət və vicdan fəlsəfəsinə, ümumi mücərrəd məhəbbət ideyasına güvənən, «Allah zülmü yerdə qoymaz» deyib duran və bərk ayaqda göylərə sığınan bir nəslin faciəsini, bu zehniyyətin yeni şəraitdə çox yazıq, bəlkə də gülünc hala düşdüyünü göstərmək üçün bir vasitə idi» (14, 116-117). Məmmədcəfər Cəfərovun «İblis» əsəri ilə bağlı mülahizələrinin metodoloji əhəmiyyəti və istiqamətverici gücü ondadır ki, həmin mülahizələrdə müharibə dəhşətlərinin törədilməsi və təvəkkülə bel bağlayan, göylərə sığınan bir nəslin faciələr yaşaması «ənənəvi və fantastik»

obrazın (İblisin) ayağına yazılmır, sosial fəlakətlərə səbəb olan insan xislətini açıb göstərməkdə İblis uğurlu bədii vasitə sayılır. Məhz ənənədən çıxış etmək, dünya ədəbiyyatındakı çoxəsrlik demonizm ənənəsini nəzərə almaq «İblis» kimi kifayət qədər çətin anlaşılan bir əsərin doğru-düzgün istiqamətdə araşdırılmasına yaxından kömək edir. Dünya ədəbi təcrübəsini ciddi şəkildə nəzərə almaq və məsələyə həmin kontekstdə yanaşmaq Yaşar Qarayevin «İblis»lə bağlı araşdırmaları üçün də səciyyəvidir. Yaşar Qarayev Babilistandan yəhudi mifologiyasına, ordan isə «İncil»ə keçən Adəm və Həvva əhvalatındakı idrak ağacı, idrak meyvəsi məsələsini, həmin meyvədən dadmağın İblis vasitəsilə mümkünlüyü məsələsini xüsusi olaraq diqqət mərkəzinə çəkir, dünya ədəbi-estetik fikrinə əsaslanıb İblis – Allah toqquşmasında Prometey – Zevs qarşıdurmasından gələn bir məna və mahiyyət görür: «İblis ilk dəfə olaraq bilik nemətini insana daddıran və Allaha, şəxsiyyət mütləqiyyətinə üsyan etməyin birinci nümunəsini göstərən narahat bir ruh, şübhə və çağırış ruhu kimi çıxış edir. Niyyətindən asılı olmayaraq dünyada ilk dəfə ən müqəddəs kulta, hakimi-mütləqə – Allaha qarşı çıxmaq cazibədar idi. Bu, İblis məfhumunda Prometey ünsürü idi: o, biliyi (dərk etməyi – M.K.) və üsyan etməyi insana öyrədirdi!.. Təsadüfi deyil ki, bu motiv sonralar üsyançı bədii-fəlsəfi fikrin diqqətini cəlb edir. Xüsusən narahat Qərb İblis motivindəki qabarıq ideya-estetik imkandan istifadə edir» (15, 158). Ətrafdakı ictimai-siyasi hadisələrdən sarsılan, narahatlıq, narazılıq hissləri keçirən, özünü və dünyanı dərk etməyə can atan ədəbi qəhrəmanı bütün daxili mürəkkəbliyi ilə qələmə almaqda İblis kimi «ənənəvi və fantastik» obrazlar mühüm rol oynayır. Bunun kamil bir nümunəsini Hüseyn Cavid artıq «Şeyx Sənan» faciəsində sınaqdan çıxarmışdı və böyük uğur qazanmışdı. Dini təlimlərin xalqlar arasında ayrı-seç-

kiliyə, bir çox hallarda isə barışmaz düşmənçiliyə səbəb olması barədə düşünən Şeyx Sənan dini və milli mənsubiyyətindən asılı olmayaraq insanları bir-birinə yaxınlaşdıran mənəvi dəyər axtarışındadır. Daxili təbəddülatla, tərəddüd və sarsıntılarla müşayiət olunan axtarış prosesində Şeyx Sənan tək-tənhadır, ətrafdakı şeyxlərlə onun dindən-təriqətdən kənar bir nöqtədə həqiqət axtarmaq barədə fikir bölüşdürməsi qeyri-mümkündür. Həmfikrin, həmdərdin olmadığı bir şəraitdə Şeyx Sənan özünə qapanmağa, öz-özü ilə daxili dialoqa girməyə məhkumdur. Daxili dialoqun ikinci tərəfində məhz «ənənəvi fantastik» obraz – Dərviş dayanır. Dərviş əsərdə başqa bir şey yox, Şeyx Sənanın daxilindəki ikinci «mən»in ifadəsi kimi ortaya çıxır. Dərviş şəklində təqdim edilən ikinci «mən» Şeyx Sənana axtardığı həqiqətin Xumara saf məhəbbətdən ibarət olması fikrini aşılayır. Bu məhəbbət Şeyx Sənan ömrünün mənasına çevrilir. Bu məhəbbətə mane olan nə varsa, hər şey, o cümlədən dini təlim Şeyx Sənanın nəzərində öz dəyərini itirir. Şeyx Sənan tapdığı və tapındığı həqiqət yolunda hər şeyi, hətta öz canını qurban verir.

Müharibənin törətdiyi fəlakətlərdən dəhşətə gəlib sarsıntılar içində çırpınan Arif də düşdüyü acınacaqlı vəziyyətdən və daxili böhrandan çıxış yolu axtarır. Sənan kimi Arifin də ətraf adamlar içində dərdini bölüşəcəyi kimsə yoxdur. Sənan kimi Arifin də tərəf-müqabili daxildə baş qaldıran ikinci «mən»dir. Sənanda Dərviş timsalında ortaya çıxan ikinci «mən» Arifdə İblis timsalında ortaya çıxır. Özünüdərk prosesi keçirən Sənan və Arif arasında oxşar cəhətlər olduğu kimi, onların ikinci «mən»i olan Dərviş və İblis arasında da oxşar cəhətlər vardır. Dərviş obrazı ilə müqayisə İblis obrazının bəzi mühüm cəhətlərini üzə çıxarmağa kömək edir. «Şeyx Sənan» faciəsindəki Dərviş obrazı kök etibarilə dastanlarımızdakı buta verən dərviş obrazına bağlıdır. Məhəbbət dastanlarımızda nurani dərviş

tərəfindən verilən buta qəhrəmanın həyatını büsbütün dəyişdiyi kimi, «Şeyx Sənan» faciəsində də mənəvi yüksəlişə səsləyən Dərviş baş qəhrəmanın həyatını büsbütün dəyişir. Qarşıya sual çıxır: Sənanı yüksəlişə səsləyən Dərvişlə altun və qurşun verib Arifi qan tökməyə sürükləyən İblis arasında tipoloji yaxınlıq axtarmaq mümkündürmü? Suala doğru-düzgün cavab vermək o halda mümkündür ki, dərviş obrazının folklordakı ikili mahiyyəti nəzərə alınsın. Nəzərə alınsın ki, digər xtonik obrazlar kimi dərvişin də yerinə görə xeyirxah, yerinə görə bədxah mövqe tutması adi bir haldır. Bədxah mövqeli, demonik mahiyyətli dərvişlərə sehrli nağıllarda heç də az təsadüf etmirik. Əgər belədirsə, onda ambivalent xtonik varlıqlar olan dərviş və şeytan (iblis) obrazlarının tipoloji yaxınlığından danışmaqda bir qəbahət yoxdur. Konkret olaraq «Şeyx Sənan»dakı Dərvişlə «İblis»dəki İblisi müqayisə etsək, bu obrazlar arasında ən başlıca yaxınlığı baş qəhrəmanı hərəkətə gətirməkdə, onu od-alovun içinə atmaqda axtarmalıyıq. Bu od-alov Sənanda ülvi bir eşqin od-alovudur. Elə bir eşq ki, bəşər övladına qırılmaz bağlılıq İlahiyə qırılmaz bağlılığın ifadəsinə çevrilir. Sənan öz məhəbbətini onu çox sevən Zəhrada yox, Xumarda tapdığı kimi, Arif də öz məhəbbətini onu çox sevən Xavərdə yox, Rənada tapır. Sənanı Xumardan döndərmək mümkün olmadığı kimi, Arifi də Rənadan döndərmək çətindir. Bu dönməzlikdə Sənana Dərviş, Arifə İblis daxili təkan verir. İslam təəssübkeşliyi kimi çətin maneəni keçməkdə Sənana məhz Dərviş yardımçı olur:

İştə gördünmü din nələr doğurur?
Nə bəlalar, nə fitnələr doğurur?
Din bir olsaydı yer yüzündə əgər,
Daha məsud olurdu cinsi-bəşər (16, 255).

Daxildən gələn və Dərvişin dili ilə ifadəsini tapan bu səs Sənanı qətiyyətli olmağa, öz məqsədinə çatmaq üçün şeyxlik missiyasından imtina etməyə çağırır. «Ah-zarla, göylərə əl açıb

Allaha yalvarmaqla kar aşmaz, istədiyini əldə etmək üçün altun və silah sahibi olmalısan». İblisin Arifə aşıladığı isə məhz budur. Dərviş və İblis tövsiyələrinin məzmunca fərqlənməsi Sənanla Arif arasındakı fərqin göstəricisi kimi ortaya çıxır. Sənanla Arif arasında başlıca fərq nədədir? Başlıca fərq eşq yolunda Sənanın hər cür məhrumiyyətə dözməsi, Arifin isə heç bir məhrumiyyətlə razılaşmaq istəməməsindədir. Başqa sözlə desək, başlıca fərq Sənanın daxili tərəf-müqabilinin xeyirxah demonik varlıq, Arifin daxili tərəf-müqabilinin isə bədxah demonik varlıq olmasındadır. Əslində Arif də Sənan kimi sufi təbiətlidir və Allaha üz tutan, «göylərə sığınan», məhəbbət, mərhəmət fəlsəfəsi ilə yaşayan bir insandır, belə demək mümkünsə, Sənanın mənəvi qardaşıdır. Bəs necə olur ki, məhəbbət və mərhəmət fəlsəfəsinin daşıyıcısı olan Arif birdən-birə mənəvi qardaşı Sənandan fərqli yol tutur və onun daxilində xeyirxah Dərviş yox, bədxah İblis baş qaldırır? «İblis» faciəsində Hüseyn Cavidi bir müəllif kimi düşündürən əsas məsələlərdən biri məhz budur. Məsələ burasındadır ki, mənəvi və maddi gücü, kitabı və qılıncı insan həyatının ayrılmaz tərəfləri kimi götürən, bir çox əsərlərində həmin tərəflərin vəhdətindən danışan Hüseyn Cavid «İblis»də müharibə fəlakətləri fonunda maddi gücün mənəvi gücü üstələdiyi məqamların özünəməxsus bədii lövhələrini yaradır. «Nuri-həqiqət» axtarışında olan, kəndlərin, şəhərlərin dağıdılmasına, minlərlə insanın ölümünə və yurdsuz-yuvasız qalmasına gətirib çıxaran vəhşiliklərin kökünü, nədən qaynaqlanmasını anlamağa can atan Arif özü hadisələrin gedişində caniyə, ömür-gün yoldaşının və doğmaca qardaşının qatilinə çevrilir. Maraqlıdır ki, biz İblisi Ariflə yanaşı, bəzi başqa obrazların da tərəf-müqabili kimi görürük. Yaşar Qarayev İblis obrazının romantik ədəbiyyatdakı və «yüksək poeziya»dakı yeri və rolu barədə yazır: «Adətən, iblislər faustlarla qoşa doğulurlar (əlbəttə, romantik, böyük və yüksək

poeziyadakı iblislər…) faustların arzusundan, onların ruhunda və idrakında yaranan ehtiyacdan doğulurlar. Təsadüfi deyil ki, iblislər insanlardan həmişə ən müdrikinə və ən ağıllısına rast gəlirlər. Nə qədər ki, Faust, eləcə də Arif öz biliyinin hüdudları ilə məmnundur, bilmədiyini də bilmək istəmir, o heç bir İblisə rast gəlmir. Məhz biliyə, idraka olan ehtirasın Faustdakı ölçüləri onu İblisə – Mefistofelə rast gətirir. Başqa sözlə, iblislər, allahlara bənzəmək istəyən insanlara rast gəlirlər!» (16, 169). Doğrudan da, «şübhədir hər həqiqətin anası» deyib dərinliklərə varmaq, dünyanın sirlərindən agah olmaq istəyən və daxili təbəddülat içində çırpınan ədəbi qəhrəmanın İblislə – etiraz və hərəkət simvolu olan bir obrazla qarşılaşdırılması tamamilə təbii haldır. Amma bu o demək deyil ki, belə qarşılaşdırmanı aparıcı qəhrəmandan kənarda axtarmaq olmaz. İblislə qarşılaşdırmanı Arifdən kənarda necə axtarmayasan ki, «hər kaşanədə, bütxanədə İblis» fikri əsərdən qırmızı xətt kimi keçir?! Həmin fikrin dolğun ifadəsi üçün müəllif əsərdə Ariflə yanaşı, İbn Yəmin, İxtiyar Şeyx, Elxan kimi obrazların da iblisləşməsini və yaxud İblisə doğru addım atmasını diqqət mərkəzinə çəkir. İbn Yəmin İblis xislətli bir adamdır və neçə-neçə qanlı əməlin törədilməsində, o cümlədən Rənanın atasının xaincəsinə öldürülməsində bu adamın əli var. Humanist təbiətli bir insan olan İxtiyar Şeyx qızı Xavərin heç bir günahı olmadan öldürülməsindən sonra çılğınlaşır, hamıdan, hətta göydəki Allahın özündən belə intiqam almaq istəyir. Arif, İxtiyar Şeyx, Elxan və başqa obrazların timsalında İblisin xeyir və şər, işıq və zülmət kimi hər iki üzünü görmüş oluruq. Əsərdə «çılğın və narahat idrak mənasında İblisin dualizmi işıq və zülmət səciyyəsi ilə obrazlar arasında paylanır. Cəmiyyət eybəcərliyinə qarşı üsyan edən ayıq zəka İblis atəşi ilə alovlandığı halda, hərislik və düşkünlüyün pəncəsinə keçən insan zülmət aləmində fəlakət tanrısına çevrilir» (17, 76). Əjdər Tağıoğlunun doğru olaraq qeyd

etdiyi bu cəhət (İblisin ikili səciyyə daşıması), heç şübhəsiz, əsərdəki başqa surətlərlə müqayisədə Arifin timsalında daha qabarıq ifadəsini tapır. İblis od-alovundan güc alıb bədbinlik girdabından çıxmağı bacaran Arif maddi maraq qarşısında müvazinətini saxlaya bilmir və yenidən girdaba yuvarlanır.

İblis obrazını ilk dəfə olaraq geniş planda ədəbiyyatımıza «Pəri cadu» əsəri ilə Əbdurrəhim bəy Haqverdiyev gətirib. Faktlar göstərir ki, demonizm mövzusu Əbdurrəhim bəy Haqverdiyev yaradıcılığında heç də «Pəri cadu» əsəri ilə məhdudlaşmır, müəllif bir çox başqa əsərlərində birbaşa və ya dolayı şəkildə həmin mövzuya müraciət edir. Belə əsərlərdən biri «Kimdir müqəssir» adlı vodevildir. Vodevildə Adəm – Həvva əhvalatının məişət zəminində yumoristik təsviri ilə qarşılaşırıq: Mahmud adlı cavan bir kəndli Həvvanın buğdaya tamah salmasını və nəticədə Adəmlə birlikdə cənnətdən qovulmasını yada salıb arvadı Baharı dünya malına hərislikdə günahlandırır. Ərlə arvadın söhbətini eşidən Qasım bəy onları öz malikanəsinə qonaq çağırır və bütün var-dövlətini onlara verəcəyini bildirir. Amma Qasım bəyin bir şərti var: ortaya qoyulmuş qabın ağzı üç saat müddətində açılmamalıdır. Qasım bəy sözünü deyib, şərtini kəsib Mahmudla Baharı süfrəyə düzülmüş naz-nemətlə baş-başa qoyur və üç saatlığa malikanəni tərk edir. Bahar yalnız iki saat dözə bilir, üçüncü saatda özünü ölümə qoyub Mahmudu məcbur edir ki, qabın ağzını açsın. Qabın ağzı açılır və içindən bir quş çıxır. Üç saatdan sonra evə qayıdan Qasım bəy şərtin pozulduğunu görüb deyir: «Belə görünür ki, dünyada insana nə qədər naz-nemət versən, yenə onun gözləri doymur» (18, 210). Yığcam məzmununu xatırlatdığımız bu əsərdə ayrıca şeytan obrazı yoxdur. Sadəcə olaraq əsərin bir neçə yerində şeytanla bağlı ifadələr var: «şeytan xatası», «lənət şeytana». Bu cür ifadələr işlənməsə belə oxucu və tamaşaçı qələmə alınan əhvalatın arxasında

şeytan əməlinin dayanmasını çətinlik çəkmədən başa düşür. Oxucu və tamaşaçı başa düşür ki, Baharın dözməyib örtülü qabın ağzını açdırması şeytan əməlindən başqa bir şey deyil.

«Qırmızı qarı» adlı birpərdəli pyesində isə Əbdürrəhim bəy Haqverdiyev demonik varlığı ayrıca bir obraz kimi qələmə alır. Qırmızı qarı adlı bu demonik varlıq hər dəfə sarayda gözə görünəndə padşaha bir bədbəxtlik üz verir. Birinci dəfə gözə görünəndə padşahın istəkli arvadı, ikinci dəfə gözə görünəndə isə padşahın əziz-xələf oğlu dünya ilə vidalaşır. Aradan bir müddət keçəndən sonra Qırmızı qarının təzədən peyda olmağı padşahı təşvişə salır. İstədiyi vaxt peyda olub möcüzəli şəkildə yoxa çıxan Qırmızı qarını nə tutmaq, nə öldürmək mümkün olur. Qırmızı qarının üçüncü dəfə gözə görünməsi ilə padşah sarayında növbəti bədbəxtlik baş verir: qırmızı libaslı cavan bir oğlanın başçılığı ilə bir dəstə əsgər saraya hücum çəkir və padşahın həyatına və hakimiyyətinə son qoyur. Nağıllardakı küpəgirən qarını xatırladan Qırmızı qarı əsərdə inqilabın rəmzi kimi təqdim olunur. Müəllif Qırmızı qarının bir demonik obraz olaraq çoxmənalılığından məharətlə istifadə edir. İnqilabın xalqlara fəlakətlər gətirdiyini nəzərə alsaq, əsərdə Qırmızı qarının müsbət yöndə təqdim edilməsindən bəhs etmək xeyli dərəcədə çətinləşər.

«Kimdir müqəssir» və «Qırmızı qarı» pyeslərində «Pəri cadu»dakı obraz və motivlərlə yaxından səsləşmə var. Səsləşən başlıca motiv nəfs ucbatından insanın acınacaqlı vəziyyətə düşməsi, səsləşən əsas obraz isə demonik qarı obrazıdır. Qırmızı qarı obrazı göstərir ki, müəllif «Pəri cadu»dakı Şamama cadu obrazına təsadüfən müraciət etməyib. Nəzərə alsaq ki, «Pəri cadu» pyesində Şamama cadu ilə yanaşı, ayrıca İblis, Dərviş və Əcinnə obrazları da var, həmçinin «Xortdanın cəhənnəm məktubları» əsərində demonik varlıqların məskəni olan yeraltı dünya əsas təsvir predmetidir, onda müəllifin «ənə-

nəvi fantastik» surətlərə maraq dairəsinin miqyası barədə daha aydın təsəvvür yaranar. «Pəri cadu» pyesində, eləcə də başqa əsərlərində xəyali obrazların yerini və rolunu doğru-düzgün başa düşməkdə Əbdürrəhim bəy Haqverdiyevin öz qeydləri mühüm əhəmiyyət daşıyır. Yazıçı «Pəri cadu» əsəri ilə bağlı yazır: «Ən qədimdən insanlar iki bərəks və əsas qüvvələrin çarpışmasına və mübarizəsinə etiqad bağlamışlar. İnsan beləliklə öz təbiətində olan iki mübariz qüvvəni ki, biri ola nəfs və o birisi əqli-səlim, özündən kənarda bulunan iki qüvvənin təsiri bilərək, bu qüvvələrə cisim geyindirib allahlıq mərtəbəsinədək yüksəltmiş. Xeyir Allahı ilə şər Allahı həmişə vuruşmada olublar. İranda Hürmüzd və Əhrimən adında iki Allah ki, biri zülmət və biri nur Allahıdır, həmişə mübarizədədirlər və əqidələrinə görə də mübarizənin axırında Hürmüzd Əhrimənə qalib gələcək» (19, 333). Allah və İblis, Hürmüzd və Əhrimən şəklində «cisim geyindirilən» nəfs və sağlam düşüncə qarşıdurması «Pəri cadu» əsərində Dərviş obrazının səhnəyə gətirilməsi ilə başlayır. Bir az əvvəl xatırlatdığımız «Şeyx Sənan» əsərindəki Dərviş xeyirxahlığı təcəssüm etdirmək baxımından «Pəri cadu» əsərindəki Dərvişlə müəyyən qədər səsləşir. Fərq bundadır ki, «Şeyx Sənan»dakı Dərviş baş qəhrəmanı öz istəyindən geri durmamağa çağırırsa, «Pəri cadu»dakı Dərviş baş qəhrəmanı səbirli olmağa, talenin hökmü ilə barışmağa çağırır. Baş qəhrəman yerində gördüyümüz Pəri xanımın acı taleyə boyun əymək fikri yoxdur. Pəri xanımda başqa qadınla yaşayan ərinə qarşı qəzəb hissi o qədərdir ki, bu qəzəbi yalnız qisas almaqla soyutmaq mümkündür. Ürəkdə alovlanan qəzəb oddan yaranmış İblisin ortaya çıxmasına və meydan sulamasına imkan yaradır: «Mən, oddan yaranmış bir vücud, yüz min il Allaha ibadət etdim. Axırda məni torpaqdan yaranmış bir insana səcdə etməyə məcbur etdilər, qəbul etmədim. Məni dərgahdan mərbud etdilər. Mən də nə qədər dünya durub, o insanın

nəsli ilə varam. Hirs, tamah, övrət gözəlliyi, dünya malı tək mənim əlimdə aləti-cazibə var ki, onların müqabilində dağlar, daşlar belə dayanmaz» (18, 111). Bir hökmdar ədası ilə ortaya çıxan İblis bir neçə əcinnəni və Şamama cadu adlı küpəgirən qarını Pəri xanımın ixtiyarına verir ki, o, qisasçılıq niyyətini «uğurla» həyata keçirə bilsin. İblislə ilk təmas və dialoqda diqqəti cəlb edən detallardan biri Pəri xanıma İblis tərəfindən Pəri cadu adının verilməsidir. Bu detal Pəri xanımın, Dərviş göstərdiyi yoldan imtina edib qanlı qisasçılıq yolu tutacağından xəbər verən bir detaldır. Arxasız bir qadın olan, Dərviş və İblis kimi xəyali varlıqların həmsöhbətinə çevrilən Pəri xanımın öz ərindən və bütün kişilərdən qisas alması əslində baş tutmayan bir işdir. Bunu nəzərə alan müəllif Pəri xanımın daxilindəki intiqam hissinin ölçüyəgəlməz dərəcəsini göstərmək üçün demonik obrazlara müraciət etməli olur. Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığının tanınmış tədqiqatçısı Təhsin Mütəllimov da bu fikirdədir ki, «pyesdəki rəmzi-fantastik forma vasitələrinə məhz Pəri obrazı ilə əlaqədar ehtiyac yaranmışdır» (20, 64). Məhz rəmzi-fantastik obrazlar hesabına Pəri xanım və Hafizə xanım paralelləri aparmaq, Hafizə xanım və Qurban, Pəri xanım və Qurban münasibətlərini dinamik səhnələrin predmetinə çevirmək mümkün olur. Çarəsiz qalıb İblisi köməyə çağırmaq, qəlbindəki intiqam hissini boğa bilməmək heç də Pəri xanımın başdan-binadan bədxah bir adam olması qənaətinə gəlməyə əsas vermir. Təhsin Mütəllimovun sözləri ilə desək «nə İblis, nə də Şamama cadu konkret bir insan xarakterini təcəssüm etmirlər, insanlardakı müəyyən ehtirasların, nəfslərin əyaniləşmiş alleqoriyası kimi fəaliyyət göstərirlər» (20, 65). Eyni ehtirasın – boy-buxunlu, qədd-qamətli bir kişiyə qovuşmaq ehtirasının daşıyıcısı kimi gördüyümüz Pəri xanım və Hafizə xanımı eyni xarakterli qadınlar hesab etmək, əlbəttə, doğru olmazdı. Hafizə xanımda qəddarlıq heç də sonradan

(ərinin ölümü ilə bağlı) yaranmayıb, o, Pəri xanımdan fərqli olaraq, təbiət etibarilə son dərəcə əzazil adamdır. Tabeliyindəki adamlara həqarətlə yanaşan, beş qəpik puldan ötrü nökərin, qulluqçunun dərisini soymağa hazır olan Hafizə xanım üçün boy-buxununa vurulub ər kimi evinə gətirdiyi Qurbanı belə təhqir etmək, onu dönə-dönə «it» adlandırmaq adi bir haldır. Əvvəldən iblis xislətli olan Hafizə xanımda bu xislət əri öldükdən sonra daha qabarıq şəkildə özünü büruzə verir.

Əsərdəki Qurban obrazına gəlincə, qeyd edilməlidir ki, bu obraz iki əsas istəklə İblisə tərəf yuvarlanır: var-dövlət sahibi olmaq və gözəl bir qadınla ömür sürmək. Faktlar göstərir ki, odunçu Qurbanın varlanmaq arzusu ilə yaşamasının folklordan gələn kökləri var. Kamran Məmmədov bu barədə deyir: «Tükəzbanın (Əbdürrəhim bəy Haqverdiyevin həyat yoldaşının – M.K.) danışdığı nağılları Əbdürrəhim bəy ayrıca bir dəftərə səliqə ilə yazırdı. Xalq yaradıcılığına onun marağı o qədər artmışdı ki, bu işlə məşğul olmaq üçün xüsusi saatlar ayırmışdı; yaxın kəndlərdə yaxşı nağıl bilənlərin yanına gedir, onları dinləyir və yazırdı. Tükəzbanın söylədiyi nağıllardan «Qızıl don» adlı nağıl Əbdürrəhim bəyin daha çox xoşuna gəlmişdi. Nağıldakı əsas fikir bu idi ki, hər kəs zəhmətdən üz döndərib var-dövlət dalınca qaçsa, öz ailəsini atıb gözəl, ağılsız qadınların fitnəsinə uyub onlarla dostluq etsə, fəlakətlə üzləşəcəkdir» (21, 37). Nağılın ruhuna, ideya-məzmununa uyğun olaraq Əbdürrəhim bəy Haqverdiyev «Pəri cadu» pyesində Qurban adlı bir odunçunun ömür dramına müraciət edir. Hər gün meşədən gətirdiyi bir şələ odunu bazarda satıb min bir müsibətlə çörəkpulu qazanan Qurban gözəl ailə sahibidir, son dərəcə mehriban və sədaqətli arvadı, körpə bir uşağı var. Qurbanın ömür dramı ordan başlayır ki, o, var-dövlət sahibi olmaq və gözəl bir qadınla ömür sürmək sevdasına düşür. Yeri gəlmişkən qeyd edək ki, dini rəvayətlərdə var-dövlət həris-

liyi şeytan felinə uymağın səbəblərindən biri kimi göstərilir. Bölgələrimizdə müxtəlif variantlarda danışılan dini rəvayətlərin biri bu məzmundadır: Bir alim (abid, imam) camaatı bir ağaca sitayişdən çəkindirmək istəyir. Nə qədər çalışırsa, camaatı «ata-baba yolu»ndan döndərmək mümkün olmur. Əlacsız qalan alim ağacı kəsmək qərarına gəlir. Şeytan bir qoca kişi sifətində alimin qabağına çıxır və onu ağacı kəsməkdən çəkindirməyə çalışır. Alim fikrindən daşınmaq istəməyəndə şeytanla sözləri çəpləşir və onlar əlbəyaxa olurlar. Alim şeytana güc gəlir. Məğlub olan şeytan alimlə şərtləşir ki, «gündə sənə bir belə qızıl verəcəm, ağacı kəsmə». Şeytan şərtə əməl edib alimə, dediyi miqdarda qızıl göndərir. Bir neçə gündən sonra qızılın kəsildiyini görən alim təzədən baltanı götürüb ağacı kəsməyə gedir. Yenə şeytan qoca kişi sifətində onun qabağını kəsir və onlar tutaşası olurlar. Amma bu dəfə şeytan alimi çox asanca yıxa bilir. Və məğlubiyyətin səbəbini alimə belə başa salır: «Mən şeytanam ey, sən allanmısan, tamah sənə üsdün gəlif. Get, daha ağacı kəsə bilməzsən» (9, 12-13). Bu rəvayətdə alim, Allaha şəksiz-şübhəsiz itaət etməyin təmsilçisidir. Onun nəzərində Allahdan başqa hər hansı bir varlığa, eləcə də ağaca tapınmaq ağla sığmayan bir işdir. Rəvayətdə ağac, heç şübhəsiz, islamaqədərki mifoloji düşüncənin – Dünya ağacı ilə bağlı etiqadın ifadəsidir və bu etiqadın tərəfində durmaq əslində şeytana Allahla ixtilafda olduğunu göstərmək üçün lazımdır. Allahla ixtilafın məğzində duran məlum və məşhur fikir isə bundan ibarətdir: ey məni insanın ayağına vermək istəyən Allah, sənin buyruğuna müticəsinə əməl edən hər bəndənin içində bir şeytan yatır. O şeytanı yuxudan oyatmağın yollarından biri qızıldır, var-dövlətdir.

Bu fikir «Pəri cadu» əsərində odunçu Qurbanın ömür dramından ana xətt kimi keçir. Odunçu Qurbanın daxilində varlanmaq həvəsi baş qaldıranda müəllif tərəf-müqabil kimi

heç də Dərviş tipli xəyali obrazdan istifadə etmir. Bu məqamda xəyali obrazın əvəzinə, müəllif Niyaz adlı başqa bir odunçunu dialoqun ikinci tərəfi kimi ortaya çıxarır. Yox yerdən varlanmaq azarına tutulan Qurbana Niyazın dedikləri mahiyyətcə kişilərdən qisas almaq istəyi ilə alışıb-yanan Pəri xanıma Dərvişin dediklərindən o qədər də fərqlənmir. Dərviş Pəri xanımı səbirli olmağa, taleyin hökmü ilə barışmağa çağırdığı kimi, Niyaz da Qurbanı halal zəhmətlə dolanıb heç kəsdən asılı olmamağa çağırır.

Amma Qurban yalnız varlanmaq arzusunda deyil, onun başqa bir arzusu, gözəl bir qadınla ömür sürməkdir. Bu arzu Pəri xanımın və Hafizə xanımın ürəyəyatan bir kişiyə qovuşmaq arzusu ilə üst-üstə düşür. Kişinin qadın, qadının kişi istəyi isə bir motiv kimi məşhuri-cahandır. Adəm – Həvva əhvalatından tutmuş bu gün dildə-ağızda dolaşan və şeytanın çeşid-çeşid hoqqalarından bəhs edən müxtəlif rəvayətlərəcən geniş bir mətn müstəvisində həmin motivin bir ovsunçu kimi qarşımıza çıxmasının və yaxud küncdə-bucaqda gizlənib marığa yatmasının şahidi oluruq. Tamamilə təbii bir haldır ki, araşdırıcılar Adəm – Həvva əfsanəsinə bənzəyən türk yaradılış mifində belə cinsəlliklə bağlı ştrixlərin olmasından bəhs edirlər. Yadımıza salaq ki, türk yaradılış mifində Erlik qadağan olunmuş meyvəni Edjiyə ilan cildinə girməklə yedirdir. Onu da yadımıza salaq ki, ilan fallik simvollardan biridir. «Dədə Qorqud» dastanında Dirsə xanın və Qazan xanın xatınlarının dilindən deyilmiş «Sarı yılan soqmadan ağca tənim qalqub şişər» (22, 42, 69) cümləsi ilanın fallik simvol olmasından xəbər verir. Folklorşünas Səfa Qarayev də Erlikin ilan cildinə girib qadağan olunmuş meyvəni Edjiyə yedirtməsini cinsəl gücün ötürülməsi kimi qiymətləndirir: «Qadağan olunmuş budaqlardakı meyvələr, əslində, cinsi hisslər yarada bilən meyvələrdir. Erliyin ilan cildində insanları qadağan olunmuş

meyvədən yeməyə məcbur etməsi birbaşa olaraq onlara fallik enerjinin ötürülməsi ilə bağlıdır. Yəni fallik simvolun özü fallik münasibətlərin yaradıcısı kimi çıxış edir» (7, 56). İlk insan cütlüyü haqdakı mifdə cinsəl münasibətin diqqət mərkəzində olması və bu münasibətin Erlik tərəfindən qadın vasitəsilə yoluna qoyulması qadınların şeytani cazibəsindən bəhs edən rəvayətlərin mənbəyinə çevrilir, qadın cazibədarlığını şeytan gücü ilə müqayisə etmək bir çox rəvayətlərdə aparıcı fikir kimi öz ifadəsini tapır. Belə rəvayətlərdən birinə nəzər salmaq yersiz olmazdı: Şeytan qırx il oxumuş bir abidi heç cür yoldan çıxara bilmir. Bir qadın deyir ki, mən onu yoldan çıxararam. Qadın qucağında körpə uşaq, əlində bir şüşə şərab abidin qabağını kəsir və onun getməyinə imkan vermir. Deyir ki, ya bu şərabı içməlisən, ya mənimlə «başbir» olmalısan, dediklərimdən birini yerinə yetirməsən, bu uşağın başını kəsib qanını sənin üstünə tökəcəm. Abid Allah yanında daha az günaha batsın deyə şərabı içməli olur. Amma şərab Abidi o hala salır ki, qadının "başbir" olmaq təklifini də yerinə yetirir (5, 10-11). Bu rəvayətdə üzdə olan fikir qadın hiyləgərliyidir. Elə bir hiyləgərlik ki, şeytan fənd-felini arxada qoyur. Rəvayətin alt qatında isə cinsəl istəklə bağlı mətləbin ifadə olunması da danılmazdır. Elə bir istək ki, qanlar tökülməsinə, evlər yıxılmasına səbəb ola bilir.

Oxşar mənzərəni «Pəri cadu» pyesində də görürük. Hafizə xanımın və Pəri xanımın kişi ələ keçirmək sevdası və Qurbanın bu sevdaya aldanması fəlakətlərə gətirib çıxarır: Qurbanın arvadı Səlimə evdə ac-yalavac qalıb südəmər uşağını, sonra isə özünü zəhərləyib öldürür. Baş verənlərdən dəhşətə gələn Qurban Hafizə xanımı və Pəri xanımı qətlə yetirir. Sonda səhvlərini anlayan, özünə ölüm arzulayan Qurban əcinnələr yuvasında Şamama cadunun yeminə çevrilir. Beləliklə, aydın olur ki, Əbdürrəhim bəy Haqverdiyev «hər kəsin öz

əlinin əməli onun müqəddəratını təmin edər; insan, taleyini kənarda axtarmayıb öz-özündə axtarmalıdır» (19, 332) fikrini əsərdə daha çox mənfiliklərin təsviri fonunda ifadə etməyə çalışır, «əsərdə müəllifin müdafiə etdiyi müsbət idealların əsl təsdiqi və təntənəsi onların əksini təşkil edən mənfiliklərin ifşa və ittihamında əldə edilir» (22, 69). Mənfiliklərin qabardılmasında və təsirli boyalarla oxucuya çatdırılmasında müəllif demonik obrazlardan ustalıqla istifadə edir. İblis və onun əcinnələrdən və Şamama cadudan ibarət dəstəsi əsərdə müsbət idealın dolayı yolla ifadəsində əvəzsiz rol oynayır.

Demonizmi yalnız demonik obrazların təsvir edildiyi bədii əsərlərdə axtarmaq, əlbəttə, doğru olmazdı. Nəfs, tamah, maddi maraq ucbatından fəlakətə uğramış adamların taleyi hər hansı bədii əsərdə başlıca mövzudursa, həmin əsərin arxa planında demonizm məsələsinin gizlənməsi məntiqə uyğun bir haldır. Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığında demonizmin bu cür dolayı ifadəsinin də kamil örnəkləri vardır. «Dağılan tifaq» belə örnəklərdən biridir. Nəcəf bəy adlı bir mülkədarın acınacaqlı taleyindən bəhs edən bu əsərə sovet dövründə bir çox tədqiqatçılar sinfilik ideologiyası baxımından yanaşmalı olublar, bir mülkədarın faciəsini XIX əsrin sonlarında nüfuzunu itirməyə başlamış mülkədarlığın süquta uğramasının göstəricisi kimi qiymətləndirməyə çalışıblar və bəylərin istismarçı təbiətinin kifayət qədər açılmamasını əsərin qüsurları sırasına daxil ediblər. Təəssüf ki, bu cür yanaşma Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığına sanballı monoqrafiya həsr etmiş Təhsin Mütəllimovun da araşdırmalarından qıraqda qalmayıb. Təhsin Mütəllimov yazır: «Bizcə, Ə.Haqverdiyev Nəcəf bəyin simasında və taleyində süquta üz qoymuş Azərbaycan mülkədarlığının mənəvi düşkünlüyünü, tüfeyliliyini bütün eybəcərliyi ilə ifşa etmək məqsədini izləmişdir. Lakin ədib bu süqutun tarixi-ictimai səbəblərini düzgün

göstərməmiş, mülkədarlığın istismarçı xarakterini aça bilməmişdir… Hiss olunur ki, ədib Nəcəf bəyin faciəsinin səbəblərini, əsasən, onun şəxsi xarakterində, fərdi, subyektiv əməllərində görmüş və tragik vəziyyətini də həmin əməllərlə izah etməyə çalışmışdır» (20, 14-15). Mövzumuzdan kənara çıxmadan «istismarçılıq» məsələsinə ümumi şəkildə münasibət bildirsək, qeyd etməliyik ki, XX əsrin 20-30-cu illərində sovet ideologiyasının basqısı altında bir çox yazıçılar, o cümlədən Əbdürrəhim bəy Haqverdiyev bəy-xan zülmünə, əzilən fəhlə-kəndli sinfinin bu zülmə qarşı mübarizəsinə müxtəlif əsərlər həsr etdilər. Ədəbi fikir bu əsərlərdən o qədər bezdi və zinhara gəldi ki, XX əsrin 60-cı illərində «Dəli Kür» (İsmayıl Şıxlı) və «Qarlı aşırım» (Fərman Kərimzadə) romanlarında Cahandar ağa və Kərbəlayi İsmayıl obrazlarının «istismarçı» sxematizmindən uzaqlaşdırılıb canlı insanlar kimi qələmə alınmasını – yazıçının görməli olduğu sıravi bir işi tənqid toy-bayram kimi qarşıladı. Ədəbi tənqidin rəğbətlə qarşıladığı Cahandar ağa və Kərbəlayi İsmayıl kimi obrazların yaranmasında, heç şübhəsiz, sovetləşmədən əvvəl yazılmış əsərlərin, eləcə də «Dağılan tifaq» faciəsinin əsaslı təsiri oldu. Belə təsirlənmənin nəticəsidir ki, Cahandar ağa ilə Nəcəf bəy arasında oxşar cəhətlər tapmaq olar: Cahandar ağa da Nəcəf bəy kimi oğlunun rəiyyət qızı qaçırması ilə heç cür razılaşmaq istəmir, rəiyyətlə qohumluğu özünün bəylik qüruruna sığışdıra bilmir. Buna baxmayaraq nə Nəcəf bəy, nə də Cahandar ağanı rəiyyətə zülm edən «istismarçı» adlandırmaq mümkün deyil. Həm Nəcəf bəy, həm də Cahandar ağa tabeliyində olan adamlara ailələrinin bir üzvü kimi baxır, onların namusunu öz namusu hesab edir. «Dağılan tifaq» və «Dəli Kür» əsərlərində ön plana çıxarılan məsələ «mülkədarlığın istismarçı xarakterini» yox, baş qəhrəmanların mürəkkəb daxili aləmini açmaqdır.

Kifayət qədər var-dövlət sahibi olan Nəcəf bəy səxavətlidir, yardım xahişi ilə üstünə gələni əliboş qaytarmır. Xəsislikdən uzaq olan bu adam pulu artırmaqdan daha çox pulu xərcləmək barədə düşünür. Faciə ondan başlayır ki, Nəcəf bəy pulu eyş-işrətə xərcləməyi ömrünün mənası sayır, «pulun var xərc elə, bağışla, ye, iç, ver keyfə, ləzzətə… beş gün qara dünyanın ləzzətini apar, öləndə də dünyada bir təmənnan qalmasın» deyir (21, 49). Eyş-işrət, yemək-içmək, kef-damaq ehtirası Nəcəf bəyi qumarbazlığa sürükləyir. Əsərin birinci pərdəsində biz Nəcəf bəyi bir neçə başqa bəylə baş-başa verib qumar oynayan görürük. Əsərin sonrakı pərdələri artıq Nəcəf bəyin maddi və mənəvi iflasının ayrı-ayrı səhnələrindən ibarət olur. Bədxərclik, qumara qurşanıb var-dövləti yavaş-yavaş əldən vermək Nəcəf bəyi o qədər müflisləşdirir ki, o, çörək puluna gələn qonşu qadını əliboş geri qaytarmalı olur. Əli Sultanlının sözləri ilə desək «maddi iflas içərisində, birinci növbədə, mənəvi iflasın əlamətləri təzahür edir» (23, 251). Nəcəf bəy üç övlad atası kimi mənəvi iflasa uğrayır: təlim-tərbiyəsi ilə lazımi şəkildə məşğul olmadığı cavan oğlunu itirir; iki körpə uşağının evdə ac-yalavac qalmasına səbəb olur. Nəcəf bəy bir ər kimi də mənəvi iflasa uğrayır: arvadı Sona xanım evdə baş verənlərə dözmür və ürəktutmasından dünyasını dəyişir. Sona xanımın təşviş keçirdiyi və ərinə narazılığını bildirdiyi səhnələrin birində qəfildən Dərviş peyda olur və o, avazla bu sözləri oxuyur:

Ey əzizim, bir baxın dünya nə ibrətxanədir!
Axırın fikr etməyən aqil deyil, divanədir (18, 62).

Bu epizodda Dərviş xəyali yox, real bir obrazdır. Nəcəf bəyin qapısında gəlib avazla oxuyan Dərviş öz sözləri ilə Nəcəf bəyi ayıldır və o tutduğu işlərdən peşmançılıq hissi keçirməyə başlayır. Tutduğu işlərin şeytan əməli olmasını Nəcəf bəyin dilindən eşitməsək də, başqa obrazların dilindən

eşidirik. Məsələn, qonşuları Pəri xanım xəstəhal Sona xanıma ürək-dirək verərək deyir: «Allah qoysa, yazın axır ayında havalar istilənər, bir yerdə gedərik ziyarətə. Qurban kəsərik, dua eləyərsən, Allah sənə cansağlığı verər. Ərinə də ağıl verər, şeytan yolunu buraxıb Allah yoluna qayıdar» (21, 59). Nəcəf bəyin yuvarlandığı qumarbazlığın şeytan əməli olması əsərin sonunda Əbdül adlı obrazın da dilindən səslənir: «Allah heç kəsi qumara mübtəla etməsin. Xudavəndi-aləm hətta öz Qurani-şərifində qumarı şeytan əməli buyurubdur. Əlbəttə, şeytan əməlinə qurşanan gərək axırda belə olsun» (18, 73). Bu yerdə Əbdülün dilindən Xudavəndi-aləmin yada salınmasına təsadüfi fakt kimi baxmaq düzgün olmazdı. Məsələ burasındadır ki, «şeytan əməlinə uymağın Allah qarşısında hesabı var» fikri əsərdə mühüm yer tutur. Bu fikrin ilk daşıyıcısı həssasqəlbli Sona xanımdır. Nəcəf bəyin əməllərindən narahat olan və bu əməllərin cəzasız qalmayacağını düşünən Sona xanım qorxulu bir yuxu görür: Həyətlərində gözəl bir ağac var, dörd bir tərəfi çəmənlikdir. Birdən hava tutulur, ildırım çaxır, güclü dolu düşüb ağacın qol-budağını sındırır, ətrafdakı çəmənlik yoxa çıxır. Gördüyü bu yuxudan sonra Sona xanımda şübhə qalmır ki, fəlakətlə üzləşəcəklər. Sona xanımdakı narahatlıq və təlaş tədricən Nəcəf bəydə də özünü göstərməyə başlayır. Nəcəf bəyin narahatlıq və təlaşı incitdiyi adamların ah-naləsi və göz yaşı ilə daha çox bağlıdır: «Pərvərdigara, məsləhət sənindir. Evlər yıxmışam... Övrətlər başıaçıq, ayaqyalın müsəlləyə çıxıb, haqq-hü çəkib, üstümə nalə töküblər. Heç birinə qulaq verməmişəm, demişəm mənim kefim kök olsun» (21, 75). Nəcəf bəy yalnız kənar adamların yox, həm də öz arvad-uşağının ah-naləsindən qorxur. Cavan oğlunun və arvadının ölümünə, iki körpə uşağının acyalavac qalmasına bais olduğunu düşünən Nəcəf bəy özünü Allah divanında ağır cəzaya layiq bilir.

İblislə birbaşa dialoq epizodlarına yer verilməyən «Dağılan tifaq» faciəsində, əgər belə demək mümkünsə, Allahla dialoqun özünəməxsus formasına rast gəlirik. Özünəməxsusluq ondadır ki, əvvəlcə Sona xanım, daha sonra isə Nəcəf bəy Allaha üz tutub ondan imdad diləyir. Sona xanımın ardınca Nəcəf bəy də tədricən bu fikrə gəlir ki, şeytan əməli hesabına baş verənləri Xudavəndi-aləm cavabsız qoymayacaq. Gözlədiyi kimi də olur: Sona xanımın yuxusu gerçəyə çevrilir, yurd-yuva dağılır, günahlarını boynuna alıb əzablar içində qıvrılan Nəcəf bəy göylərin cavab olaraq göndərdiyi ildırıma tuş gəlib bu dünya ilə vidalaşır.

Əbdürrəhim bəy Haqverdiyevi ailənin dağılması ilə yanaşı, dövlətin dağılması məsələsi də ciddi şəkildə düşündürüb və o, məşhur «Ağa Məhəmməd şah Qacar» tarixi faciəsini yazıb. «Tərcümeyi-hal»ında «İran səyahətindən sonra «Ağa Məhəmməd şah» faciəsini yazdım. Burada heç bir kənar təsir yoxdur» qeydindən (I, 403,404) aydın olur ki, müəllif bu faciədən özünəməxsus bir əsər kimi məmnun olub. Əsərdə məmnuniyyət doğuran cəhətlərdən biri, heç şübhəsiz, bir-birini əvəz edən dinamik hadisələr və obrazlar fonunda Ağa Məhəmməd şah Qacarın ziddiyyətlərlə dolu xarakterini yaratmaqdadır. Elə bir xarakter ki, «Dağılan tifaq»dakı Nəcəf bəyin xarakterindən qat-qat mürəkkəbdir. Mürəkkəbliyin ilkin əlamətlərindən biri görülən işləri (yaxşılı-pisli, xeyirli-şərli) Allahın adı ilə bağlamaqda özünü göstərir. Əgər Nəcəf bəy maddi və mənəvi iflasa uğradıqdan sonra, tutduğu əməllərdən peşman olub Allaha üz tutursa, biz Ağa Məhəmməd şahı ilk səhnələrdən Allaha üz tutan, onun adından danışan, onu köməyə çağıran bir hökmdar kimi görürük. «Dağılan tifaq»dakı kimi, «Ağa Məhəmməd şah Qacar»da da İblis obrazı və yaxud hər hansı başqa demonik surət iştirakçılar sırasına daxil edilmir. «Dağılan tifaq»dakı kimi, «Ağa Məhəmməd şah Qacar»da da şeytani

əməllərin nədən ibarət olduğunu müəyyən etmək oxucunun və tamaşaçının ixtiyarına buraxılır. Və əsas çətinlik (eləcə də estetik gözəllik) bu nöqtədə ortaya çıxır. Məsələ burasındadır ki, Nəcəf bəyin şeytani əməlləri nə qədər üzdədirsə, Ağa Məhəmməd şahın şeytani əməlləri bir o qədər dərində, alt qatdadır. Başqa sözlə desək, Ağa Məhəmməd şahın qəddarcasına gördüyü hər hansı bir işi şeytani əməl adlandırmaq əsəri təhrif etmək, müəllif qayəsini doğru-düzgün qiymətləndirməmək olardı. Sovet dövründə əsərin təhrif edilməsi və baş qəhrəmanın «müstəbid və istilaçı» kimi qiymətləndirilməsi hamımızın yaxşı yadındadır. O da hamının bildiyi bir faktdır ki, Ağa Məhəmməd şah Qacar obrazına münasibətin sovet dövründəki əsas etalonu Səməd Vurğunun yaratdığı Qacar obrazı idi. «Vaqif» dramında Qacar məhz «qaniçən bir işğalçı» kimi təqdim olunmuşdu. Bu, bir müəllif olaraq Səməd Vurğunun öz mövqeyi idi və həmin mövqeni Səməd Vurğun əsərin az qala hər səhifəsində hiss etdirirdi ki, hər hansı başqa yozuma ayaq yeri qalmasın. Ağır repressiya illərində Qacara münasibətdə bu cür birtərəfli mövqe tutmalı olan Səməd Vurğunu ittiham etmək fikrimiz yoxdur. Fikrimiz Əbdürrəhim bəy Haqverdiyevin yaratdığı Qacar obrazına Səməd Vurğun etalonu ilə yanaşmağın yanlış olduğunu vurğulamaqdır.

Əbdürrəhim bəy Haqverdiyevin Qacarını biz, ilk növbədə, kitablar oxuyub elmlərə yiyələnmiş tədbirli bir hökmdar kimi görürük. Qacarın dərin ağıl işlədərək gördüyü tədbirlər Nadir şahın ölümündən sonra süquta uğrayıb parça-parça olmuş dövlətin qüdrətini və əvvəlki bütövlüyünü təmin etmək məqsədi daşıyır. «Dava var qılıncla qurtarar, dava var dillə. Əvvəl dil, sonra qılınc qoşunu mənə lazımdır» deyən (18, 165) Qacar ölkədaxili, tayfalararası ədavətə son qoyduğunu bəyan edir; «iki türk tayfasının rubəru durub bir-birinin qanını tökməyi İranın tənəzzülünə səbəb olar» deyən (18, 165) Qa-

car əfşarlarla qacarları ümumi düşmənə qarşı birlikdə mübarizə aparmağa səsləyir. Bu cür tədbirli olmağın nəticəsidir ki, qacarlara qarşı vuruşmağa hazır olan Əli xan Əfşarın qoşunu bütünlüklə Ağa Məhəmməd xanın tərəfinə keçir. Ağa Məhəmməd xan şahlıq uğrunda mübarizədə ilk qanlı vuruşmanı ona tabe olmaq istəməyən qardaşları Mürtəzaqulu xan, Mustafa xan və Rzaqulu xana qarşı başlamalı olur. Qardaşlar arasındakı bu qanlı vuruşmanın qaçılmazlığını Ağa Məhəmməd xan belə əsaslandırır: «Əvvəl sülh təklifi lazımdır və sülhlə qurtaran ədavət, düşməni dost edə bilər. Mən camaatın qırılmağına heç vədə riza verməərəm. Amma vaxta ki, düşmən möhkəm durdu və ya camaat rugərdan oldu, mənim qəzəbimin intihası olmaz. Beşikdə mələr uşaqlaradək qırdırsam, yenə ürəyim soyumaz» (18, 155). Şahlıq uğrunda ilk qanlı vuruşmanı qiyamçı qardaşlarına qarşı başlayan Qacar qəddarcasına ilk cəzanı da ələ keçən qardaşı Rzaqulu xana vermək qərarına gəlir: onun əmri ilə Rzaqulu xanın gözləri çıxarılır. Öz qoşunu ilə Qacar tərəfə keçən Əli xan Əfşar tam etibar qazanmadığına görə Rzaqulu xana verilən cəza Əli xan Əfşara da verilir. Oxucu və tamaşaçını dəhşətə gətirən ən böyük qəddarlıq Cəfərqulu xanın aqibəti ilə bağlı olur. Cəfərqulu xan Ağa Məhəmməd xanın ən çox istədiyi, xətrini əziz tutduğu qardaşıdır. Cəfərqulu xan bir sərkərdə kimi böyük şücaətlər göstərib, Ağa Məhəmməd xanın şahlıq taxt-tacına sahib olmasında əvəzsiz rol oynayıb. Oxucu və tamaşaçını dəhşətə gətirən budur ki, Ağa Məhəmməd şah, xətrini əziz tutduğu qardaşının belə qətlinə qərar verir. Cəfərqulu xanın meyidi üstündə göz yaşı axıdan Qacar bu qətl qərarını dövlətin gələcək taleyi naminə verdiyini belə əsaslandırır: «Öz belimi sındırdım! Əlacım yox idi. And olsun Məhəmmədhüseyn xanın (Qacarın atası – M.K.) qəbrinə, o nəcib ruh ki, bu nəcib bədəni mühəyya eləmişdi (Cəfərqulu xan nəzərdə

tutulur – M.K.), bir dəqiqə səltənət tacını mənim varisimin başında rahat qoymayacaqdı. Qoy mənim varisim görsün ki, gözümün işığı, məni həlakətdən qurtaran, məni İran təxti-səltənətinə əyləşdirən qardaşımı onun ayağının altında qurban kəsirəm ki, onun səltənəti salamat olsun və gələcəkdə İran parçalanmasın» (18, 174). Dövlətin bütövlüyü və qüdrəti naminə Qacarın göstərdiyi qəddarlıqlar sırasında Şuşanın mühasirəyə alınması və camaatın ac-yalavac vəziyyətə salınması; Tiflis əhalisinin qılıncdan keçirilməsi və şəhərin odlara qalanması kimi səhnələri də xüsusi qeyd etmək olar. Bu cür qəddarlıqlar Qacarın uşaqkən axtalanması və onda insanlara qarşı kin-küdurət hissinin yaranması ilə, heç şübhəsiz, bağlıdır və müəllif əsərdə məsələnin bu cəhətinə işarə etməyi yaddan çıxarmır. Amma onu da inkar etmək olmaz ki, dövlətin bütövlüyünə mane olmaq və onu zəiflətmək istəyənlər əsərdə Qacar əzazilliyinin ən başlıca səbəbkarları kimi nişan verilir. Bir hökmdar kimi Qacarın nəzərində Gürcüstan valiliyinin və Azərbaycan xanlıqlarının Qacarlar dövlətindən ayrılıb Rusiya ilə birliyə can atması yolverilməzdir və bu cür ayrılmalara can atanlar ən ağır cəzalara məhkum olunmalıdır. Bütöv və qüdrətli dövlət! Bu amal Qacarın öz silahdaşları ilə dialoqundan qırmızı xətt kimi necə keçirsə, onun monoloqlarından da eləcə keçir: «İlahi, parça-parça olmuş, neçə yerdən ölümcül yaralanmış İranı bəlalardan mühafizə elə» (18, 157). Bu misaldan da aydın görünür ki, parçalanmış dövlətin bütövlüyü yolunda atdığı addımların hər birini Qacar haqq işi sayır və bu yolda uca Allahdan kömək umur. Tabeliyində olanlar da Qacarın hər əmrini «padşah hökmü Allah hökmüdür» deyib sözsüz-filansız yerinə yetirirlər.

Qarşıya sual çıxır: Kərim xanın sümüklərinin qəbirdən çıxarılıb qapı ağzında – Qacarın ayaqları altında basdırılması; Nadir şahın oğlu Şahrüxün başına qurğuşun əridilib tökülmə-

si; Kirmanda qoca kişilərin, qadınların, südəmər uşaqların qılıncdan keçirilməsi də haqq işidirmi? Əlbəttə, yox. Saydığımız və saymadığımız bu sayaq işlər şeytan işidir və qəzəblənib cin atına minəndə Qacar cin-şeytan əməlinə qol qoymalı, ağlasığmaz ölçüdə qanlar tökməli olur. «Mən öz şəxsi qərəzim üçün çalışmıram, mən İranın dərdindən ötrü çalışıram» deyən (18, 156) Qacar, «Təzə padşah köhnəni ədalətlə camaatın yadından çıxartdırmasa, onun səltənəti möhkəm olub getməz... Rəiyyət məhəbbəti qazanmaq padşahların ilk vəzifəsidir» deyən (18, 173) Qacar haqq tərəfdarı, Allah adamı kimi danışır, ilahi niyyətin təmsilçisi kimi təqdim olunur. Həmin ilahi niyyəti – mükəmməl bir dövlət qurmaq istəyini mələk donunda gerçəyə çevirmək mümkündürmü? Əlbəttə, yox. Qanlı vuruşmalardan, kütləvi qırğınlardan keçən dövlətçilik davası istər-istəməz demonik ehtiraslı insanlar meydana çıxarır. Demonik obrazlarda gördüyümüz ikili təbiət demonik ehtiraslı insanların da səciyyəvi cəhətinə çevrilir. Belə insanlara nəzərən xeyirin harda bitib, şərin harda başladığını söyləmək çətinləşir. Əbdürrəhim bəy Haqverdiyevin yaratdığı Ağa Məhəmməd şah Qacar obrazı da belə demonik təbiətli insanlardan biridir.

«Vaqif» dramındakı meyarı əsas götürsək, Qacarın Qarabağ xanlığına hücumu mənfi, İbrahim xanın Rusiyaya meyli müsbət haldır. «Ağa Məhəmməd şah Qacar» faciəsində isə Rusiyaya birləşməyin təqdir olunmadığını Əbdürrəhim bəy Haqverdiyevin başqa bir əsərində – «Xortdanın cəhənnəm məktubları» povestində görmək mümkündür.

İblisin qınanması və ittiham olunması povestdəki səciyyəvi səhnələrdən biridir. Cəhənnəm əzabına düçar olan müsəlmanların bir çoxu İblisin üstünə düşür ki, bizi pis yola çəkən, pis əməllər dalınca sürükləyən sənsən. İblis onlara belə cavab verir: «Ay camaat, məndən əl çəkin!.. Dünyada baş

verən bəd əməllərin çoxundan nə mənim xəbərim var, nə də mənim övladımın. Gedin öz içinizi axtarın, görün nə qədər şeytanlar taparsınız ki, mən onların əllərinə su tökməyə yaramaram. Budur ha! Birisi gəlir, baxın görün şeytan odur, yoxsa mən?» (19, 70). İblisin nişan verdiyi adam Qocaqurd mahalının bəyidir. Bəyin cəhənnəm odunda yanmağının başlıca səbəbi rus hökumətinin camaatı alçaldan yerli nümayəndələri ilə əlbir-dilbir olmasıdır: Naçalnik qabağından yeməyən, yarınmağı-yaltaqlanmağı bacarmayan bir neçə nəfəri iki yüz altı qacağın qabağına qatıb «payimal» edir. Bir nəfərin boğazına ip salıb atın dalınca yerlə o qədər süründürürlər ki, o bədbəxtin iki gözü də yerindən pırtlayıb çıxır. Hamının gözü qarşısında baş vermiş bu dəhşətli hadisədən sonra Qocaqurd mahalının İblisdən geri qalmayan bəyi naçalnikə yüzədək çar məmuru ilə birlikdə elə bir ziyafət verir ki, neçə bəy yığışsa, elə ziyafət verməyə gücü çatmaz (19, 70-71). "Xortdanın cəhənnəm məktubları"nda siyasi yaramazlığa aid təsvir Qocaqurd bəyinin sərgüzəştləri ilə məhdudlaşmır və müəllif cəhənnəmin vətən və dövlət xainlərindən ibarət ayrıca guşəsini qələmə alır. Bu guşədəki saysız-hesabsız xainlərdən bir çoxu Azərbaycan torpaqlarını Rusiyaya satmış və ya rus təbəəliyini qəbul etmiş dövlət adamlarıdır. Belə dövlət adamlarından biri rus sərkərdəsinin hüzuruna təşrif buyurub ki, sənin padşahın mənə generallıq rütbəsi versə, mən öz məmləkətimi ona bağışlaram. Şəxsi mənafeyi naminə ölkəni satan hakimin arzusu yerinə yetirilib. Müəllif bu əhvalatı təsvir etdikdən sonra öz adından – "müəllif qeydi" olaraq əlavə açıqlama verməyə də ehtiyac duyur: "1804-cü ildə Gəncə xanlığı birinci dəfə alındıqdan sonra Qarabağ xanı İbrahim xan əhvalatdan xəbərdar olub, öz xahişi ilə Kürəkçayda knyaz Sisyanovun xidmətinə gələrək, xanlığında baqi qalmaq şərtilə Rusiya imperatoruna izhari-təbəiyyət etmiş. Knyaz məmnuniyyətlə qəbul edib,

padşah tərəfindən sonra imperatorun şərəfinə içmək üçün xana bir bakal şampanski təklif etmiş, xan şampanskini içmiş və şərab damağına çox dadlı gəlmiş. Bir qədər söhbətdən sonra xanın könlündən yenə şampanski içmək keçmiş, üzünü knyaza tutub xəbər almış: "Padşahın şərəfinə bir dəfə də içmək olarmı?" Sisyanov: "Çox gözəl olar" – deyib ikinci bakalı xanın damağına vermiş" (19, 59). Bu kimi faktlar göstərir ki, Sankt-Peterburqda təhsil alan və rus mədəniyyətinə böyük ehtiram bəsləyən Əbdürrəhim bəy Haqverdiyev (eləcə də XIX əsrin sonları, XX əsrin əvvəllərində yaşayıb-fəaliyyət göstərmiş ziyalılarımızın böyük əksəriyyəti) Rusiyadan siyasi asılılıq faktı ilə heç cür barışmaq istəməyib.

Ağa Məhəmməd şah Qacarın Qarabağda qətlə yetirilməsi və İran şahənşahlığının get-gedə zəifləməsi Rusiyanın Azərbaycana təsir imkanlarını artırdı və hamının əzbər bildiyi tarixi hadisə baş verdi: Azərbaycanın Şimal hissəsi Rusiyanın tərkibinə daxil olmaqla məmləkətin bütövlüyü pozuldu. "Şər deməsən xeyir gəlməz" hikmətindən çıxış etsək, hər iblisanə əməldə hansısa xeyir toxumunun da gizləndiyini nəzərə alsaq, qeyd etməliyik ki, Şimali Azərbaycanın İran şahənşahlığının tərkibindən işğalçılıq məqsədilə qoparılması 1918-ci ildə İrandan kənarda Azərbaycan Cümhuriyyətinin, 1990-cı ildə isə Azərbaycan Respublikasının qurulmasına gətirib çıxardı. Dünyanın işini bilmək olmaz: dünyada siyasi hadisələr elə cərəyan edər ki, Azərbaycan öz bütövlüyünə də qovuşar. Əbdürrəhim bəy Haqverdiyevin (eləcə də onun qələm yoldaşlarından bir çoxunun) yeri gəldikcə Rusiyadan siyasi asılılığa, örtülü şəkildə də olsa, etiraz etməsi, heç şübhəsiz, milli müstəqillik idealından doğan bir addımdır. Belə olmasaydı, Əbdürrəhim bəy Haqverdiyev "Xortdanın cəhənnəm məktubları"nda rus hökumətinə müti qul itaəti göstərib öz soydaşlarına divan tutanları şeytan xislətli adamlar kimi təqdim etməzdi.

Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığında demonizmdən danışarkən gülüş məsələsindən yan keçmək çətindir. Bu məsələdən necə yan keçmək olar ki, həm “Xortdanın cəhənnəm məktubları” povestində, həm də “Pəri cadu” pyesində dramatizm komizmlə yan-yana, iç-içədir. Təzədən “Pəri cadu” əsərinə qayıtsaq, qeyd etməliyik ki, əsərin lap əvvəlində İblis səhnəyə qəhqəhələrlə daxil olur; İblisin dəstəsindəki əcinnə məzəli oyunlardan, hoqqalardan çıxır. Yəni demonizm kontekstində gülüş həmin əsərdə bir fizioloji akt kimi, bir də komizmin göstəricisi kimi təqdim olunur. Gülüşlə bağlı hər iki halın şifahi xalq ədəbiyyatında folklor poetikasına uyğun ənənəsi vardır. Demonik varlığa aid gülmək aktının folklorda ən səciyyəvi faktlarından biri Gülü Qahqah xanımın (qəhqəhə çəkib gülən və hər güləndə ağzından gül tökülən qeyri-adi mənşəli qadının) məşhur nağıl qəhrəmanlarından olması faktıdır. Digər səciyyəvi fakt demonik varlıqların, xüsusən də cinlərin mifoloji mətnlərdə çal-çağır həvəskarı kimi təqdim olunmasıdır. “Mifoloji düşüncəyə görə, cildini dəyişən cin insanı aldadıb xarabalığa, köhnə dəyirmana, çöl-biyabana, yaxud dərin bir dərəyə aparır və onu çal-çağıra qonaq edir. Adamı yoldan çıxarmaqda cinin əl atdığı ən başlıca vasitə toy-düyün, deyib-gülmək, yeyib-içməkdir” (24, 32). Konkret olaraq şeytan obrazına gəlsək, qeyd etməliyik ki, dünya xalqlarının mifologiyasında gülmək şeytanın mühüm atributları sırasındadır və bu demonik varlıq haqqında belə bir fikrin irəli sürülməsi tamamilə yerli-yerindədir: “Şeytan heç vaxt ağlamır, əgər ağlayırsa, demək, yalandan ağlayır” (28, 287). “Heç vaxt ağlamayan” şeytanın ən çox hədəf seçdiyi, başının üstünü alıb qılığına girdiyi adamlar çarəsizlər, naçarlar, “neyniyim, necə eləyim?” deyib çıxış yolu axtaran adamlardır. Cinin-filanın yoldan çıxarması hesabına yox, öz istəyi ilə çalıb-çağıran adamlara, mifoloji təsəvvürə görə, şeytanın yaxın

düşməsi heç də asan olmur. Belə bir təsəvvürü əks etdirən mifoloji mətnlərdən birini yada salaq: Şeytan bir evdən çal-çağır, deyib-gülmək səslərinin gəldiyini görüb, balalarına tapşırır ki, gedib o evi qatıb-qarışdırsınlar, ora dava-şava toxumu səpsinlər. Balaları ha əlləşirlərsə, o evə dava salmaq mümkün olmur. Kor-peşman analarının yanına qayıdıb deyirlər ki, o evdə bir uşaq var, şeytandan betərdir, evdəkiləri nə qədər güldürürsə, bizi yada salmırlar (5, 97). Folklordan gələn motivlər – dara düşən adama şeytanın daha çox yaxınlaşması; öz gücünü və insanlar üstündə hökmranlığını şeytanın qəhqəhələrlə bildirməsi, şeytan əmrinə müntəzir olan demonik "məxluqların" şadlıq-şadyanalıq etməsi "Pəri cadu" əsərinin bədii strukturunda özünəməxsus yer tutur.

Əbdürrəhim bəy Haqverdiyevin, eləcə də "Molla Nəsrəddin"çi digər sənətkarların yaradıcılığında demonizm və bədii gülüş məsələsinin folklordan gələn səciyyəvi tərəflərini üzə çıxarmaq üçün şeytan obrazının arxaik qatlarına yenidən qayıtmaq ehtiyacı yaranır. Ehtiyac yaranır ki, Allah və şeytan qarşılaşmasında qəhrəman və antiqəhrəman mifoloji modelinin gizləndiyi nəzərə alınsın. Nəzərə alınsın ki, şeytanın antiqəhrəman mahiyyətini ona xas olan səciyyəvi cəhətlər (mövcud normalardan kənara çıxmaq; kələk işlədib hiyləgərlik etmək; cilddən-cildə girmək; tərsinə iş tutmaq; qəhrəmanın (Allahın) funksiyalarını imitasiya etmək və s. kimi xüsusiyyətlər) ortaya çıxarır. Bütün bu xüsusiyyətlər folklorda "ciddi" yöndə təqdim edilməklə bərabər, komik yöndə də təqdim edilir. Komik yöndə təqdim edilmə heç də məişət nağıllarında axmaq yerinə qoyulan şeytan obrazı ilə məhdudlaşmır və şeytanın antiqəhrəman mahiyyəti folklorda başqa adda obrazlara ötürülür. Keçəl belə obrazlardan biridir. Məişət nağıllarında keçəlin hiyləgərlikdə şeytana üstün gəlməsi əslində antiqəhrəman mahiyyətinin və yaxud triksterlik funksiyasının şeytan-

dan keçələ ötürülməsi kimi də qəbul edilə bilər. Oxşar vəziyyəti Allah obrazında da axtarmaq olar. Belə düşünmək mümkündür ki, qəhrəman və antiqəhrəman kontekstində Allaha aid cizgilər tədricən hökmdarın timsalında öz əksini tapır. Nəticədə Allah və şeytan qarşıdurmasının yerini, tutaq ki, Şah Abbas və keçəl qarşıdurması tutmuş olur. Şah Abbas və Kəlniyyət (Keçəl Niyyət) münasibətlərindən bəhs edən rəvayətlər, lətifələr və nağıllar göstərir ki, Şah Abbasın məzəli oyundaşı olan keçəl təlxəklik, məsxərəçilik funksiyasının daşıyıcısıdır. Hökmdar və məsxərəçi əlamətləri müəyyən qədər Teymurləng və Molla Nəsrəddin qarşılaşmasında da ortaya çıxır.

Molla Nəsrəddin obrazında "Molla Nəsrəddin"çiləri cəlb edən əsas cəhət Molla Nəsrəddinin libas dəyişmə məharəti, padşahdan tutmuş çobana, əkinçiyə-biçinçiyə qədər hər kəsin dilində danışa bilməsi, özünü axmaq yerinə qoyub sərhədləri aşması və dərin mətləblərə varmasıdır. Əbdürrəhim bəy Haqverdiyev öz yaradıcılığında Molla Nəsrəddin modelindən, bütövlükdə xalq gülüş mədəniyyətinin bədii imkanlarından yerli-yerində istifadə edən "Molla Nəsrəddin"çilərdən biridir. Xalq gülüş mədəniyyətinin qanunauyğunluqlarını, lətifə janrının poetikasını nəzərə almadan Əbdürrəhim bəy Haqverdiyev nəsrindəki bir çox məqamları doğru-düzgün başa düşmək çətindir. Məsələn, "Uca dağ başında" hekayəsində dəli oynatmaq belə məqamlardan biridir. Hekayədə müəllif dağlar qoynunda yerləşən bir şəhərdən, o şəhərdəki bəylərin, bəyzadələrin və balaca uşaqların məzəli məşğuliyyətindən bəhs edir. Bəylər barədə müəllif belə yazır: "İş yox, peşə yox, ciblərində pul çox – nə etsinlər? Üç yol var idi: qumar, içki məclisi, biri də molla döyüşdürmək. Özləri nə Allah bilirlər, nə şeytan. Məhz vaxt keçirmək üçün xərc çəkib qonaqlıqlar düzəldərdilər və tamam şəhərin axundlarını, tacirlərini dəvət edib, xörəkdən sonra ortalığa bir dini mübahisə salardılar, mollalar camaata, camaat

mollalara qarışardılar” (10, 225). Bəyzadələr (cavan bəylər) molla döyüşdürən atalarından da “irəli” gedib gecə saat ikidən, üçdən sonra qapıları döyüb ayrı-ayrı adamları yuxudan qaldırırlar və yuxudan qaldırdıqları adamlara “vacib” sözlər deyirlər: “Əli əmi, pis yatmısan, get təzədən yat”. Yaxud: “Həsən əmi, deyirlər çəp adam bir şeyi iki görər; yalandır, ya doğru?” (19, 225-226). Adamla şeytani məzələnməkdə uşaqlar da cavanları geridə qoyurlar. Uşaqlar məzələndikləri adamı dəliyə döndərməmiş ondan əl çəkmirlər. Uşaqların dəli elədiyi birinci adam Əli bəydir. At üstündə gedən Əli bəyə uşaqlar “Əli bəy, hara gedirsən? Məni də tərkinə al!” deyib onun dalınca düşürlər. Bu hal hər gün təkrar olunur və Əli bəyin dəli olmaqdan başqa bir yolu qalmır. Uşaqlar tacir Avanesi “sabahın xeyir, Avanes”, Zeynalabdin adlı qoca bir kişini “quzğun, quzğun”, Mirzə Alını isə “namərd, namərd” sözləri ilə bezdirib dəlilik həddinə çatdıra bilirlər.

Oxşar vəziyyətə “Çeşmək” hekayəsində də rast gəlirik: Əhli-kef bir adam olan vəkil Mahmud bəy Rusiyada çıxan müxtəlif qəzetlərə abunəçidir. Onun mənzilinə təşrif buyuran dost-tanış həmsöhbət olmaqla yanaşı, həmin qəzetləri də oxumaq imkanı qazanırlar. Mahmud bəyin əziz dostlarından biri olan Mirzə Əhməd bir gün Mahmud bəyin çeşməyini gözünə taxıb bir-iki saat qəzet oxuyur, sonra xudahafizləşib öz evlərinə gedir. Mirzə Əhməd gedəndən sonra Mahmud bəy çeşməyi masanın üstündə tapmayıb güman edir ki, Mirzə Əhməd çeşməyi səhvən özü ilə aparmış olar və nökəri Abbasqulunu Mirzə Əhmədin dalınca göndərir. Abbasqulu gedəndən sonra Mahmud bəy qəzetlərin altından öz çeşməyini tapır. Amma bu qərara gəlir ki, Mirzə Əhmədlə bir çeşmək zarafatına başlasın. Şeytani bir zarafat başlayır və bu zarafat aylarla, illərlə davam edir. Mahmud bəy uzun müddət, neçə-neçə adam vasitəsi ilə Mirzə Əhmədə xəbər göndərir ki, onun

çeşməyini qaytarsın. Mirzə Əhməd hara gedirsə, hansı şəhərdə, hansı qəsəbədə qalmalı olursa, Mahmud bəyin çeşmək oyunundan yaxa qurtara bilmir. Axırda Əhməd bəy “xanənişin” olub altı-yeddi il evindən çölə çıxmır. Şəhərdə belə danışırlar ki, Əhməd bəy “xəbti-dimağ” olub, yəni başına hava gəlib (19, 242). Çox çəkmir ki, “xanənişin” Əhməd bəyin ölüm xəbəri şəhərə yayılır və onun cənazəsi üstündə hamıdan çox ağlayan və “qardaş vay” deyib başına döyən Mahmud bəy olur.

Qısa məzmununu xatırlatdığımız “Uca dağ başında” və “Çeşmək” hekayələri lətifə janrının poetikası üzərində qurulub. Bu hekayələrdə lətifə poetikasından gələn ən mühüm cəhət ixtiyari oyunun məqbul sayılması cəhətidir. Bəli, lətifələrdə həyatverici gülüş yaratmaq naminə istənilən bir oyunu, eləcə də adamı dəli eləmək, asıb-kəsmək ölüb-öldürmək oyunu oynamaq adi bir haldır.

Molla Nəsrəddin ətrafdakı adamlarla, həmçinin ətrafdakı adamlar da Molla Nəsrəddinlə ağlasığmaz zarafatlar edir. Zarafatlaşma məsələsində Molla Nəsrəddin üçün sosial təbəqə fərqi yoxdur. O, sədd və sərhəd tanımadan ən sıravi adamla zarafatlaşdığı kimi, ən böyük hökm sahibi ilə də (məsələn, Teymurlənglə) zarafatlaşa bilir. Molla Nəsrəddinin Teymurlənglə zarafatlarından biri bu məzmundadır: Teymurləngin bir nəfərə qəzəbi tutur. Mollaya əmr edir ki, bu saat buna yüz çubuq vur. Molla gülür. Mollanın gülməyini görən Teymurləng «Bu saat buna beş yüz çubuq vur» deyir. Molla lap ucadan gülür. Teymurləng «Bu saat buna min çubuq vur» deyir. Molla qəhqəhə çəkib gülür. Teymurləng cin atına minir, «Mənə gülürsən?» deyə soruşanda Mollanın cavabı belə olur: «Xeyr, qibleyi-aləm! Mənim həddim nədir sənə güləm. Mən Allaha gülürəm ki, sənin kimi çubuq dadı bilməyən, haqq-hesabdan başı çıxmayan bir adamı padşah eləyib. Yoxsa bir adama da min çubuq vurarlar?» (25, 186-187). Molla Nəsrəd-

dinin Teymurləngi qəzəbləndirib cin atına mindirməsi zarafatda aşağı-yuxarı fərqlərinin aradan qalxmasına bir nümunədirsə, «Korlar» adlı lətifədə təsvir edilən əhvalat zarafatda sağlam və şikəst sərhədinin aradan götürülməsinə bir nümunədir: Bir neçə kor dükanın qabağında oturub söhbət edir. Molla ordan keçəndə kisədəki pulları cingildədib «Alın bu pulları bölün» deyir, amma heç kimə heç nə vermir. «Sənə verdi», «Yox, sənə verdi» deyib korlar dalaşmağa, ağaclaşmağa başlayırlar. Molla isə onlara baxıb gülür (25, 84). Oxşar məzmunda şeytanla bağlı bir rəvayətin də olması (26, 262-264) bir daha onu deməyə əsas verir ki, şeytani əməlin baməzə biçimdə Molla Nəsrəddinlə əlaqələndirilməsi lətifə janrının poetikası üçün təbii bir haldır.

Lətifələrdə şeytani zarafatların bir qismi ölüb-öldürmək epizodları ilə müşayiət olunur: Molla iki nəfər yoldaşı ilə çöldə işləyir. Arvadı bir qab süd gətirir. Südə çörək doğrayıb yeməyə başlayırlar. Molla və iki yoldaşdan biri südə çörək doğradıqca üçüncü yoldaş onları gözləmədən yeməyə davam edir. Bir-iki dəfə eşitdirirlər ki, əl saxla, amma söz ona kar eləmir. Axırda Molla əlindəki çömçə ilə onun başına necə vurursa, kişi tir-tap yerə yıxılır. Molla baxır ki, kişi əməlli-başlı ölüb, çömçəni yerə tullayıb deyir: «Nə doğrar, nə basar, nə də əlini süddən kəsər. Bircə çömçə də vurcaq, birdəfəlik küsər ki, küsər (25, 70). Lətifə üçün sosial təbəqə fərqi olmadığı kimi, motiv fərqi və sərhəddi də yoxdur. Hər motiv, eləcə də ölüm-itim lətifənin sıravi motivlərindəndir. Qısa məzmununu xatırlatdığımız "Korlar" lətifəsi ölüm üstündə baməzə oyun qurmağın bariz nümunələrindən biridir.

Əbdürrəhim bəy Haqverdiyev lətifə poetikasına, bütövlükdə xalq gülüş mədəniyyətinə əsaslanıb zarafat yönündə qələmə aldığı dəli oynatmaq və çeşmə əhvalatları vasitəsilə ciddi mətləblərə toxuna bilir. «Uca dağ başında» və «Çeş-

mək» hekayələrində müəllifin toxunduğu mətləblərdən biri başqasını gülməli və ağlamalı vəziyyətə salıb bu vəziyyətdən həzz almaq mətləbidir. Müasir dünya ədəbiyyatının tez-tez müraciət etdiyi bu məsələ Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığında rəngarəng bədii boyalarla öz əksini tapır.

Tragizm notlarına müraciət edilməsi Cəlil Məmmədquluzadə yaradıcılığında bədii gülüşü fərqli bir keyfiyyətdə ortaya çıxarır. Fərqli keyfiyyət təsvir edilən komik vəziyyətin zarafat məcrasından çıxarıldığı məqamlarda özünü daha qabarıq şəkildə göstərir. Belə məqamlarla «Ölülər» və «Dəli yığıncağı» tragikomediyalarında daha çox qarşılaşırıq. «Uca dağ başında» və «Çeşmək» hekayələrində adamı dəlilik həddinə çatdırmaq süjeti heç də ağlamalı məqamlardan xali deyil. Amma bu ağlamalı məqamlar həmin hekayələrdə təsvir edilən əhvalatların zarafat üstündə qurulmasını inkar etməyə əsas vermir. Bəs «Dəli yığıncağı»nda vəziyyət necədir, bu əsərdə də kimlərisə dəli eləyib bu dəliliklə məzələnmək oyunu oynanılırmı? Suala «bəli» cavabını vermək çətindir. Aydın olan budur ki, «Dəli yığıncağı»ndakı əhvalatlar zarafat üstündə yox, «ağıllı kimdir, dəli kimdir?» tragikomik sualı üstündə qurulub. Tragikomediyanın iştirakçıları iki yerə ayrılıb: «ağıllılar» (Fazil Məhəmməd, Hacı Bağdad, Kərbəlayı Türbət, Məkkə Məhəmməd) və dəlilər (Molla Abbas, Pırpız Sona, Farmasyon Rüstəm, Sərsəm Heydər, Həmzad Qurban, Cinni Mustafa). Dəlilər sırasında gördüyümüz Molla Abbas arvadı Pırpız Sonanı qorumaq üçün özünü dəliliyə vuran idrak sahibidir. «Ağıllılar» sırasında gördüyümüz Fazil Məhəmməd isə qardaşı arvadı Pırpız Sonanı ələ keçirmək üçün dondan-dona girən xəstə təxəyyül sahibidir. Dəli qardaşın arvadını ələ keçirmək istəyən yalnız Fazil Məhəmməd yox, həm də Hacı Bağdad, Kərbəlayi Türbət, Məkkə Məhəmməd kimi digər «ağıllılar»dır. Bu adamlar dəli qardaşlarının arvadlarını siğə eləməklə kifayətlənməyib, şəriət yolun-

da daha «savab» bir iş görmək istəyirlər. İstəyirlər siğə etdikləri qardaş arvadlarını da özləri ilə götürüb kəcavələrdə imam ziyarətinə yola düşsünlər və qardaş arvadlarından uşaqlar dünyaya gətirib imam qoşununun sayını, gücünü-qüdrətini artırsınlar. Fazil Məhəmmədin başçılıq etdiyi siğə və ziyarət əməliyyatı kənardan o dərəcədə əcaib-qəraib təsir bağışlayır ki, doktor Lalbyuz həmin əməliyyatın iştirakçıları arasında kimin ağıllı, kimin isə dəli olmasını ayırd etməkdə çətinlik çəkir. Doktor Lalbyuza ağlını itirmiş adam təsiri bağışlayan Fazil Məhəmməd əxlaqi dəyərlərdən uzaq olan əməlini işə keçirmək üçün şəriət qaydalarına arxalanır.

Din pərdəsi altında şeytani addımlar atmaq «Ölülər» tragikomediyasındakı Şeyx Nəsrullah obrazında daha qabarıq şəkildə özünü göstərir. Şeytani addımların rahatca atılmasından ötrü lazım olan «münbit» şəraiti Qoqolun Xlestakovu kimi, Şeyx Nəsrullah özü yaradır. Qoqol yaradıcılığının tədqiqatçılarından biri olan L.Çernov belə hesab edir ki, «ətrafdakıları inandıra bildiyinə görə Xlestakovun söylədiyi yalanın xüsusi gücü var və bu güc öz işini görə bilir. Bu güc hesabına Xlestakov demiurqa – ətraf gerçəkliyin yaradıcısına çevrilir» (27). L.Çernovun fikrinə əsaslansaq, Xlestakovla müqayisədə Şeyx Nəsrullahı iki qat demiurq saymalıyıq. Çünki Xlestakovdan «irəli gedərək» Şeyx Nəsrullah yalan üstündə mühit yaratmaq məsələsini qabaqcadan planlaşdırır. Qabaqcadan nəzərdə tutulan və incə nöqtələrinəcən ölçülüb-biçilən ölü diriltmək əməliyyatı vahimə üstündə qurulur və öz təsirini dərhal göstərir. «Dəli yığıncağı»ndakı Fazil Məhəmməd kimi, «Ölülər»dəki Şeyx Nəsrullahın da dərdi arvad dərdidir. Dərdə çarə qılmaqda Fazil Məhəmmədə dəlilər oyunu gərəkdirsə, Şeyx Nəsrullaha da ölülər oyunu gərəkdir. Həyatverici zarafat yox, qara niyyət üstündə qurulan və şeytani əməl mahiyyəti daşıyan bu oyunun hansısa bir müsbət

tərəfi varmı, varsa nədədir? Bu suala doğru-düzgün cavab vermək üçün yazımızın əvvəlinə – şeytanın hərəkətvericilik funksiyasına qayıtmalıyıq. Qeyd etməliyik ki, Fazil Məhəmməd və Şeyx Nəsrullahın çirkin əməlləri Molla Abbasın dəli adam, Kefli İskəndərin isə ölü adam qiyafəsindən çıxmasına, hər ikisinin ayıq-sayıq və barışmaz idrak sahibi qiyafəsi geyməsinə təkan vermiş olur.

## QAYNAQLAR


1. Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı, Elm və təhsil, 2013
2. Azərbaycan nağılları, 5 cilddə, IV cild. Tərtib edən: Əhliman Axundov. Bakı, Şərq-Qərb, 2005
3. Azərbaycan nağılları, 5 cilddə, V cild. Tərtib edən: Nurəddin Seyidov. Bakı, Şərq-Qərb, 2005
4. SMOMPK: Azərbaycan folkloru materialları, 8 cilddə, I cild. Tərtib edənlər: Rza Xəlilov, Afaq Xürrəmqızı, Aynur Hüseynova. Bakı, Elm və təhsil, 2018
5. Azərbaycan folkloru antologiyası, XVI cild, Ağdaş folkloru. Toplayıb tərtib edən: İlkin Rüstəmzadə. Bakı, Səda, 2006
6. Radloff W. Türklerin kökleri, dilleri ve halk edebiyatından denemeler. Ankara, Ekvay yayınları, 1999
7. Qarayev S. Mifoloji xaos: strukturu və poetikası. Bakı, Elm və təhsil, 2016
8. Qarabağ: folklor da bir tarixdir, IV kitab. Tərtib edən: İlkin Rüstəmzadə. Bakı, Elm və təhsil, 2013
9. Qarabağ: folklor da bir tarixdir, V kitab. Tərtib edən: İlkin Rüstəmzadə. Bakı, Zərdabi LTD MMC, 2013
10. Qarabağ: folklor da bir tarixdir, VIII kitab. Toplayıb tərtib edən: İlkin Rüstəmzadə. Bakı, Zərdabi LTD MMC, 2014
11. Qarabağ: folklor da bir tarixdir, V kitab. Tərtib edənlər: İlkin Rüstəmzadə, Zəfər Fərhadov. Bakı, Elm və təhsil, 2012

12. Qarabağ: folklor da bir tarixdir, II kitab. Tərtib edən: İlkin Rüstəmzadə. Bakı, Elm və təhsil, 2012

13. Bayat F. Korkut Ata. Mitolojiden gerçekliğe Dede Korkut. Ankara, Karam, 2003

14. Cəfərov M.C. Hüseyn Cavid. Bakı, 1960

15. Qarayev Y. Seçilmiş əsərləri, 5 cilddə, I cild. Bakı, Elm, 2015

16. Cavid H. Seçilmiş əsərləri, 5 cilddə, II cild. Bakı, Elm, 2007

17. Tağıoğlu Ə. Dünya romantizm ənənələri və Hüseyn Cavid. Bakı, Elm və təhsil, 2017

18. Haqverdiyev Ə. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı, Lider Nəşriyyat, 2005

19. Haqverdiyev Ə. Seçilmiş əsərləri, 2 cilddə, II cild. Bakı, Lider Nəşriyyat, 2005

20. Mütəllimov T. Əbdürrəhim bəy Haqverdiyevin poetikası. Bakı, Yazıçı, 1988

21. Məmmədov K. Ə.Haqverdiyev. Bakı, Gənclik, 1970

22. Kitabi-Dədə Qorqud Ensiklopediyası, 2 cilddə, I cild. Bakı, Yeni Nəşrlər Evi, 2000

23. Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1964

24. Kazımoğlu M. Gülüşün arxaik kökləri. Bakı, Elm, 2005

25. Molla Nəsrəddin lətifələri. Tərtib edən: Sönməz Abbaslı. Bakı, Sabah, 2018

26. Qarabağ: folklor da bir tarixdir, VII kitab. Toplayıb tərtib edən: Ləman Süleymanova. Bakı, Zərdabi LTD MMC, 2014

27. Чернов Л. Гоголь и юродство. URL:http://www/davidsbuendler.kz(node/179)

28. Гуревич А.Я. Проблемы средневековой народной культуры. Москва, Искусство, 1981

# "DƏDƏ QORQUD" BOYLARINDA BƏZİ QARANLIQ MƏQAMLAR

"Dədə Qorqud" boylarında qaranlıq məqamlardan biri Dəli Domrulun quru çay üzərində körpü salması və gəlib-gedəndən xərac almasıdır. Bu məsələyə həm çağdaş düşüncə, həm də arxaik düşüncə baxımından aydınlıq gətirmək mümkündür. Çağdaş düşüncə baxımından yanaşsaq, quru çay üstündən körpü salmaq əhvalatını dəlisov igidin çılğın təbiəti, qayda-qanun gözləməməsi, normadan kənar addım atması ilə izah etməliyik. Nəzərə almalyıq ki, "Dəli Domrul" boyunda əhvalatların bir çoxu baş qəhrəmanın təbiətinə və davranışına uyğun olaraq, yarızarafat-yarıciddi məzmun daşıyır, ozan yeri gəldikcə təhkiyəyə duz-məzə qatmağı yaddan çıxarmır. Məzəli əhvalatı ozan bizə məzəli bir dillə çatdırır. Dəli Domrulun tərsinə iş tutub, axar çayın yox, qurumuş çayın üstündən körpü salması, körpüdən keçəndən otuz üç, keçməyəndən döyə-döyə qırx axça alması eposdakı məzəli əhvalatların lap birincisidir" (8, 182). Xalq gülüş mədəniyyətinin poetikası baxımından tərsinə iş tutmaq, anormal hərəkət etmək kimi qiymətləndirilən bu məzəli əhvalat arxaik düşüncə baxımından özündə müxtəlif inancların izlərini yaşadır. Belə inanclardan biri ölən adamın ruhunun o biri dünyada yerbəyer olması ilə bağlı inancdır. Folklorşünas Afaq Xürrəmqızının Bakı sakini Sitarə Movlamovadan qeydə aldığı inanca görə, ölünün dilinin altına əqiq qoymaq lazımdır ki, ölü cənnətə düşsün (5, 127). Bu inancın azərbaycanlılarla yanaşı, dünyanın müxtəlif xalqlarında da qeyd alındığını diqqətə çatdıran Afaq Xürrəmqızı həmin inancın yaranma səbəbini də göstərir: «Bu adətin mövcud olduğu əksər xalqlarda belə bir inam yaşayır ki, ölünün üzərinə qoyulan nəsnə bu dünya ilə axirət dünyasını ayıran çayın üzərindən keçmək üçün haqq kimi nəzərdə tutul-

muşdur» (5, 127-128). Dəli Domrulun körpüdən keçəndən axça almasını yuxarıda xatırlatdığımız inanc baxımından araşdırmaq istədikdə qarşıya belə bir sual çıxır: ölülər səltənətinə keçid mərhələsində Dəli Domrulun mifoloji funksiyası nədən ibarətdir və bu funksiyanın axça tələb etməklə bir əlaqəsi varmı? Bu suala cavab vermək üçün qurumuş çay anlayışının inisiasiya mərasimindəki yerini müəyyənləşdirmək lazım gəlir. Arxaik düşüncəyə görə, qurumuş çay yatağı neofiti udan əjdahanın bir işarəsidir. Dünyanın bir çox xalqlarında inisiasiya ritualı məhz quru çay yatağında keçirilir. Məsələn, Avstraliyada quru çay yatağı ilana bənzər bir şəkildə qazılır ki, neofit məhz o ilan vasitəsilə müvəqqəti ölüm mərhələsindən keçib yenidən doğula bilsin (6, 225). Niyə məhz ilan? Çünki, mifoloji təsəvvürə görə, o dünya ilə bu dünyanın sərhədində sehrli çay, çayın üstündə isə körpü var. Körpünü ilan qoruduğuna görə ordan keçib getmək müşkül işdir (6, 219). Əgər belədirsə, o dünyaya keçid ilandan keçməklə mümkündürsə, onda inisiasiya ritualının izlərini axtararkən ilan obrazına diqqət yetirməli oluruq. “Dəli Domrul” boyunda ilan obrazı yoxdur, amma ilan obrazının mifoloji işarəsi olan quru çay yatağı obrazına istinad edib arxaik düşüncə baxımından bəzi mülahizələr irəli sürə bilərik. Mülahizələrdən biri Dəli Domrulda mifoloji ilan obrazından gəlmə əlamətlərin özünü göstərməsi ilə bağlıdır. Əvvəla, onu xatırladaq ki, ilan-əjdaha heç də “Dədə Qorqud” eposu üçün yad obraz deyil. Yad obraz olsaydı, eposda Qazan xan yeddi başlı əjdaha ilə vuruşmasından danışmazdı. Konkret olaraq Dəli Domrul obrazına gəlsək, qeyd etməliyik ki, digər baş qəhrəmanlar kimi, Dəli Domrulda da ozanın öz dinləyicisinə çatdırmaq istədiyi başlıca məsələ yenilməz bahadırlıqdır. Ozan, Salur Qazan bahadırlığının bir əlamətini onun əjdaha ilə vuruşmasında gördüyü kimi, Dəli Domrul bahadırlığının da bir əlamətini onun sehrli

əjdaha funksiyası daşımasında görür. Məsələ burasındadır ki, sakralcasına əjdaha bətnindən keçən neofitin yenidən doğulması əjdaha gücünü qazanmaqla mümkün olur. Əjdaha funksiyasını daşımaq isə, təbii ki, əjdaha gücünə yiyələnməkdən başlayır. Dəlisovluğu, çılğın təbiəti ilə neofiti xatırladan Dəli Domrul boyun lap başlanğıcından yenilməz bahadır kimi özünü göstərir və gücünü-qüdrətini sınaqdan keçirməyə meydan axtarır. Qurumuş çayı dastanda əjdahanın rəmzi saymaqla belə güman etmək olar ki, o dünya sərhədində əjdahanın körpünü qorumaq və körpüdən keçəndən bac-xərac istəmək vəzifəsini Dəli Domrul öz üzərinə götürür. Başqa sözlə desək, ölüb-dirilmə motivinin müəyyən cizgiləri "Dəli Domrul" boyunun lap əvvəlindən müşahidə edilir. Boyun sonrakı hissələrində isə ölüb-dirilmə motivinin fərqli detalları ilə qarşılaşırıq.

Tədqiqatçılar oğuz eposunda ölüb-dirilmənin yuxu, can əvəzləmə, buta, qaranlıq, gözəgörünməzlik, oğurlama, qaçırma, musiqi, qurban kimi müxtəlif vasitələrini aşkara çıxarırlar (7, 114). Bu vasitələrdən "Dəli Domrul" boyu üçün daha çox səciyyəvi olanı can əvəzləmədir. Özündə əjdaha gücünün olduğunu hiss edib igidlərə meydan oxuyan Dəli Domrul dastandakı digər qəhrəmanlar kimi yalnız bir qüdrət – "ucalardan uca" Tanrı qarşısında müti quldur. Dəli Domrul ölüm mələyi ilə toqquşub Tanrı qəzəbinə tuş gəldikdə ölüb-dirilmənin ən ağır sınağından məhz "can yerinə can bulmaq" hesabına çıxa bilir.

Əgrəyin – əyri, Səgrəyin – ağıldan seyrək demək olduğunu (7, 186), yəni Əgrəyin tərsinə iş tutduğunu, Səgrəyin ağlasığmaz addım atdığını nəzərə alıb "Dədə Qorqud"dakı bu qardaşları da ipə-sapa yatmayan dəlisov igidlər sırasına daxil etmək təbiidir. Səgrəyin atdığı ağlasığmaz addımlardan biri Oğuz elinin adət-ənənəsinə məhəl qoymayıb toy gecəsi "murad verib murad almamış" gərdəkdən çıxması, birbaşa tövləyə gedib bir şahbaz ata minməsi və dustaq qardaşı Əgrəyin da-

lınca getməsidir. Bu öz yerində. Amma ozanın "dəli yigit" kimi təqdim etdiyi Səgrəyin ritual-mifoloji baxımdan aydınlaşdırılmalı hərəkəti yataqda "yavuqlu"su ilə özü arasına qılınc qoymasıdır. Çağdaş düşüncə baxımından yanaşsaq, Səgrəyin bu hərəkətində qaranlıq bir şey yoxdur: Səgrək böyük qardaşını düşmən əsirliyindən qurtarmayınca "yavuqlusundan murad verib murad almaq" istəmir. Necə ki Beyrək də otuz doqquz silahdaşını dustaqlıqdan azad etməyincə on altı il həsrət qaldığı Banıçiçəklə bir gərdəyə girmək istəmir. Toy gecəsində Səgrəyin izdivacdan imtina etməsinə arxaik düşüncə baxımından yanaşdıqda isə inisiasiya ritualının dərin qatlarına gedib çıxmalı oluruq.

Saysız-hesabsız folklor nümunələri, xüsusən də sehrli nağıllar göstərir ki, folklorda "ağır toy gecəsi" motivi var. Sehrli nağıllarda həmin motivin səciyyəvi süjet variantlarından biri belədir: Kim padşahın qızı ilə evlənirsə, toy gecəsi qızın ağzından çıxan ilan onu (təzəbəyi) sancıb öldürür. Nağıl qəhrəmanı da padşah qızı ilə evlənmək fikrinə düşür. Qəhrəmanın köməkçisi olan xeyirxah ölü işə qarışır və padşah qızına elçiliyə gedir. Padşah bu dəfə öz qızını nağıl qəhrəmanına verir. Toy gecəsi xeyirxah ölü bəylə gəlin yatan otaqda özünə yer salır. Gecə qızın ağzından çıxan ilan oğlanı sancmaq istəyəndə sehrli köməkçi ilanı öldürür və oğlanı xilas edir (13, 147). Bu süjetdən də göründüyü kimi, ölülər səltənətinə səfər edib qayıdan qəhrəmanın qarşılaşdığı son çətinliklərdən biri məhz zifaf gecəsindəki çətinlikdir. Həmin çətinlikdən qalib çıxandan sonra qəhrəman nəinki evlənmək istədiyi qıza qovuşur, hətta onun üzərində hakimi-mütləq olmaq statusu qazanır.

Toy gecəsi təzəbəylə gəlin arasında qılınc qoyulması məsələsinə qayıdaq. Yalnız "Dədə Qorqud" dastanında deyil, dünyanın müxtəlif xalqlarına məxsus folklor örnəklərində rast

gəldiyimiz bu detalın "ağır toy gecəsi" motivi ilə hansı əlaqəsi var? Həmin detalın qorxunc gəlindən qorunmaq məqsədinə xidmət etdiyini düşünmək düzgün olarmı? Başqa qəhrəmanlar bir yana, gəlindən qorunmaq məsələsini dəlisov Səgrəyə aid etmək qətiyyən mümkün deyil. Adaxlılar arasına qılınc qoyulmasının Səgrəyə uyğun arxaik semantikası doğru-düzgün tapılmalıdır. Belə semantikanı tapmaqda ölüb-dirilmə inancı ilə bağlı qədim adət-ənənələr açar rolu oynayır. Həmin adət-ənənələrdən biri araşdırdığımız məsələ baxımından xüsusən əhəmiyyətlidir: Toy gecəsi oğlanla qız arasına əcdad rəmzi olaraq bir ağac-fiqur qoyulur. Ağac-fiqur bir tərəfdən, inanca görə, oğlanla qızın o gecə qovuşmasını yasağa çevirirsə, digər tərəfdən adaxlıların cinsəl gücünün artmasına magik təsir göstərir. Əcdad ruhunu əks etdirən, izdivaca magik təsir göstərən ağac-fiqur zaman keçdikcə dəyişir və folklor mətnlərində siyirmə qılıncla əvəz olunur (16, 330). Qəhrəmanın yenilməzliyini ana xəttə çevirən folklor nümunələrində, xüsusən də "Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarında qılıncın müqəddəsləşdirilməsi təbii haldır. "Koroğlu"da Misri qılıncın ildırım parçası sayılıb göylərlə əlaqələndirilməsi, söz yox ki, "Dədə Qorqud" boylarında qılınca xüsusi münasibətdən keçib gəlir. "Dədə Qorqud" dastanında Oğuz igidləri (o cümlədən Səgrək) "qara polad üz" qılınca tapınırlar, and içəndə "Qılıcıma doğranayım!" şəklində and içirlər. "Basat" boyunda Təpəgöz kimi qeyri-adi varlığın başını kəsə bilən sehrli qılıncdan bəhs olunur. Əgər belədirsə, onda "Səgrək" boyunda da qılıncın müqəddəsləşdirilməsi təbii hal sayılmalıdır. Nəzərə alınmalıdır ki, bu boyda adaxlılar arasına qoyulan qılıncın birbaşa yox, dolayı mənası, üzdə yox, alt qatda əksini tapan semantikası Səgrəklə "yavuqlu"suna sakralcasına güc-qüvvət bəxş etməkdən, onların oğul-uşaq sahibi olmasına magik yardım göstərməkdən ibarətdir.

Hərəkətlərində ölçü-biçi gözləməklə, Oğuz elinin davranış normalarına yüksək səviyyədə əməl etməklə Qazan xanın yaxın silahdaşlarından birinə çevrilən Bamsı Beyrəyi dastanda ozan, təbii ki, dəli igidlər sırasında təqdim etmir. Amma "Bamsı Beyrək" boyunun sonunda məşhur dəli ozan əhvalatı varsa, onda dəlilik məsələsinin ölüb-dirilmə ritualı ilə bağlılığından danışarkən Beyrək obrazına biganə qalmaq çətindir. Beyrək obrazını dəlilik müstəvisində araşdırmaya cəlb etdikdə və bu dəliliyi ölüb-dirilmə ritualı ilə əlaqələndirmək istədikdə aydınlaşdırmalı nöqtələrdən biri bundan ibarət olur: "Bamsı Beyrək" boyunda dəlilik məsələsi niyə səfərin əvvəlində yox, axırında ortaya çıxır? Bir az irəlidə dəliliyi neofitin o dünyaya daxil olmasının əlamətləri sırasında qeyd etmişdiksə, onda səfər sonundakı neofit dəliliyindən söhbət açmaqla fikir ziddiyyətinə yol vermirikmi? Heç bir ziddiyyətə yol vermirik, çünki, ölüb-dirilmə inancına görə, neofit ölülər səltənətinə ağlını itirmiş halda daxil olduğu kimi, ölülər səltənətindən geri qayıdanda da tanınmaz libasda, tanınmaz kimliklə qayıdır. Səfərdən geri qayıdanda kim olduğunu neofitin heç özü də yaxşı bilmir (6, 135-136). Bu inancın izlərini Beyrəyin libas dəyişməsində, özünü insanlara başqa adla tanıtmasında axtarmaq tamamilə təbiidir. Amma "Bamsı Beyrək" boyunun ölüb-dirilmə inancı ilə bağlılığını göstərən neçə-neçə başqa epizod da var. Və həmin epizodları boyun sonundakı dəli ozan əhvalatı ilə birlikdə götürüb gözdən keçirmək vacib şərtdir.

Aydın məsələdir ki, müvəqqəti ölüm – yalançı ölümdür və neofitə güc-qüvvət bəxş etmək məqsədilə inisiasiyada bir ölüm oyunu oynanılır. İohan Höyzinqa təliminə əsaslanıb oyunun ritualdan daha qədim tarixi mərhələ olduğunu (9), rituallarda oyunun ayrılmaz bir xassəyə çevrildiyini nəzərə alsaq, "Bamsı Beyrək" boyunun bu müstəvidə yetərincə material verdiyini görərik. Görərik ki, həmin boyda lap üzdə

olan dəli ozan oyunu ilə yanaşı, bir az dərində gizlənən Yalançı oğlu Yalancıq oyunu da var. Bu oyunda başlıca məqsəd baş qəhrəman Bamsı Beyrəyi müvəqqəti ölüm mərhələsindən keçirmək və bu ölüm vasitəsilə onun yenidən doğulmasına nail olmadır.

Qəfil tutulub otuz doqquz igidlə əsir aparılan Beyrəyə Oğuz elində "əzim yas" tutulsa da, aradan nə az, nə çox – düz on altı illik bir vaxt keçsə də, onun "öldü" xəbərinin nöqtəsi məhz Yalançı oğlu Yalancığın əli ilə qoyulur. Neofitin paltarını qana bulayıb müvəqqəti ölümü imitasiya etmək – inisiasiya ritualı üçün səciyyəvi olan bir addımı atmaq məhz Yalançı oğlu Yalancığın payına düşür. Yalançı oğlu Yalancıq bir vaxt Beyrəyin ona bağışladığı köynəyi qana batırıb Bayındır xanın hüzuruna aparmaqla hamını güman olunan ölümə – Beyrəyin ölümünə inandıra bilir. Ölüm xəbərinin dalınca başlanan toy tədbirləri, Banıçiçəyin Yalançı oğlu Yalancığa veriləcəyi ilə bağlı səs-sorağın Oğuz elinə yayılması Beyrəyin əsirlikdən – müvəqqəti ölüm səfərindən qayıtmasında həlledici başlanğıc nöqtəsi olur. Yalançı oğlu Yalancığın Banıçiçəklə toyundan xəbər tutandan dərhal sonra Baybörə bəzirganları oğlu Beyrəkdən soraq gətirməyə göndərir. Bəzirganlar Beyrəyi Parasarın Bayburd hasarında tapıb onunla uzaqdan-uzağa xəbərləşirlər. Bu xəbərləşmədə bəzirganların Beyrəyə dediyi bu sözlər xüsusi maraq doğurur:

Könül verib sevdigin
Baybican qızı Banıçiçək
Kiçik dügünün eylədi,
ulu dügününə vədə qodı;
Yalançı oğlu Yırtıcuğa varır gördüm,
xan Beyrək!
Parasarın Bayburd hasarından uça görgil!
Ap-alaca gərdəgünə gələ görgil!

Gəlməz olsan, Baybican qızı Banıçiçəgi
aldırdın, bəllü bilgil (8, 59).

Bu sözlər qara çadırda övladsız Dirsə xana deyilən sözləri xatırladır. Həm orda, həm də burda deyilən sözlər magik funksiya daşıyır. Sözün sehri ilə Dirsə xanı övladsızlıqdan qurtarmaq niyyəti güdən Oğuz eli eyni şəkildə Beyrəyi də əsirlikdən qurtarmaq istəyir. Diqqət yetirilsə, aydın olar ki, həm övladsız Dirsə xana, həm də dustaq Beyrəyə ünvanlanmış sözlərdə bir qorxutmaq, səksəndirmək, silkələyib ayıltmaq-oyatmaq məzmun və mahiyyəti var. Nümunə gətirdiyimiz soylama parçasında, həmçinin boyun bu parçadan əvvəlki hissəsində "Yalancıq" sözünün "Yırtıcuq"/"Yırtacuq" sözü ilə əvəzlənməsi də təəccüb doğurmamalıdır. Çünki Beyrəyin müvəqqəti ölməyi və bu ölümdən səksənib ayılması üçün yalançı yırtıcılıq vacib amillərdəndir və bu funksiyanı "Bamsı Beyrək" boyunda məhz Yalançı oğlu Yalancıq/Yırtıcıq yerinə yetirir. Yeri gəlmişkən qeyd edək ki, qorxudub, səksəndirib ayıltmaq inancı insanlar arasında bu günün özündə də yaşayır. Balta götürüb ağacın üstünə getmək və "Bar gətirməsən səni bu baltayla doğrayacam!" deyib ağacın məhsuldarlığını bu şəkildə artırmaq xatırlatdığımız inancın bu gün belə yaşayan bir nümunəsi sayıla bilər. Həmin inancla bağlı rəngarəng nümunələr içərisində bəzirganların Beyrəyə dediyi sözlər hadisələrin sonrakı gedişatına təkan verən sözlər kimi yadda qalır. Magik mahiyyətli o sözlərdən sonra ozan, kafir bəyinin "bikr" (bakirə) qızından söhbət açır və dastanda aydınlaşdırılmasına ehtiyac duyulan qaranlıq məsələlərdən biri məhz bu məqamda ortaya çıxır.

Kafir bəyinin "bikr" qızı ilə bağlı çətin sual bundan ibarətdir: Niyə Beyrək, qılıncına, oxuna and içdiyi halda, sözünə sadiq qalmır və onu sevən, onu dustaqlıqdan qurtaran kafir qızını "halallığa" almır? Bu çətin sualın məlum və məşhur ca-

vabı akademik Kamal Abdullaya məxsusdur. “Dədə Qorqud” boylarını Mif və Yazı kontekstində araşdırmaya cəlb edən Kamal Abdulla dastanda Beyrəyin öz vədinə xilaf çıxıb kafir qızının dalınca getməməsini Mif yox, Yazı qəhrəmanının hərəkəti kimi qiymətləndirir və belə hesab edir ki, on ikinci boyda Beyrəyin faciəli ölümü Mifin Yazıdan, Yazı qəhrəmanından intiqam alması deməkdir: “Məhz Beyrək, heç bir digər qəhrəman yox, məhz Beyrək öz taleyini bu şəkildə bitirməliydi. Çünki heç bir digər qəhrəman Sözə və Sözün qurduğu etik normalara və kodekslərə onun kimi bu cür qarşı çıxmamışdı. Söhbət simpatiya bəslənən qəhrəmandan gedirsə, heç bir digər qəhrəman Sözə itaətdən boyun qaçırmamışdı. Təkcə Beyrəkdan başqa! Təkcə Beyrək oldu ki, müqtədir Mifin yaratdığı epik qurğulara üsyan etdi, təkcə Beyrək oldu ki, Sözə qarşı çıxdı. Əslində Beyrəyin günahını Beyrəyin özü hazırlamışdı. Söz və Sözə tabe Müəllif (ozan – M.K.) isə Mif göstərişini əsas tutaraq Beyrəyi cəzasız qoymur” (10, 212). Doğrudan da, mifoloji düşüncəyə görə, qəhrəman, yayından çıxmış ox kimi, irəliyə doğru hərəkətdədir və onun verdiyi vəd necə olur olsun, yerinə yetirilməlidir. Beyrəyin vədə xilaf çıxması, həqiqətən, mif qayda-qanununa xilaf çıxmaqdır. Aydın məsələdir ki, mifoloji qat folklor mətnlərində ritual qatla yanyanaşı və iç-içədir. Əksər hallarda bir yerdə olan bu qatlar bəzən nazik bir pərdə ilə bir-birindən ayrılır və ritual qat mifoloji qatdan daha arxaik qat kimi özünü büruzə verir. Məsələn, ritualda sehrli heyvan neofiti udur və neofit onun bətnindən çıxmaqla güc-qüvvət qazanmış olur. Mifdə isə qəhrəman onu udmaq istəyən sehrli heyvanı öldürməklə güc-qüvvət sahibinə çevrilir. Ritualda əjdahanın neofiti udması motivini mifdə tədricən əjdaha ilə mübarizə motivi əvəz edir (6, 237-240). Əgər belədirsə, ritualla mif arasında bu cür fərqlər özünü göstərə bilirsə, onda Beyrəyin vədə xilaf çıxıb kafir qızının

dalınca getməməsini ritual əsasda da izah etmək mümkündür. Və biz də buna təşəbbüs göstərib belə bir nöqtədə dayanmalı oluruq: ölülər səltənətində müvəqqəti ölüm mərhələsindən keçərkən neofit həmin səltənətə məxsus bir "gözəl"lə simvolik izdivacda olur və o dünya səfərindən geri qayıdandan sonra neofit bu dünyadakı real gözəllə evlənir (6, 131). Neofitin o dünyaya məxsus "gözəl"lə evlənməsi yasaqdır. Bunu saysız-hesabsız folklor nümunələri də açıq-aydın göstərir. Sehrli varlıqla evlənmək təşəbbüsündə bulunan nağıl qəhrəmanlarının uğursuzluğa düçar olduqlarını, yaxud "Basat" boyunda pəri ilə izdivacın necə bir fəlakətlə nəticələndiyini yada salmaq kifayətdir. "Beyrək" boyuna gəldikdə isə, qeyd etmək lazımdır ki, bu boyda Bayburd bəyinin dustaq – xanası o dünyanın, xaos aləminin dolayı işarəsidir. O dünyanın güc-qüvvət mənbəyi olmasında, xaosun kosmosa çevrilməsində, başqa sözlə desək, Beyrəyin yenidən doğulmuş bir qəhrəman kimi vətənə qayıtmasında kafir qızı xüsusi rol oynayır. Real bir gözəl olan kafir qızı o dünya və xaos kontekstində, heç şübhəsiz, pəri tipli obrazların dolayı ifadəsidir. Ritual qayda-qanununa görə, onunla evlənmə və izdivac yasaqdır. Verdiyi sözə əməl etməyib, vədə xilaf çıxıb Beyrəyin sonradan kafir qızının dalınca getməməsinin və onu "halallığa" almamasının alt qatda gizlənən mənası, bizcə, budur. Bu fikri tam əsaslandırmaq üçün "Dədə Qorqud" qəhrəmanlarından biri olan Qanturalının Selcan xatınla evlənməsini xatırlatmalı və qeyd etməliyik ki, Oğuz elində kafir qızı ilə evlənmək yasağı yoxdur. Belə olduğu halda Beyrəyin əhdə xilaf çıxmasını əhd-peyman bağladığı gözəlin kafir qızı olması ilə əlaqələndirmək qeyri-mümkündür. Amma bu məqamda Qanturalının kafir qızı dalınca gedib Oğuz elinə qalib qəhrəman kimi qayıtmasının ritual mahiyyətini aydınlaşdırmaq və belə bir suala cavab vermək zərurəti yaranır: Qanturalının Trabzon sərgüzəştini ölüb-dirilmə hadi-

səsi saymaq olarmı? Bizə belə gəlir ki, həmin sərgüzəşt ölübdirilmədən daha çox qəhrəmancasına elçilik hadisəsidir və onun başqa bir nümunəsi ilə "Bamsı Beyrək" boyunda qarşılaşırıq. Düzdür, Beyrəyin Banıçiçəklə yarışıb ona üstün gəlməsi Qanturalının üç vəhşi heyvanla vuruşub onları öldürməsi səviyyəsində bir igidlik deyil. Amma fakt faktlığında qalır: hər iki əhvalat ritual-mifoloji baxımından eyni mahiyyət daşıyır. Mahiyyət ondan ibarətdir ki, qəhrəman öz hünərini göstərməli, dalınca getdiyi qızın rəğbətini qazanmalı və son nəticədə həmin qıza qovuşmalıdır. Beyrək yarışda qalib gəlib Banıçiçəyin hüsn-rəğbətini qazandığı kimi, Qanturalı da üç vəhşi heyvanı öldürüb Selcan xatının hüsn-rəğbətini qazanır. Sonda Beyrək Banıçiçəyə, Qanturalı da Selcan xatına qovuşur. Deməli, ritual-mifoloji nöqteyi-nəzərdən Selcan xatını "Bamsı Beyrək" boyundakı kafir qızı ilə yox, həmin boydakı Banıçiçəklə müqayisə etmək daha doğrudur. Çünki "Bamsı Beyrək" boyundakı kafir qızı pəri xislətli gözəllərin rəmzi olduğu halda, "Qanturalı" boyundakı kafir qızı (Selcan xatın) Banıçiçək kimi dünyəvi gözəllərin təmsilçisidir. Məhz dünyəvi gözəllərin təmsilçisi olduğuna görə Selcan xatının Qanturalıya ərə getməsində təəccüblü bir şey yoxdur. Pəri xislətli gözəllərin rəmzi saydığımız kafir qızı isə Beyrəyə ərə getmiş olsaydı, bu məqamda ritual məntiqi pozulmuş olardı. Yeri gəlmişkən qeyd edək ki, «Bamsı Beyrək» boyunun Vatikan nüsxəsində ritual məntiqinin pozulması halı ilə qarşılaşırıq. Drezden nüsxəsində olduğu kimi, boyun Vatikan nüsxəsində də Beyrək Banıçiçəklə vüsalə yetməzdən əvvəl Bayburda – silahdaşlarını əsirlikdən qurtarmağa gedir. Fərq burasındadır ki, Vatikan nüsxəsində ozan (və yaxud katib) Beyrəyin əhd-peyman bağladığı kafir qızını halallığa alması ilə bağlı bir cümlə işlədir: «Məlikin qızı ilə Beyrək əhd etmişdi, aldı, geri döndü» (14, 129). Beyrəyin kafir qızını «alıb geri dönməsi»

əhdə vəfa qılmaq, verilən sözə sadiq qalmaq baxımından məntiqə uyğundursa, Oğuz elinin ailə qanunları baxımından və yuxarıda qeyd etdiyimiz ritual yasaqlar baxımından məntiqə uyğun deyil. Dastandakı çoxsaylı ailə təsvirlərindən aydın olur ki, Oğuz elində igidlər halallığa yalnız bir xanımı alırlar. Bu hesabla Beyrəyin Banıçiçəklə yanaşı, başqa bir xanımla evlənməsi, söz yox ki, ailə ənənəsinin pozulması deməkdir. Ritual yasağına gəlincə, qeyd edilməlidir ki, «Məlikin qızı ilə Beyrək əhd etmişdir, aldı, geri döndü» deməklə ozan (və yaxud katib) boyun arxaik mifoloji-ritual qatını unutduğunu göstərmiş olur. Təkrar edirik: boyun arxaik qatında «bikr» kafir qızı adi qız yox, pəri xislətli bir qızdır, onunla evlənmək yasaqdır. Ozanın (və yaxud katibin) unudub o qədər də fərqinə varmadığı məhz bu yasaq, bu tabudur.

"Bamsı Beyrək" boyunda kafir qızının pəri xislətli bir gözəl olmasına və bu səbəbdən onunla evlənməyin yasaq sayılmasına tam inanmaq istəyiriksə, onda gərək "ər arvadın toyunda" beynəlxalq süjetinin bəzi məlum və məşhur nümunələrini də gözdən keçirməyi yaddan çıxarmayaq. Belə məlum və məşhur nümunələrdən biri Odisseyin vətənə qayıtması süjetidir. Uzun və çətin qayıdış yolunda Təpəgözlə qarşılaşıb Basatı yadımıza salan Odissey həm də Kalipso adlı bir pəri ilə qarşılaşıb Beyrəyi yadımıza salır. Yadımıza salırıq ki, Odisseyə vurulduğuna görə Kalipso Odisseyi yeddi ildən artıq bir müddətdə öz yanında əsir saxlayır. Odisseyə əbədi həyat bəxş etmək istəyən Kalipso onu əsirlikdən yalnız Zevsin iradəsi ilə azad edir (11, 364, 371). Kalipso ilə "Bamsı Beyrək" boyundakı kafir qızının müqayisəsini bir az sonraya saxlayıb "ər arvadın toyunda" beynəlxalq süjetinin Altay nümunəsini – "Alıp-Manaş" dastanını xatırladaq. Qeyd edək ki, Odissey süjetinin təsiri ilə yarana biləcəyi qətiyyən ağlabatan olmayan "Alıp-Manaş"da da baş qəhrəman Alıp-Manaşın geri dönəcə-

yi yolun o başında Erke-Karakçı adlı gözəl bir qız var. Qızın atası Ak-xan qıza elçi düşən altmış bahadırı qılıncdan keçirib öldürür. Bundan xəbər tutan kimi Alıp-Manaş təzəcə evləndiyi Kümüjek-Arunu evdə qoyub "dünyada tək gözəl" adlandırdığı Erke-Karakçının sorağı ilə səfərə çıxır. Ak-xana qalib gələn Alıp-Manaş Erke-Karakçı ilə evlənirmi? Nəinki evlənmir, hətta onu anası ilə (Ak-xanın arvadı ilə) birlikdə öldürməli olur (12).

Həm Odisseylə, həm də Alıp-Manaşla bağlı süjetdə bizi maraqlandıran əsas məsələ baş qəhrəmanların uzaq qürbətdə qarşılaşdığı gözəllər və "Bamsı Beyrək" boyundakı kafir qızı ilə həmin gözəllərin nə dərəcədə səsləşməsidir. Ən mühüm səsləşmə "Bamsı Beyrək" boyundakı kafir qızı kimi, "Odisseya"dakı Kalipsonun və "Alıp-Manaş"dakı Erke-Karakçının baş qəhrəmana qovuşa bilməməsidir. Bu qovuşmamağın səbəbinə gəldikdə isə qeyd etmək lazımdır ki, Beyrəyin əhdə xilaf çıxması ilə bağlı irəli sürdüyümüz ehtimal öz təsdiqini "Odisseya" və "Alıp-Manaş"da açıq-aydın tapmış olur. "Odisseya"da Kalipsonun pəri olması, "Alıp-Manaş"da Ak-xanın və onun qızı Erke-Karakçının əjdaha tipli mifoloji obrazlarla səsləşməsi "Bamsı Beyrək" boyundakı kafir qızından da o dünyaya – xaos aləminə bağlı bir obraz kimi danışmağa əsas verir. Niyə? Ona görə ki, motiv eynidirsə, yəni hər üç əsər ("Bamsı Beyrək", "Alıp-Manaş" və "Odisseya") qəhrəmanın uzun müddət sonra öz arvadının, yaxud adaxlısının toyuna gəlib çıxmasından bəhs edirsə, deməli, harada, bir-birindən hansı coğrafi uzaqlıqda yaranmasından asılı olmayaraq, həmin əsərlər oxşar ritual-mifoloji mənbədən qidalanır. Ritual-mifoloji mənbə hər üç əsərdə xatırlatdığımız gözəllərin (kafir qızı, Erke-Karakçı və Kalipsonun) oxşar funksiya daşımasına səbəb olur. Funksiya oxşarlığı nədədir? Funksiya oxşarlığı inisiasiya prosesindən keçən qəhrəmana magik yardımçı olub onu öz arvadına və

yaxud adaxlısına yeni güc sahibi kimi qovuşdurmaqdadır. Bu funksiyanı həm "Alıp-Manaş"dakı Erke-Karakçıda, həm "Odisseya"dakı Kalipsoda, həm də "Bamsı Beyrək"dəki kafir qızında görürük. Odissey Kalipsonun, Beyrək "bikr" kafir qızının xilasediciliyindən güc aldığı kimi, Alıp-Manaş da Erke-Karakçının öldürülməsindən güc almış olur.

Pəri üzlü kafir qızının yardımı ilə xaosdan kosmosa keçib yenidən doğulmağın, ritual məntiqinə görə, sonrakı mərhələdə bir möcüzəsi də olmalıdır və bu möcüzə Beyrəyi əvvəlki Beyrəkdən fəqləndirməlidir. "Bamsı Beyrək" boyunda ölüb-dirilmənin bu məntiqi Baybörənin ağlamaqdan tutulmuş gözlərinin açılması epizodunda özünü açıq-aydın göstərir. Baybörənin korluqdan qurtarması məhz Beyrəyin öz barmağını çərtməsi, qanını dəsmala sürtüb tutulmuş gözlərə məlhəm kimi qoyması hesabına mümkün olur. Yadımıza salırıq ki, kor olmaq xaosun, qaranlığın, zülmətin bir rəmzidir və bu rəmzin işığında Bamsı Beyrəkdən Qoç Koroğluya doğru bir yol uzanıb gedir. Yəni zülmətdən doğulub Rövşənə çevrilən qəhrəman kök etibarilə Beyrəyə gedib bağlanır. Beyrəyin Boz ayğırı kimi, Koroğlunun Qırat və Düratının da sehrli dəniz atından törəməsi bu iki qəhrəman arasındakı bağlılığı daha da möhkəmləndirir. Buna söz ola bilməz. Amma onu da unutmaq olmaz ki, Beyrəyin kor gözlərə işıq verməsi epizodundakı zülmətdən doğulma inancı zülməti aradan qaldırma, qaranlığı işığa çevirmə inancı ilə qaynayıb-qarışmış şəkildədir. Baybörənin gözünün açılması əhvalatını danışarkən ozan, Beyrəyin yenidən doğulmuş qəhrəman kimi sakral gücünü dinləyiciyə çatdırmaq niyyəti güdür.

## QAYNAQLAR


1. Vəliyev V. Azərbaycan folkloru. Bakı, Maarif, 1985
2. Лотман Ю.М. Семиосфера. Санкт-Петербург, Искусство – СПБ, 2001
3. Медриш Д.Н. Литература и фольклорная традиция. Вопросы поэтики. Саратов, Изд-во Сагатовского ун-та, 1980
4. Лавонен Н.А. О древних магических оберегах (по данным карельского фольклора) / Фольклор и этнография. Связи фольклора с древними представлениями и обрядами. Москва, Наука, 1977, с.73-81
5. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı, Səda, 2002
6. Пропп В.Я. Исторические корни волшебной сказки. Изд-во Ленинградского ун-та, 1986
7. Xəlil A. Oğuz eposunun ritual əsasları. Bakı, Elm və təhsil, 2016
8. Kitabi-Dədə Qorqud ensiklopediyası, 2 clddə, I cild. Bakı, Yeni Nəşrlər Evi, 2000
9. Хёйзинка Й. Homo Ludens / Человек играющий. Статьи по истории культуры. Пер. с нидерл. и сост. Сильвестрова Д.В. 2-е изд. Москва, Айрис-пресс, 2003
10. Abdulla K. Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud. Bakı, Mütərcim, 2009
11. Кун Н.А. Легенды и мифы древней Греции. Москва, Просвещение, 1974
12. http://www.vtourisme.com/altaj/kultura/legendy/1018 - ulgashev-alp-manash
13. Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı, Elm və təhsil, 2013
14. Dədə Qorqud kitabı. Vatikan nüsxəsi. Transliterasiya edib nəşrə hazırlayan Tərlan Quliyev. Bakı, Xan, 2018

## UNUDULMAZ ƏDƏBİYYATŞÜNASIN UNUDULMASI

Anadan olmasının 120 illiyi keçən il tamam olan, amma haqqında o qədər də danışılmayan Əmin Abidin əvvəlcə ömür yoluna ümumi nəzər salmaq, bu görkəmli ədəbiyyatşünasın çoxları üçün naməlum olan bioqrafiyasından bəzi vacib faktları xatırlatmaq lazım gəlir. Xatırlatmalı vacib faktlardan biri barədə ədəbiyyatşünas İslam Ağayev məlumat verir. Əmin Abidin qardaşı şair Əliabbas Müznib haqqındakı monoqrafiyasında İslam Ağayev bu qardaşların Bakı xanı Hüseynqulu xanın nəslinə mənsub olduqlarını bildirir. Məlum olur ki, Gəncənin müsəlman əhalisinə divan tutmuş general Sisiyanov Bakıda öldürüləndən sonra Hüseynqulu xan Bakını tərk etmək məcburiyyəti qarşısında qalır. Xanın Bakıdakı qohum-əqrəbası çar ordusunun amansız cəza tədbirləri ilə üzləşir. Xan nəslindən sağ qalan tək-tük adamlardan biri Novruz adlı bir uşaq olur. Min bir əzab-əziyyətlə böyüyüb boya-başa çatan və ailə-uşaq sahibi olan Novruz Əliabbas Müzniblə Əmin Abidin babasıdır. Əliabbas Müzniblə Əmin Abidin ataları Mütəllib də atası Novruz kimi çox çətin gün-güzəran keçirməli olub. Daşyonan usta olan Mütəllibin çörəyi daşdan çıxıb. Anaları Reyhan tikiş tikməklə, uşaqlara və qadınlara Quran oxumağı öyrətməklə çörək pulu qazanıb, ailənin dolanışığını az-çox yoluna qoymaqda ərinə arxa-dayaq olub. 1898-ci ildə Bakıda doğulan Əmin Abidə ata-anası Zeynalabdin adını qoyub. Ədəbiyyatşünas Bədirxan Əhmədli və Əli Şamilin Əmin Abid haqqındakı oçerkindən məlum olur ki, yazıb-oxumağı evdə anasından öyrənən Zeynalabdin Bakıdakı III Aleksandr Oğlan gimnaziyasında təhsil alıb. Gimnaziyada təhsilini bitirdikdən sonra «Babayi-Əmir» və «Dirilik» jurnallarında – Əliabbas Müznibin redaktorluğu ilə çap olunan mətbuat or-

qanlarında çalışıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə pedaqoji təhsil almaq üçün İstanbula gedib. 1921-ci ildə təhsilini başa vurub Bakıya qayıdan Əmin Abid təhsilini Darülfünunda davam etdirmək məqsədilə yenidən İstanbula göndərilib. İstanbul Darülfünunda oxuduğu illərdə Azərbaycan ədəbiyyatı tarixinə aid məqalələr üzərində çalışmaqla yanaşı, şeirlər yazıb və həmin şeirləri Gültəkin imzası ilə «Yeni Kafkasya» jurnalında çap etdirib. Azərbaycan mühacirlərinin nəşr etdikləri bu jurnal Əmin Abidi antisovet ruhlu şeirlər müəllifi kimi tanıdıb.

Bədirxan Əhmədli və Əli Şamilin yazdıqlarından o da məlum olur ki, Əmin Abid ədəbiyyat tarixi üzərində çalışarkən İstanbulda axtarışlar aparmaqla kifayətlənməyib, bu axtarışları Qəzvinin, Ərzurumun və Avropadakı bir çox şəhərlərin kitabxanalarında və arxivlərində davam etdirib. İstanbulda ədəbiyyat tarixinə aid yazdığı məqalələri Əmin Abid Bakıda ayrı-ayrı jurnallarda nəşr etdirməyə başlayıb. İstanbuldan qayıdandan sonra Pedaqoji Texnikumda və Universitetdə dərs deyən Əmin Abidi bir müəllim və araşdırıcı kimi daha çox düşündürən məsələ «Dədə Qorqud» dastanı olub. İstər məruzələrində, istərsə də dövri mətbuatda çap etdirdiyi məqalələrində Əmin Abid «Dədə Qorqud» dastanına xüsusi yer verib. «Dədə Qorqud»un Drezden nüsxəsinin surətini ilk dəfə Azərbaycana gətirən də, bu əvəzsiz dastan barədə Azərbaycanda ilk elmi fikir söyləyən də, bu abidəni bizdə ilk dəfə nəşrə hazırlayan da Əmin Abid olub. Amma ürək ağrısı ilə demək lazım gəlir ki, Əmin Abid «Dədə Qorqud»u Azərbaycanda nəşr etdirə bilməyib. Qorqudşünaslığın Azərbaycanda Əmin Abiddən başlaması uzun müddət çoxumuzdan ötrü naməlum olaraq qalıb. Uzun müddət Əmin Abidin «Dədə Qorqud»la bağlı təməl fikirlərindən istifadə olunub, amma onun adı çəkilməyib. Bədirxan Əhmədli və Əli Şamil həmin məsə-

ləyə bu şəkildə aydınlıq gətirirlər: «Azərbaycan qorqudşünasları Əmin Abidin ən çox «Əşirət dövründəki Azərbaycan ədəbiyyatına dair vəsiqələr» məqaləsindən istifadə ediblər. Lakin dövrün təzyiqlərindən ehtiyatlanan ədəbiyyatşünaslar yararlandıqları mənbəni göstərməkdən ehtiyatlanıblar». Tale belə gətirib ki, haqqının tapdanması halları ilə Əmin Abid öz sağlığında üzləşməli olub. 1929-cu ildə çap olunan «Ədəbiyyatdan iş kitabı»nda Atababa Musaxanlı «Dədə Qorqud»dan bəhs edərkən və Əmin Abidin bu abidə ilə bağlı fikirlərindən yararlanarkən Əmin Abidin adını çəkmir. Əmin Abid bu haqsızlığa öz etirazını bildirir: «Oğuznamə» («Dədə Qorqud» – M.K.) indiki vəziyyətinə görə Azərbaycan ədəbiyyatının ilk əsəri deməkdir. «Ədəbiyyatdan iş kitabı» adlı dərs kitabında mənim ilk dəfə olaraq irəli sürdüyüm bu fikir eynilə kopya edilmiş və məndən alındığına aid heç bir işarə qoyulmamışdır. Halbuki bu fikri 27-ci ildə Bakı Darülfünunda verdiyim məruzədə irəli sürdüyüm kimi, yenə də eyni sənədə Bakı Pedaqoji Texnikumunda və 28-ci sənənin başlanğıcında Bakı Maarif Evi Ədəbiyyat Dərnəyində «Azərbaycan ədəbiyyatının başlanğıcı» mövzusunda verdiyim məruzədə təkrarlamışdım. Bundan başqa 1927-ci ildə Ruhulla Axundov yoldaşa təslim etdiyim «Azərbaycan türklərinin ədəbiyyatı tarixi» adlı əsərimdə uzun-uzadı izah edilmişdir». Bu sözlərin yazıldığı 1929-cu ildən cəmi bir neçə ilə sonra bir çox başqa ədəbiyyatçılarımız kimi Əmin Abidə qarşı da siyasi hücumlar başlayır. Pantürkist adı altında ittiham edilib repressiyaya məruz qalandan sonra Əmin Abid adının çəkilməməsi artıq adi hala çevrilir. Beləliklə, Əmin Abid həqiqəti illər boyu pərdə arxasında qalır və bu həqiqət dilə gətirilmir.

İllər boyu dilə gətirilməyən Əmin Abid həqiqəti nədən ibarətdir? Bu suala cavab verməkdən ötrü, təbii ki, Əmin Abidin ədəbi irsi haqda az-çox təsəvvür yaradılmalıdır. Qeyd

olunmalıdır ki, Əmin Abid, hər şeydən qabaq, bir ədəbiyyat tarixçisidir. XX əsrin 20-ci illərində Tiflisdə nəşr olunan «Yeni fikir» qəzetinin İstanbul üzrə müxbiri Əli Şahbazovun 1926-cı ildə həmin qəzetdə verdiyi məlumata görə, Əmin Abid 6 cilddən ibarət olan ədəbiyyat tarixi üzərində çalışır. Çox təəssüf ki, Əli Şahbazovun qeyd etdiyi 6 cild bütövlükdə əldə yoxdur. Bədirxan Əhmədli və Əli Şamilin axtarışları hesabına Əmin Abidin ədəbiyyat tarixinə aid cəmi iki kitabı və 20-ci illərdə ayrı-ayrı jurnallarda çap olunmuş bir neçə məqaləsi üzə çıxarılıb. Kitablardan biri «Azərbaycan türklərinin ədəbiyyatı tarixi», ikincisi isə «Azəri ədəbiyyatı tarixi»-dir. Əmin Abidin bir ədəbiyyatşünas kimi unudulmasının ən acınacaqlı faktlarından biri bu kitabların uzun müddət çap olunmaması, ədəbi ictimaiyyətin ixtiyarına verilməməsidir. Xatırladaq ki, «Azərbaycan türklərinin ədəbiyyatı tarixi» bir neçə məqalə ilə birlikdə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu xəttilə, nəhayət ki, 2016-cı ildə nəşr olunub. Həmin İnstitut bu il Əmin Abidin ikinci kitabını – «Azəri ədəbiyyatı tarixi»ni çap etmək fikrindədir.

Əmin Abidin ədəbiyyat tarixçiliyində ən prinsipial məsələlərdən biri ümumtürk ədəbiyyatı kontekstinin ciddi şəkildə nəzərə alınması, Azərbaycan ədəbiyyatının mənşəyinə xüsusi diqqət yetirilməsidir. Azərbaycan ədəbiyyatı tarixini ayrıca götürüb tədqiq edərkən ümumtürk ədəbiyyatının ən qədim çağlardan süzülüb gələn inkişaf istiqamətlərini nəzər-diqqətdə saxlayan Əmin Abid istər-istəməz Azərbaycan, azərbaycanlı və azəri adları üzərində geniş dayanmağı vacib bilir. İlk Cümhuriyyətimizin Azərbaycan adlanması, Türkiyədə ziyalıların Azərbaycan xalqını azəri adlandırması hesabına Əmin Abid Azərbaycan ədəbiyyatı, azəri ədəbiyyatı istilahlarından istifadə etsə də, həmin istilahların yanlış yerə yozulmasına kəskin etirazını bildirir. Əmin Abidin kəskin etiraz et-

diyi məqamlardan biri Azərbaycan və azəri adlarının birbaşa və dolayı şəkildə İranla əlaqələndirilməsi, Turandan ayrı salınmasıdır. Turan-türk etnik-mədəni dünyasını əsas ünvan kimi nişan verən və bu ünvan üzərində israrla dayanan Əmin Abid «Zərdüşt türkdür, atəşpərəstlik türkün doğma etiqadıdır», «Midiya tarixi də türkə bağlıdır» kimi şirnikləndirici mülahizələri belə əsassız sayır, o cür mülahizələri irəli sürən Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz kimi mötəbər simalara qarşı çıxmaqdan çəkinmir. Yeri gəlmişkən qeyd edək ki, istər «Azərbaycan türklərinin ədəbiyyat tarixi»ndə, istərsə XX əsrin 20-ci illərində çap etdirdiyi məqalələrində, istərsə də Folklor İnstitutunun bu il nəşr edəcəyi «Azəri ədəbiyyatı tarixi»ndə Əmin Abidin məsələlərə prinsipial mövqedən yanaşmasının, Kunoş, Köprülüzadə kimi nüfuzlu elm adamları ilə polemikaya girməsinin, yeri gəldikcə Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq və b. məşhur yazıçıları belə tənqid etməsinin şahidi oluruq. Belə prinsipial mövqe tutmağın arxasında, söz yox ki, araşdırılan problemlərə dərindən bələd olmaq amili və öz mövqeyində israrlı olmaq məsələsi dayanır.

«Azərbaycan türklərinin ədəbiyyatı tarixi»ndə əsas araşdırma predmeti ağız ədəbiyyatı, o cümlədən «Dədə Qorqud» Oğuznaməsidir. Əmin Abid «Dədə Qorqud» haqqında maraqlı fikirlər irəli sürür. Aydın olur ki, bu dastan haqqındakı təməl fikirlərin bir çoxu məhz Əmin Abidə məxsusdur. Belə fikirlərdən biri həmin dastanın yazıya alınma tarixi ilə bağlıdır. Dəvadariyə əsaslanıb Oğuznamənin fars dilindən ərəb dilinə IX əsrdə tərcümə edilməsini, həmin abidənin türkcədən farscaya tərcüməsinin isə daha əvvəlki tarixə gedib çıxmasını nəzərə alan Əmin Abid Drezden nüsxəsinin hansısa daha qədim əlyazmadan köçürülməsi qənaətinə gəlir. Həmin qənaət Qorqudşünaslıqda bu gün də qüvvədə qalmaqdadır.

Dədə Qorqud kimdir və eposda onun əsas funksiyası nədən ibarətdir? Qorqudşünaslardan bir çoxunu düşündürən bu suala Əmin Abidin inandırıcı cavabı vardır. Sual ətrafında öz sözünü deməmişdən əvvəl Əmin Abid tarixi qaynaqlara baş vurub Dədə Qorqudun real tarixi şəxsiyyət olması barədə ən səciyyəvi məlumatları gözdən keçirir. Belə qaynaqlardan biri Osmanlı hökmdarlarından II Muradın zamanında – XIV əsrin sonu, XV əsrin əvvəllərində (Əmin Abidin fikrincə, «Dədə Qorqud»un ilk əlyazmalarından xeyli sonra!) qələmə alınmış «Tarixi-Ali Səlcuq»dur. «Tarixi-Ali Səlcuq»un verdiyi məlumata görə, Dədə Qorqud ərəb xəlifəsi Əbubəkr zamanında Türküstandan Ərəbistana gedib və orada müsəlmanlığı qəbul edib. Dədə Qorqudun tarixi şəxsiyyət olması ilə bağlı Əmin Abidin müraciət etdiyi başqa bir qaynaq Əbülqazi Bahadır xanın XVII əsrə aid «Səcərei-tərakimə» əsəridir. Həmin əsərin verdiyi məlumata görə, Qorqud oğuzların hökmdarı İnal xanın və ondan sonra daha dörd xanın vəziri olub və doxsan beş il ömür sürüb. Əmin Abid XII əsr müəlliflərindən İmadəddin İsfahani, Cürcani və Qəzviniyə əsaslanıb digər bir tarixi şəxsiyyəti də diqqətə çatdırır: «bayatıların mənsub olduqları oğuz zümrəsinin vaqtilə başında durmuş olan Qorqud bin Əbdülhəmid». Əmin Abid Dədə Qorqudun tarixi şəxsiyyət olmasını əsaslandırmağa yönəlmiş faktlar sırasında bir maddi «sübut» kimi qəbir məsələsini də xatırlatmağı unutmur. Bəli, Əmin Abid Dədə Qorqudun Dərbənddəki qəbrindən, eləcə də türkmənlər, qırğızlar və qazaxlar arasında geniş yayılmış «Qorqudun qəbrini qazma» zərb-məsəlindən söhbət açır. Və bütün bu xatırlatmalardan sonra Əmin Abid Dədə Qorqudun kimliyi məsələsinə əsl folklorşünas yekununu vurur: «Qorqudun şəxsiyyəti haqqında əfsanəvi olaraq bizə ən bol məlumat verən kitab «Dədə Qorqud»un özüdür. Qorquda verilən mənqəbələr tərkib edildiyi zaman Qorqudun iki mü-

hüm sifət sahibi olduğu meydana çıxar: birisində ötədə-bəridə qopuz çalaraq qəhrəmanlar və xanlar-bəglər haqqında hekayə düzüb-qoşan bir ozan, məddah, müğənni; ikincisində xalqın, hətta rəislərin hörmət etdiyi və dinlədiyi əql və mühakimə sahibi şeyxdir». Əmin Abidin bir folklorşünas kimi ustalığı tarixi şəxsiyyət və dastan qəhrəmanı əlaqəsinin estetik mahiyyətini və qanunauyğunluğunu dəqiq şəkildə nəzərə ala bilməsindədir. Əmin Abid nəzərə alır ki, tarixi şəxsiyyətin həyatı ilə bağlı müəyyən ştrixlər xalqın təsəvvüründə qabaqcadan hazır olan hər hansı obrazın canlandırılmasında yardımçı element funksiyası daşıyır, obraz tarixi faktdan yox, tarixi fakt obrazdan asılı olur. Konkret olaraq eposdan danışsaq, eposda, o cümlədən «Dədə Qorqud»da tarixi fakt obrazın məzmun və mahiyyətinə uyğunlaşır. Dədə Qorqudun bir obraz olaraq başlıca mahiyyəti ilahi mənşəyə bağlı müdrik ozan olmasındadır. Xalqın təsəvvüründə bu cür sənətkarın qüdrəti yalnız söz qoşmaq, dastan söyləməklə bitmir, gələcəkdən xəbər verib cəmiyyətdə ən müşkül işləri yoluna qoymaq kimi cəhətləri də əhatə edir. Əmin Abid Dədə Qorqud obrazını məhz bu yöndə araşdırır: «Əski ozanların sifət və mahiyyətləri düşünüləcək olursa, yuxarıda göstərilən siniflərin həpsi bir insanda toplanırdı. Ozanlar yalnız dərəbəglərin məddahı, çalğıçısı, müğənnisi deyildi, onlar eyni zamanda xurafatı nəşr edən bir ruhani, kəramət satan bir mübhəm mahiyyətdə idi. Bu cəhətdən kitabda …Qorquda verilən həkim və müşavirlik sifəti də ozanların məziyyətlərindəndir». Dədə Qorqudun kimliyi barədə Əmin Abidin söylədiyi fikirlər bu gün də qüvvədə qalmaqdadır.

Bu günün özündə belə tam həllini tapmayan, müzakirə və mübahisə mövzusu olaraq qalan məsələlərdən biri «Dədə Qorqud»da şifahi və yazılı sözün sərhədlərinin müəyyənləşdirilməsi məsələsidir. Əlimizə yazılı şəkildə gəlib çatan «Dədə

Qorqud» mətni birbaşa şifahi ifadan qeydə alınıb, ya kimsə oturub bu mətni hansısa qaynaqlar əsasında bir bədii əsər kimi yazıb? «Dədə Qorqud» şifahi mədəniyyət abidəsidir, ya yazılı mədəniyyət? Bu məsələyə Əmin Abidin münasibəti belədir: «Qorqud kitabındakı müqəddimə parçaları, gərək hekayələrin həpsi «xanım hey» xitabilə başlıyor. Bu cəhətdən «Min bir gecə» hekayələrində gecə başlamalarına çox bənziyor. Hər hekayə nəticədə əski bir molla tərəfindən yapılan dua kibi xanın ömrünə dua ediliyor, ona Məhəmməddən şəfaət diləniyor. Bundan kitabın bir xan adına yazıldığını çıxarmaq mümkün olduğu kimi, əskidən çadır və sonradan saraya da mal olan xan və bəg qonaqlıqları əsnasında bir xana xitabən söyləndiyi ehtimalı da uzaq degildir». Göründüyü kimi, Əmin Abid «Dədə Qorqud» mətnində həm şifahi, həm də yazılı mədəniyyətin elementlərini görür. Amma müqayisə məqsədilə hər hansı başqa bir abidəni yox, «Min bir gecə» nağıllarını xatırlatması göstərir ki, Əmin Abid «Dədə Qorqud» mətnində şifahi təhkiyəyə məxsus əlamətlərin qabarıq şəkildə hiss olunması qənaətindədir. Əmin Abid bu qənaətini eposun nəzm və nəsr məsələlərindən danışarkən bir daha ortaya qoyur: «Cümlələrin qısalığı, bir çox kəlmə və sifətlərin təkrar edilməsi və zəif olsa da səcilər yazılması ibtidai bir mənzum ahəngi veriyor. Bu ahəng etibarilə «Qorqud»un çox yarısı nəzm ilə nəsr arasında xüsusi bir şəklə malikdir. Bu şəkil zamanında daha çox musiqi ilə bərabər söylənildiyini, yaxud ahəngdar bir səslə oxunulduğunu ifadə edər». Bu fikirlərdən bir daha aydın olur ki, Əmin Abid «Dədə Qorqud»un bədii sistemindəki aparıcı cəhətləri üzə çıxarmaq istərkən şifahi ifa prosesinə mühüm amil kimi yanaşır və nəsri nəzmə, nəzmi isə nəsrə yaxın olan bu dastanın özünəməxsus poetikasının formalaşmağında musiqi sədaları altında mətn söyləməyin mühüm rol oynamasını xüsusi diqqətə çatdırır. Əmin Abidin

şifahi ifaçılıqla bağlı fikirləri Qorqudşünaslıqda bu gün də qüvvədə qalmaqdadır.

«Dədə Qorqud»un ahəngdar nəsri və bu dastanda heca standartlarına uyğun gəlməyən nəzm parçaları Əmin Abidi Orxan-Yenisey yazılarından, Kaşqari «Divan»ındakı «qoşuq»lardan üzü bəri türk şeirinin ən qədim çağlarına aparır və o, heca vəzninin yaranıb təşəkkül tapma tarixinə aid ciddi elmi-nəzəri araşdırmalar çap etdirir. «Heca vəzninin tarixi» belə nəzəri araşdırmalardan biridir. 1927-ci ildə «Maarif işçisi» jurnalında çap etdirdiyi həmin məqalədə Əmin Abid heca vəzninin tarixini məhz dastanlardakı «vəznli nəsr»dən başlayır: «Bunlar (dastanlar – M.K.) saz cinsindən telli çalğılar çalınaraq, yüksək səslə söylənirdi. Dastanların sözlərinə çalğının havası (melodiyası) verilir və bu surətlə oxunan sözlər, bir vəzn qazanmış olurdu. Dastanların özləri də az-çox ahəngdar bir şəkildə idi: cümlələrin sonlarına bir takım zəif səcilər konulması, cümlə və sözlərin təkrar edilməsi və yaxud bəzi nida ədatının cümlə başına və ya sonuna dəfələrlə əlavəsi, adəta ibtidai bir vəzn və qafiyə deməkdir. Zaman keçdikcə türkcənin təkamülü bu ahəng hərəkətlərindən öz vəznini yaratdı. Bu gün heca vəzni dediyimiz vəzn meydana çıxdı». İstər «Dədə Qorqud»un ahəngdar nəsrindən və nəsrə yaxın şeirindən bəhs edəndə, istərsə də heca vəznli şeirimizin təşəkkül tarixindən danışanda Əmin Abidin xüsusi diqqət yetirdiyi məsələlərdən biri ifa konteksti məsələsidir. Düzdür, «ifa konteksti» folklorşünaslıqda son dövrlərdə yaranan istilahdır və Əmin Abid, təbii ki, həmin istilahdan istifadə etmir. Amma fakt faktlığında qalır. Fakt budur ki, Əmin Abid folklor mətninin hansı şəraitdə və hansı şərtlər daxilində ifa olunub ortaya çıxdığını xüsusi olaraq nəzərə alır. Əmin Abidin bir həssas folklorşünas kimi folklor mətninin yaranmasında xüsusi nəzərə aldığı amillərdən biri musiqidirsə, başqa biri də mə-

rasimlərdir. Təsadüfi deyil ki, «Türk xalq ədəbiyyatında mani növü və Azərbaycan bayatılarının xüsusiyyəti» adlı çox sanballı məqaləsində Əmin Abid bayatıların musiqi sədaları altında bədahətən söylənməsini qeyd etməklə yanaşı, bu janrda olan nümunələrin bir çox hallarda falabaxma, yas və toy mərasimlərinin tərkib hissəsi kimi meydana çıxmasını xatırlatmağı vacib sayır.

Əmin Abidin 1925-26-cı illərdə İstanbulda yazdığı «Azəri ədəbiyyatı tarixi» adlı əsəri Azərbaycan ədəbiyyatının XX əsr mərhələsindən bəhs edir. XX əsr Azərbaycan ədəbiyyatı haqda aydın təsəvvür yaratmaq üçün Əmin Abid elmi təhlillərini ədəbi istiqamətlər üzrə qurur: «Qəzetəçilik və təkamülü» (Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Haşım bəy Vəzirov, Məmməd Əmin Rəsulzadə), «Vətənpərvər şeir məktəbi» (Məhəmməd Hadi, Əliabbas Müznib), «Mizah ədəbiyyatı» (Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli Nəzmi Kefsiz, Ömər Faiq Lağlağı, Haşım bəy Birisi), «Hekayəçilik» (Nəriman Nərimanov, Sultanməcid Qənizadə), «Tamaşa ədəbiyyatı» (Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyli, Hüseyn Cavid), «Cocuq ədəbiyyatı» (Abbas Səhhət, Abdulla Şaiq, Süleyman Sani Axundov), «Heca cərəyanları» (Əhməd Cavad). Əsərin adındakı «azəri» sözündən də bəlli olduğu kimi, bu əsərdə Türkiyə ziyalılarının, Türkiyə ədəbiyyatı və ədəbiyyatşünaslığının güclü təsiri vardır. XX əsrdə yazıb-yaratmış Azərbaycan yazıçılarının əsərlərinə qiymət verərkən Əmin Abidin əsas götürdüyü başlıca meyar Türkiyə ədəbi dili, Namiq Kamal, Tofiq Fikrət, Əbdülhəq Hamid və b. sənətkarların yaradıcılığı ilə təmsil olunan Türkiyə ədəbiyyatıdır. Türkiyə ədəbi dilində və Namiq Kamal, Tofiq Fikrət, Əbdülhəq Hamid kimi sənətkarların üslubunda əsərlər yazan Məhəmməd Hadi, Əliabbas Müznib, Hüseyn Cavidi Əmin Abid az-çox təqdir edir. Sadə xalqın

anlayacağı bir dildə və üslubda «mizahi» əsərlər yazan Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabiri isə, Əmin Abid «əsl ədəbiyyat» nümayəndələri saymaqda çətinlik çəkir.

Bu cür subyektiv və mübahisəli fikirlərin də yer aldığı «Azəri ədəbiyyatı tarixi» əsərinin ən qiymətli cəhətlərindən biri bu əsərdə Əmin Abidin, imkan daxilində öz məsləkinə sadiq qalması, antikommunist mövqeyini hiss etdirməsidir. Belə bir mövqe əsərin sonundakı «Kommunizm dövründə fikri cərəyanlar» bölməsində daha qabarıq şəkildə özünü göstərir. «Kontr bolşevizm cərəyanları», «İstiqlal və mücadilə ədəbiyyatı» başlıqları altında Əmin Abid bolşevizmə qarşı ədəbi mübarizə aparan və milli istiqlal ideyalarını irəli sürməkdən çəkinməyən yazarlar sırasında Gültəkinin də adını çəkir və onun Türkiyə mətbuatında çap etdirdiyi «Qılıncım və başım», «Buzlu cəhənnəm» kimi antisovet ruhlu şeirlərindən böyük parçalar nümunə gətirir.

Gültəkin təxəllüsünün Əmin Abidə məxsus olduğunu düşündükcə bir məsələ bizlərə bir daha aydın olur: Əmin Abid və Əmin Abid kimi neçə-neçə tədqiqatçımız öz əsərlərində kommunist rejiminin şəninə söz demək məcburiyyətində qalsalar da, qəlbən bu rejimlə barışmayıblar, onların şifahi və yazılı ədəbiyyatımız haqda söylədiyi bir çox fikirlər milli istiqlalla bağlı düşüncələrin ifadə vasitəsinə çevrilib. Belə tədqiqatçılarımız arasında Əmin Abidin xüsusi yeri var. Əmin Abidin ədəbiyyatşünaslığımız tarixindəki layiqli yerini doğru-düzgün görüb qiymətləndirməyin başlıca yolu isə onun əsərlərini üzə çıxarıb çap etmək, çap edib oxumaqdır.

**2019**

## MƏMMƏDHÜSEYN TƏHMASİB VƏ FOLKLORUMUZUN AĞRILI NÖQTƏLƏRİ

Məmmədhüseyn Təhmasibin bir folklorşünas kimi gücü-qüdrəti ağrılı nöqtələri dərindən duyub Azərbaycan folklorunun ən vacib məsələləri ilə dünya nəzəri fikri səviyyəsində məşğul olmaqda, az öyrənilmiş məsələlərin elmi həllinə öz möhürünü vurmaqdadır. Məmmədhüseyn Təhmasibin araşdırdığı və haqqında həlledici söz dediyi ağrılı nöqtələri sadalamaq istəsək, çox da uzağa getmədən ilk növbədə görkəmli alimin "folklor nədir?" sualı ətrafındakı mülahizələrini xatırlatmalı olarıq. Ona görə ki, folklor dedikdə yalnız xalq ədəbiyyatını başa düşən və bu ədəbiyyata da yazılı ədəbiyyat meyarları ilə yanaşan mütəxəssislərə tez-tez rast gəlmək olur. Bu gün folklor anlayışı birmənalı şəkildə başa düşülmürsə, folklor nümunəsinin araşdırılması öz metodologiyasına görə yazılı sənət nümunəsinin araşdırılmasından o qədər də fərqlənmirsə, onda Məmmədhüseyn Təhmasibin ciddi elmi fəaliyyətə başladığı 1930-cu illərin sonu, 40-cı illərin əvvəllərində folklora münasibətin daha acınacaqlı vəziyyətdə olduğunu təsəvvür etmək çətin deyil. Həmin illərdə dissertasiya mövzusu kimi götürüb üzərində işlədiyi "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" adlı elmi əsər Məmmədhüseyn Təhmasibin folklorşünas mövqeyi barədə çox söz deyir. Hər şeydən qabaq onu deyir ki, Məmmədhüseyn Təhmasib folklorun yalnız xalq ədəbiyyatı ilə məhdudlaşmadığını, şifahilik ənənəsi əsasında yaranan müxtəlif sənət sahələrini əhatə etdiyini ciddi şəkildə nəzərə alır; folklorun ilkin mahiyyətini və təməl prinsiplərindən birini mərasimlərlə bağlılıqda görür. Xatırlatdığımız ilk irihəcmli və ciddi elmi əsərində Məmmədhüseyn Təhmasib ayin və mərasimlərin bir qayda olaraq folkloru sinkretik şəkildə ortaya çıxardığını, ayin və mərasimlərdə

ən azı şairlik, bəstəkarlıq, müğənnilik, rəqqaslıq, aktyorluq kimi sənət sahələrinin vəhdətdə təzahür etdiyini xüsusi olaraq diqqətə çatdırır. Qədim cütçü nəğmələrindən, həmin nəğmələrin hansı şəraitdə və hansı şəkildə ifa edilməsindən bəhs edən folklorşünas yazır: "Burada söz, səs, musiqi və işin yaratdığı ahəngə uyğunlaşdırılan bədən hərəkətlərinin, yəni şairlik, musiqişünaslıq, müğənnilik və rəqsin ən ibtidai şəkillərinin möhkəm və mürəkkəb birliyi yaranmaqdadır" (1, 22). Mövsüm və mərasim nəğmələrini ayrıca mətn kimi götürüb onların bədii-poetik xüsusiyyətlərindən danışmaq Məmmədhüseyn Təhmasibin bir folklorşünas kimi maraq dairəsinə daxil deyil. Məmmədhüseyn Təhmasibi maraqlandıran əsas məsələ indinin özündə belə çoxlarının o qədər də əhəmiyyət verməmədiyi, amma folklorun əlifbası olan bir məsələ – mətnin ifa konteksti məsələsidir. Mövsüm və mərasim nəğmələrinin öyrənilməsində bu kontekst mətnin bədii-poetik cəhətlərini yox, arxaik-mifoloji mahiyyətini üzə çıxaran bir kontekstdir. Sovet hökumətinin dini fanatizmə qarşı amansız mübarizə apardığı bir şəraitdə, neçə-neçə folklorşünasın təzəcə repressiyaya məruz qaldığı bir mühitdə mövsüm və mərasim nəğmələrinin ifa kontekstini araşdırmaq gənc bir tədqiqatçı üçün siyasi baxımdan heç də sərfəli yol deyildi. Ona görə ki, mövsüm və mərasim nəğmələrinin ifa kontekstini araşdırmaq falçılıqdan, ovsunçuluqdan, bir çox ayinlərdən danışmaq demək idi. Tədqiqat zamanı folklorun öz təbiətindən çıxış etməyə çalışan Məmmədhüseyn Təhmasib o vaxt onun üçün sərfəli olmayan yolla getməyə məcbur idi. O, mərasim folklorunun mahiyyətini dərindən duyan bir təfəkkür sahibi kimi məcbur idi göstərsin ki, falçılıq prosesindən danışmadan fal nəğmələri olan vəsfi-halların əsas funksiyasından danışmaq məntiqsizlikdir. Ovun uğurlu keçməsinə, qurdun ağzını bağlamağa, küləyin kəsməsinə, yağışın yağmasına, günün çıxmasına magik

təsir göstərmək üçün oxunan nəğmələri ovsunçuluqdan təcrid olunmuş şəkildə öyrənmək Məmmədhüseyn Təhmasibə, yəqin ki, absurd bir iş kimi görünürdü. Belə olmasaydı, Məmmədhüseyn Təhmasib təbiətə magik təsir göstərməyə yönəlmiş ayin və mərasimlərdən geniş bəhs etməz, bir sıra nəğmələri Günəşi dəvət, Qodu-qodu, Xıdır Nəbi, Kosa-kosa və s. kimi oyun-mərasimlər tərkibində araşdırmaya cəlb etməyi vacib bilməzdi. Araşdırma boyu ara-sıra əfsanə və rəvayətlərə, nağıl və dastanlara istinad edilməsi bir daha göstərir ki, Məmmədhüseyn Təhmasib mərasimlərə bağlılığı mövsüm və mərasim nəğmələri ilə məhdudlaşdırmır və bu bağlılığı folklorun digər janırlarına da aid olan bir prinsip kimi görünür.

Şifahi xalq ədəbiyyatının, bütövlükdə folklorun yazılı və professional sənətdən fərqini doğru-düzgün başa düşməkdə ifa prosesini nəzərə almağın nə qədər vacib olduğunu diqqətə çatdırmaq istəyən Məmmədhüseyn Təhmasib yazır: “Xalq ədəbiyyatı ifaçısı ifadə etdiyi hər bir əsəri öz anladığı, öz istədiyi şəklə salır. Hətta eyni əsər eyni məclisdə iki ifaçının ifasında tamamilə başqa-başqa şəkillərə düşə bilər. Bu isə hər bir ifaçının özünəməxsus olan yaradıcılığı deməkdir. Müşahidələr sübut etmişdir ki, eyni nağıl bir peşəkar nağılçının ifasında daha çox qəhrəmanlıq xüsusiyyətləri kəsb etdiyi halda, bir başqasının ifasında tərbiyəvi mahiyyət alaraq didaktik bir əsər halına düşə bilər. Hətta... eyni əsər öz dinləyicilərinin tərkibinə görə bir-birindən tamamilə fərqli şəkillərdə ifa edilir. Beləliklə, tamamilə mübaliğəsiz demək olar ki, yazılı ədəbiyyatdan fərqli olaraq, xalq ədəbiyyatına aid olan hər bir əsərin ifaçısı eyni zamanda həm də ifa etdiyi əsərin müəyyən dərəcədə... yaradıcısıdır” (1, 20). Folklor nümunəsinin ifasını “yenidən yaratma prosesi” sayan Məmmədhüseyn Təhmasib bu prosesdə ifaçı marağını və dinləyici tələbini mühüm amillər kimi diqqətə çatdırır. Bu o deməkdir ki, məzmununda

mərasim elementləri olsa da, mərasimin tərkibində yox, mərasimdən kənarda ifa olunan əfsanə, rəvayət, nağıl, dastan, lətifə və s. kimi janrlarin ifa prosesi söyləyici və dinləyici münasibəti üzərində qurulur. Bu janrlar içərisində özünün yaranma yoluna görə ən mübahisəli olanı dastan janrıdır. Çünki bu janrın mənsub olduğu və aparıcı yer tutduğu aşıq yaradıcılığının özü bütövlükdə mübahisə doğuran bir sahədir və həmin mübahisə açıq və ya örtülü şəkildə bu gün də davam edir. Mübahisənin kökü aşıq yaradıcılığı nümunələrinin bir çoxunda, xüsusən möhürbəndlə bitən gəraylı, qoşma, təcnis, divani, müxəmməs və s. kimi şeir janrlarında müəllifin bəlli olmasında və bu cəhətdən aşıq yaradıcılığının yazılı ədəbiyyata yaxınlaşmasındadır. "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı fundamental əsərində Məmmədhüseyn Təhmasib aşıq yaradıcılığındakı müəlliflik məsələsini bir az da qabardır və bu müəllifliyi nəinki aşıq şeirlərində, həm də dastanlarda axtarır, məşhur dastanlarmızdan hər birini hansısa ustad sənətkarın yaratmasını tədqiqat boyu xüsusi bir ideya kimi irəli sürür. Məmmədhüseyn Təhmasib belə hesab edir ki, "Dədə Qorqud" dastanının təməlini Dədə Qorqud adlı bir ozan, "Koroğlu"nun təməlini "Koroğlu" adlı bir şair, "Əsli-Kərəm", "Qurbani", "Abbas-Gülgəz" dastanlarının təməlini Dədə Kərəm, Qurbani, Aşıq Abbas Tufarqanlı kimi ustad aşıqlar qoyublar. Məsələnin bu cür qoyuluşu, yəni aşıq yaradıcılığında müəllif məsələsinin bu şəkildə qabardılması Məmmədhüseyn Təhmasibi heç də "aşıq yaradıcılığı şifahi ədəbiyyatdan daha çox yazılı ədəbiyyata bağlıdır" qənaətinə gətirib çıxarmır. Niyə? Ona görə ki, Məmmədhüseyn Təhmasib folklor nümunəsinin yaranma və yaşama mexanizmini çox gözəl bilir. Məmmədhüseyn Təhmasib çox gözəl bilir ki, folklor nümunəsi nə göydən düşür, nə yerdən çıxır, folklor nümunəsini hazır qəliblər əsasında ayrı-ayrı fərdlər yaradır, hamıya tanış və doğma bir

tərzdə ərsəyə gələn nümunə dərhal kütlə içinə yol tapıb, hamının ortaq sərvətinə çevrilir. Məmmədhüseyn Təhmasibin qəti qənaitnə görə, müəllifin bir çox hallarda bəlli olması aşıq yaradıcılığını şifahi ədəbiyyat mahiyyətindən uzaqlaşdıra bilmir. Aşıq yaradıcılığında şifahi ədəbiyyat ənənəsinin qorunub saxlanmasının səbəbini Məmmədhüseyn Təhmasib belə izah edir: "Aşıq yaradıcılığına mənsub hər bir kiçik, yaxud böyük əsər xüsusi mənada məlum, bəlli tək "müəllif"ə malik əsər olsa da, eyni zamanda həm də kollektiv yaradıcılıq məhsuludur. Bunun... müxtəlif səbəbləri var ki, ən əsasları aşağıdakılardır: 1. Hər bir aşıq öz əsərini yaradarkən özündən qabaq yaşayıb-yaratmışların kollektiv yaradıcılıq məhsuluna çevrilmiş irsindən əzəmi dərəcədə faydalanır. Bu zəngin xəzinənin bəzən hətta hazır sujetlərindən, təsvir vasitələrindən, üslub xüsusiyyətlərindən, hazır spesifik ifadələrindən... və s. istifadə edir. 2. Yaradılan hər bir əsər ağızlara düşür, ustad və yaxşı peşəkar aşıqların ifasında dəyişir, işlənir, cilalanır, mükəmməlləşir. Sözün həqiqi mənasında bir fərdin əsəri olmaqdan daha çox kollektiv yaradıcılıq məhsuluna çevrilir. Bütün bunlara görə də bizdə aşıq yaradıcılığı folklorun özünəməxsus spesifik xüsusiyyətlərə malik bir qolu, bir sahəsi adlandırılır" (2, 52). Deməli, hansısa müəllif tərəfindən yaradılması aşıq ədəbiyyatı nümunəsinin dəyişib, cilalanıb kollektiv yaradıcılıq məhsuluna çevrilməsinə mane ola bilmir. Hazır ifadə formalarından istifadə olunan aşıq ədəbiyyatı nümunəsində fərdi uslubdan danışmaq xeyli dərəcədə çətinləşir. Tamamilə haqlı olaraq Məmmədhüseyn Təhmasib dastan yaradıcılığında aşığın fərdi üslubundan danışan tədqiqatçılara öz etirazını bildirir. Ustad aşıqların şeirləri əsasında sonradan başqa aşıqların dastan yaratması və həmin dastanın yurd hissəsində dastan müəllifinin, şeirlərində isə ustad aşığın üslubunun özünü göstərməsi ilə bağlı fikirlərə etiraz edən Məmmədhüseyn

Təhmasib yazır: “Yaranan kimi elə o şəkildə yazıya alınmayan dastanların heç birinin yurd hissəsində heç bir vəchlə “müəllif” üslubu yaşaya bilməz. Dastanın yurd hissəsinin üslubu, onu yaradan müəllifdən daha çox hər dəfə onu ifa edən aşığın təhkiyə üslubudur. Belə olmasaydı, dastanların ayrı-ayrı variantları, versiyaları əmələ gəlməzdi” (2, 19). Əlbəttə, burada Məmmədhüseyn Təhmasib dastan ifaçısının “təhkiyə üslubu” ifadəsini şərti olaraq işlədir və bununla şifahi yaratma və yaşatma ənənəsinin başqa bir vacib məsələsini vurğulamaq istəyir. Görkəmli folklorşünasın bu məqamda vurğulamaq istədiyi məsələ variant və versiya məsələsidir. Variant və versiya məsələsi ortaya çıxanda istər-istəməz düşünməli və öz-özünə sual verməli olursan: Ədəbiyyat fənninə az-çox maraq göstərən orta məktəb şagirdinin də əzbər bildiyi bu məsələyə lazımi şəkildə fikir veririkmi, folklor toplularının tərtib və nəşr olunmasında, folklor nümunələrinin araşdırılmasında çoxvariantlılıq əsaslı olaraq nəzərə alınırmı? Suala müsbət cavab verə bilmiriksə, deməli, variant və versiya da folklorumuzun ağrılı yerlərindən biri sayıla bilər. Variant və versiya məsələsinə Məmmədhüseyn Təhmasibin münasibətinə gəlincə, tərəddüdsüz-filansız deyə bilərik ki, araşdırmalarında həmin məsələnin əsaslı şəkildə nəzərə alınması baxımından da Məmmədhüseyn Təhmasib ustad folklorşünasdır. “Azərbaycan xalq dastanları (orta əsrlər)” monoqrafiyasında ustad folklorşünasın tədqiqata cəlb etdiyi variant və versiyaların miqyası kifayət qədər genişdir. Bu genişlik barədə aydın təsəvvür yaransın deyə bir-iki faktı xatırladaq: monoqrafiyada “Abbas-Gülgəz” dastanının 7, “Qurbani” və “Şah İsmayıl-Gülzar” dastanlarından hər birinin 10, “Tahir-Zöhrə” dastanının 20 variantı araşdırmaya cəlb edilir. Variantlar, həmçinin versiyalar əsasında aparılan müqayisə dastanların yaranma mənbələrini, dastanlarda tarixi hadisələrin əks olunma dərəcəsini, dastan-

ların kim tərəfindən yaranmasını üzə çıxarmağa, bir çox başqa məsələləri aydınlaşdırmağa yaxından kömək edir.

Dastanlarımızın qidalandığı mühüm mənbələrdən biri "Dədə Qorqud" boylarıdır. "Basat", "Səgrək" və "Bamsı Beyrək" boyları əsasında neçə-neçə dastanın yaranmasını çoxlu nəşr və arxiv materialları əsasında araşdıran Məmmədhüseyn Təhmasib "ər arvadın toyunda" beynəlxalq sujetinin dəyişib "adaxlı adaxlının toyunda" formasına düşməsi və "Bamsı Beyrək", "Aşıq Qərib" dastanlarında məhz o şəkildə öz əksini tapmasından söhbət açır. Görkəmli folklorşünas təkzibolunmaz dəlillər gətirib "Aşıq Qərib"in "Bamsı Beyrək" təsiri altında yaranmasını sübuta yetirməklə kifayətlənmir və öz təhlillərində daha dərin qatlara enməyə təşəbbüs göstərir. O, "Bamsı Beyrək" boyundakı "Parasarın Bayburd hasarından pırlayıb uçan" təyininə əsaslanıb belə hesab edir ki, "boyun istifadə etmiş olduğu daha qədim, daha arxaik variant-məxəzdə Beyrək nə kafir qızının köməyi ilə zindandan xilas olurmuş, nə də öz atını tapıb, ona minib düşmən əlindən qurtarırmış. O, "Parasarın Bayburd hasarından pırlayaraq" uçub gəlirmiş. Yəqin yazıya köçürən son dastançı, yaxud katib bunu "cahiliyyət dövrü"ndən qalma ağlabatmaz "əfsanə" sayaraq dəyişmiş, "kafir qızı" ilə, sonra da atla əvəz etmişdir" (2, 217). Uçmaqla bağlı arxaik ünsürün təsdiqini Məmmədhüseyn Təhmasib "Aşıq Qərib"də tapır. Görkəmli folklorşünas belə hesab edir ki, həmin arxaik ünsür "Aşıq Qərib"ə də keçib və dastanın Soltana Məmmədova adlı söyləyicidən yazıya alınmış bir variantında Qərib Tiflisə atla yox, qanadla uçaraq gəlir. Məmmədhüseyn Təhmasib uçmaqla bağlı arxaik elementin daha bir tutarlı dəlilini dastanın başqa variantlarındakı qoşmalarda görür:

Hələbdə xəbəri verdilər bizə,
Günorta zamanı mən çıxdım düzə.

Mədəd deyib, gəlib çıxdım Tiflisə,
Mövlam qanad verdi, uçdum da gəldim (3, 102).

Azərbaycan dastanlarının variant və versiyalarını ciddi şəkildə nəzərə alan, 1938-1965-ci illər arasında 100-dən çox dastan toplamaqla bu sahədə faktik materiala dərindən bələd olan, istifadə etdiyi toplama, nəşr və arxiv materiallarını dünya nəzəri fikri səviyyəsində dəyərləndirməyi bacaran Məmmədhüseyn Təhmasib dastanların janr təsnifatını verməklə folklor elmimizdəki boşluqlardan birini doldurmuş olur. Məmmədhüseyn Təhmasibə qədər folklorşünaslıqda dastanların təsnifi təcrübəsi ilə, təbii ki, qarşılaşırıq və bu təcrübədə dastanların yaranma dövrü, dastanların qidalandığı mənbə və dastanların ifadə etdiyi məzmun əsas prinsiplər kimi götürülür, təsnifat həmin prinsiplərə nəzərən aparılır. Məsələn, V.Proppun təsnifatında dastanların meydana çıxdığı ictimai formasiyalar əsas götürülürsə, V.Jirmunski və H.Zərifovun təsnifatında dastanların məzmunu və mənbəyi əsas götürülür. V.Jirmunski və H.Zərifov özbək dastanlarını belə təsnif edirlər: 1. bahadarlıq eposu; 2. əsgəri-hərbi povest; 3. tarixi məzmunlu dastanlar; 4. roman-dastanlar; 5. “Koroğlu” silsiləsi; 6. mənşəyini yazılı ədəbiyyatdan götürən dastanlar. Azərbaycan ədəbiyyatşünaslığında Məmmədhüseyn Təhmasibə qədərki dastan təsnifatından danışsaq, ilk növbədə, Həmid Araslı və Feyzulla Qasımzadənin adını çəkməliyik. Qeyd etməliyik ki, bu ədəbiyyatşünaslar əlavə bölgülərə çox da yer vermədən qəhrəmanlıq dastanları və məhəbbət dastanları bölgüsü üzərində dayanırlar. Məmmədhüseyn Təhmasib özündən əvvəlki təsnifatları nəzərə almaqla, əldə olan 150-ə yaxın irili-xırdalı dastan nümunəsinə əsaslanaraq, Azərbaycan dastanlarının dolğun təsnifatını verir. Dolğunluğun birinci göstəricisi ondan ibarətdir ki, Məmmədhüseyn Təhmasib qəhrəmanlıq və məhəbbət dastanları ilə yanaşı, dastanlarımızın başqa bir növü-

nün də olduğunu aşkara çıxarır: ailə-əxlaq dastanları. Təsnifatda dolğunluğun ikinci mühüm göstəricisi isə odur ki, görkəmli folklorşünas qəhrəmanlıq və məhəbbət dastanlarının heç də yekcins olmadığını, daxilən neçə-neçə növə ayrıldığını inandırıcı şəkildə ortaya qoya bilir. Məmmədhüseyn Təhmasib təsnifatında qəhrəmanlıq dastanları üç daxili növə ayrılır: 1. qədim bahadırlıq nağılları, sehrli nağıllar və əsatiri görüşlərlə səsləşən qəhrəmanlıq dastanları; 2. tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları; 3. adi qəhrəmanlıq dastanları. Məmmədhüseyn Təhmasib təsnifatında qəhrəmanlıq dastanları kimi, məhəbbət dastanları da üç daxili növə ayrılır; 1. məhəbbətlə qəhrəmanlıq hüdudlarında dayanan dastanlar; 2. əsl məhəbbət dastanları; 3. məcazi məhəbbətə həsr edilmiş dastanlar. Məhəbbət dastanlarının, məzmunca rəngarəngliyi və müxtəlifliyi Məmmədhüseyn Təhmasibi bu dastanlarla bağlı əlavə bir daxili bölgü aparmağa vadar edir. O, əsl məhəbbət dastanlarının dörd, məcazi məhəbbət dastanlarının isə iki növünü müəyyənləşdirməli olur. Görkəmli folklorşünasın nəzərində əsl məhəbbət dastanlarının növləri bunlardır: 1. Nağıllarla bağlı məhəbbət dastanları; 2. qədim eposla bağlı məhəbbət dastanları; 3. yazılı ədəbiyyatla bağlı məhəbbət dastanları; 4. orijinal məhəbbət dastanları. Görkəmli folklorşünasın nəzərində məcazi məhəbbətə həsr edilmiş dastanların isə növləri bunlardır: 1. astral dastanlar; 2. rəmzi dastanlar (2, 112).

Faktik və nəzəri materialı incələyib dərin ümumiləşdirmələr aparmağın məhsulu olan bu təsnifatın təfsilatına varmadan Məmmədhüseyn Təhmasibin tarixi bir qənaətini – qəhrəmanlıq və məhəbbət dastanlarının yaranma şəraiti və dastanlarımızın bu iki növünün qarşılıqlı əlaqəsi ilə bağlı mühüm bir mülahizəsini xatırlatmaq istəyirik. Həmin qənaət və mülahizənin nədən ibarət olduğunu xatırlatmazdan qabaq qeyd etməyi vacib bilirik ki, qəhrəmanlıq və məhəbbət dastanlarının

qarşılıqlı əlaqəsi ozan sənəti ilə aşıq sənətinin qarşılıqlı əlaqəsi deməkdir. Ona görə ki, məhəbbət dastanları XVI-XVII əsrlərdən etibarən ozan sənətinin yox, aşıq sənətinin məhsulu kimi meydana çıxır. Niyə belə olur? Necə olur ki, ozan sənətinin əsas göstəricisi olan bahadırlıq dastanları öz yerini məhəbbət dastanlarına verir? Hansı səbəbdən məhəbbət dastanları say etibarilə qəhrəmanlıq dastanlarını üstələməyə başlayır? Ozan sənətinin sirləri bu gün belə tam açılmayıbsa, bu sənətin özünəməxsus sistemi hələ də bizə qaranlıqdırsa, onda yuxarıda xatırlatdığımız suallara cavab verməyin nə qədər əhəmiyyətli olmasını aydınlaşdırmağa ehtiyac yoxdır. Aydın məsələdir ki, "aşıq" sözünü daha çox "eşq" sözü ilə əlaqələndirən Məmmədhüseyn Təhmasibin monoqrafiyada aşıq sənətinin mənşəyi və mahiyyəti ilə bağlı fikirləri ozan sənətinin də qaranlıq nöqtələrinə müəyyən qədər işıq salır. Məmmədhüseyn Təhmasib yazır: "Həsənoğlunun doğma dildə yazılmış şeirlərindən başlayaraq təriqət ədəbiyyatını yayan saysız-hesabsız mürşid və müridlərin hər gün, hər meydanda, hər məclisdə, hər yığıncaqda oxuduqları nəfəslərdə – "haqq", "haqq aşiqi" təbirlərini eşidə-eşidə gələn ozanlar dünyasında, bu doğma sənətkarlar aləmində də istər-istəməz sarsıntılar başlamalı, təlatümlər yaranmalı idi. Bu, belə də olmuşdu. Əsrlərdən bəri söylənən alplıq – qəhrəmanlıq "boy"larının əzəmətli bünövrəsi çatlamış, bu sənətin ürəyinə yeni ruhlu eşq qığılcımları, yeni mənalı məhəbbət qorları keçməyə başlamışdı. Bu qorları közərdən Nəsiminin nəfəsindən gələn nəsim olmuşsa, Xətai ondan qığılcımlar qoparıb xətasız nişançı kimi tam hədəfə vurmuş, Füzuli fəziləti, Füzuli qüdrəti, Füzuli eşqi isə onu alovlandırıb yandırmış, aşığın ozana qalib gəlməsi üçün şərait yaratmşdı" (2, 44). Alimlik zəkası ilə yanaşı, yazıçılıq təxəyyülünə də sahib olan Məmmədhüseyn Təhmasibin obrazlı deyim tərzi ilə süslənmiş bu mülahizələrində təri-

qət ədəbiyyatının geniş miqyas alması ozan-aşıq qarşılaşmasının və ozan-aşıq əvəzlənməsinin başlıca səbəbi kimi nişan verilir. Bu tarixi qənaət ozan-aşıq qarşılıqlı əlaqələrindən bəhs edən sonrakı tədqiqatlar və tədqiqatçılar üçün mühüm elmi mənbəyə çevrilir. Bu, öz yerində. Amma Məmmədhüseyn Təhmasib sadəcə mülahizə irəli sürməklə vəzifəsini bitmiş saymır və aşıq yaradıcılığının təriqətlə, sufizm-panteizmlə bağlı tərəflərini araşdırmağa təşəbbüs göstərir. Bu araşdırmada əsas hədəf Qurbani irsi və məcazi məhəbbət dastanları olur. Folklorşünas-alim Qurbanini sufizmə bağlı olan ustad aşıq sayır, onun şeirlərində və "Qurbani" adlı üç versiyadan ibarət dastanda sufizmin əlamətlərini görür və bu dastanın başdan-başa rəmzi vüsalın, namümkün məhəbbətin vəsfinə həsr olunmuş bir əsər kimi yaranması, amma sonradan dəyişikliyə uğrayıb nikbin xalq dastanına çevrilməsi ehtimalını irəli sürür: "Qurbaninin özü tərəfindən yazılmış dastan, bizcə, daha çox məcazi, rəmzi bir əsərmiş. Bu gün əsər tam şəkildə əldə yoxdur... Aşıqlar və onların auditoriyasından ibarət olan geniş xalq kütləsi bu əsəri qavraya, həzm edə bilməmiş, gündən-günə, ildən-ilə onu öz ifalarında sadələşdirmiş, reallaşdırmış, yeni əlavələr, ünsürlər, epizodlarla "əsaslandırmağa" çalışmış, nəhayət, gətirib bir-birindən bu dərəcədə fərqli versiyalar şəklinə salmışdır. Xalqın, onun yaradan, düzən, qoşan dəstəsinin kollektiv yaradıcılıq qüdrəti də burada özünü göstərir. O, məcazi bir əsəri öz süzgəcindən keçirə-keçirə, öz darağı ilə daraya-daraya, öz rəndəsi ilə yona-yona gətirib Gəncə, yaxud Zəngan versiyası kimi nikbin bir xalq dastanı dərəcəsinə qaldırmışdır" (2, 370-371). Məmmədhüseyn Təhmasib rəmzi məhəbbət dastanları bölgüsünə daha çox "Qurbani"ni daxil etsə də, istər "Tahir-Zöhrə" kimi astral dastanlarda, istərsə də nağıllara, qədim eposa, yazılı ədəbiyyata bağlı məhəbbət dastanlarında eşqin ilahi mənşə ilə əlaqələndirilməsini

səciyyəvi bir xətt kimi diqqətə çatdırır və buta məsələsi üzərində ətraflı dayanmağı vacib sayır. Nurani dərviş, Xızır və yaxud Həzrət Əli dastan qəhrəmanına nur badəsi içirir və hansısa uzaq bir şəhərdə yaşayan gözəl bir qızı qismət kimi ona nişan verir. Dastan qəhrəmanı nur badəsini içməklə haqq aşığına, gözəl qızı görüb ona vurulmaqla haqq aşiqinə çevrilir. Qeyri-adi qüvvələrin kəraməti hesabına baş tutan bu cür butavermə əhvalatının məhəbbət dastanlarında təsvir edilməsinin mühüm səbəblərindən birini Məmmədhüseyn Təhmasib baş qəhrəmanların, xüsusən də məşuqənin öz davranışında sərbəstlik qazana bilməsi ilə əlaqələndirir: “Diqqət edilsə, dastanlarımızda buta (məşuqə – M.K.) yaşadığı mühitə, tabe olduğu cəmiyyət qaydalarına, hökmran din-əxlaq normalarına, ən hüquqsuz, ən müti, ən məzlum üzvü olduğu islam zehniyyətli partiarxal cəmiyyətin amansızlığına baxmayaraq, həddindən artıq sərbəst, müstəqil, hətta bir dərəcəyə qədər açıq-saçıqdır... Şəriətə görə naməhrəmlə görüşmək, danışmaq günah və yasaq olsa da, bu qızlar hətta oğlanı görən kimi “yıxılıb özündən gedir”, ayıldıqdan sonra da görüşüb, qucaqlaşıb, öpüşüb, “eyş-işrətə” başlayırlar... İslamiyyətlə, onun qadına münasibəti ilə daban-dabana zidd olan bu sərbəstlik nə ilə əlaqədardır? Bizcə, bu... Əlinin vermiş olduğu icazə, buta, badə ilə bağlıdır... Ətrafdakı hökmran qüvvələrin mənfi münasibətinə baxmayaraq, bu qəhrəmanların özlərini kəbinli ər-arvad kimi aparmalarının səbəbi həmin bu icazədə, bu intixabdadır” (2, 95-96). Düzdür, müəyyən qədər sərbəstliyi “Dədə Qorqud” və “Koroğlu” dastanlarında – Əlidən “icazə”si olmayan qızlarda da görürük, amma Məmmədhüseyn Təhmasibin bir az əvvəl misal çəkdiyimiz fikirlərində həqiqətin ifadə olunması da şəksiz-şübhəsizdir. Doğrudan da, məhəbbətin ilahi mənşəyə bağlanması sənətkarın məclisdə eşq macəraları üstündə saatlarla dastan danışmasına geniş meydan

açır. Onlarla məhəbbət dastanının əldə olmasını nəzərə alsaq, eşq macəraları ilə bağlı süjetlərin nə qədər müxtəliflik və rəngarənglik yaratmasını təsəvvür etmək çətinlik törətməz. Çətinlik bu müxtəliflik və rəngarənglikdə üst-üstə düşən, oxşarlıq yaradan məqamları aşkara çıxarmaqda, süjet xəttinin, bütün məhəbbət dastanları üçün səciyyəvi olan mərhələlərini müəyyənləşdirməkdədir. Məmmədhüseyn Təhmasib belə bir çətinliyin öhdəsindən yüksək səviyyədə gəlir və dastan poetikasının öyrənilməsi üçün vacib olan bir iş görür. Görkəmli folklorşünas belə hesab edir ki, məhəbbət dastanlarımızın hamısında, "Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarında əsas məzmun qəhrəmanın öz sevgilisi uğrunda mübarizə aparmasının təsvirindən ibarətdir. Belə bir mübarizədən bəhs edən süjet dörd mərhələyə bölünür: 1. qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi; 2. aşiq və məşuqənin buta almaları; 3. qabağa çıxan maneələr və onlara qarşı mübarizə; 4. müsabiqə və qələbə (2, 65). Aydınlıq naminə qeyd edək ki, bu bölgüdə "buta almaq" məsələsini Məmmədhüseyn Təhmasib geniş mənada – dastanın qız qəhrəmanının ortaya çıxması mənasında işlədir və bu hesaba bəzi başqa dastanlarla bir sırada "Dədə Qorqud" və "Koroğlu"nun məhəbbət motivli boy və qollarından da danışmaq imkanı qazanır. Bölgüdə müəllif "qabağa çıxan maneələr və onlara qarşı mübarizə"ni süjet xəttinin əsas hissəsi sayır və bu hissənin özünü də üç mərhələyə ayırır: 1. qəhrəmanın hələ öz vətənində rastlaşdığı maneələr; 2. yol; 3. butanın vətəninə çatdıqdan sonrakı macəralar (2, 76). Müəllif bütün bu bölgülər əsasında məhəbbət dastanlarına məxsus süjet poetikasını ortaya qoyur. Nağıllarla, eposla, yazılı ədəbiyyatla bağlı olan; orijinallığı ilə seçilən; astral və rəmzi məzmun daşıyan məhəbbət dastanlarından ayrı-ayrılıqda, həmçinin bir-biri ilə müqayisəli şəkildə bəhs edərək Məmmədhüseyn Təhmasib

məhəbbət dastanlarının bütövlükdə poetik sistemini işləyib meydana çıxarır.

Məmmədhüseyn Təhmasibin məhəbbət dastanları ilə bağlı araşdırmalarından aydın olur ki, sufi-panteist ədəbiyyatın aşıq ədəbiyyatına təsiri özünün qabarıq ifadəsini məhz məhəbbət dastanlarında tapır. Ozan-aşıq qarşılaşmasında aşığın tədricən öz nüfuzunu artırıb dastan yaradıcılığı və ifaçılığının aparıcı fiquruna çevrilməsində məhəbbət dastanları mühüm göstəriciyə çevrilir. Bəs aşıq sənətinin get-gedə güclənməsi müqabilində ozan sənətinin taleyi necə olur? Ozan ənənəsi bu qarşılaşmaya tab gətirməyib sıradan çıxırmı? Əlbəttə, yox. Ozanın alplıq-bahadırlıq dastanı qoşmaq ənənəsi sıradan çıxmış olsaydı, “Koroğlu” kimi nəhəng epos yaranmaz və Məmmədhüseyn Təhmasib də dastanlara həsr etdiyi monoqrafiyada bu eposun təhlilinə geniş yer verməzdi. Məmmədhüseyn Təhmasibin monoqrafiyada aşıq sənətinin məhsulu kimi bəhs etdiyi “Koroğlu” alplıq-bahadırlıq ənənəsini başqa bir yerdən yox, ozan sənətinin məhsulu olan “Dədə Qorqud”dan götürür. Deməli, ozan ənənəsi aşığın ifasında yaşamaqda davam edir. Alplıq-bahadırlıq “Koroğlu”da o dərəcədə özünə möhkəm yer tutur ki, bəzi qolların məhəbbət motivi üstündə qurulması həmin qolları qəhrəmanlıq dastanı olmaqdan qətiyyən uzaqlaşdırmır. Bu cəhət də başqa bir yerdən yox, “Dədə Qorqud”dakı məhəbbət motivli boylardan gəlir. “Dədə Qorqud” boyları və “Koroğlu” qollarında bahadırlığın yerini doğru-düzgün müəyyənləşdirmək üçün Məmmədhüseyn Təhmasib məhəbbət dastanları ilə müqayisələr aparmağı lazım bilir: məhəbbət dastanlarının çoxunda qəhrəmanın butadan əvvəlki bacarığı ilə butadan sonrakı bacarığı arasında böyük fərq olur. Butaya qədərki Qurbani yer şumlamağı bacarmır, əmisindən borc aldığı öküzlərin birini canavara yedirdir, o birini palçığa batırır. Butaya qədərki Abbas

oxuyub-yazmaqda məktəb yoldaşlarının hamısından geri qalır. Qərib isə atadanqalma mal-dövlətin qısa vaxtda axırına çıxıb qəpiyə möhtac vəziyyətə düşür. Buta veriləndən sonra haqq aşığına və haqq aşiqinə çevrilən bu qəhrəmanlar şəriətdən, təriqətdən, mərifətdən, həqiqətdən xəbər verir, böyük və yenilməz qüdrət sahibinə çevrilirlər. Butadan əvvəlki fərasətsizliklə kəskin təzadın yaradılması butadan sonrakı qüdrəti daha qabarıq göstərməyə xidmət edir. “Dədə Qorqud” və “Koroğlu” dastanlarında, o cümlədən bu dastanların məhəbbət motivli boy və qollarında bu cür təzada rast gəlmirik. Beyrək Banuçiçəklə görüşənə qədər bazirganları qarətçilərin əlindən qurtarmaqla öz igidliyini artıq sübuta yetirmiş olur. Dəmirçioğlu Telli xanımın dalınca getməmişdən xeyli qabaq adlı-sanlı Koroğlu dəlisi kimi tanına bilir. İstər “Dədə Qorqud” boylarında, istərsə də “Koroğlu” qollarında qız arxasınca getmək baş qəhrəmanın bahadırlığını bir daha nümayiş etdirmək məqsədi daşıyır (2, 73-76).

Məmmədhüseyn Təhmasibin yığcam şəkildə xatırlatdığımız bu mülahizələri qəhrəmanlıq dastanlarına yanaşmada başlanğıc nöqtəsinə çevrilir. Aydın olur ki, qəhrəmanlıq dastanlarında yalnız məhəbbət yox, bütün digər motiv və süjetlər, bütün ünsür və elementlər bahadırlığın qabarıq ifadəsinə xidmət edir. Belə elementlər sırasına, heç şübhəsiz, mifoloji mahiyyət daşıyanlar da daxildir. Məhəbbət dastanlarına ozan epik ənənəsi əsasında yanaşıb butanı mifoloji baxımdan qəhrəmanın yenidən doğuluşu kimi mənalandıran Məmmədhüseyn Təhmasib bahadırlıq dastanlarındakı əsatiri qata biganə qala bilməzdi və biganə qalmır. Təsadüfi deyil ki, alimin monoqrafiyada ətraflı bəhs etdiyi qəhrəmanlıq dastanlarından biri və birincisi “Basat” boyudur. Alim həmin boyla bağlı təhlillərində Basatın aslan südü ilə bəslənməsinə, özünün mifoloji kökünü “qaba ağac” və “qoğan aslan”a bağlamasına (4,

93) xüsusi diqqət yetirir və bu cür möcüzəli doğuluşu Koroğlunun timsalında da axtarır: "Qədim türk eposunun bütün ünsürləri, yəni dağ kultu da, su kultu da, ağac kultu da, nəhayət və ən əsaslısı nur, işıq kultu da Qoşabulaqda birləşdirilir, adi kəndli balası olan Rövşən də məhz bu ünsürlərin sayəsində qəhrəman, Koroğlu dərəcəsinə yüksəlir" (2,148). Müxtəlif xalqlarda bu qəhrəmanın Koroğlu, Qaraoğlu, Goroğlu kimi adlar daşımasını xatırladan Məmmədhüseyn Təhmasib yazır: "Koroğlu da, Qaraoğlu da, Goroğlu da qaranlıqla əlaqədardır. Birinci variantda o, korun, ikincidə qaranın, üçüncüdə isə qaranlıq qəbrin oğludur. Bütün dünya xalqlarının əsatirində isə qaranın, qaranlığın, korluğun, bir sözlə, zülmətin oğlu fəcrdir, günəşdir, işıqdır" (2, 146). İstər Basat, istərsə də Koroğludan bu yöndə və bu kontekstdə danışarkən Məmmədhüseyn Təhmasib janrın formalaşmasında mifoloji elementlərin yerini və funksiyasını aydınlaşdırmaq məqsədi güdür. Bu məqsədin Məmmədhüseyn Təhmasib yaradıcılığında ardıcıl şəkildə izləndiyinin şahidi oluruq. Həm dastanlara həsr edilmiş monoqrafiyasında, həm də həmin monoqrafiyadan xeyli qabaq yazılmış "Mövsüm və mərasim nəğmələri"ndə mif və ritual janrın məzmununa əsaslı təsir göstərən amillər kimi tədqiqata cəlb olunur. Məmmədhüseyn Təhmasib yaradıcılığında qabarıq şəkildə özünü göstərən bu istiqamət folklor elmimizdə Məmmədhüseyn Təhmasibdən sonra davam və inkişaf etdirilən, az-çox öz bəhrəsini verən istiqamətlərdəndir. Çağdaş Azərbaycan folklorşünaslığında janrın genezisinin janrın poetikası ilə vəhdətdə öyrənilməsində, söz yox ki, Məmmədhüseyn Təhmasib irsinin mühüm əhəmiyyəti və rolu vardır.

Folklor janrları içərisində epos, tarixi hadisələri daha qabarıq əks etdirən janr sayılır. Görkəmli folklorşünaslar, eləcə də Məmmədhüseyn Təhmasib nağıl janrı ilə müqayisədə eposun "uydurma" yox, "gerçək" hadisələri əks etdirən bir

əsər kimi danışılması qənaətinə gələrkən, görünür, eposdakı tarixilik məsələsini də xüsusi nəzərə alırlar. Yəqin belə hesab edilir ki, xalqın öz varlığı uğrunda mübarizəsindən bəhs edən epos real hadisələrə daha çox bağlı bir janrdır. Eposda tarixilik məsələsinə xüsusi önəm verilməsi Məmmədhüseyn Təhmasibin dastan təsnifatında aydın ifadəsini tapır. “Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları”nın ayrıca qrup kimi nəzərdə tutulması, “Dədə Qorqud” və “Koroğlu”dakı bəzi boy və qolların həmin qrup daxilində təhlil edilməsi, Qıpçaq Məlik, Koroğlu, Eyvaz, Dəli Həsən və b. surətlərin tarixdəki prototiplərinin müəyyənləşdirilməsi tarixilik məsələsinə Məmmədhüseyn Təhmasibin xüsusi diqqətlə yanaşdığını göstərir. Amma o da var ki, Məmmədhüseyn Təhmasib bir neçə dəfə “epos tarix kitabı deyil” deyib tarixilik məsələsi ilə bağlı nigarançılığını da bildirir. Nədir bu nigarançılığın səbəbi? Görkəmli folklorşünas bu məqamda nədən narahat olur, nədən ehtiyat edir? Məsələ burasındadır ki, tarixilik də folklorun ağrılı yerlərindən, o qədər də düzgün anlaşılmayan məsələlərindən biridir. Düzgün anlaşılsaydı, folklorşünaslıq məktəblərindən biri olan tarixi məktəb xalq ədəbiyyatının bütün janrlarında eyni dərəcədə tarixilik axtarmazdı. Tarixilik məsələsində folklor janrlarının özünəməxsusluğunu nəzərə almamaq folklorşünaslıqda tarixi məktəbin nöqsanı kimi qiymətləndirilir. Belə hesab edilir ki, tarixilik rəvayət, nağıl, epos və s. kimi janrlarda özünü daha qabarıq şəkildə göstərsə də, bu qabarıqlıq həmin janrların poetik sistemini dəyişdirə bilmir, əksinə, tarixi hadisələrin və tarixi şəxsiyyətlərin təsviri janrın poetikasına tabe olur. Tarixi şəxsiyyət konkret bir dövrdə yaşadığı halda, epos qəhrəmanı neçə-neçə əsri əhatə edən tarixi hadisələrlə əlaqələndirilə bilir. Ən möhtəşəm, ən təsirli tarixi hadisə belə folklorda məhz folklorun öz tələblərinə uyğun şəkildə əks olunur. Folklorun aparıcı janrlarından

olan eposda tarixilik baxımından başlıca şərt tarixi gerçəkliyin epik gerçəkliyə uyğunlaşdırılmasıdır. Əgər tarixi gerçəklik konkret zaman və məkan daxilində baş vermiş hadisələrdən ibarətdirsə, epik gerçəklikdə bu cür konkretlik axtarmaq çox çətindir və yaxud heç mümkün deyil. Epos söyləyicisi iki zaman tanıyır: öz zamanını və epos qəhrəmanlarının zamanını. Real şəxsiyyət və real yer adlarının çəkilməsi epos qəhrəmanlarının yaşadığı zamanı konkretləşdirə bilmir. İfaçı sənətkar epos qəhrəmanlarının zamanını özünün yaşadığı zamandan tamamilə fərqli bir zaman kimi təqdim edir. Bu zaman, söz yox ki, şərtiliklərlə dolu zamandır və epos qəhrəmanlarının bir neçə əsri əhatə edən hadisələrlə əlaqələndirilməsi belə şərtiliklərdəndir. Eposda təsvir edilən əhvalatların tarixi hadisələrlə eyniləşdirilməsini yanlış bir yol sayan Məmmədhüseyn Təhmasib yazır: "Tarixdə baş vermiş hadisələri eposda eyni ilə axtarmaq, hər epizodu, qolu tarixi hadisə kimi qəbul etmək, hər bir surətə tarixdə yaşamış bir şəxsiyyət kimi yanaşmaq doğru olmaz... Məsələ bu ünsürlərin bənzəyişində, eyniyyətində deyil, dövrün əsas... ictimai mənzərəsinin eposdakı inikasında, xalq kütlələrinin cərəyan edən hadisələrə münasibətinin doğru-düzgün ifadəsindədir" (2, 172). Epik əhvalatlarla tarixi hadisələrin, epos qəhrəmanı ilə tarixi şəxsiyyətin bir-birinə nə dərəcədə bənzəyib-bənzəməməsini yox, xalqın hadisələrə münasibətini əsas göstərici sayırsa, bu o deməkdir ki, Məmmədhüseyn Təhmasib folklorda tarixilik məsələsinə də bir çox başqa məsələlər kimi dünya elmi-nəzəri fikri səviyyəsində yanaşa bilir. Nəzərə alır ki, qabaqcadan xalqın təsəvvüründə formalaşıb yaşamaqda olan epik obraz ona az-çox uyğun gələn tarixi şəxsiyyətin timsalında ortaya çıxır. Tarixi hadisələri və tarixi şəxsiyyətləri dəqiqliklə əks etdirməkdən daha çox xalqın təsəvvüründəki epik obrazları, ilk növbədə isə yenilməz bahadır obrazını əks etdirmək qəhrə-

manlıq eposunun səciyyəvi xüsusiyyətlərindən biri kimi özünü göstərir. Eposşünas V.Putilovun sözləri ilə desək, tarixi şəxsiyyətə qədər də mövcud olan epik obraza tarixi şəxsiyyət ad və bir az da "bioqrafik" material verir (5, 178).

Məmmədhüseyn Təhmasib irsi çərçivəsində Azərbaycan folklorunun mübahisəli məsələlərindən danışarkən "Koroğlu" dastanının tərtib probleminə toxunmamaq mümkün deyil. Əlbəttə, bu məqamda söhbət, ilk növbədə, Məmmədhüseyn Təhmasibin tərtib etdiyi "Koroğlu"dan gedir. O "Koroğlu"-dan ki, Məmmədhüseyn Təhmasib onu sovet dövründə nəşrə hazırlamışdı. O dövrdə qəhrəmanlıq eposlarının sinfi mübarizə ideologiyasına uyğun şəkildə "hazırlanıb" ortaya çıxarılması təxirəsalınmaz vəzifələrdən sayılırdı. Qəhrəmanlıq eposunun roman kimi ölçülü-biçili olması qarşıya qoyulmuş vəzifələrin mühüm şərtlərindən idi. Bizim bəxtimiz onda kəsdi ki, bu vəzifəni yerinə yetirmək Vəli Xuluflu və Hümmət Əlizadədən sonra Məmmədhüseyn Təhmasib kimi ciddi folklorşünas və söz sərrafının öhdəsinə düşdü. Məmmədhüseyn Təhmasib çox çətin ictimai-siyasi şəraitdə "Koroğlu"nun ruhunu qoruyub saxlaya bildi və onilliklər boyu eposun Məmmədhüseyn Təhmasib nəşri oxucuların stolüstü kitabına çevrildi. Bunu qeyd etməklə yanaşı, sovet dövründə "Koroğlu"-nun necə, hansı şərtlərlə nəşrə hazırlanmasından, epos üzərində hansı istiqamətlərdə iş aparılmasından danışmağı da vacib hesab edirik. Belə düşünürük ki, o vaxt "Koroğlu" üzərində aparılan işin ümumi mahiyyəti eposu "nümunəviləşdirmək"-dən ibarət olub. Və bu "nümunəviləşdirmək" qəhrəmanın, süjetin, kompozisiyanın, eləcə də dilin "nümunəviləşdirilməsi" kimi müxtəlif istiqamətləri əhatə edib. Ayrı-ayrı qollar arasında əlaqə yaratmaq tərtibçinin əsas qayğılarından biri olub. Bəs tərtib zamanı Məmmədhüseyn Təhmasib hansı mətnlərə əsaslanıb və o mətnlərdən necə istifadə edib? Bu sualın ca-

vabını Məmmədhüseyn Təhmasibin mənbələrlə bağlı izahlarına baxmaqla tapmaq olar. "Alı kişi" qolunun mənbəyini Məmmədhüseyn Təhmasib belə göstərir: "Bu qolun tərtibində "Koroğlu-Əsəd", "Koroğlu-Bozalqanlı", "Koroğlu-Əli" və "Qaf-Penn" variantları əsas götürülmüşdür"(6, 398). Bu, o deməkdir ki, tərtibçi "Alı kişi" qolunu Aşıq Əsəd, Aşıq Hüseyn Bozalqanlı və Aşıq Əlinin dilindən ayrı-ayrılıqda yazıya alınan, o cümlədən A.Xodzko tərəfindən toplanıb, 1856-cı ildə S.Penn tərəfindən rus dilinə tərcümə edilən müxtəlif variantlar əsasında işləyib ortaya çıxarıb. Eposun yerdə qalan qollarının da tərtibində Məmmədhüseyn Təhmasib həmin prinsip üzrə hərəkət edib. Ayrı-ayrı söyləyicilərin dilindən yazıya alınan müxtəlif variantlar tərtibçi süzgəcindən keçirilib və oxucuya vahid təhkiyəçi dilindən çatdırılıb. Elə təhkiyəçi ki, bütün hadisələrin fövqündə dura və hadisələrin bir-biri ilə əlaqəsini görə bilir.

Bir vaxt Lyonrot Finlandiyada "Kalevala" üzərində necə işlədiyini, eposun ayrı-ayrı hissələri arasında necə əlaqə yaratdığını oxucudan gizlətmədiyi kimi, Məmmədhüseyn Təhmasib də "Koroğlu" üzərində necə işlədiyini görkəmli folklorşünas olaraq, oxucudan gizlətməyə ehtiyac görməyib. Lyonrotun böyük zəhmət və istedad hesabına tərtib etdiyi "Kalevala" xalq arasında geniş yayıldığı kimi, Məmmədhüseyn Təhmasibin də böyük zəhmət və istedad bahasına tərtib etdiyi "Koroğlu" xalq arasında geniş yayılıb. Həm Lyonrot "Kalevala"sı, həm də Məmmədhüseyn Təhmasib "Koroğlu"su bir tarixə çevrilib. "Kalevala" və "Koroğlu"nu yeni tərtibdə oxucuya təqdim etmək istəyən folklorşünas, heç şübhəsiz, bu tarixə böyük sayğı və ehtiramla yanaşmalıdır. "Kalevala"nı finlərin öhdəsinə buraxıb söhbəti konkret olaraq bizim "Koroğlu"nun üstünə gətirsək, qeyd etməliyik ki, bu gün yeni tərtib arzusunda olan folklorşünasın başlıca işi əsl

söyləyiciləri – koroğluxanları o taylı-bu taylı Azərbaycanda arayıb tapmaq, eposun qollarını ayrı-ayrılıqda canlı ifadan necə var, o şəkildə qələmə almaq, qələmə alınanı xüsusi əlaqələndirmə, xüsusi "nümunəviləşdirmə" qayğısına qalmadan bütün təbiiliyi ilə nəşr edib oxucuya çatdırmaqdır.

Amma qarşıya bir sual da çıxır: bütün bu şərtlər əsasında tərtib və nəşr edilən "Koroğlu" oxucu üçün Məmmədhüseyn Təhmasib "Koroğlu"sundan daha maraqlı olacaqmı? Suala dəqiq cavab verməк çətindir...

## QAYNAQLAR


1. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə, 1-ci cild. Bakı. Mütərcim, 2010

2. Təhmasib M.H. Azərbaycan xalq dastanları. Orta əsrlər. Bakı, Elm, 1972

3. Xalq dastanları. Bakı, 1961

4. Kitabi-Dədə Qorqud ensiklopediyası. 2 cilddə, 1-ci cild. Bakı, Yeni Nəşrlər Evi, 2000

5. Типология народного эпоса. Москва, Наука, с.164-181

6. Koroğlu. Tərtib edəni M.H.Təhmasib. Bakı, Azərbaycan EA Nəşriyyatı, 1969

# NİZAMİ QƏHRƏMANLARININ DİALOJİ MAHİYYƏTİ

Dialoji qəhrəman daxili dialoqlar əsasında yaradılan qəhrəmandır. Bu qəhrəman ikiləşir, onun daxilində öz səsi ilə özgə səsi toqquşur. Özünüdərk prosesinin ifadəsi olan daxili ikiləşmə qəhrəmanın çoxcəhətli və mürəkkəb təbiətli bir qəhrəman kimi ortaya çıxmasının əsas şərtinə çevrilir. Belə çoxcəhətli və mürəkkəb qəhrəman tipi psixoloji romanlar üçün daha çox səciyyəvidir. Nizami Gəncəvinin mənzum romanlarında isə dialoji qəhrəman tipinin, təbii ki, müəyyən elementlərini müşahidə edirik. Başqa romantik sənətkarlar kimi real hadisədən çox ideal hadisəni təsvir obyektinə çevirən, ideallaşdırma səhnələrindən romantik sənətin tələblərinə uyğun şəkildə, yerli-yerində istifadə edən Nizami Gəncəvi özünün baş qəhrəmanlarını heç də bütləşdirmir, əksinə, onları ziddiyyətlər, bir-birini inkar edən cəhətlər fonunda təqdim edir. Poemalarında ayrı-ayrı obrazların mükaliməsinə, bir-birinə zidd mövqe və düşüncənin qarşılaşdırılmasına geniş yer verən Nizami Gəncəvi bu cür mükalimə və qarşılaşdırmanı baş qəhrəmanın ziddiyyətli təbiəti timsalında da təqdim etmək nümunəsi göstərir və bu baxımdan o öz dövrünün əksər sənətkarlarından fərqlənir. Xosrov, Şirin, Bəhram, Məcnun, İskəndər və başqa qəhrəmanları ilə Nizami Gəncəvi dünya romantik ədəbiyyatı tarixinə həm də ikili xarakter daşıyan obrazlar müəllifi kimi daxil olur.

Nizami Gəncəvi qəhrəmanlarında dialoji mahiyyətin, başqa sözlə desək, ikiləşmə hadisəsinin ilk nümunələrini "Xəmsə"yə daxil olan ilk poemada – "Sirlər xəzinəsi"ndə görürük. Bu poemada "Tövbəsini pozan zahidin hekayəsi" başdan-başa qəhrəmanın daxili nitqi üzərində qurulur. Daxili nitqin mənzum hekayədə aparıcı təhkiyə forması kimi seçilməsi

heç də təsadüfi səciyyə daşımır. Müəllif bu cür təhkiyə formasına qəhrəmanın daxili aləmini daha qabarıq şəkildə əks etdirmək üçün üz tutur. Mənzum hekayədə haqqında danışılan adam bir zahid (məscid əhli) olsa da, o, şərab içməklə dərin bir günaha batıb. Bu adam günahını yumaq üçün tövbə edib, amma sonradan tövbəsini pozub. Qəhrəman öz əməlindən peşmandır. Peşmanlıq hissi qəhrəmanı özü ilə daxili söhbətə vadar edir. "Sirlər xəzinə"sinin şərhinə on cildlik kitab həsr etmiş ədəbiyyatşünas Siracəddin Hacı bu barədə yazır: "Tövbəsini pozan zahidin iç mübarizəsi davam edir (Şair bu iç savaşı ifadə etmək üçün daxili dialoqa yer verir. Mənzum hekayədə zahid özü ilə danışır). O, çıxış yolu axtarır, meyxanadan qurtulmaq istəyir … dünyanın darlığından, qəlb, ağıl və vicdanında ağır yük olan günahlarından xilas olmağa can atır... Bəlli olur ki, o, halından narazı olsa da, meyxananın darlığında boğulsa da, məscid həyatının daha gözəl olduğunu etiraf etsə də, çıxış yolu tapa bilmir, yenə qədəri ittiham edir: Əgər qəza (qədər) qismət etməsəydi, mən hara, lotuluq hara" (2, 552). Siracəddin Hacının doğru olaraq qeyd etdiyi daxili dialoqda qeybdən gələn səs zahidin daxili səsi ilə əks qütbdə dayanır. Qeybdən gələn səs mənzum hekayədə zahidin sözlərinə cavab kimi öz ifadəsini tapır: Öz əməlini qəza (qədər) ilə əlaqələndirmə, üzr qapısına gəl, günahlarını yu!

"Sirlər xəzinəsi"ndə mənzum hekayə çərçivəsində gördüyümüz daxili ikiləşmə hadisəsi "Xosrov və Şirin"də geniş epik lövhələr, rəngarəng obrazlar əsasında təqdim olunur. Akademik Həmid Araslı "Xosrov və Şirin" poemasından bəhs edərkən yazır: "Nizami yaratdığı xarakterik obrazların səciyyəsini onların yalnız iş və hərəkətlərini təsvir etməklə deyil, daxili aləmlərini açmaqla göstərir. O, insan mənəviyyatını bütün incəliyi ilə şərh edərək qəhrəmanların dəruni hisslərini, düşüncə və duyğularını, psixoloji gərginliklərini, ruhi, mənəvi

sarsıntılarını, həyəcan və iztirablarını çox bədii, həm də inandırıcı bir tərzdə qələmə alır, insan təbiətini bütün məxsusi ziddiyyətləri ilə göstərməyə müvəffəq olur" (3, 13). "İnsan təbiətini bütün məxsusi ziddiyyətləri ilə göstərmək" üçün Nizami Gəncəvinin əsaslandığı mənbələrdən biri mifoloji düşüncə sistemidir. Mifoloji düşüncə sistemində həqiqi qəhrəmanla yalançı qəhrəmanın qarşılaşdırılması modeli var. Dünya xalqlarının mifologiya və folklorunda bu qarşılaşdırmanın həqiqi bahadır – yalançı bahadır, həqiqi adaxlı – yalançı adaxlı, həqiqi alim – yalançı alim və s. kimi müxtəlif nümunələrinə rast gəlirik. Yalançı qəhrəman komik və qeyri-komik, mənfi və müsbət yöndə təqdim edilə bilər. Hansı yöndə təqdim edilməyindən asılı olmayaraq, yalançı qəhrəmanın magik funksiyası həqiqi qəhrəmanın gücünü-qüdrətini artırmaq, onun yenidən doğulmasına zəmin yaratmaqdır. Bəs həqiqi qəhrəman və yalançı qəhrəman qarşılaşmasının bizim bəhs etdiyimiz daxili ikiləşmə hadisəsi ilə əlaqəsi necədir? Məsələ burasındadır ki, həqiqi qəhrəman və yalançı qəhrəman qarşılaşması iki ayrı-ayrı obraz arasında özünü göstərdiyi kimi, eyni bir obrazın daxilində də təzahür edə bilər. Mifdən gələn bu cür ikiləşmə modeli, təbii ki, yazılı ədəbiyyata öz təsirini göstərir və yazılı ədəbiyyatda ikiləşmənin müxtəlif örnəkləri meydana çıxır. Belə örnəklər "Xosrov və Şirin"də də az deyil. Nizami Gəncəvinin bir sənətkar kimi özünəməxsusluğu ondadır ki, o, poemada həm qəhrəmanı yalançı qəhrəmanla qarşılaşdırır, həm də qəhrəmanın daxilən ikiləşməsini xüsusi təsvir predmetinə çevirir.

Xosrova qovuşmaq ərəfəsində Şəkər sərxoş Xosrovun yataq otağına bəzənib-düzənmiş cavan bir qız göndərir. Bir müddət keçir, Xosrovla Şirinin vüsal məqamı yetişir. Şirin sərxoş Xosrovun yataq otağına bəzənib-düzənmiş bir qarı göndərir. Həm Şəkər, həm də Şirin vüsal ərəfəsində oyun qurmuş

olur. Bu oyun dünya xalqları mifologiyasında geniş yer tutan yalançı adaxlı oyunudur. Oyunun mahiyyəti yalançı adaxlının həqiqi adaxlı rolunda çıxış etməsi, müvəqqəti olaraq həqiqi adaxlını əvəz etməsidir. Xosrovun yanına göndərilən cavan qız Şəkərin, qoca qarı isə Şirinin yalançı əvəzedicisidir. Hər iki əvəzedicinin ritual-mifoloji mənası bədxah fövqəltəbii qüvvələrin diqqətini özünə cəlb etmək, həqiqi adaxlıya (ayrı-ayrılıqda Şəkərə və Şirinə) dəyə biləcək xəta-bəlanı sovuşdurmaqdır. "Kəndirbaz" oyununda yalançı pəhləvanın və yaxud müasir sirk sənətindəki klounun mətnaltı mifoloji mahiyyəti nədirsə, "Xosrov və Şirin"də də yalançı adaxlıların arxaik mahiyyəti odur. "Kəndirbaz" oyunundakı yalançı pəhləvan və müasir sirk sənətindəki kloun obrazı komiklik baxımından "Xosrov və Şirin"də Şirinin yalançı əvəzedicisi ilə daha çox səsləşir. Nizami Gəncəvi Şirininin komik əvəzedicisini belə təsvir edir:

Anası yaşında bir qarı vardı,
Qoca analardan bir yadigardı.
Nə deyim, bir qurddu, əynində kürkü,
Qurd da demək olmaz, bir qoca tülkü.
Əmcəkləri sanki susuz bir motal,
Dizində taqət yox, bədənində hal.
Əyrilikdə beli böyük bir kaman,
Dərisi gön kimi, eybəcər insan.
Üzü hind üzütək lap qırış-qırış,
Bir zəhər tuluğu, qalıb qartımış.
Ağzı bir tabaqdı, dodaqları vəl,
Ordu köhnə qəbir, bir kösövdü əl.
Qaşının tükləri ağzına enmiş,
Dodağı aralı, görünmürdü diş.
Burnu sifətində çadır qurardı,
Ağzında diş deyil, zırnıxlar vardı.
Kirpiklər tökülüb, bərəlmişdi göz,

Canlı bir ifritə kimiydi, bir söz.
Şirin bəzək-düzək vuraraq ona,
Gəlintək göndərdi şahın yanına (1, 309).

Komik məzmununa və magik funksiyasına görə folklordakı yalançı qəhrəmanlar silsiləsi ilə, o cümlədən "Dədə Qorqud" eposundakı Qısırca Yengə və Boğazca Fatma obrazları ilə yaxından səsləşən bu qarı, müəllifə Şirini hərtərəfli təqdim etmək üçün lazımdır. Qısırca Yengə və Boğazca Fatma "Dədə Qorqud" eposunda Banuçiçək üçün magik qoruma vasitəsidir. Bir az əvvəl misal çəkdiyimiz qarı da "Xosrov və Şirin"də Şirin obrazı üçün həmin arxaik mahiyyəti kəsb edir. Bununla yanaşı, o da qeyd edilməlidir ki, "Xosrov və Şirin"də yalançı adaxlı və həqiqi adaxlı qarşılaşmasından başlayıb qəhrəmanın daxili aləmindəki ziddiyyət və toqquşmalara doğru gedən səciyyəvi bir xətt var. Bu xətt, Şəkərlə müqayisədə Şirin obrazında daha qabarıq şəkildə üzə çıxır. Akademik Həmid Araslı yazır: "Şirin dahi Nizami tərəfindən son dərəcə məharətlə, hərtərəfli işlənən, dünya ədəbiyyatı tarixində xüsusi yeri olan bir obrazdır. Belə yüksək, ağıllı və hərtərəfli müsbət təsvir edilən qadın obrazlarına Qərbi Avropada sonrakı əsrlərdə Şekspirdə təsadüf edirik. Dantenin Beatriçəsi də bir çox xüsusiyyəti ilə Şirinlə müqayisə edilə bilər" (3, 9). Bizcə, Nizami Gəncəvinin yaratdığı Şirin obrazı yalnız "hərtərəfli müsbət" təsvir edilməsi baxımından yox, həm də müsbət və mənfinin vəhdətində təsvir edilməsi baxımından dünya ədəbiyyatındakı möhtəşəm qadın obrazları ilə müqayisə oluna bilər. Bəli, Şirin daxilən ikiləşən bir obrazdır. Bu obrazda müəyyən qədər ifadəsini tapan ikinci Şirinin əvəzediciyə, yəni komik qarı surətinə bənzəməsi şərt deyil. Əsəs şərt odur ki, Şirinin daxilində ideal qəhrəmandan fərqli bir Şirinin olması müşahidə edilsin. Şirində ideal qəhrəmana xas başlıca cəhət onun öz eşqinə axıracan sadiq qalması və bu eşq yolunda hər cür

əzab-əziyyətə qatlaşmasıdır. Şirin çətin sınaqla üz-üzədir: Xosrovu nə qədər sevsə də, onun qarşısında qürurunu sındırmamalı, ismətini və mənliyini qorumağı bacarmalıdır. Bibisi Məhin Banuya demədən Mədainə – şəklini görüb, Şapurun sözlərini dinləyib ürəkdən vurulduğu Xosrovun yanına getməsi Şirinin düşdüyü mürəkkəb vəziyyətin başlanğıc nöqtəsidir. Məhin Banunun ölümündən sonra hakimiyyət başına keçib ölkəni ədalətlə idarə edən Şirinin birbən-birə taxt-tacı tabeliyindəki adamlardan birinə tapşırıb təzədən Mədainə – Xosrovun dalınca getməsi onsuz da mürəkkəb olan vəziyyəti daha da mürəkkəbləşdirir. Mürəkkəblik ondadır ki, Xosrov eşq yolunda Şirinin atdığı addımları layiqincə qiymətləndirə bilmir, əvvəl Məryəm, daha sonra isə Şəkərlə evlənir. Xosrov öz yerində, bəs oxucu necə? Şirinin Mədain səfərlərini oxucu necə qiymətləndirir? Oxucu bu səfərləri bir yandan eşq yolunda fədakarlıq nümunəsi sayırsa, başqa bir yandan bu səfərlərdə Şirinin müəyyən səhvə yol verməsinin də fərqinə varır. Oxucu nəzərində başlıca səhv hakimiyyətin çox uzun müddətə başqasına həvalə edilməsindədir. Xosrovu taxt-taca sahib çıxmamaqda qınayan Şirinin birdən-birə ədalətli şah missiyasını yarımçıq qoyub Mədaində hicr oduna yanmasını oxucu çətin ki, ideal qəhrəman meyarı ilə bir araya sığışdıra bilsin. Şirinin bəzi addımlarının ideal qəhrəman anlayışı ilə bir araya sığmadığını əsaslandırmaq üçün oxucu poemada geniş yer tutan təzadlar silsiləsinə diqqət yetirir: yer-göy, aşağı-yuxarı, od-su, şirin-acı, gül-tikan, vəfa-cəfa, gecə-gündüz, doğru-yalan… Əks qütblərdə dayanan anlayışlar sırasında oxucu qəlb və ağıl anlayışlarının önə çıxmasını nəzərdən qaçırmır. Oxucu müşahidə edir ki, Şirinin atdığı addımlar qəlbin və ağılın hökmündən doğan addımlardır. Addımlar arasında ziddiyyət məhz qəlbin və ağılın hökmü arasındakı ziddiyyətin təzahürüdür. Qəlb necə olur-olsun Xosrova qovuşmaq, ağılsa

eşqin çətin yolunda öz ləyaqətini qorumaq hökmünü verir. Özünün fədakarlığı müqabilində Xosrovdan üzüdönüklük və etibarsızlıq görməsi Şirinin düşdüyü təzadlar burulğanını daha da dərinləşdirir və poemada Şirinlə bağlı özünütəhlil səhnələri ortaya çıxır. Bu səhnələrdə bir tərəfdən Xosrovun etibarsızlığı ilə bağlı qəm-qüssə ifadə olunursa, digər tərəfdən, atılmış addımlarla bağlı peşmanlıq hissi ifadə olunur:

Gül dərməyə gedib, tikan dərmişəm,
Vəfa axtarmışam, cəfa görmüşəm.
Mən öz qüsurumu gizlin tutmaram,
Xalqda nə günah var? Mən taqsırkaram.
… Təhqiri belimdə ağır yük olub,
Qəmimin zülməti çox böyük olub.
Ürəyim kor ikən, gözlüyəm dedim,
Acı meyvəsini korluğun yedim (1, 173-174).

Xosrova xitablarından birində Şirin düşdüyü çıxılmaz vəziyyəti məzarla müqayisə etməli olur:

Kəsibdir sağımı, solumu daşlar,
Bir daş da üstə qoy, qoy olsun məzar.
Onun altı, üstü daş olsa əgər,
Nə qədər eybim var, büsbütün örtər (1, 267).

“Xosrov və Şirin”də bu cür qəmli səhifələr nikbin ruhlu səhifələrlə yan-yana, iç-içədir. Poemada həm qəm-qüssəni, həm də nikbinliyi doğuran isə başqa bir şey yox, qəhrəmanın əhval-ruhiyyəsidir. Naçar qalıb sarsılsa da, əslində Şirin təbiətən həyatsevər bir qızdır. Xosrovun dalınca uzaq Mədainə at sürməsi və orada məskən salması Şirin həyatsevərliyinin bariz göstəricisi deyilmi? Əlbəttə, elədir. Həyatsevərliyin peşmanlıq və sarsıntıya gətirib çıxarmasına gəlincə, bu məqamda, heç şübhəsiz, Xosrovun ziddiyyətli təbiəti, onun hiss-həyəcan və duyğu-düşüncələri nəzərə alınmalıdır. Nəzərə alınmalıdır ki, “Həyat aləmidir hər şeydən üstün” (1, 106) deyən

Nizami sevinc, nəşə dolu məclisləri, eyş-işrət məqamlarını poemada ən çox Xosrovla bağlı olaraq təsvir edir. Amma kef məclislərinə aludəlik və eyş-işrətə meyil Xosrovu həm də ciddi sınaq qarşısında qoyur: məhəbbətə əyləncə kimi baxmamaq, Şirinlə bərabər olduğu və baş-başa qaldığı anları adi eyş-işrət məqamlarından fərqləndirməyi bacarmaq. Bu sınaqdan layiqincə çıxmaq Xosrov üçün heç də asan başa gəlmir. Xosrov əsl aşiq mərtəbəsinə bir az əvvəl xatırlatdığımız üzüdönüklük, etibarsızlıq mərhələsindən keçə-keçə, həmin mərhələnin sarsıntısını yaşaya-yaşaya, "Bircə günahım var, o da ki, vəfa" (1, 249) şəklində öz səhvini etiraf edə-edə gəlib çatır. Xosrovun keçib gəldiyi yol Şirinin qət etdiyi yolla müqayisədə təzadlarla daha çox doludur: Fitnə-fəsad törədib hakimiyyəti ələ keçirən Bəhram Çubin, söz yox ki, Xosrova düşməndir. Və Xosrov bu düşmənə qarşı vuruşub öz hakimiyyətini yenidən bərpa edə bilir. Maraqlı burasıdır ki, bir müddət sonra Bəhram Çubinin ölüm xəbərini eşidərkən Xosrov ona üç gün yas saxlayır (1, 166). Xosrovun təzadlı hərəkətlərinə başqa misal: Xosrov Fərhad adlı yenilməz bir cavanın Şirinə aşiq olduğunu eşidəndə bu xəbərdən həm kədərlənir, həm də sevinir. Sevinir ki, Şirinin məhəbbətinə mübtəla olmaqda özünə bir "həmrah" tapıb (1, 191). Xosrov bir yandan məkr işlədib Fərhadın ölümünə bais olur, başqa bir yandan Fərhadın ölümünə ürəkdən acıyır (1, 211). Xosrovun ziddiyyətli təbiəti öz ifadəsini bu cür hərəkət və davranışların təsvirində tapdığı kimi, duyğu və düşüncələrin əhatəli qələmə alınmasında da tapır. Xosrovun atdığı addımlar kimi, Xosrovun duyğu və düşüncələri də üz-üzə, qarşı-qarşıya dayanıb dialoji məzmun və mahiyyətdə ortaya çıxır. Yeri gəlmişkən qeyd edək ki, bədii əksetdirmə forması kimi dialoqun Nizami Gəncəvi yaradıcılığında xüsusi yer tutmasına ədəbiyyatşünaslar heç də biganə qalmayıblar. "Xəmsə"nin intibah problem-

lərinə ayrıca monoqrafiya həsr edən görkəmli ədəbiyyatşünas Arif Hacıyev həmin monoqrafiyada Nizami dialoqlarının müxtəlif tiplərini nəzərdən keçirir: Ayrı-ayrı fərdlər (kərpickəsən kişi və şahzadə, Xosrov və Fərhad, Xosrov və Şirin, Bəhram və Fitnə…) arasında dialoq; kollektiv şəkildə söhbətmüzakirə (İskəndərin yanında məclis əhli tərəfindən müxtəlif sənət sahələrinin müzakirəsi); fəlsəfi dialoq (Xosrovla Büzürgümidin, İskəndərlə Sokratın söhbəti. 4, 251-255). Arif Hacıyevin "Xəmsə" üzrə araşdırdığı bu dialoq tipəri cərgəsinə, heç şübhəsiz, daxili dialoq tipini də əlavə etmək lazımdır. Daxili dialoq "Xəmsə"də baş qəhrəmanların, ilk növbədə isə Xosrovun xarakterindəki ikiləşməni daha dərindən duymağa kömək edən bir vasitədir. Xosrovun daxili dialoqlarında iki obrazın qarşı-qarşıya dayandığının şahidi oluruq – özündən razı hökmdar və ürəkdən sevən aşiq:

Başımda fırlansa dəyirman daşı,
Şirindir könlümün yenə sirdaşı.
…Şirin söhbətində səbr etmək gərək,
Aldanma şirinə körpə uşaqtək.
… Səbr eyləyəm gərək, doğru yol budur,
Arvada alçalmaq arvadlıq olur.
Kişi arvadsifət olmasın gərək,
Arvadçün ağlamaz kişi arvadtək (1, 231).

Şirini könlünün həmdəmi bilsə də, Xosrov candan əziz tutduğu həmdəmə tərəf addım atmağı özünə sığışdırmır. Halbuki xronoloji ardıcıllıq baxımından bundan əvvəl gələn daxili dialoqların birində hökmdar Xosrovun aşiq Xosrovla ortaq məxrəcə gəlməyə can atdığının şahidi oluruq:

Gah deyirdi: Nədir istəyin, ürək!
Şahlıq, ya aşiqlik, cavab ver görək?
Hökumət eşq ilə uymaz heç zaman,
Gərək birisindən yapışa insan (1, 151).

Daxili dialoqun bu yerində hökmdar Xosrovun aşiq Xosrovla eyni fikrə gəlməsindən danışmaq çətindir. Dialoq davam edir və tərəflər, axır ki, dil tapa və ortaq məxrəcə gələ bilirlər:

Hər ikisi olsa – həm şahlıq, həm yar,
Ürək də şahlıqdan bir təzzət alar.
Bəxtim yüz ölkəni ver desə, yenə,
Verərəm yarımın bircə telinə (1, 151).

Hökmdar Xosrovun daxilində baş qaldıran ikinci səs (aşiq Xosrovun səsi) həm də Şirinin səsi kimi başa düşülməlidir. Müğənni Nəkisanın dili ilə Xosrova "Şahlıqdan danışma, eşqi et şüar" (1, 298) deyən Şirin eşqə münasibətdə özünün dəyişməz mövqeyi ilə Xosrova əsaslı təsir göstərir və daxili dialoqlarda Xosrovun tərəf-müqabilinə çevrilir. Özü ilə danışan Xosrov həm də xəyalən Şirinlə danışmış olur. Özü ilə mübahisə edən Xosrov həm də xəyalən Şirinlə mübahisə etmiş olur. Bütün bu mübahisə və münaqişələr Xosrovun mənəvi təkamül yolu keçib həqiqi aşiqə çevrilməsində mühüm rol oynayır.

## QAYNAQLAR

1. Gəncəvi N. Xosrov və Şirin. Tərcümə edəni Rəsul Rza. Bakı, Lider Nəşriyyat, 2004

2. Hacı S. Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı V-IX məqalələrin şərhi. 10 kitabda, 7-ci kitab. Bakı, Nafta-Press, 2014

3. Araslı H. Ölməz məhəbbət dastanı // Gəncəvi N. Xosrov və Şirin. Bakı, Lider Nəşriyyat, 2004, s.3-20

4. Гаджиев А. Ренессансный мир "Хамсе" Низами Гянджави. Баку, Мутарджим, 2000

# DİLİMİZ, NİTQİMİZ VƏ QAYĞILARIMIZ

Dilimizin ifadə imkanlarına söz ola bilməz. Dünyanın ən qəliz mətləblərini bu dildə ifadə etmək, əlbəttə ki, mümkündür. Elmin hər hansı sahəsindəki yeni və mürəkkəb bir mətləbi oxucuya çatdırmağa çətinlik çəkiriksə, bunun günahı dildə yox, özümüzdədir. Özümüzün bu yerdə həqiqətən günahkar olmağımıza inanmaq üçün çox da uzağa getməyib Azərbaycan dili ilə eyni dil qrupuna mənsub olan Türkiyə türkcəsini xatırlatmaq kifayətdir. Osmanlı imperiyası dağılandan sonra Avropanın təzyiqləri qarşısında duruş gətirən və dövlət müstəqilliyini qoruyub saxlamağı bacaran Türkiyə torpaq uğrunda necə mücadilə apardısa, dil uğrunda da o cür mücadiləyə başladı. Türkiyənin dil savaşında başlıca məqam çoxdan başlamış ərəb-fars və yenicə başlamış ingilis-fransız dil əsarətindən yaxa qurtarmaq, Türkiyə türkcəsini elmin bütün sahələrində sınaqan çıxarmaq və püxtələşdirmək idi. Bu yolda, əlbəttə, müəyyən səhvlər də buraxıldı, amma ümumi nəticə ana dilinin xeyrinə oldu – Türkiyə türkcəsi fəlsəfə, psixologiya, estetika, riyaziyyat, kibernetika, fizika, kimya və s. kimi elm sahələrində ardıcıl işlənə-işlənə elmi üsluba xas ifadə imkanlarını ölçüyə gəlməz dərəcədə zənginləşdirdi. Əgər belədirsə, onda Türkiyə nümunəsi də göstərir ki, ifadə imkanları geniş olan dilin daha da inkişaf etdirilib zənginləşdirilməsi normal və zəruri bir prosesdir. Bu zəruri prosesə sovet dövründə bizim biganə qalmağımızı söyləmək, söz yox ki, doğru olmazdı. Sovet dövründə fəlsəfə, psixologiya, estetika, riyaziyyat, kibernetika, fizika, kimya… kimi elm sahələrinə aid dərsliklərimiz yazılıbsa, çox da inkarçı mövqe tutmağa dəyməz. Və biz də inkarçı mövqe tutmuruq. Sadəcə olaraq bildirmək istəyirik ki, müxtəlif sahələrə aid elmi ədəbiyyatı rus dilində asanca tapıb oxuyacağımıza əmin olma-

ğımız sovet dövründə bizi arxayın salıb, tutalım, ana dilində fəlsəfə və kibernetika sahəsində onlarla kitab yazıb ortaya çıxarmaq əvəzinə, biz cəmi-cümlətanı beş-on kitab yazıb ortaya çıxarmışıq. Beş-on ala-çiy kitabla fəlsəfəni və kibernetikanı Azərbaycan dilinə doğmalaşdırmaq, Azərbaycan dilinin canına hopdurmaq, təbii ki, mümkün olmayıb. Sovet dövründə bədii ədəbiyyatımız Azərbaycan dilində yazıldığına, qəzet və jurnallarımız Azərbaycan dilində çıxdığına, radio-televiziyamız ana dilində danışdığına görə funksional üslublar içərisində bədii üslub və publisistik üslub daha çox inkişaf etmək imkanı qazanıb. Təəssüf ki, bu gün dil qayğılarından bəhs edərkən nöqsanların yol verildiyi sahələrdən biri kimi mətbuat orqanlarının, radio və televiziyanın adı çəkilir və bu sahə dil baxımından haqlı olaraq tənqid olunur. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" ölkə başçısının sərəncamında deyilir: "Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi, bir qayda olaraq, yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir". Bu gün publisistik üslubda, yəni ən inkişaf etmiş üslublardan birində belə qarşıya çətinliklərin çıxmasından danışırıqsa, bu, o deməkdir ki, digər üslublarda görüləsi işlərimiz hədsiz dərəcədə çoxdur. Əlbəttə, həcmcə o qədər də böyük olmayan bir yazıda dilimizin funksional üslubları ilə bağlı görüləsi işlərdən xüsusi söhbət açmaq fikrimiz yoxdur. Bu yazıda başlıca niyyətimiz ictimai fikrin ifadəsi olmaqla

həm bədii, həm də elmi üslubdan müəyyən cəhətləri götürüb özündə birləşdirən publisistikanın, ən çox isə radio-televiziya jurnalistikasının dillə bağlı qayğılarından bəhs etməkdir.

Müstəqillik şəraitində əl-qolu müqayisə olunmayacaq dərəcədə açılan və yaradıcılıq axtarışları aparmağa geniş meydan tapan jurnalistikamız dilin səlisliyi, üslubun əlvanlığı baxımından bu gün necə görünür, necə təsir bağışlayır? Suala nihilistcəsinə cavab vermək və bu gün mətbuatımızda, radio-televiziyamızda çalışan istedadlı jurnalistlərin əməyini qiymətləndirməmək insafsızlıq olardı. Bəli, istedadlı jurnalistlərimiz var və onlar bir tərəfdən hadisələrə ayıq-sayıq yanaşmaq bacarığı ilə fərqlənirlərsə, digər tərəfdən hadisələri yeni forma və üsullarla təhlil etmə səriştəsi ilə fərqlənirlər. Çağdaş jurnalistikamızda imzalar içində imzası olan qələm sahiblərinə dərin ehtiramımızı bildirib onu da qeyd etməyi vacib bilirik ki, bugünkü qəzet-jurnal və radio-televiziya bolluğunda öz işinin öhdəsindən layiqincə gələ bilməyən jurnalistlərlə də tez-tez qarşılaşırıq. İstedadlı jurnalistlərin dil və üslub xeyrinə bəhrələndiyi sərbəstlik imkanından, çox təəssüf ki, naşı jurnalistlər bir çox hallarda ümumi işin ziyanına istifadə edirlər. Ziyanlı saydığımız cəhətlərdən biri ağına-bozuna baxmadan ədəbi dil normalarının müxtəlif səviyyələrdə pozulmasıdır. Radio və televiziya verilişlərində ədəbi dil normalarının fonetik səviyyədə pozulması ən sıravi dinləyici və tamaşaçının belə diqqətindən yayınmır. Əlbəttə, heç kim radio və televiziya jurnalistindən bütün sözlərin yazıldığı kimi tələffüz olunmasını tələb etmək fikrinə düşməz. Tələffüz qaydalarını əks etdirən orfoepiya (və yaxud orfofoniya) lüğətini hazırlamağı (dilçilərimizin görəcəyi son dərəcə vacib bir işi) jurnalistlərin öhdəsinə buraxmaq da heç kimin ağlına gəlməz. Dinləyici və tamaşaçının jurnalistdən tələffüz məsələsi ilə bağlı umduğu sadə bir şeydir: məhəlliçiliyə, əyalətçiliyə yol

verməmək. AMEA Nəsimi adına Dilçilik İnstitutu əməkdaşları, filologiya üzrə fəlsəfə doktorları Aytən Bəylərova və Təranə Şükürovanın Azərbaycan Televiziyası üzrə apardığı monitorinqin nəticələrinə əsaslansaq, efirdə çoxlu dil xətalarına, o cümlədən tələffüz pozuntularına yol verildiyini təsdiq etmiş olarıq. Tutalım, "getdik", "dayanırıq" sözlərini, "sabahınız xeyir" cümləsini efirdə düzgün tələffüz etmək lazımdırsa, bundan ötrü orfoepiya lüğətinə baxmağa elə bir ehtiyac yoxdur. Sadəcə nəzərə alınmalıdır ki, jurnalistin çox sərbəstcəsinə efirdən səsləndirdiyi "getdük", "dəyanırıx", "sabohuvuz xeyir" tələffüz forması məhz məhəlliçilik, əyalətçilik əlamətidir. Hər hansı bölgənin dialekt və şivəsinə məxsus tələffüz şəklini efirə gətirmək heç də jurnalistin güman etdiyi effekti vermir. "Sabohuvuz xeyir" deməklə təbiilik effekti yaratmaq istəyən jurnalist əslində tələffüz pərakəndəliyinə və qarışıqlığına rəvac vermiş olur. Halbuki dilin təbiiliyi kimi vacibdən vacib və zəruri bir şərtə əməl etməyin bədii və publisistik üslublarda çoxdan sınaqdan çıxmış yolu var. Bu yol heç də hər hansı bölgəyə məxsus danışıq tərzinə əsaslanmaqdan yox, ümumxalq danışıq tərzinə əsaslanmaqdan, şifahi nitqdə normativliyi gözləməkdən keçir. Şifahi nitqdə ədəbi dilə məxsus normativliyi gözləməyin nə qədər mühüm məsələ olmasını xalq ədəbiyyatı, xüsusən bu ədəbiyyatın nəzmlə olan qolu açıq-aydın göstərir. Məgər xalq şeiri örnəklərimizin hərəsi bir bölgənin ləhcəsindəmi bizə gəlib çatıb? Masallının Halay məclislərində, Zaqatalanın tənbur yarışmalarında, Naxçıvanın Haxışta və Gülümey mərasimlərində bayatılar məgər ləhcədəmi oxunur? Eyni bayatının ayrı-ayrı regionlarda Masallı-Lənkəran, Şəki-Zaqatala və yaxud Naxçıvan-Təbriz ləhcəsində oxunması səciyyəvi haldırmı? Əlbəttə, yox. Orfoqrafiya və orfoepiya lüğəti haqda heç bir təsəvvürü olmayan şifahi söz ifaçılarında belə normativliyi mümkün qədər qoruyub

saxlamaq bir ənənəyə çevrilib. Belə bir ənənənin bugünkü ədəbi dilimiz üçün nə qədər mühüm əhəmiyyət daşımasına diqqəti yönəldən görkəmli ədəbiyyatşünas Məmməd Cəfər Cəfərov 1976-cı ildə yazdığı "Dil və müasirlik" məqaləsində deyir: "Necə olmuşdur ki, dilin qayda-qanunları, qrammatik quruluşu, fonetik-morfoloji xüsusiyyətləri, tələffüz formaları nəzəri cəhətdən, Azərbaycan dilçilik elmi baxımından işlənmədiyi dövrlərdə belə nəinki ədəbi-bədii dilin yazı qolunda, ondan daha artıq bədii dilin şifahi qolunda da təbii yol ilə belə bir normalaşma, belə bir dil ümumiliyinə doğru səy (ləhcə, dialekt, şivə təsirinə qapılmadan ümumişlək söz və ifadələri ön plana çəkmək səyi) əmələ gəlmiş, çox sonralar Azərbaycan dilçiliyi elmində əsaslandırılan qanunların, normaların çoxu dəqiq gözlənilmişdir?

Necə olmuşdur ki, nəinki ədəbi-bədii dilin yazılı qolunu davam etdirən klassiklərimiz, eləcə də zəngin şifahi poetik irsin yaradıcıları, həm də əksəriyyəti savadsız olan, məktəb, mədrəsə görməyən aşıqlarımız, dilin bütün gözəl xüsusiyyətlərini, ritmini, ahəngini, musiqisini, səlisliyini, estetik cəhətini ifadə edən bayatılarımızı qoşan savadsız ana-bacılarımız ötən əsrlərdə heç kitabda yazılmayan doğma dil normalarını belə diqqətlə gözləmişlər?

Bu təbii normalaşma prinsipi haradan götürülmüşdür?

Şübhəsiz ki, doğma dilin öz təbiətindən, xüsusi sistemindən və dil ümumiliyini gözləmək qayğısından!" Məmməd Cəfər müəllimin sözünə qüvvət verib qeyd edək ki, şifahi şəkildə yaranıb şifahi şəkildə nəsildən-nəsilə ötürülən xalq ədəbiyyatında hər hansı nümunəni cilalayıb təkmilləşdirmə qanunauyğunluğu, heç şübhəsiz, dil amilini də əhatə edir. Folklor nümunəsi məzmun və formaca cilalanarkən həm də "dil ümumiliyi" baxımından cilalanıb ortaya çıxır. Belə olmasaydı, Təbrizdə, Şəkidə, Şirvanda yaranmış bayatıların dialekt və şivə

sözləri üstündə, yerli tələffüz formaları əsasında qafiyələnməsi geniş miqyas alardı və o bayatıları aydın başa düşməkdən yana tez-tez dialektoloji lüğətə baxmalı olardıq.

Məmməd Cəfər müəllimin bir az əvvəl xatırlatdığımız məqaləsində, konkret olaraq səhnəmiz və efirimiz üçün nəzərdə tutulan, səhnəmiz və efirimizdə tələffüz qaydalarını pozmağın yolverilməz olmasını böyük narahatlıq hissi ilə ifadə edən mülahizələr də vardır: "Nə yazıçı, nə aktyor personajın dilinə *gəlibdi* əvəzinə *gəlitdi, qorxuram* əvəzinə *qorxeyrəm, götürsək* əvəzinə *götürsoq, məşhur* əvəzinə *manşır, ey* əvəzinə *ayə, budur ha* əvəzinə *budüva* kimi yanlış tələffüz edilən sözlər verməklə tip yarada bilməz. Tarixdə böyük söz ustalarından, böyük aktyorlardan heç biri nə yazıda, nə şifahi nitqdə belə yol tutmamışdır. Elə güman etmək olmaz ki, söz sənətində və ya aktyor sənətində tipi "loru" dildə danışdırmaq xəlqilik, həyatilik, ədəbi dildə danışdırmaq isə qeyri-xəlqilik, qeyri-həyatilikdir". Məmməd Cəfər müəllimin bu mülahizələrində ifadə olunan nigaranlıq və narahatlıq tələffüz normalarının səhnədə və efirdə pozulmasına bəzən yazıçıların, rejissorların belə rəvac verməsi ilə bağlıdır. Televiziya verilişində aparıcının "sabohuvuz xeyir" deməsi səhər-səhər adamda xoş ovqat əvəzinə dilxorçuluq yaradırsa, səhnədə və efirdə tələffüz pərakəndəliyi və qarışıqlığının arxasında yazıçı və rejissorlar dayanırsa, təbii ki, bu vəziyyət adamı ciddi düşünməyə vadar edir. Düşünürsən ki, otuz-qırx il bundan qabaq efirdə ara-sıra qarşılaşdığımız məhəlli tələffüz faktlarının bu gün efirdə ayaq açıb yeriməsi nitq mədəniyyəti ilə bağlı nizamlayıcı tədbirlərin qaçılmazlığı zərurətini ortaya çıxarır.

Ayrı-ayrı bölgələrə aid tələffüz hallarının efirə gətirilməsi belə təsəvvür yarada bilər ki, radio və televiziyamızda dialekt və şivə sözləri çox işlənir. Amma faktlar bir az başqa şey deyir. Faktlar dialekt və şivə sözləri ilə müqayisədə

varvarizmlərdən radio və televiziya jurnalistlərimizin daha çox istifadə etdiklərini göstərməkdədir. Jurnalist efirdən kiminsə haqqında danışaraq dinləyicilərə və yaxud tamaşaçılara belə deyir: “O, katiqarik olaraq bildirdi ki, mənim bu işdən xəbərim yoxdu”. “Qəti” sözünün əvəzinə “kateqorik” (əslində “категорически”) sözünü işlətməyin təsadüfi olmamasını, tutalım, efirdə “qapıçı” əvəzinə “qolkiper”, “oyundan kənar” əvəzinə “ofsayt”, “on bir metrlik cərimə” əvəzinə “penalti” işlədilməsi kimi çoxlu sayda misallar da göstərir.

Bəs efirimizdə Türkiyə türkcəsindən götürülmüş sözlərin işlənmə vəziyyəti necədir? Türkiyədə dilin saflığı uğrunda mübarizənin bəhrəsi olaraq meydana çıxan *özəl, özəlləşdirmə, yetərsay, dönəm, önəm, öndər, durum, gündəm, olay, seçim, açıqlama, çağdaş, yayım, sərgiləmək, bilgi, toplu, anlam, yaşam, qaynaq, örnək, soy, soyad, soydaş, soyqırım* və s. kimi sözləri bizim də işlətməyimiz yerli-yerindədir. Amma Türkiyə türkcəsindən götürülüb yersiz olaraq işlədilən söz və ifadələrə də rast gəlmək mümkündür və belə hallar son vaxtlar keçirilən dil müzakirələrində araşdırma mövzularından biridir. Təsadüfi deyil ki, keçən ilin oktyabr ayında keçirilən konfrans – “Azərbaycan ədəbi dilinin qorunmasında və inkişafında kütləvi informasiya vasitələrinin rolu”na həsr olunan yüksək səviyyəli tədbir də həmin mövzuya biganə qalmır: konfransdakı çıxışında Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov kütləvi informasiya vasitələrinin dillə bağlı nöqsanları sırasında bir nöqsanı da Türkiyə türkcəsindən yersiz (məhz yersiz!) istifadə hallarında görür. Əli Həsənovun və digər məruzəçilərin konfransda bu məsələyə xüsusi həssaslıqla yanaşması Azərbaycan-Türkiyə qardaşlığı və qarşılıqlı əlaqələrinin sağlam zəmin üzərində qurulması amalından doğur. Belə hesab edilir ki, istər söz, istər söz birləşməsi, istərsə də cümlə

səviyyəsində yamsılama hallarını dilin inkişafına kömək edən amil kimi qələmə vermək doğru-düzgün deyil. Fərqli görünmək naminə telejurnalistin yol verdiyi leksik yamsılamaya "peşində olmaq" ifadəsi səciyyəvi misal ola bilər. Telejurnalist "Biz bu işin arxasındayıq" yerinə "Biz bu işin peşindəyik" deyirsə, buna yamsılamadan başqa bir ad vermək çətindir. Əgər bir jurnalist "Aqşin Turan təzədən birliyin lideri oldu" əvəzinə, "Aqşin Turan təzədən birliyin başına döndü" deyirsə, "başına dönməyin" bizdə "qurban olmaq" mənası daşıdığını unudursa, bu hal yamsılamanın komik bir nümunəsidir. Belə nümunələrə qəzet və jurnallarımızda da rast gəlirik. Azərbaycan Dillər Universiteti Azərbaycan ədəbiyyatı kafedrasının müəllimi Nərgiz Qurbanlının müşahidələrinə əsaslanıb qeyd edə bilərik ki, bugünkü mətbuatımızda "qarantiya" yerinə "inanca", "qalstuk" yerinə "boyunbağı", "transport" yerinə "taşıt" sözlərinin işlənməsi yamsılama təsiri bağışlayan məqamlar sırasına daxildir. Bu gün Türkiyə türkcəsində "sıxıntı" yerinə "depressiya", "sarsıntı" yerinə "stress", "üz-üzə" yerinə "direkt", "görüş" yerinə "randevu" işlənirsə, Türkiyədə dilçi həmkarlarımız Avropa dillərinin təsiri ilə Türkiyə türkcəsində qrammatik qaydaların belə pozulması hallarını həyəcanla diqqətə çatdırırlarsa, bu o deməkdir ki, alınma sözlərə münasibətdə yüz ölçüb, bir biçməliyik, söz aldığımız tərəfin dil islahatında yaxşını mənimsəməli, pisdən ibrət götürməliyik. Türkiyənin tanınmış dilçisi Şükrü Haluk Akalın yazır: "Xarici dillərin Türkiyə türkcəsinə təsirinin artması türkcənin lüğət tərkibinə mənfi təsir edir. "Divan Hoteli" demək yerinə "Hotel Divan" deyilməsi Türkiyə türkcəsinin söz qanunauyğunluqlarına da təsir edir. Son dövrlərdə həmçinin tərcümə yolu ilə bir çox uyğunsuzluqlar dilə daxil edilməkdədir. Belə uyğunsuzluqlardan biri belədir: İstifadə edilən sözlər türk mənşəli olsa da, söz sırası Türkiyə türkcəsinin qanunlarına

zidd şəkildədir. Düzgün olmayan bu cür istifadə halları get-gedə artmaqdadır: "Çay içmək", "qəhvə içmək" yerinə "çay almaq", "qəhvə almaq" kimi ifadələri misal olaraq göstərə bilərik. Türk dilinin quruluşuna, məntiqinə zidd olan bu cür istifadə hallarından xilas olmaq lazımdır". Başqa dillərlə qarşılıqlı əlaqələr sahəsində Türkiyə türkcəsinin üzləşdiyi nöqsanları təkrar etmək aradan qaldırılması çətin olan fəsadlar törədə bilər.

Acınacaqlı haldır ki, bizdə yamsılama faktları bəzən sintaktik səviyyədə özünü göstərir və başqa bir dilin təsiri ilə cümlə yabançı şəkildə qurulur. Feli sifət və feli sifət tərkibinin bir qırağa qoyulub, rus dilinin təsiri ilə "hansı ki" bağlayıcı sözündən tez-tez istifadə edilməsi heç də təqdir olunası fakt deyil: "Bu məsələ, hansı ki, o haqda çox danışmışıq, indi hamını narahat edir". Efirdə baş alıb gedən bu tipli cümlələr, heç şübhəsiz, dilimizin tələbinə görə feli sifət tərkibi əsasında qurulmalıdır: "Haqqında çox danışdığımız bu məsələ indi hamını narahat edir". Sintaktik səviyyədə yamsılama halı rus dilindəki "не смотря" ifadəsinin təsiri ilə də özünü tez-tez göstərməkdədir: "Baxmayaraq ki, qışdı, amma havalar xoş keçir". Bu quruluşda cümlələrə bəzən ciddi qələm sahiblərinin də dilində və yazı-pozusunda rast gəldikcə narahatlıq daha da artmağa başlayır. Düşünürsən ki, bu cümlə tipi bu gedişlə ədəbi dildə özünə çox rahatca yer tapacaq. Və heç kimin ağlına gəlməyəcək ki, "baxmayaraq" sözü ilə başladığımız cümlə ana dilimizdə belə olmalı imiş: "Qış olsa da, havalar xoş keçir". Yaxud belə: "Qış olmasına baxmayaraq, havalar xoş keçir".

Radio və televiziyada veriliş aparan jurnalistlərin şifahi nitqində sintaktik normanın ən çox pozulduğu məqamlardan biri uzlaşma əlaqəsinin düzgün qurulmaması ilə bağlıdır: "Məktəb kollektivi yığışıb bu məsələni ətraflı müzakirə et-

dilər”. Bu cümlədə *-lər* şəkilçisindən başqa hər şey yerindədir. Sual oluna bilər: Bir şəkilçiyə görə bu cümlədən xüsusi danışıb narazılıq etməyə dəyərmi? Əlbəttə, dəyər. Ona görə ki, bu tipdə cümlə quruluşu bir-iki jurnalistin yox, neçə-neçə jurnalistin nitqində özünü göstərir və nəticədə “süjetin bir-iki görüntüləri”, “bir qrup naməlum şəxslər”, “belə bir oyunlar” və s. kimi əcaib quruluşlu ifadələr efirdən səslənməkdə davam edir. Əcaiblik ondadır ki, jurnalist “məktəb kollektivi” ifadəsi ilə başlanan cümlənin “müzakirə etdi” şəklində bitməli olduğunu, “bir” və yaxud “iki” sayından sonra gələn “görüntü”, “şəxs”, “oyun” kimi sözləri cəm şəkilçisi ilə işlətməyin düzgün olmadığını nəzərə almır.

Mətbuatda, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması ilə bağlı misalların sayını xeyli artırmaq, yol verilmiş dil xətalarından daha ətraflı danışmaq olar. Buna ehtiyac görmədən qeyd etmək istəyirik ki, qloballaşma şəraitində Azərbaycan dilindən zamanın tələblərinə uyğun şəkildə istifadə olunması ilə bağlı xüsusi Dövlət Proqramının qəbul edilməsi, eləcə də bu yaxınlarda ölkə başçısının sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi ana dili sahəsində dövlət əhəmiyyətli tədbirlərin mərkəzləşmiş qaydada xüsusi ardıcıllıqla həyata keçiriləcəyindən xəbər verir. Orfoqrafiya lüğətinin təkmilləşdirilib nəşr edilməsi, orfoepiya lüğətinin hazırlanması, müxtəlif elm sahələrinə aid terminoloji sözlüklərin mərkəzləşmiş qaydada tərtib edilməsi, orta və ali məktəb dərsliklərinin dil baxımından ciddi şəkildə səliqəyə salınması, radio-televiziya kanalları və mətbuat orqanlarında ana dilinin hansı şəkildə işlənməsini üzə çıxarmaq üçün monitorinqlərin mütəmadi keçirilməsi və həmin monitorinqlərin nəticələrinin əsaslı olaraq müzakirə edilməsi və s. görüləsi vacib işlərdəndir.

# İLK SİSTEMLİ DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

Bu yazıda akademik İsa Həbibbəylinin bir ictimai xadim, elm təşkilatçısı və ədəbiyyatşünas-alim kimi yaradıcılıq faktları ilə zəngin olan, gərgin və genişmiqyaslı fəaliyyətinin əhəmiyyətli bir səhifəsindən söz açmağı nəzərdə tuturam. İsa Həbibbəylinin gərgin və genişmiqyaslı fəaliyyəti haqda ümumi təsəvvür yaransın deyə xatırladım ki, millət vəkili İsa Həbibbəyli Milli Məclisin Elm və təhsil komitəsinin sədridir, akademik İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktorudur. İsa Həbibbəylinin necə qaynar təbiət və nə qədər böyük məsuliyyət sahibi olduğunu bilənlər bu insanın gün ərzində hansı əzmkarlığa qatlaşdığını təsəvvür etməkdə yəqin ki, çətinlik çəkməzlər. Bu əzmkarlığın hesabınadır ki, İsa Həbibbəyli zəkası qeyd etdiyim fəaliyyət sahələrinin hər birində öz bəhrəsini eyni dərəcədə verə bilir.

Ədəbiyyatşünaslıq sahəsindəki ardıcıl, sistemli və məhsuldar fəaliyyətindən danışsam, İsa Həbibbəylinin son vaxtlar yazıb çap etdirdiyi, konseptual səciyyə daşıyan “Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri” monoqrafiyasını xüsusi qeyd etməliyəm. Çünki bu tədqiqat əsəri ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixçiliyi və ədəbi tənqid istiqamətlərini üzvi şəkildə birləşdirən İsa Həbibbəyli yaradıcılığının sıradan bir faktı yox, bu vaxta qədərki neçə-neçə elmi məqalədən və neçə-neçə sanballı monoqrafiyadan keçib gələn uğurlu bir nəticəsidir. Belə bir elmi uğura gətirib çıxaran amillər sırasında İsa Həbibbəylinin bədii mətnlə üz-üzə qalmaq, mətnin görünən və görünməyən tərəflərini üzə çıxarmaq, mətn müəllifinin ədəbi prosesdəki yerini müəyyənləşdirmək və ənənələrə hansı tellərlə bağlanmasını nişan vermək sa-

həsindəki xidmətləri, heç şübhəsiz, mühüm roy oynayır. Mətnə, ədəbi hadisəyə münasibətdə diqqəti xüsusi olaraq cəlb edən cəhət ondan ibarətdir ki, İsa Həbibbəyli klassik və çağdaş ədəbiyyatımızın müxtəlif üslublu nümayəndələrindən özünəməxsus bir üslubda – İsa Həbibbəyli üslubunda bəhs edir. "Üslub insanın özüdür" kəlamını yada salıb İsa Həbibbəyli üslubundan İsa Həbibbəyli xarakterinin ifadə forması kimi danışmaq lazım gəlir. Professor Yusif Seyidov dərin rəğbət hissi ilə haqqında ayrıca monoqrafiya yazdığı İsa Həbibbəylinin xarakterindəki belə bir cəhəti xüsusi olaraq vurğulayır: "Ümumən, hər bir tədqiqatçı üçün vacib keyfiyyətdir ki, həyatda, insanlarda işıqlı cəhətləri görə bilsin, mənfiliklər üzərində müsbətin gücünü və qələbəsini görsün və göstərə bilsin. İsa Həbibbəylinin bütün yaradıcılığı bu amal üzərində qurulubdur". Hər hansı bir sənətkardan, hər hansı bir ədəbi hadisədən bəhs edərkən İsa Həbibbəylinin bir ədəbiyyatşünas kimi üslubu məhz "müsbətin gücü"nü göstərmək üstündə köklənir. Müsbəti və işıqlı cəhətləri daha qabarıq şəkildə göstərmək amalı İsa Həbibbəyli üslubunda idealın öz plana çıxarılması ilə qırılmaz surətdə bağlı olur. Ayrı-ayrı sənətkarlardan, bütövlükdə ədəbiyyatımızın ümumi istiqamətlərindən danışarkən İsa Həbibbəylinin təhlil hədəfləri sırasında milli ideallar birinci sırada dayanır. Məsələn, Azərbaycan ədəbiyyatını öz oxucusuna İsa Həbibbəyli bu tərzdə təqdim edir: "Azərbaycan xalqının milli-mənəvi dəyərləri, adət-ənənəsi, mənəviyyatı, mübarizəsi və idealları bu ədəbiyyatın ana xəttini, əsas qayəsini təşkil edir. Bu – böyük ənənələri olan, Azərbaycan xalqının milli varlığını əks etdirən və onu dünyaya təqdim edən ədəbiyyatdır. Bu–Azərbaycan xalqının özünəməxsusluğunun ədəbi kimliyidir. Bu – ümummilli idealları əsrdən-əsrə yaşadan və inkişaf etdirən böyük ədəbiyyatdır. Bu – Azərbaycançılıq idealının ədəbi manifestidir". İsa Həbibbəyli üslubunda idealı ön plana çəkmək ədəbiyyatdakı

idealları xatırlatmaqla məhdudlaşmır və ədəbi faktları qiymətləndirməyin tərzində də özünü göstərir. İsa Həbibbəylinin nəzərində "Kitabi-Dədə Qorqud" dünya epos sənətinin şah əsəridir. İsa Həbibbəylinin nəzərində dünya ədəbiyyatında "İsgəndərnamə" mövzusunda ən mükəmməl bədii əsəri dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi yaratmışdır. İdealı ön plana çıxarmaq İsa Həbibbəyli üslubuna poetik ahəngdarlıq gətirir və bu, obrazlı-analitik mühakimələrlə danışmaq şəklində özünü büruzə verir: "Molla Pənah Vaqif Azərbaycan ədəbi-ictimai fikrində Məhəmməd Füzulidən sonrakı, Mirzə Fətəli Axundzadədən əvvəlki böyük ədəbiyyatın fərqli zirvəsidir... "Durnalar" şeiri mahiyyət etibarilə realizmi Azərbaycan ədəbiyyatına gətirən durna qatarı idi". Başqa misal: "Danabaş kəndinin əhvalatları" ilk addımlarını atan Azərbaycan tənqidi realizminin möhtəşəm müqəddiməsidir. Cəlil Məmmədquluzadənin məşhur "Poçt qutusu" hekayəsi milli tənqidi-realist ədəbiyyatın mükəmməl proqramıdır. "Poçt qutusu" hekayəsi ilə Azərbaycan realist tənqidi-satirik ədəbiyyat xəzinəsinin sehrli qutusu oxucuların üzünə açılmışdır. "Poçt qutusu" yeni epoxada, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında tənqidi realizmin paroludur". İstər klassik ədəbiyyatdan, istərsə də çağdaş yazıçılarımızın yaradıcılığından söhbət açarkən İsa Həbibbəyli obrazlı tezis-mühakimələrə ətraflı elmi təhlillərdən sonra gəlib çıxır. Yuxarıda xatırlatdığım özünəməxsus qənaətlərin - "Dədə Qorqud", Nizami, Vaqif və Mirzə Cəlillə bağlı obrazlı-analitik fikirlərin hər biri müxtəlif dəlil və sübutlara əsaslanan dərin elmi təhlil süzgəcindən keçib gəlir. Obrazlı-analitik ifadə tərzinin İsa Həbibbəyli nümunəsi əsərdən-əsərə təkmilləşib yeni-yeni çalarlar qazanır.

İlk elmi araşdırmalarını XX əsrin əvvəllərindəki ədəbiyyatımızın iki möhtəşəm cərəyanına – romantizm və tənqidi realizmə həsr edən və bu araşdırmaların nəticəsi olaraq "Ro-

mantik lirikanın imkanları", "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı monoqrafiyalar ortaya qoyan İsa Həbibbəyli elmi fəaliyyətinin ilk vaxtlarından etibarən çağdaş ədəbi prosesi daim diqqət mərkəzində saxlayıb, bu günün ədəbiyyatında özünü göstərən aparıcı təmayülləri ədəbi tənqid müstəvisində təhlil-təqdir predmetinə çevirib. İsa Həbibbəylinin Məmmədhüseyn Şəhriyar, Məmməd Araz, Çingiz Aytmatov, Sabir Rüstəmxanlı, Rəşad Məcid haqqında kitabları, Anar, Nəriman Həsənzadə, Elçin, Yusif və Vaqif Səmədoğlular, Kamal Abdulla, Zəlimxan Yaqub, İsa İsmayılzadə, Nurəngiz Gün, Rüstəm Behrudi, Yunus Oğuz, Əjdər Ol, Səyyad Aran və b. yazıçılar haqqında məqalələri onun görkəmli ədəbiyyatşünas-tənqidçi kimi fəaliyyətinin səciyyəvi göstəriciləridir. Ədəbi prosesi ardıcıl və sistemli izləməyin, ədəbi prosesdə müşahidə olunan məzmun, forma və üslub axtarışlarını vaxtaşırı ədəbi tənqid müstəvisində saf-çürük etməyin nəticəsidir ki, 2016-cı ildə İsa Həbibbəylinin həmmüəllifliyi və elmi redaktorluğu ilə 2 cilddən, 1880 səhifədən ibarət "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" adlı kitab ərsəyə gəlib çap olundu. Nəzəri məqalələr, icmallar və portret oçerkləri əsasında yazılmış bu kitabda İsa Həbibbəyli qələmindən çıxan yazılar yönverici, istiqamətləndirici funksiya daşıyır. Bu funksiya İsa Həbibbəyli tərəfindən yazılan nəzəri bölmələrdə özünü daha qabarıq şəkildə göstərir. Həmin bölmələr ayrı-ayrı mövzuların və janrların dinamikasını, yazıçıların forma axtarışlarını izləməyə, ədəbi təmayülləri və cərəyanları aşkar etməyə, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mərhələləri arasındakı hərəkət fərqini üzə çıxarmağa yaxından kömək edir. Mürəkkəbliyi ilə seçilən bir dövrün ədəbiyyatı haqda ümumi təsəvvür yaratmaqla, bu dövr ədəbiyyatının əsas konturlarını cızıb oxucuya təqdim etməklə nəzəri yazılar kitabın vahid bir orqanizmə çevrilməsində mühüm rol oynayır. Kita-

bın vahid orqanizmə çevrilməsinin başqa mühüm şərti çağdaş ədəbiyyatın özünü vahid orqanizm kimi görmək və məhz bu şəkildə təqdim edə bilməkdir. İsa Həbibbəyli yaradıcılığı üçün səciyyəvi olan müsbətin gücünü və işıqlı tərəflərini qabarıq şəkildə ifadə etmək amalı bu məqamda da öz təsirini göstərir. Həmin təsirin hesabınadır ki, vətəni vəsf etmək və cəmiyyətdəki nöqsanları tənqid etmək üsullarının eyni məsləkə bağlı olmasını iki mühüm istiqamət kimi sovet dövrü Azərbaycan ədəbiyyatında da görən İsa Həbibbəyli bu dövrün şeir, nəsr və dramaturgiyasına ümumi nəzər salarkən ədəbi irs və varislik məsələsinin ən həssas bir nöqtəsinə toxunmuş olur. Nöqtənin həssaslığı ondadır ki, sovet quruluşunu inkar edən ədəbiyyat bu quruluşu vəsf edən ədəbiyyatla eyni bir müstəvidə araşdırılmalı, ortaq məxrəc başqa bir yerdə yox, məhz inkarla təsdiq arasında axtarılmalıdır. Digər məsələlərdə olduğu kimi, bu həssas məsələdə də İsa Həbibbəyli bütöv ədəbiyyat konsepsiyasına əsaslanaraq ədəbiyyatın bir mərhələsini o biri mərhələsinə, bir nümayəndəsini başqa bir nümayəndəsinə qarşı qoymaq meylindən uzaq olur. Bütün mərhələləri və fərqli-fərqli təmayülləri ilə eyni bir ədəbiyyat – vahid Azərbaycan ədəbiyyatı! Məsələyə bu cür yanaşmağın nəticəsidir ki, sovet Azərbaycanını vəsf edən Səməd Vurğunla Azərbaycanda sovet sisteminin dağılması prosesində öz qələmi ilə iştirak edən şairlər (məsələn, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı) arasında üzvi varislik əlaqəsini görmək və göstərmək mümkün olur.

İsa Həbibbəylinin bilavasitə təşəbbüsü, həmmüəllifliyi və elmi redaktorluğu ilə çap olunan "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyi "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" əsərinin ortaya çıxmasına, söz yox ki, əsaslı təsir göstərdi. Digər müəlliflərlə birlikdə ədəbiyyatımızın müasir mərhələsi haqda dolğun elmi-

nəzəri təsəvvür yaradan İsa Həbibbəyli ədəbiyyatın dövrləşdirilməsi kimi son dərəcə aktual bir problem ətrafındakı neçə illik araşdırmalarını, nəhayət ki, keçən il yekunlaşdırdı və Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk sistemli dövrləşdirmə konsepsiyasını ortaya qoydu.

İrs və varislik məsələsinə son dərəcə həssaslıqla yanaşan İsa Həbibbəyli sistemli dövrləşdirmə konsepsiyasını işləyib hazırlayarkən bu sahədə özünəqədərki səmərəli elmi fikir və mülahizələrin iki əsas mənbəyi üzərində dayanır: a) müxtəlif vaxtlarda yazılmış ədəbiyyat tarixi kitabları; b) ədəbiyyatın dövrləşdirilməsi ilə bağlı elmi-nəzəri əsərlər. İlk sırada qeyd edilən mənbə müxtəlif təzkirələri, Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərindəki bir bölməni, Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabını, Abdulla Sur, İsmayıl Hikmət, Yusif Vəzir Çəmənzəminli, Əmin Abid, Salman Mümtaz, Fuad Köprülü, Bəkir Çobanzadə, Həmid Araslı, Feyzulla Qasımzadə, Cəfər Xəndan, Mir Cəlal Paşayev, Firidun Hüseynov, Əlyar Səfərli, Xəlil Yusifli, Bədirxan Əhmədov, Yaqub Babayev, Təyyar Salamoğlu və başqa müəlliflər, həmçinin müəlliflər kollektivi tərəfindən yazılmış ədəbiyyat tarixlərini əhatə edir. Müxtəlif vaxtlarda müxtəlif müəlliflərin qələmindən çıxan ədəbiyyat tarixlərində ədəbiyyatın hansı şəkildə və hansı prinsiplər əsasında təqdim edilməsi, təbii ki, dövrləşdirmə məsələsinə münasibətin əyani göstəricisidir. İsa Həbibbəyli nəzərdən keçirdiyi ədəbiyyat tarixlərində coğrafi, tarixi, ideoloji yanaşma, həmçinin ədəbi cərəyanlar üzrə təsnifat kimi mühüm istiqamətlərin əsas yer tutduğuna diqqəti yönəldir, ədəbiyyatı həmin prinsiplər üzrə təqdim etməyin üstünlükləri ilə yanaşı, bəzi zəif cəhətlərini də diqqətdən kənarda saxlamır. Akademik nəşrlərə və ali məktəb dərsliklərinə daha çox diqqət yetirən İsa Həbibbəyli belə hesab edir ki, "XX əsrin böyük

dövrü ərzində (1928-1980-ci illərdə) Azərbaycanda meydana çıxmış akademik nəşrlərdə və ali məktəb dərsliklərində dövrləşdirmə sahəsində olan müxtəliflik, pərakəndəlik, sərbəstlik və fərqli yanaşmalar bu sahədə vahid elmi konsepsiyanın olmamasının göstəricisidir”. Dövrləşdirmə konsepsiyasının hazırlanmasında özünəqədərki nəzəri araşdırmaları ikinci mühüm mənbə sayan İsa Həbibbəyli belə araşdırmaların XX əsrin 90-cı illərində daha çox meydana çıxmasına təbii hal kimi baxır. Məsələ burasındadır ki, xalqın tarixi kimi ədəbiyyatın da tarixini obyektiv şəkildə yazmaq milli düşüncənin sərbəstliyindən və ölkənin istiqlaliyyət qazanmasından xeyli dərəcədə asılıdır. XX əsrin 90-cı illərində ədəbiyyatın dövrləşdirmə problemi ətrafında müzakirələrin intensivləşməsi Azərbaycanın siyasi müstəqillik qazanması ilə birbaşa bağlıdır. Yaşar Qarayev, Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Nazıf Qəhrəmanlı, Nizami Cəfərov və başqa ədəbiyyatşünasların dövrləşmə ilə bağlı nəzəri araşdırmaları məhz müstəqillik dövründə ortaya çıxıb. Sovet dövründə ədəbiyyatın dövrləşdirilməsi sahəsində hansı əyintilərə yol verilməsini üzə çıxarmaq da məhz dövlət müstəqilliyinin əldə edilməsindən sonra mümkün olub. Əyintilərin ümumi mahiyyətini İsa Həbibbəyli belə izah edir: “Sovet ədəbiyyatşünaslıq elmində Zamana obyektiv elmi münasibət deyil, siyasi-ideoloji yanaşmalar əsas kimi qəbul olunduğu üçün ədəbiyyat və dövran münasibətləri dəyərləndirilərkən gerçəklikdən çox hakim sinfin prinsiplərinə üstünlük verilmişdir. Elmi fikirdə Zaman faktoru ictimai-tarixi reallıqlarına görə yox, ideoloji cəhətdən diqqət mərkəzinə çəkilmişdir. Bu da Azərbaycan ədəbiyyatının, o cümlədən də keçmiş sovet cəmiyyətində təmsil olunan digər xalqların ədəbiyyatının tarixi inkişaf yolunun əsl mahiyyətinin şərh edilməsində və dövrləşdirilməsində, əsasən, ideoloji amillərə istinad olunmasını şərtləndirmişdir. Bundan başqa,

sovet ideologiyasındakı tarixi keçmişin unutdurulması, xalqların yalnız bolşevizm dövründən sonra əsl inkişafa çatması ideyasının geniş təbliğ olunması çoxəsrlik ədəbiyyat tarixinin elmi cəhətdən dövrləşdirilməsi məsələsini arxa plana keçirmişdir”. Sovet dövründə ədəbiyyatın dövrləşdirilməsi formasiyalar nəzəriyyəsinə daha çox əsaslanırdı və bu nəzəriyyəyə görə, ədəbiyyat tarixi qədim dövr (ibtidai icma dövrü və ilkin feodal dövlətlərinin yarandığı dövr), orta əsrlər dövrü (feodalizmin inkişaf etdiyi dövr) və müasir dövr (kapitalist münasibətlərinin yaranıb formalaşdığı dövr) mərhələləri üzrə öyrənilirdi. Qərb ölkələrinin inkişaf tarixinə əsaslanan formasiyalar nəzəriyyəsi Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının keçib gəldiyi tarixi prosesləri doğru-düzgün əsk etdirmirdi. Belə olduğu halda ədəbiyyatın dövrləşdirilməsinə formasiyalar nəzəriyyəsinin yalnız müəyyən qədər yardımçı olmasından danışmaq olar. Ədəbiyyat tarixində baş verən və ədəbiyyatın daxili qanunauyğunluqlarından irəli gələn dəyişmə və yeniləşmələrin formasiyalar nəzəriyyəsi ilə izah edilməsi isə, söz yox ki, mümkün olmayan bir işdir. Cəmiyyətdəki və ədəbiyyatdakı qanunauyğunluqları əhatə edə bilməyən formasiyalar nəzəriyyəsi bu gün müstəqillik dövrünün prinsiplərinə, xüsusən də milli məfkurə tələblərinə cavab vermirsə, bu, ədəbiyyatın dövrləşdirilməsi ilə bağlı sistemli elmi konsepsiyanı işləyib hazırlamağı zərurətə çevirən əsas amillərdən biridir. Başqa bir amil ədəbiyyat tarixinin sovet dövründə müəyyən edilmiş mərhələlərindən bügünkü akademik nəşrlər və dərsliklərdə istifadə edilməsi, dövrləşdirmə meyarlarında pərakəndəliyin olmasıdır. Bütün bu kimi amilləri və dünyada gedən ədəbi-tarixi prosesləri nəzərə almaq, dövlət müstəqilliyi ideallarının işığında Azərbaycan ədəbiyyatı tarixi üzrə dövrləşdirmənin vahid sistemini yaratmaq mühüm ədəbiyyatşünaslıq vəzifəsi kimi qarşıya çıxır. İsa Həbibbəylinin

“Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri” əsəri həmin vəzifənin yerinə yetirilməsində tarixi bir addımdır.

Ədəbiyyat tarixinin yenidən dövrləşdirilməsində istinad ediləsi ümumi prinsiplərin müəyyənləşdirilməsi ən vacib məsələlərdəndir. İsa Həbibbəyli həmin prinsipləri belə müəyyənləşdirir: 1. Azərbaycançılıq məfkurəsi; 2. sivilizasiya faktoru; 3. ədəbi-tarixi prosesin reallıqları; 4. Azərbaycanda ədəbi cərəyanlar. Azərbaycan ədəbiyyatını ümumşərq, xüsusən də ümumtürk kontekstində götürməyi diqqət mərkəzində saxlayan, ədəbiyyatımızın tarixi inkişaf istiqamətlərindən bəhs edərkən həmin konteksti ciddi şəkildə nəzərə alan İsa Həbibbəyli üçün Azərbaycan məfkurəsi dövrləşdirmənin təməl prinsipidir. Maraqlıdır ki, İsa Həbibbəyli Azərbaycan məfkurəsini Azərbaycan milləti, Azərbaycan dili istilahlarının meydana çıxdığı və möhkəmləndiyi XIX-XX əsrlər ədəbiyyatı ilə məhdudlaşdırmır və “səbki-Azərbaycan” üslubunun orta əsrlər Şərq ədəbiyyatında özünəməxsus bir üslub kimi fərqlənməsinə, həmçinin XVII-XVIII əsrlər ədəbiyyatımızda Azərbaycan coğrafiyasının millətə məxsus məkan kimi təsvir edilməsinə xüsusu diqqət yetirir. Sivilizasiya faktoru dedikdə İsa Həbibbəyli, ilk növbədə, türk və ərəb-islam sivilizasiyasını nəzərdə tutur. Müəllifin fikrincə, türk tanrıçılıq sistemi islam dünyagörüşü ilə qaynayıb-qarışıb və din faktoru ədəbiyyatın formalaşmasında mühüm rol oynayıb. İsa Həbibbəyli belə hesab edir ki, “İslam təlimindəki mənəvi bütövlük və humanizm ideyaları, maarifçiliyə böyük dəyər verilməsi yazıçıların dünyagörüşünün inkişafında mühüm yer tutmaqla bərabər, həm də onların bədii yaradıcılığında elmi cəhətdən əsaslandırılmış milli və bəşəri ideallarin xüsusi önəm daşımasına meydan açmışdır”. Əlbəttə, Azərbaycan ədəbiyyatında, xüsusən bu ədəbiyyatın XIX-XX əsrlər mərhələsində dini fanatiz-

mə etiraz motivi geniş yer tutub. Bu motiv əsasında yazılmış "Kəmalüddövlə məktubları" və "Ölülər" kimi kəskin ruhlu əsərlər ədəbiyyatımızın bənzərsiz nümunələridir. Amma bu kimi ədəbi faktlar məsələyə birtərəfli yanaşıb ədəbiyyatımız tarixində mühüm rol oynamış islam faktorunu inkar etməyə əsas vermir. Din faktoruna birtərəfli yanaşmağın nəticəsidir ki, sovet dövründə Xaqani, Nizami, Nəsimi, Füzuli yaradıcılığının Quran motivləri, islam mifologiyası ilə qırılmaz surətdə bağlı olan poetik sistemini ortaya qoya bilən sanballı elmi əsər yaranmadı. Odur ki, ədəbiyyatın yenidən dövrləşdirilməsi məsələsində İsa Həbibbəylinin din faktorunu xüsusi nəzərə alması tamamilə təbiidir.

Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət və Abdulla Şaiq lirikasından namizədlik, Cəlil Məmmədquluzadə, onun Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz və başqa müasirləri və məsləkdaşları ilə əlaqələrindən, onların bədii-publisist yaradıcılığından doktorluq dissertasiyası yazan, çağdaş Azərbaycan ədəbiyyatındakı müxtəlif təmayülləri ardıcıl olaraq izləyən və bu sahədə nüfuzlu ədəbiyyatşünas-tənqidçi sözünü deyən İsa Həbibbəyli üçün ədəbi cərəyan mühüm əhəmiyyət daşıyan, ədəbiyyatın ümumi inkişafına əsaslı təsir göstərən faktorlar sırasındadır. Ədəbi cərəyanı dövrləşdirmənin əsas prinsipləri sırasına daxil edərkən İsa Həbibbəyli cərəyan anlayışını daha geniş bir çərçivədə təqdim edir. Onun qənaətinə görə, maarifçi realizm, tənqidi realizm, romantizm, sosialit realizmi, modernizm, postmodernizm, dekadentizm, magik realizm ədəbi cərəyanları ilə yanaşı, klassik ədəbiyyatımızda dərin üz buraxmış əxilik, sufizm, hürufizm kimi ədəbi-fəlsəfi cərəyanlar da dövrləşdirmə konsepsiyasında öz yerini tutmalıdır. Erkən realizm, modernizm, neorealizm, postmodernizm, magik rea-

lizm, dekadentizmdən ədəbi cərəyan səviyyəsində ilk dəfə əsaslı şəkildə söz açan İsa Həbibbəyli ədəbiyyatımızda mövcud olmuş ədəbi cərəyanlara dair də yeni baxış meydana qoyur. Bu, çoxəsrlik ədəbiyyat tarixinin dövrləşdirilməsində ədəbi cərəyanlar faktorundan əsas prinsiplərin biri kimi bəhs etməkdən başqa, həm də ilk dəfə olaraq Azərbaycan ədəbi-ictimai fikrindəki bütün ədəbi cərəyanları ayrı-ayrılıqda, həm də bütöv halda, kompleks şəkildə tədqiq edib, hər birinin özünəməxsusluqlarını göstərməklə bərabər, elmi-nəzəri cəhətdən ümumiləşdirilməsi kimi mühüm bir vəzifənin yerinə yetirilməsi deməkdir. Bu vaxta qədər Azərbaycan ədəbiyyatşünaslığında yalnız romantizm, realzim və sentimentalizmdən ədəbi cərəyan səviyyəsində elmi əsərlər yazıldığını nəzərə alsaq, İsa Həbibbəylinin apardığı işin çevrəsi, miqyası və əhəmiyyəti aydın olar. Bu mənada "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyası həm də Azərbaycan ədəbiyyatşünaslığında ədəbi cərəyanlar haqqında müstəqillik dövründə yaranmış ilk ümumiləşdirilmiş elmi-nəzəri əsər kimi yeni və əhəmiyyətlidir. Akademik İsa Həbibbəyli bu tədqiqatı ilə özünü həm də ciddi bir ədəbi cərəyanşünas alim kimi də tədqim edir.

Heç şübhəsiz, Azərbaycan ədəbiyyatı özünün tarixi inkişaf yolunu ümumşərq və ümumdünya ədəbi prosesi ilə qarşılıqlı əlaqə şəraitində keçib gəlib. Ümumşərq və ümumdünya ədəbi prosesində baş verən dəyişmə və yeniləşmələr bu və ya digər dərəcədə Azərbaycan ədəbiyyatında da əks-səda tapıb. Bununla bərabər, Azərbaycan ədəbiyyatının tarix boyu özünəməxsus reallıqları da olub. Bu reallıqlar İsa Həbibbəylinin sözləri ilə desək, ədəbiyyatın təbii məntiqindən, daxili təkamülündən doğan sənət idealları ilə xalqın müxtəlif dövrlərdəki ümummilli ideallarının dialektik əlaqəsinə əsaslanır. İsa Həbibbəylinin dövrləşdirmə konsepsiyasında ümumi prinsip-

lərdən biri kimi nəzərdə tutulan ədəbi-tarixi prosesin reallıqları faktorunun vacibliyi ondadır ki, həmin faktor kənardan (Şərqdən və Qərbdən) gəlməyən və yalnız ədəbiyyatın öz daxili təkamülü hesabına ortaya çıxan inkişaf istiqamətlərini üzə çıxarmağa yaxından kömək edir.

İsa Həbibbəyli Azərbaycançılıq məfkurəsi, sivilizasiya faktoru, ədəbi cərəyanlar, ədəbi – tarixi prosesin reallıqları kimi prinsiplərdən çıxış edərək və ilk dəfə olaraq Azərbaycan ədəbiyyatının tarixi inkişafında 10 əsas mərhələnin olması qənaətinə gəlir: 1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər); 2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü ( VII-X əsrlər); 3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər); 4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər); 5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII ərslər); 6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr); 7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək); 8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər); 9. Milli-mənəvi özünüdərk və istiqlal mərhələsi. Modernizm (1960-1980-ci illər); 10.Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən). Özünəqədərki dövrləşdirmə təcrübəsini qədirşünasılıqla nəzərə alan İsa Həbibbəylinin bu bölgüsündə kifayət qədər fərqli yanaşma məqamı vardır. Fərqli məqamlardan biri ilk tarixi mərhələnin müəyyənləşməsində özünü göstərir. Bunu İsa Həbibbəyli təsnifatına qədərki bölgülərlə müqayisədə daha aydın görmək olur. Məlumdur ki, akademik nəşrlərdə və ali məktəb dərsliklərində qədim dövr adı altında, əsasən, XIII əsrəqədərki yazılı ədəbiyyatımız təqdim edilib və qədim dövr bölməsinin lap əvvəlində şifahi xalq ədəbiyyatına da ümumi şəkildə yer verilib. İsa

Həbibbəylinin fərqli yanaşması qədim dövrü başdan-başa mifologiya və şifahi xalq ədəbiyyatı ilə əlaqələndirməsindədir. Bu cür yanaşma, xüsusən də mifologiyadan ümümtürk mifoloji sistemi kimi bəhs etmə ədəbiyyatımızın boy atıb yüksəldiyi əsas kökün və qaynağın hərtərəfli araşdırma predmetinə çevrilməsində mühüm rol oynayır. Mərhələnin adında etnos və epos sözlərinin yanaşı işlədilməsi heç də təsadüfi səciyyə daşımır. Konsepsiya müəllifi həmin sözləri başlığa çıxarmaqla türk mifologiyasının və türk eposunun (konkret olaraq "Dədə Qorqud"un) hər şeydən əvvəl, soykök və əcdad haqda süjetlər üzərində qurulmasını əldə əsas tutur və bununla ədəbiyyat tarixinin ikinci mərhələsi üçün ciddi elmi zəmin yaratmış olur. Ümumtürk mifologiyasından, arxaik folklordan, parlaq bir nümunəsi "Dədə Qorqud" eposu olan klassik folklordan geniş şəkildə bəhs etməklə konsepsiya müəllifi Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrünə möhkəm özüllü körpü atır. Birinci bölmədə mifoloji sistem, arxaik və klassik folklor üzrə izlənilən ümümtürk ortaqlığı ikinci bölmədə yazılı ədəbi örnəklər üzrə nəzərdən keçirilir, VII-VIII əsrlərdə yaranan Orxon-Yenisey kitabələri ümumtürk ədəbiyyatının, o cümlədən Azərbaycan ədəbiyyatının ortaq abidəsi hesab edilir.

İkinci mərhələdən bəhs edilərkən ədəbiyyatımızın başqa dillərdə yaranan nümunələrinə də konsepsiyanın ümumi prinsipləri baxımından aydınlıq gətirilir: "Ədəbiyyat tarixçiliyində yazılı ədəbiyyatın başlanması mənasında yalnız ana dilində yaranan ədəbiyyat faktorunun əsas kimi qəbul edilməsi dünya elmi fikrində öz isbatını tapmış obyektiv məntiqə uyğun gəlmir. Belə ki, Avropa xalqlarının bir çoxunun qədim elmi və ədəbi irsinin latın dilində, əksər Asiya xalqlarının ədəbiyyatının isə ərəb və fars dillərində yaranıb inkişaf etməsi heç də həmin ölkələrin milli ədəbiyyatının olmaması kimi başa düşülmür". Firidun bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli,

İsmayıl Hikmət və Fuad Köprülünün vaxtilə ədəbiyyat tarixini anadilli poeziyadan (Məhəmməd Füzulidən, İmadəddin Nəsimidən, İzəddin Həsənoğlu və ya Qazi Bürhanəddindən) başlaması, sovet dövründə ümümtürk kontekstinin kök və qaynaq kimi nəzərə alınmaması dil məsələsinə bir daha qayıtmağı zərurətə çevirir. Orxon-Yenisey kitabələrinin ortaq türk dilində qələmə alınmasını və ümumtürk, o cümlədən Azərbaycan ədəbiyyatı örnəkləri sırasına daxil olmasını xüsusi vurğulayan İsa Həbibbəyli ərəbdilli Azərbaycan "məvalı" ədəbiyyatını, alban şeir nümunəsi və "Avesta"nı da ortaq başlanğıc faktorları sırasına daxil edir.

Azərbaycan ədəbiyyatında Xaqani Şirvani və Nizami Gəncəvinin yaşayıb-yaratdığı dövrün intibah dövrü sayılması ədəbiyyatşünaslıqda sovet dönəmindən mövcud olan elmi mövqedir. Bu mövqeyə münasibətdə İsa Həbibbəylinin fərqli yanaşması Azərbaycan intibahının Avropa intibahı ilə heç də eyniyyət təşkil etməməsinə diqqəti yönəltməkdədir. İsa Həbibbəyli, hər şeydən əvvəl, dil məsələsinə diqqəti yönəldir: "İntibah mədəniyyətinin yaranması üçün zəruri olan inteqrasiya proseslərinin genişlənməsi baxımından bədii əsərlərin və elmi traktatların ərəb-fars dillərində yazılması və yayılması da mühüm faktor idi. Azərbaycan şairlərinin fars dilində əsərlər yazması Şərq miqyasında mövcud olan ədəbi ənənədən gəlirdi". Bəs Avropa intibahında dil baxımından vəziyyət necə idi? Doğrudur, "Avropa renessansını əhatə edən ölkələrin də bir çoxunda ədəbiyyat ana dilində yox, bir vaxtlar ümumi ünsiyyət vasitəsi olan latın dilində, ya da yaşadığı coğrafiyadakı hakim xalqın dilində yaradılmışdır". Amma bu fikri irəli sürərkən İsa Həbibbəyli qətiyyən inkar etmir ki, Avropa intibahının aparıcı nümayəndələri (Dante, Şekspir, Rable, Servantes...) öz əsərlərini ana dilində yazdıqları halda, Xaqani və Nizami öz əsərlərini fars dilində yazıb. İsa Həbib-

bəyli Azərbaycan intibahı ilə Avropa intibahı arasında başqa mühüm fərqi ədəbi metod məsələsində görür: "Avropada intibah hadisəsi kimi meydana çıxmış realizmi Azərbaycanda klassik romantik ədəbiyyat əvəz etmişdir. Realizm Qərb mədəniyyəti və ədəbiyyatının inkişafı üçün hansı miqyasda meydan açmışdırsa, romantik bədii metod da Şərq ədəbiyyatı və Azərbaycan poeziyası üçün hər cəhətdən ondan da geniş magistrallara çıxmağa şərait yaratmışdır". İntibahın Şərq və Qərb tipləri arasında müqayisələr aparılması, fərqli cəhətlərin üzə çıxarılması son nəticədə hər iki mədəniyyət hadisəsini birləşdirən ortaq nöqtənin tapılmasına xidmət edir. Belə bir nöqtə Xaqani, Nizami, Məhsəti, Dante, Şekspir, Rable, Servantes kimi söz ustadlarının insan qüdrətini əks etdirən ölməz əsərlər yaratmasıdır. Mənsub olduğu xalqın mənəvi aləmi ilə qırılmaz surətdə bağlı olub dünyamiqyaslı əsərlər yaratmaq İsa Həbibbəylinin nəzərində istər Şərq, istərsə də Qərb intibahının ən mühüm göstəricisidir. Konkret tarixi mərhələdə elmin, şəhərlərin və tranzit əlaqələrin xüsusi inkişafı da Avropa və Asiya coğrafiyalarında, o cümlədən Azərbaycanda intibah hadisəsinin ortaq prinsipləri kimi təqdim olunur. Bundan başqa, indiyədək Azərbaycan ədəbiyyatşünaslığında yalnız XII əsrdən intibah hadisəsi kimi bəhs edildiyi halda, İsa Həbibbəylinin bu dövrü XI-XII əsrlər kimi çevrələməsi də dövrləşmə baxımından fərqlidir.

Orta əsrlər ədəbiyyatının mübahisəli məsələlərindən biri XVII-XVIII əsrlərin bu dövrə aid edilib-edilməməsi üstündədir. Son vaxtların elmi dövrləşdirilməsində XVII-XVIII əsrlərin ayrıca mərhələ kimi fərqləndirilməsini təqdir edən İsa Həbibbəyli məsələyə Məhəmməd Füzuli ətrafındakı məşhur mübahisə vasitəsilə aydınlıq gətirir. Mirzə Fətəli Axundzadənin müxtəlif yozumlara səbəb olan "Füzuli şair deyil, nazimi-ustaddır" fikrinə İsa Həbibbəyli XIII-XVI əsrlər ədə-

biyyatı ilə XVII-XVIII əsrlər ədəbiyyatı arasındakı əsaslı keyfiyyət fərqi baxımından qiymət verir: “Ədəbiyyat Məhəmməd Füzuli olmağın imkansızlığından Molla Pənah ola bilməyin mümkünlüyünə doğru addımlar atmağa məhkum idi. Çünki hətta klassik romantik şeirin ustadı olan Füzuli də, Mirzə Fətəli Axundzadənin sözləri ilə desək, qarşıdan gələn yeni realist şeir üçün “nazim” idi. Son illərin təqdiqatlarında (İsa Həbibbəylinin öz tədqiqatları nəzərdə tutulur-M.K.) Mirzə Fətəlinin Füzuliyə münasibətdə işlətdiyi “nazimi-ustad” məsələsinə yenidən baxılmış və belə bir qənaətə gəlinmişdir ki, Məhəmməd Füzuli klassik romantik şeirin ustadı, yeni realist ədəbiyyatın nazimidir”. Bu, o deməkdir ki, orta əsrlər Azərbaycan ədəbiyyatının ən əzəmətli zirvəsi olan Məhəmməd Füzuli şeiri XVII-XVIII əsrlərin erkən realizm adlı mərhələsində müəyyən qədər qərib təsiri bağışlayır. Odur ki, romantik metoddan realist metoda doğru dəyişmənin başladığı XVII əsri və həmin dəyişmənin qabarıq özünü göstərdiyi XVIII əsri birlikdə xüsusi inkişaf mərhələsi kimi götürmək məntiqəuyğun və zəruridir. Beləliklə, İsa Həbibbəylinin tədqiqatlarında Azərbaycan ədəbiyyatında orta əsrlər mərhələsi bu vaxta qədər qeyd olunduğu (xüsusən formasiyalar nəzəriyyəsinə əsasən göstərildiyi) kimi XIII-XVIII əsrləri deyil, XIII-XVI əsrləri əhatə edən bir dövr kimi müəyyənləşdirilib. Əvəzində XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının erkən realizm dövrü kimi səciyyələndirilib. Qeyd edilib ki, orta əsrlər dövrü üçün romantik poeziya, erkən realizm dövrü üçün isə realizm faktoru aparıcı mövqe tutub. İsa Həbibbəyli konsepsiyasında XVII əsr erkən realizmin hazırlıq dövrü, XVIII əsr isə erkən realizm mərhələsi kimi müəyyənləşdirilib.

Mirzə Fətəli Axundzadənin tənqidi realizm nümayəndəsi sayıldığı vaxtlarda belə Abbasqulu ağa Bakıxanov və Mirzə Şəfi Vazeh tərəddütsüz-filansız maarifçi realist sənət-

karlar hesab edilib. Azərbaycan realizminin inkişaf mərhələləri barədə Yaşar Qarayev konsepsiyası ortaya çıxandan sonra Mirzə Fətəli Axundzadənin də maarifçi realist olması ilə bağlı tərəddüdlərə son qoyulub. Bu, öz yerində. Amma XIX əsrin maarifçi realistləri ilə bağlı bəzi qaranlıq məqamlar qalmaqda davam edir. Məsələn, belə bir məqama diqqət yetirək: Abbasqulu ağa Bakıxanovu və Mirzə Şəfi Vazehi eynilə Mirzə Fətəli Axundzadə kimi sırf realist sənətkarlar saymaq doğrudurmui? Tədqirəlayiq haldır ki, ədəbiyyatımızın digər mərhələlərində olduğu kimi, XIX əsr mərhələsində də elmi həllini gözləyən bu cür məsələlər İsa Həbibbəylinin diqqətindən yayınmır: “XIX əsr Azərbaycan ədəbiyyatı tarixində maarifçi realizm dövrü olsa da, bu mərhələnin realist olmayan ədəbiyyatında da maarifçilik ideyaları öz əksini tapmışdır... XIX əsrin romantik-realist istiqamətdə yaranmış lirikasında – Mirzə Şəfi Vazehin, Bahar Şirvaninin, Xurşidbanu Natəvanın, Mir Möhsün Nəvvabın, Abdulla bəy Asinin, Fəqir Ordubadinin lirik şeirlərində maarifçi ədəbiyyatı düşündürən gerilik və tərəqqi məsələlərinə aydın münasibət ifadə olunmuş, müəyyən çağırışlar səslənmişdir”. İsa Həbibbəylinin sözünə qüvvət olaraq xatırladaq ki, XIX əsrin ikinci yarısında Mirzə Şəfi Vazehi Avropada məşhurlaşdıran onun realist üslublu şeirləri yox, romantik üslublu şeirləri olub. Mirzə Şəfi Vazehin, həmçinin yuxarıda adı çəkilən sənətkarların yaradıcılığında romantik üslubun mövcudluğuna işarə edilməsi onu göstərir ki, İsa Həbibbəyli XIX əsr maarifçi realizmini heç də yekcins ədəbi metod yox, çoxçalarlı, çoxşaxəli ədəbi metod hesab edir və elmi təhlilləri məhz o yöndə aparır.

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm qoşa addımlayan iki müstəqil cərəyan kimi ortaya çıxır. Mollanəsrəddinçilərin və füyuzatçıların adı ilə bağlı olan bu ədəbi cərəyanlar 1920-ci ildən formalaşmağa

başlayan Azərbaycan sovet ədəbiyyatına öz təsirini göstərir. Tənqidi realizmin və romantizmin sovet dövründə də az-çox yaşayıb fəaliyyət göstərən nümayəndələri (xüsusən Cəlil Məmmədquluzadə və Hüseyn Cavid) 1920-ci ildən əvvəl yazdığı əsərlərlə yanaşı, həm də sovet dövründə yazdığı əsərlərlə (məsələn, "Dəli yığıncağı, "Topal Teymur" kimi mövcud siyasi sistemə zidd olan pyeslərlə) ədəbi prosesdə dərin iz buraxırlar. Ədəbiyyatda dünən və bu gün əlaqələrinin qırılmazlığını sovet dövrünə münasibətdə də ciddi şəkildə nəzərə almağın nəticəsidir ki, İsa Həbibbəyli bu dövrün ədəbiyyatını iki istiqamətdə öyrənməyi daha məqsədəuyğun sayır: 1. sovet ideologiyası əsasında yaranmış Azərbaycan ədəbiyyatı; 2. Sovet dövründə yaranan, lakin Azərbaycan gerçəkliyini əks etdirməyə üstünlük verən Azərbaycan ədəbiyyatı. İkinci istiqamətə aid olan sovet dövrü Azərbaycan ədəbiyyatı, İsa Həbibbəyliinin fikrincə, "kökləri etibarilə XX əsrin əvvəllərinin ədəbiyyatı, inkişaf perspektivlərinə görə isə gələcək müstəqillik dövrü ədəbiyyatı ilə səsləşir." Milli ədəbi ənənəyə sadiq qalıb müstəqillik dövrü üçün zəmin yaratmaq əlamətlərini İsa Həbibbəyli altmışıncı illərdən sonrakı ədəbiyyatda daha çox müşahidə edir və təsadüfi deyil ki, 1960-1980-ci illər ədəbiyyatını "milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı" adlandırır.

Akademik İsa Həbibbəyli sovet dövrü Azərbaycan ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodunun formalaşdırılması məsələsinə müstəqillik dövrünün yaratdığı imkanların işığında yenidən nəzər salır, həm keçmiş Sovetlər İttifaqı miqyasında, həm də Azərbaycan masştabında sosialist realizmi modelinin ətrafında aparılan axtarışların aydın elmi mənzərəsini "Xruşşov mülayimləşməsindən" sonra sosialist realizminin mövqeyinin sınması, tədricən arxa plana keçməsi, yəni bu metodun bütün sovet dövrü boyu əsas və ya vahid yaradıcılıq metodu ola bilməməsi qənaətini irəli sürür. O, inandırıcı dəlil-

lərlə əsaslandırır ki, Azərbaycan "əllinciləri" özlərindən əvvəlki ideologiyaya üz tutmağa məcbur edilmiş 20-30-cu illərin yazıçılarından "altmışıncılara" keçid üçün "ara nəsil" funksiyasını yerinə yetiriblər. Azərbaycan "əl-linciləri" ədəbi nəslini "ara nəsil" adlandırmaq yeni olmaqla bərabər, həm də "altmışıncılar" nəslinin meydana çıxmasını əsaslandırmaq üçün kifayət qədər əhəmiyyətlidir. Tədqiqat əsərində Azərbaycan "altmışıncıları"ndan "sosialist tənqidi realistləri" və ya modernizm cərəyanının yaradıcıları qismində söz açılması da ədəbiyyatşünaslıq elmimizdə ilk addım kimi qiymətləndirilə bilər.

XX əsr Azərbaycan ədəbiyyatının dövrləşdirilməsində ən həssas məsələlərdən biri Cənubi Azərbaycan ədəbiyyatının inkişaf istiqamətlərini doğru-dürüst müəyyənləşdirmək, mərhələlərin adında həmin inkişaf istiqamətlərini ehtiva etməkdir. Əsrin əvvəllərində Cənub və Şimal ədəbi prosesləri arasında özünü göstərən oxşarlıq (məsələn, Mirzəli Möcüz, Bayraməli Abbaszadə, Cabbar Əsgərzadə, Məmmədəli Manafzadənin tənqidi realizmi, Səid Səlmasinin isə romantizmi təmsil etməsi kimi cərəyanlararası paralellik) əsrin sonrakı onilliklərində heç də qabarıq hiss olunmur. Şimalda "sosialist realizmi" dövrü adını daşıyan 1920-1960-cı illəri, heç şübhəsiz, Cənubda həmin adla səciyyələndirmək özünü doğrultmur. Tutalım, Azərbaycan gerçəkliyini sosialist realizmi prinsipləri əsasında ifadə etməli olan Səməd Vurğuna yanaşdığımız meyarlarla sosialist realizmi prinsiplərindən uzaq olan Məmmədhüseyn Şəhriyara yanaşmaq qeyri-mümkündür. Belə bir çətinlik mühacirət ədəbiyyatının da dövrlər və mərhələlər üzrə təsnif edilməsində meydana çıxır. İsa Həbibbəyli çətinlikdən çıxış yolunu hər mərhələ daxilində Cənubi Azərbaycan və mühacirət ədəbiyyatından ayrıca danışıb müqayisələr aparmaqda görür: "XIX əsrdən etibarən Cənubi Azərbaycan ədəbiyyatının yaranması və sonrakı dövrlər üzrə inkişafı hər mər-

hələnin daxilində ayrıca qeyd olunur. Eyni zamanda, Azərbaycan mühacirət ədəbiyyatı da XX əsrin ictimai-siyasi reallığı kimi, dövrləşdirmənin uyğun mərhələlərində öz əksini tapır". Bundan başqa, Azərbaycan sovet ədəbiyyatında olduğu kimi, XX əsr Cənubi Azərbaycan ədəbiyyatında da ortaq problemlərin olması, milli kimlik və ana dili uğrunda mübarizə məsələlərinin həmin dövr Azərbaycan ədəbiyyatının hər iki qolunda – Şimalda və Cənubda ön mövqeyə çıxarılması paralel ortaqlıq kimi səciyyələndirilir.

Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyasında irəli sürdüyü dövrləşmə modeli müstəqillik dövründə ölkə miqyasında ədəbiyyat tarixlərinin yaradılmasında, dərsliklərin hazırlanmasında nəzərə alınması vacib olan konseptual metodoloji modeldir. Həm ideoloji, həm də elmi-nəzəri baxımdan problemə münasibətdə geniş dünyagörüş və aydın elmi mövqe ilə yanaşı, ictimai rəy də mühüm şərtlərdən biridir. Bunu nəzərə alan İsa Həbibbəyli dövrləşdirmə konsepsiyasının əsas müddəalarını, ədəbiyyatın konkret tarixi inkişaf və təkamül proseslərinə dair müəyyənləşdirdiyi mərhələlərə aid mülahizə və təkliflərini Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin, Humanitar Elmlər Bölməsinin iclaslarında, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi şurasında, hətta Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində fəaliyyət göstərən Beynəlxalq Türk Akademiyasında türk dünyası ölkələrinin Ədəbiyyat İnstitutları direktorlarının iştirakı ilə keçirilmiş seminarda geniş müzakirələrə çıxarıb, mütəxəssislərin fərqli münasibətlərini öyrənərək konsepsiyasını daha da təkmilləşdirib.

Neçə illik gərgin elmi axtarışların nəticəsi kimi ərsəyə gələn, yalnız İsa Həbibbəyli yaradıcılığının yox, bütövlükdə Azərbaycan humanitariyasının ciddi bir uğuru sayıla bilən

"Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyası bu gün öz elmi-təcrübi səmərəsini verməkdədir. İsa Həbibbəylinin dövrləşdirmə konsepsiyası əsasında çap olunması planlaşdırılan 10 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin 1-ci cildi artıq oxucuların ixtiyarına verilib və növbəti cildlər öz nəşrini gözləyir. 1-ci cild kimi sonrakı cildlərin də hər birində İsa Həbibbəylinin bir konsepsiya müəllifi kimi, icmallar, oçerklər müəllifi kimi, elmi redaktor kimi iştirakı şəksiz-şübhəsizdir. Demək, görülən işlər nə qədər çoxdursa, görüləcək işlər də az deyildir. Bütün bunlara görə akademik İsa Həbibbəylinin çoxillik elmi axtarışlarının məhsulu olan "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyasını mühüm nəzəri və təcrübi əhəmiyyət daşıyan ciddi elmi hadisə adlandırmaq olar. Qeyd etmək lazımdır ki, çoxcildlik Azərbaycan ədəbiyyatı tarixlərini nəzərə almasaq, indiyədək Azərbaycan ədəbiyyatının çoxəsrlik bütün dövrlərini, əsas proseslərini, görkəmli yaradıcılarını ədəbi cərəyanlarla əlaqəli şəkildə tədqiq edib ümumiləşdirən ikinci bir bu tipli monoqrafik tədqiqat əsəri yazılıb nəşr edilməyib. İsa Həbibbəyli bu çətin və məsuliyyətli vəzifəni həyata keçirmək üçün var qüvvə ilə çalışaraq, mühüm bir elmi nəticə əldə edib. Əsərdəki müəyyən məqamlar mübahisə doğursa belə, bütövlükdə görülən işin böyük miqyası bu işin əhəmiyyətini qətiyyən azaltmır.

Akademik İsa Həbibbəyli 70 yaşını belə bir şəraitdə qarşılayır: arxada – milli maraqlar naminə görülən böyük işlər, irəlidə – azərbaycançılıq, müstəqil dövlətçilik və elm naminə görüləcək işlər. Şübhə yoxdur ki, arxada qalmış onilliklər kimi, irəlidəki onilliklərdə də akademik İsa Həbibbəyli gecəni gündüzə qatıb yeni-yeni yaradıcılıq uğurları ilə öz sözünü deyəcəkdir.

**2019**

# KAMAL ABDULLA "DANSÖKÜLƏN"İ

## 1. Mağara

İstər elmi, istərsə də bədii əsər yazmağa material seçərkən daha çox qədimliyə can atan Kamal Abdulla bu əsərində, yəni "Kitabi-Dədə Qorqud" poetikasına giriş. Dansökülən variant" kitabında materialın qədimindən də qədimini seçir. Kitabın bəhs etdiyi zaman o zamandır ki, bədiilik Günəşi hələ gözə dəymir, dan yeri təzəcə sökülməyə başlayıb. Qaranlığın çökməsindən, tufanın qopmasından, suların daşmasından, qəfil ölümün gəlməsindən baş çıxarmayıb Təəccüb və Qorxu içində yaşayan insan Mağaraya sığınıb. Amma dillərin, mifoloji düşüncənin təzəcə formalaşdığı son dərəcə uzaq bir zamanın, ilkin mədəniyyətin yarandığı Mağara adlı məkanın "Dədə Qorqud"la bağlılığı nədədir? Kamal Abdulla "Dansökülən"inin gücü, çəkisi, sanbalı və qorqudşünaslıq tarixindəki yeniliyi bu suala inandırıcı cavab verməyində, dastanın klassik poetizmə qədərki bədiipoetik mahiyyətini əsaslı şəkildə açmağındadır. Doğrudan da, əgər milyard illər bundan qabaq baş vermiş Möhtəşəm Partlayışın əks-sədası bütün kainat boyu yayılıbsa və indinin özündə həmin əks-sədanı xüsusi cihazlar vasitəsilə siqnallar şəklində eşitmək mümkündürsə, onda "Dədə Qorqud"da da ilkin kosmoloji enerjinin təzahürünü axtarıb tapmaq tamamilə məntiqəuyğun və vacibdir. Bu vacib və vacib olduğu qədər çətin problemin elmi həllinə Kamal Abdulla "Dədə Qorqud" dastanı ilə bağlı proza və poeziya məsələsinə, həmçinin Dədə Qorqudun kimliyi məsələsinə (qorqudşünaslıqda kifayət qədər mübahisəli olan bu iki məsələyə!) aydınlıq gətirməkdən başlayır. Aydın olur ki, qədim yunan mətnlərində olduğu kimi, "Dədə Qorqud" dastanında da proza ilə poeziya bir yerdədir. Odur ki, "Dədə Qor-

qud"da ayrıca bədiilikdən və ayrıca poetiklikdən yox, həmin cəhətlərin birlikdə olduğunu bildirən bədiipoetik-likdən danışmaq daha doğrudur. Yeri gəlmişkən qeyd edək ki, qoyulan məsələlərin yeniliyi kitabda yeni terminlərin işlədilməsi zərurətini ortaya çıxarır. Belə terminlər sırasında "bədiipoetiklik"lə yanaşı, Dəşti-Müstəqimiyyə və Dəşti-Məcaziyyə terminlərini də xatırlatmaq lazım gəlir. Kamal Abdullanın yaratdığı Dəşti-Müstəqimiyyə və Dəşti-Məcaziyyə terminləri "Dədə Qorqud" dastanının bağlı olduğu iki qatı – tarixəqədərki dövr və tarixdən sonrakı dövr qatlarını fərqləndirməyə xidmət edir. Adından göründüyü kimi, Dəşti-Müstəqimiyyə qatında söz müstəqim məna daşıyır, tutalım, "yatan dağ" ifadəsi "dağın həqiqətən yatması" mənasından başqa bir şey bildirmir. Tarixəqədərki dövrdə öz fəhmi və bacarığı ilə başqa insanlardan seçilən, öz-özünü yetişdirən Başçının mağaradaşlarla danışdığı dil məcazilikdən uzaq bir dildir. Mağaradaşların ətraf aləm haqda suallarına Başçı məhz bu dillə cavab verir: "Ölən adam dirilməz. Çıxan can geri gəlməz. Ulaşıban sular daşsa dəniz dolmaz. Yapa-yapa qarlar yağsa yaza qalmaz". Bəli, bu sözlər Dədə Qorqudun dilindən söylənən sözlərdir. Bəli, "Dədə Qorqud" dastanında, dünyanın "Gilqameş", "Bievulf", "Nibelunqlar" və s. dastanlarındakı kimi, Mağara ruhunun, ilkin Mağara mədəniyyətinin əlamətləri var. Deməli, Dədə Qorqudun ən arxaik funksiyası Başçı (və yaxud Kahin, Müəllim) olmasında, mağaradaşlara həyat dərsi keçməsində, mağaradaşların "Ölüm nədir?", "Dəniz dolub-daşarmı?", "Günlərlə yağan qardan can qurtara biləcəyikmi?" kimi suallarına cavab verməsindədir. Başçı Dədə Qorqudun funksiyasını doğru-düzgün başa düşməkdə Kamal Abdullanın apardığı müqayisələr, xüsusən Platonun "Qoruyucu" adlı obrazı, həmçinin Niçşenin Zərdüştü ilə tutuşdurmalar oxucuya yaxından kömək edir: Platonun "Qoruyucu"su da, Niçşenin Zərdüştü də

Mağaradan çıxıb insanları dünyanın bəzi həqiqətlərindən hali eləmək istəyirlər, amma bu istək baş tutmur. Ona görə baş tutmur ki, insanlar (mağaradaşlar) ən adi həqiqətləri belə anlamaq gücündə deyillər, Başçının dedikləri onlara gülməli gəlir. Dəli Qarcarın "əməli azmış" adam qismində görüb-dəyərləndirməsindən bəlli olur ki, Başçı Dədə Qorqudunda mağaradaşlar arasında günü bir o qədər xoş keçməyib. Bütövlükdə Oğuz elinin Dədə Qorqudu övliya səviyyəsinə qaldırmasına gəlincə, bu məsələdə də təəccüb doğurası, qaranlıq qalası bir şey yoxdur. Kamal Abdullanın "Dansökülən"i bu məsələnin də üstünə işıq sala bilir: anaxronik mətn olan "Dədə Qorqud" dastanı ibtidai mifoloji dövrdən tutmuş islamdan sonrakı dövrəcən müxtəlif tarixi mərhələlərin əks-sədası olduğu kimi, Dədə Qorqud özü də bir-birindən çox-çox uzaq olan müxtəlif zamanların daşıyıcısıdır. Hər dövrün, hər zamanın öz Dədə Qorqudu var. Bizim tanıdığımız Dədə Qorqud bu Dədə Qorqudların cəmi, bir növ invariantıdır. Vikonun və Şellinqin Homer haqqındakı fikirlərinə əsaslanıb qeyd etmək olar ki, Dədə Qorqud konkret şəxsiyyət deyil, Dədə Qorqud daha çox bir prinsipdir. Başçı (Kahin, Müəllim) Dədə Qorqud ibtidai mifoloji dövrün atributudursa, Ozan Dədə Qorqud klassik poetik dövrün məhsuludur. Əgər, belədirsə, Kamal Abdullanın Dədə Qorqud problemi ilə bağlı bu qənaəti heç bir şübhə doğurmursa, onda Dədə Qorqudun Oğuz elində övliya səviyyəsinə qaldırılmasının səbəbini bilmək çətin olmur: övliya səviyyəsinə qaldırılıb müqəddəsləşdirilən Dədə Qorqud daha çox klassik poetik dövrün, Dəşti-Məcaziyyənin Dədə Qorqududur, Başçı yox, Ozan Dədə Qorquddur. Canında-qanında Mağara ruhunu yaşatsalar da, "Dədə Qorqud" qəhrəmanları, anaxronik obrazlar kimi, hər halda yaşadıqları Ağ ban evlərin də ab-havasına uyğun addım atmalıdırlar və atırlar. Dədə Qorqudun gələcəkdən xəbər verməsinə, hər mət-

ləbinin hasil olmasına inam bəsləmək, advermə ritualını və elçiliyi Dədə Qorquda həvalə etmək Ağ ban evlərin ab-havasından doğan addımlar və səciyyəvi məqamlardır. Dəli Qarcarın "əməli azmış" deyib Dədə Qorquda əl qaldırması isə Ağ ban ev ab-havasının alt qatında gizlənmiş Mağara ruhunun, Başçıya mənfi mağaradaş münasibətinin qəfil təzahürüdür. Ağ ban ev mühitində bu təzahürü gerçəkləşdirmək üçün Ozan, sadəcə, dəlilik pərdəsindən istifadə etməli, övliyaya qarşı çıxmağa bu yolla bəraət qazandırmalı olub. Necə ki, bu üsulla Ozan, Əgrəyin rəsmi qaydalara məhəl qoymayıb xan divanında lap yuxarı başa keçməsini də, Dəli Domrulun islami qaydaları pozub Əzrayılla vuruşmaq fikrinə düşməsini də yola verə bilib, hamının şəksiz-şübhəsiz əməl etdiyi davranış normalarının qəfil pozulmasını məzəli bir dəlilik oyunu kimi təqdim edib. Əlbəttə, mətnin lap dərin qatındakı mahiyyət – Kamal Abdullanın nişan verdiyi mahiyyət heç də itib-batmayıb. Dəli Qarcarda, Əgrək-Səgrək qardaşları və Dəli Domrulda mağaradaşların Başçını asanlıqla qəbul edə bilməməsinin izləri, əlamətləri gizlənib. Dastanda Dəli Qarcardan fərqli olaraq, Əgrək-Səgrək qardaşları və Dəli Domrulun Dədə Qorqudla qarşı-qarşıya gəlməsini birbaşa göstərən epizodlar olmasa da, onların ipə-sapa yatmaması, əslində, Dədə Qorqud öyüd-nəsihətinə məhəl qoymamaq, dolayı şəkildə olsa da, Başçıya qulaq asmamaq, Başçıya qarşı çıxmaq xəttindən, yəni Mağara aləmindən xəbər verir.

## 2. Müstəqimlik

Dəşti-Müstəqimiyyədən başlayıb Dəşti-Məcaziyyəyə doğru gedən uzun yolu Dədə Qorqudsuz təsəvvür etmək çətindir. Dədə Qorqud bu yolun sarvanıdır, bədiipoetik-lik adlı bu yolun söz düzümü öz başlanğıcını o sarvanın dediklərin-

dən götürür.Təəccüb və Qorxu hissinin doğurduğu saysız-hesabsız suallar müqabilində Başçının söylədikləri, mif üçün ilkin nüvə, təkanverici amil olur. Mifoloji düşüncə tərzi əvvəl deyimlər şəklində ortaya çıxırsa, sonra bu deyimlər yavaş-yavaş ayrı-ayrı süjet xətlərinin yaranmasına qida verməyə başlayır. Deyimlər və süjet xətti – hər ikisi bir yerdə bu gün çox primitiv görünən bir məqsədə xidmət edir: ibtidai insanın ətraf aləm haqqında biliyini artırmaq, onu həyatın çətin sınaqlarına hazırlamaq. Deyimlərlə süjet xəttinin qarşılıqlı əlaqəsini vahid mətn daxilində izləmək bədiipoetik-liyinilkin yaranma şərtini üzə çıxarmağa imkan verir. İlkin şərti müəyyənləşdirmək bədiipoetik enerjidən bədiipoetik Təzahürə aparan yolu izləməklə mümkün olur. Kamal Abdulla belə hesab edir ki, həmin yol üç mərhələdən keçir: ştil mərhələsi, qabarma mərhələsi və partlayış mərhələsi. Ştil mərhələsində əsas şərt əhvalatın (məsələn, Beyrəyin bəzirganlara kömək etməsi əhvalatının) nağıl edilməsidir və bu nağıletmədə bədiipoetik-likdən əsər-əlamət yoxdur. Ştil mərhələsində "nə demək" vacibdirsə, qabarma mərhələsində artıq "necə demək" məsələsi azacıq da olsa, ortaya çıxır və potensial bədiipoetik enerjinin işartıları görünməyə başlayır. Qazan xanın əsirlikdə olmasından söhbət açılır və qəfildən kafir dilindən belə bir cümlə işlədilir: "Bizi ög, Oguzu sındırgil". Bu cümlədəki "sındırmaq" feli artıq qabarma elementi kimi özünü göstərir. İbtidai işlənmə məqamında məhz müstəqim məna daşıması ilə maraq doğuran bu söz çox-çox sonralar yaranacaq məcazi mənaya yol açır.

Partlayış məqamı, hər şeydən əvvəl, sinonimlər hesabına, yan-yana düzülən həmcins təyinlərin yaratdığı enerji hesabına mümkün olur. Sinonimlərin bədiipoetik-liyi ondadır ki, bu söz sırası mağaradaşın diqqətini süjetdən kənara yayındıra, əhvalat barədə informasiya axarını ləngidə bilir. Narrativ

gedişin (süjet xəttinin) qırılması və mağaradaşın diqqətinin sinonimlərə yönəlməsi potensial bədiipoetik enerjinin təzahür etməsinə bir zəmin yaratmış olur:

Ağ saqqalı mən babanı ağlatmagil!
Qarıcıq olmuş ananı bozlatmagil!

Ştil, qabarma və partlayış mərhələlərindən danışıb sinonimlər üzərində ayrıca dayanmağı vacib sayan Kamal Abdulla "ağlatmagil, bozlatmagil" misalı ilə sinonimlərin az öyrənilmiş bir cəhətinə diqqəti yönəldir: qədim hind dilində iki dil, yəni sanskrit – ayinlərin dili və prakrit – gündəlik danışıq dili varsa; Platon eyni əşyanın Allahlar və insanlar, həmçinin kişilər və qadınlar tərəfindən ayrı-ayrı sözlərlə adlandırılmasından danışırsa, onda "Dədə Qorqud" kimi qədim mətnlərdə də kişi və qadın dilindən bəhs etmək mümkündür. Dastanda kişinin "ağlama"sından, qadının isə "bozlama"sından söhbət açılırsa, demək, qadın və kişi dili, həqiqətən, diqqətdə saxlanılası, incələnib öyrəniləsi bir məsələdir. Kamal Abdulla bir çox başqa məsələlər kimi, bu məsələnin də xüsusi araşdırılması ideyasını irəli sürür.

Dəşti-Müstəqimiyyə sferasının əlamətlərindən birini Kamal Abdulla cismanilәşdirmədə görür. Doğrudan da, özünü təbiətdən ayırmayan, özündə təbiətin, təbiətdə özünün əlamətlərini görən qədim insan ən mücərrəd anlayışları belə cisim timsalında qavrayır. Belə qavrayışın əlamətlərini Kamal Abdulla "Dədə Qorqud"da tapa bilir. Onun qənaətinə görə, dastandakı "şivən girdi", "qırğın girdi", "eşqi gəldi", "uyqusu (yuxusu) gəldi", "gözüm döndü", "könlüm getdi", "şərabın istisi başına çıxdı", "yatan dağ", "soylamış görəlim, nə soylamış" kimi nümunələrdə ibtidai mifoloji dövrə məxsus bədii poetiklik var və bu bədiipoetik-lik fellərin məcazi yox, müstəqim məna bildirməsində, gözə görünməsi mümkün olmayan əşyanın görümlü təqdim edilməsindədir. Kamal Abdulla

yazır: “Təbiətə xas əşyaların canlandırılması ilə yanaşı, müxtəlif psixoloji hadisələrin adları da ayrı-ayrı boylarda cismaniləşdirilir. Məsələn, “şivən” sözünə bu mənada diqqət yetirək. Mətn deyir: “Babasına, anasına haber oldı, ap alaca ordusuna şivən girdi”.“Şivənin girməsi” müstəqim mənanın tam şəkildə özünü göstərməsidir. “Şivən”i gedən, gəzən, harasa girən, hardansa çıxan canlı məxluq kimi təsvir etmək ona insana xas xüsusiyyətlər verməkdir. Onu hərəkətdə görməkdir. Onu canlı təsəvvür etmədir. Deməli, onun bədiipoetik-lik potensialını canlandırmaqdır... Beləliklə, deyə bilərik ki, bu şəkildə müstəqimliyin nümayişi qədim insanın obrazlı düşüncə tərzinə malik olmasının işarəsidir. Onu təkcə gördüyünü deyil, görmədiyini də mətnə salmaq yönündən səciyyələndirir... Dağın yatması, sözün görünməsi, şivənin, qırğının harasa girməsi, eşqin gəlməsi, şərabın başa çıxması və bu kimi başqa cismaniləşdirilmə məqamlarının “Kitabi-Dədə Qorqud” mətninin mifoloji qatına (bədiipoetik dəyərlər sisteminə) aidolmaları şübhəsizdir”. Kamal Abdulla bu mülahizələrlə bir tərəfdən, personifikasiyanı bədiipoetik-liyin bir göstəricisi kimi əsaslandırıb ortaya qoyursa, digər tərəfdən “Dədə Qorqud”-dan gətirilən nümunələrin çağdaş dilimizdəki nümunələrlə tutuşdurulması və cismaniləşdirmənin həmin müstəvidə araşdırılması perspektivini açır. Yadımıza salır ki, bügünkü Azərbaycan dilindən mücərrəd anlayışların, məsələn, söz anlayışının bir əşya kimi görümlü təqdim edilməsinə çoxlu misallar çəkmək olar. Sadəcə, bu barədə düşünmək lazımdır. Düşünsən misallar öz-özünə tapılar: sözə baxmaq, yaxud baxmamaq, sözün yeri, sözün canı (sözümün canı budur ki...), sözün boynuna ip salmaq, sözü yayındırmaq, sözün üstündə durmaq, öz sözünü göyərtmək, sözü hörmətə mindirmək, yaxud hörmətdən salmaq, sözü yerə salmaq, yaxud salmamaq, sözü xırdalamaq, sözü ağızda saxlamaq, sözü ağızdan çıxarmaq,

sözü bişirmək, sözü kəsmək, sözü göydə tutmaq və s. və i.a. nümunələrdə söz əşya kimi, canlı insan, heyvan və ya bitki kimi görümlü deyilmi? Əlbəttə, elədir və Kamal Abdullanın bu yöndə söylədikləri filoloji elmimiz üçün çox faydalıdır.

İbtidai mifoloji düşüncəyə xas bədiipoetik-lik sistemini araşdıran Kamal Abdulla müstəqimlikdən məcaziliyə doğru gedən tədrici dəyişmə xəttini də izləməyi yaddan çıxarmır. Başqa məsələlərdə olduğu kimi, bu məsələdə də Kamal Abdulla Dastanın öz dediyinə qulaq asır, hər şeydən qabaq, mətnin diktə elədiyi səciyyəvi faktdan yapışır. Bu fakt "kimi" bənzətmə qoşmasının tədrici doğulma faktıdır: "Bayındır Hanın karşusunda Kara Gönə oğlu Kara Budak yay tayanup turmiş idi". Kamal Abdullanın fikrincə, bu misalda Qara Budağın yaya bənzədilməsindən yox, Qara Budağın müstəqim mənada yaya dönməsindən bəhs olunur. Məcazlaşma özünü göstərmədiyinə görə həmin nümunədə "kimi" bənzətmə qoşmasının yalnız potensial enerjisini hiss etmək olar.

"İki pəhlivan olub bir-birinə sarmaşdılar". Kamal Abdullanın fikrincə, "iki pəhlivan olub" ifadəsi "iki pəhlivan kimi" ifadəsini xatırlatsa da, əslində nümunə hələ ki, məcazlaşmadan uzaqdır.

Sən sağ ol, kadın ana, babam sağ olsun,
Bir mənim gibi oğul bulunmazmı olur?!

Kamal Abdullanın fikrincə, "kimi" qoşmasının zəif təzahürü burada iki obyektin müqayisə olunmasından danışmağa tam əsas vermir, çünki Uruz bu sözləri anasına deyərkən bir başqasını nəzərdə tutmur, özünü nəzərdə tutur. Uruz düşünür və inanır ki, bir başqası deyil, məhz onun özü yenidən dünyaya gələcək, ata-anasına yenidən oğulluq edəcək.

"Buğa dizin çökdi, buynuzı ilə bir mərmər taşı yoğurdı, peynir kimi ditdi". Kamal Abdullanın fikrincə, bu nümunədəki "peynir kimi ditmək" artıq tam olaraq klassik bədiilik

nişanəsidir və Dastanın Dəşti-Məcaziyyə qatına aiddir. Amma bu klassik bədiilik nişanəsi eyni cümlə daxilində müstəqimlik nişanəsi ("buğa buynuzu ilə bir mərmər taşı yoğurdı") ilə yanaşıdır, dinc qonşuluq münasibətindədir. Və bu münasibət Dastanda ibtidai mifoloji "obrazlılıq"dan klassik obrazlılığa keçidin bir sintaktik bütöv daxilində əyani göstəricisidir.

İbtidai "obrazlılığ"ın klassik obrazlılığa mühüm bir mənbə olmasını çağdaş ədəbiyyatın arxaiklik axtarışları daha qabarıq göstərir. Çağdaş yazıçı öz mətnini məntiqi və modeli üzrə qurmağa çalışır; alleqoriyanı bir qırağa qoyub qurdu-quşu, iti-pişiyi, Allahın siçovulunu (rəhmətlik Yusif Səmədoğlunun Kirlikiri yada düşür!) dil bilən, dərd anlayan varlıq olaraq qələmə alır; dağın-daşın "sanki" nəfəs almasından yox, "həqiqətən" nəfəs almasından söhbət açır. Özünü qədim insanın yerinə qoyub bugünkü məcazi anlayışları tam müstəqim mənada təqdim etmək (məsələn, yuxunun gəlməsinə, yaxud qaçmasına, sözün gözlə görünməsinə, dağın şirin-şirin yatmasına inanmaq) və bunu mətnə gətirmək danılmaz bədiilik effekti yaradır.

## 3. Xaosdan Kosmosa

"Kimi" qoşmasının metamarfozası ilə tanışlıq bir daha əminlik yaradır ki, Kamal Abdulla müstəqimlikdən məcaziliyə doğru gedən yolu izləyib Dəşti-Məcaziyyənin sərhəddində dayanır, sərhəd nöqtəsində durub geriyə baxır, bütün diqqətini Dəşti-Müstəqimiyyəyə yönəldir və oxucunu da öz ardınca o sehrli zaman və məkana aparır. Dəşti-Müstəqimiyyəyə diqqət kəsilməkdə Kamal Abdullanın əsas qayğılarından biri o sehrli zaman-məkanın əks-sədası olan "Dədə Qorqud"un fəlsəfəsini duymaq, bu qədim mətnin aparıcı ideya və pafosunu üzə çıxarmaqdır. Kamal Abdulla yazır: "O ideya-

pafos bundan ibarətdir: özünün hər bir təzahürü ilə, hər potensial, yaxud real mövcudiyyəti ilə, mətnin hər səviyyəsində Xaosdan Kosmosa keçidin var olmasını göstərmək, bu keçidin bərqərar olmasına xidmət etmək!.. "Kitabi-Dədə Qorqud" mətninə əsaslanaraq bizdə belə bir inam formalaşmışdır ki, bu mətnin hər bir qatında və səviyyəsində əsas, aparıcı ideya olan Xaosdan Kosmosa keçid özünün ən müxtəlif variasiyalarında modelləşir". Dastanın məzmun qatında Xaosdan Kosmosa keçidin ən qabarıq ifadəsini Kamal Abdulla "Basat" boyunda – insanın təbiətdən ayrılıb mədəni cəmiyyətə qovuşma xəttində görür. Aslan südü ilə bəslənmiş və təbiətin bir parçasına çevrilmiş Basatı təbiətdən ayırıb cəmiyyətə qovuşdurmaq heç də asan başa gəlmir. Təbiət-cəmiyyət (Xaos-Kosmos) qarşıdurmasının sona çatması, Təpəgöz-Basat döyüşündə mümkün olur: "Təpəgözün başını kəsməklə Basat özü-özünü təbiətə dönüş xəttindən birmənalı şəkildə və birdəfəlik təcrid edir. Başqa sözlə, Təbiətlə bağlı keçmişini taleyindən birdəfəlik kəsib atır. Belə demək mümkündürsə mənəvi azadlığına qovuşur, Kosmos (Cəmiyyət) Xaosa (Təbiətə) qalib gəlir. Amma bu halında belə Təbiət (Xaos) məhv olmur, o, yaşamına davam edir. O, sadəcə, məğlub olur, məhv olmur. Beləliklə, primitiv (ibtidai-M.K.) insanın özünü təbiətin bir üzvü kimi dərk etdiyi autentik mif dövrü qədim mətnimizdə bu cür simvolik şəkildə bədiipoetik-ləşdirilmiş inikasını tapır". Obrazlı danışmaq baxımından Kamal Abdulla "Dansökülən"i üçün az-çox səciyyəvi olan bu parçada Kosmosun Xaosu məhv etməsi haqda mövcud mülahizələrin yanlışlığını göstərmək məsələnin bir tərəfidirsə, məsələnin başqa, bəlkə də, daha vacib tərəfi, Kosmos-Xaos qarşıdurmasının Dastan mətninin arxitektonikası ilə əlaqələndirilməsidir. Bu əlaqələndirmədə Mətn-Ozan münasibətləri xüsusi olaraq nəzərə alınır. Belə hesab edilir ki, mətndə yaranmış xaotikliyi məhz Ozan

nizama sala bilir. Mətndə xaotikliyi yaradan, hər şeydən qabaq, sürətdir, əhvalatların dalbadal, iç-içə danışılmasının tempidir. Mətnin qurulmasında Ozanın nizamlayıcı tədbirlərindən biri Mətnin sürətini azaltmaq, əhvalatların bir-birinə qarışıb nizamsızlıq, anlaşılmazlıq yaratmasının qarşısını almaqdır. Bu məqsədlə Ozan xüsusi sahmanlayıcı ünsürlərdən, müxtəlif növ təkrarlardan istifadə etməli olur.

Sahmanlayıcı ünsürlərin başlıca funksiyasını Kamal Abdulla eyni vaxtda baş vermiş hadisələrin məkan etibarilə bir-birindən ayrılmasında görür və arxaik düşüncə üçün səciyyəvi olan zaman-məkan birliyi, birgəliyi və ayrılmazlığı məsələsinə toxunur. O, "qarşı yatan Ala dağ" ifadəsində hərəkətdə olan zamanla hərəkətsiz məkanın mifoloji baxımdan bir yerdə olmasını xronotop faktı olaraq dəyərləndirdiyi kimi, eyni zaman çərçivəsində baş verən hadisələrin ən qədim variantında, yəni sahmanlayıcı ünsürlərin araya girmədiyi ilkin variantda zaman funksiyası ilə məkan funksiyasının birlikdə təzahür etməsi məqamını da diqqətə çatdırmağı vacib bilir. Eyni zamanlı hadisələrin mətndə bir-birindən ayrılmasını təmin edən ünsürlərə gəlincə, Kamal Abdulla həmin ünsürlərdən üç leksik nümunə üzərində dayanır: məgər, bu (ol) mahalda, bu yanadan (bu yana).

Bəylər Dədə Qorqudu elçiliyə göndərirlər. Onlar qızın qardaşı Dəli Qarcardan çəkinən Dədə Qorquda "nagah qaçma-qovma olarsa" aradan çıxa bilsin deyə iki at verirlər. Dədəni elçiliyə yola salma epizodunun təsviri burdaca bitir və Ozan bizi dərhal Dəli Qarcarın məkanına atır: "Məgər, sultanım, Dəlü Karcar dahı ağ ban ivini, ağ otağını kara yirün üzərinə kurdurmış idi". Dədə Qorqudun yola salınması ilə Dəli Qarcarın ağ ban ev, ağ otaq qurdurması eyni vaxt içində baş verən hadisələrdir. Məkanca fərqlənən bu hadisələri Ozan "məgər" sahmanlayıcı ünsürü vasitəsilə bir-birindən ayırır.

"Bu mahalda" ünsürü öz sahmanlayıcı funksiyasını həm eyni zaman, həm də eyni məkan daxilində baş verən əhvalatların ardıcıllığını təmin etməklə yerinə yetirir. "Bu mahalda" ünsürünün işləndiyi səciyyəvi məqam igidin dara düşməsi və başqa igidlərin köməyə gəlməsi məqamıdır. Dar ayaqdakı igidin vəziyyətini göstərən epizodla başqa igidlərin gəlməsini göstərən epizodun ardıcıllığını və yaxud həmin epizodların yerbəyer olub bir-birinə qarışmamasını təmin etmək üçün Ozan "bu mahalda" ünsürünü işlətməyə ehtiyac duyur: "Yumru-yumru ağladı. Yanuk cigərçügini tağladı. Bu mahalda, sultanım, Salur Kazan iləm Karaca Çoban çapar yetdi".

Ölüm ayağındakı Uruzun pərişan halının təsviri ilə Qazan xan və Qaraca Çobanın köməyə gəlməsinin təsviri eyni zaman və eyni məkan daxilində baş verən əhvalatların təsviridir. Bu təsvirlər "bu mahalda" ünsürü vasitəsilə sahmana salınır.

"Bu yana" ünsürü funksiyaca "məgər" ünsürünə yaxındır. "Məgər" kimi "bu yana" ünsürünü də işlətməklə Ozan eyni zaman içərisində baş verən hadisələrdən birinin təsvirini başqa bir məkana köçürür: "Allah mənim ivümi kurtaraçak olur isə səni əmirahur eyləyəlin didi. İkisi də yola girdi. Bu yana Şökli Məlik kafirlər ilə şin şadman yiyip içüp oturur idi". Əsirləri qurtarmaq üçün Qazan xanla Qaraça Çobanın kafir düşərgəsinə yola düşməsi Şöklü Məliyin yeyib-içib şadyanalıq etməsi ilə eyni vaxta düşür. Eyni vaxta düşən bu əhvalatlar yalnız məkanca bir-birindən ayrıdır. Həmin təsvir ayrılığında keçid nöqtəsi "bu yana" ünsürüdür.

Yığcam məğzini çatdırmaq istədiyimiz bütün bu müşahidə və mülahizələr, təbii ki, Kamal Abdullaya məxsusdur.

## 4. Təzahür və Təzahürsüzlük

Sahmanlayıcı ünsürlərlə bağlı mülahizələrdə Təzahürsüzlük məsələsi də var və onun üstündən səssiz-səmirsiz keçmək çətindir. Sahmanlayıcı ünsürlərdən danışarkən Kamal Abdulla kitab boyu diqqətdə saxladığı Təzahür və Təzahürsüzlük məsələsinə yenidən qayıdır, təsvir olunmayanın bəzən təsvir olunandan daha artıq effekt yaratmasını Dastanda bədiipoetik-lik faktı kimi dəyərləndirir. Dəyərləndirmənin mahiyyəti aydın olsun deyə "məgər" ünsürünün işlənmə yerini bir də yadımıza salaq: bu ünsür iki ayrı-ayrı təsvirin arasında işlənir. Amma bəzən "məgər"i boyun lap əvvəlində də görürük. Artıq bu halda "məgər" ünsürünün sağ tərəfi dolu, sol tərəfi isə boş olur. Kamal Abdulla oxucunu inandırır ki, "məgər"dən əvvəlki o boş yer mətndən kənar hansısa başqa mətnin olmasından soraq verir: "Məgər, hanum, Tırabuzan təküri biglər bigi olan Han Kazana bir şahin göndərmiş idi". "Salur Qazan əsir olub oğlu Uruz çıxardığı boy"un belə başlanması, Kamal Abdullanın qənaətinə görə, semiotik məna daşıyır və Mətnin dil vasitəsilə başlanmasından əvvəl bir ontoloji başlanğıcın olmasına işarə kimi özünü göstərir.

Sahmanlayıcı ünsürlərlə bağlı Təzahürsüzlüyün başqa bir nümunəsi də, Kamal Abdullanın fikrincə, sahmanlayıcı ünsürün mətndə gözə görünmədən, özünü büruzə vermədən funksiyasını yerinə yetirməsidir: "...Məni sevən yigitlər binsinlər didi. Bazirgan dahı önlərinə düşdi, kulağuz oldı. Kafir dahı düşübən bir yirdə akça üləşməkdə-y-idi". Mətndən bəlli olan budur ki, Beyrək bəzirganların gətirdiyi malı quldurların əlindən almaq üçün öz silahdaşları ilə atlanıb yola düşür və bəzirganlardan biri yolda onlara bələdçilik edir. Yola düşmə epizodu burdaca bitir və Ozan dərhal kafir düşərgəsinin təsvirinə keçir. Təsvirlər arasında sahmanlayıcı ünsür (tutalım,

“məgər” ünsürü) işlənməsə də, bu cür Təzahürsüzlük faktı mətndə xaotikliyin aradan qaldırılmasında və nizamın bərqərar olmasında Təzahür faktı qədər xüsusi rol oynayır. “Təzahürsüz quruluş”la bağlı bütün bu mülahizələrini Kamal Abdulla şifahi söyləyicilik ənənəsinə əsaslanıb irəli sürür: “Büruzə prosesi bu ünsürü (sahmanlayıcı ünsürü – M.K.) Təzahür şəraitinə buraxmır. Onun “bərpa”sı, yəni Təzahürü artıq dinləyicinin iradəsindən asılıdır və şifahi ünsiyyət prosesində intonasiya, temp, deyiliş tərzinin köməyilə anındaca baş verə bilir. “Sıfır” variantlı sahmanlayıcı məqam şifahi danışıq sferasının reallığı kimi mətnlə dinləyicinin kontaktını daha sıx etməklə yanaşı, mətnin arxitektonikasının əhəmiyyətli bir məqamının şifahi, ekstralinqvistik amillər hesabına da başa gələ bilməsini göstərir. Bununla ... autentik mif mətni özünü dinləyicisi və həmyaradıcısı olan qədim insana daha da yaxınlaşdırır”. Yeri gəlmişkən qeyd edək ki, Kamal Abdulla “Dədə Qorqud” və autentik mif əlaqələrinin dərin qatlarına enmək üçün şifahi söyləyicilik prosesində Ozanın mövqeyini xüsusi olaraq nəzərə alır. Ozanın bəzən “bu mahalda” ünsürünü “ol mahalda” şəklində, “bu yana” ünsürünü isə “ol yana” şəklində işlətməsini Kamal Abdulla ifaçı Ozanla danışılan əhvalat arasında müəyyən distansiya yaratmaq, təsvir olunanlardan Ozanın zaman və məkanca uzaqda olmasını göstərmək funksiyası ilə əlaqələndirir. Kamal Abdulla belə bir funksiyanın arxaik mətnlər üçün səciyyəvi olduğunu xüsusi vurğulayır, təsvir edilən hadisələrin içində olmamağı həmin mətnlərdə söyləyici mövqeyinin mühüm əlamətlərindən biri kimi diqqətə çatdırır.

“Dədə Qorqud”un autentik mifdən gələn xətlərini Ozan və dinləyici müstəvisində araşdırarkən Kamal Abdulla ritual mahiyyətli dialoqları, Təzahürlü və Təzahürsüz sualları ayrıca təhlil predmetinə çevirməyə zəruri ehtiyac duyur. Və belə

hesab edir ki, "Yağı nəyə deyirlər? Can alan Allah-taalamıdır?" tipli sadəlövh suallar həm qurulma mexanizminə görə, həm narrativlik sürətini azaldıb dinləyicinin diqqətini başqa bir nöqtəyə yönəltməsinə görə, həm də kosmik nizama rəvac verib, imkan yaratmasına görə ibtidai bədiipoetik sistemin üzvi tərkib hissəsidir.

## 5. Deyilənə bir də qayıtmaq

İbtidai bədiipoetik sistemə daxil olan ünsür, vasitə və üsulların bir funksiyasını da "dil xəstəliyi"ni dəf etməklə əlaqələndirən Kamal Abdulla bu yöndə elmi araşdırmalarını daha çox sinonimlər və təkrarlar əsasında aparır: "Qara-qara dağlardan xəbər aşmış. Qanlı-qanlı sulardan xəbər keçmiş. Dəmir Qapı Dərvəndindən xəbər varmış". "Xəbər" elementinin hər dəfə təkrar olunduqca bir felə qoşulub sinonimlik yaratması öz fikrini ifadə edərkən yeni söz tapmağa çətinlik çəkən qədim insanın bu məqamda "dil xəstəliyi"ni dəf edə bilməsi deməkdir. Əlbəttə, Kamal Abdulla autentik mifdə təkrarların funksiyasını "dil xəstəliyi"ni aradan qaldırmaq cəhdi ilə məhdudlaşdırmır. Kamal Abdulla təkrarların başqa funksiyasını mağaradaşa diksindirici təsir göstərib informasiyanı onun yaddaşına həkk etməkdə görür. Kamal Abdullanın fikrincə, səs, söz, söz birləşməsi, cümlə, situasiya və boy sonluqlarının təkrarı kimi müxtəlif növlərə ayrılan təkrarlar ibtidai bədiipoetik quruluşun əsas vasitəsidir və təkrarların ən başlıca funksiyası məhz bu nöqtədə axtarılmalıdır. Kamal Abdullanın bu yöndə həm dilçi, həm də ədəbiyyatşünas kimi axtarışları ciddi elmi tapıntılarla nəticələnir. Tapıntılardan biri autentik mif mətninin strukturunda təkrarların yerini və rolunu incəliyinəcən açıb göstərməkdə, dastan mətnindəki arxitektonik təkrarları aşkara çıxarmaqdadır.

Həmin arxitektonik təkrarlardan yalnız biri – cümlə üzərində dayansaq, qeyd etməliyik ki, təkrar kompleksinin canı olan qayıdış amilini Kamal Abdulla cümlə üçün də əsas şərtlərdən sayır: "Cümləni başlayan mübtəda – subyektin əlaməti cümlənin sonunda xəbər – predikatda hansısa dəyişilmiş şəkildə təkrar edilir, yəni sonda cümlənin əvvəlinə qayıdış baş verir (məsələn, "sən gəlirsən" cümləsində *-sən* şəxs sonluğu cümlənin əvvəlinə qayıdışın bir göstəricisidir – M.K.). Bu ideyanı izomorfizm əsasında cümlədən böyük birliyə –mürəkkəb sintaktik bütövə də tətbiq etmək olar. Onun sərhədlərini dəqiq müəyyənləşdirməyə yenə də qayıdış ideyası kömək edir. Mürəkkəb sintaktik bütövün sonunda onun əvvəlinin ümumi məzmun və ideyası təkrar edilir, yenə də təkrarın son komponenti diqqəti əvvələ qaytarır". Arxitektonik vahid kimi cümlə mifoloji mətndə iki şeyə can atır: daxili quruluşunu qoruyub saxlamağa; özündən qabaqkı və sonrakı cümlələrə bənzəyib onlarla qaynayıb-qarışmağa. Hər iki prosesdə cümlə təkrarsız ötüşə bilmir. Cümlənin sözbəsöz təkrarı çağdaş bədii mətnlər üçün səciyyəvidirsə, cümlənin quruluşca, yəni cümlə üzvlərinin düzülüşünə görə təkrarı arxaik mətnlər üçün səciyyəvidir. Mağara ruhundan, Başçı – mağaradaş sual-cavabından xəbər verən və bu yazının əvvəlində artıq xatırladılan iki cümlə, quruluşca təkrarın bir örnəyidir: "Ölən adam dirilməz. Çıxan can geri gəlməz". Sintaktik təkrar və yaxud sintaktik paralelizm adlı bu dilçilik aktına Kamal Abdulla belə şərh verir: "Bu təkrarın leksik göstəriciləri yoxdur. Sanki təkrar, işıqları sönmüş maşın kimi, qaranlıqda hərəkət edir. Sintaktik quruluşun bu şəkildə təkrar edilməsi onun daha qədimliyinə dəlalət edir. İlk əvvəl belə təkrar intuitiv və dərkedilməmiş şəkildə özünü göstərir. Bu təkrar, bir növ, ibtidai, "vəhşi" təkrardır və o, klassik poetik dövrdə – Dəşti-Məcaziyyədə öz "əhliləşmə"sini – bədiiləşməsini gözləyir".

Dəşti-Müstəqimiyyəyə xas "vəhşi" ünsürlərin tam "əhliləşib" Dəşti-Məcaziyyə malı olması, söz yox ki, mifin sonu olardı. Ona görə də mif bu "əhliləşmə"yə, yəni bədiipoetikliyə qarşı yasaqlar qurur. Yasaqların qurulmasına cəlb edilən arxitektonik ünsürlərin ön cərgəsində yenə təkrarları görürük:

Qaza bənzər kızımın, gəlinimin çıçəgi oğul!
Görür gözüm aydını oğul!
Tutar belüm küvvəti oğul!
Kalın Oğuz imrəncəsi canum oğul!

Bu parçadakı "oğul" təkrarı, Kamal Abdullanın fikrincə, sinonim təyinlərin arasına girib bədiipoetik Təzahürə gətirib çıxaran Partlayışın qarşısını alır. Amma yasaqlar bununla bitmir.

## 6. Oyun

Bədiipoetik-liyə qarşı qurulan yasaqlar Dəşti-Məcaziyyənin ab-havasını duyan söyləyici Ozanı fəallaşdırır və o, mifin yasaqları müqabilində öz yasaqlarını qurmağa başlayır. Kamal Abdullanın "reallığa yasaqlar" adlandırdığı bu qadağa tipində bir oyun mexanizmi var. Sual-cavab ritual mahiyyətli olub Kahin-Mağaradaş münasibətindən xəbər verdiyi kimi, mətndə söz oyunu da ibtidai insanın arxaik düşüncə və davranış tərzindən xəbər verir. Hoyzinqanın dövr etibarilə oyunu ritualdan da qədim anlayış hesab etməsinə əsaslanıb Kamal Abdullaya belə bir məsələdə də haqq qazandırmalı oluruq ki, mətndə həqiqəti gizlətmək oyunu Dəşti-Müstəqimiyyədən Dəşti-Məcaziyyəyə tədrici keçidin bir əlamətidir: "Gizlətmək – Müstəqimlikdən qaçış üçün ilk addımların atılması deməkdir. Gizlətmək – Dəşti-Müstəqimiyyədən birbaşa Dəşti-Məcaziyyəyənin astanasında gəlib dayanmaq deməkdir". Məhz "astanasında". Ona görə ki, həqiqətin gizlədilməsi üçün qurulan söz oyunu hələ Dəşti-Məcaziyyədəki

obrazlılıqla tam üst-üstə düşmür. Selcan xatun Qanturalını görüb onu sevir. Mətndə bu sevgi öz ifadəsini belə tapır: “Selcan Hatun bunı böylə gördi, içinə od düşdü”. Kamal Abdulla bu fikirdədir ki, “od düşdü” burda məcazi yox, müstəqim mənadadır. Müstəqim mənada olan bu ifadə müstəqim mənalı sevmək mətləbini gizlətməyə xidmət edir. Necə ki, “Oğuzdan yinə bizə bir turfanda kuzı gəldi” cümləsində – Təpəgözün dilindən söylənən bu nümunədə “Beyrək” adı “quzu” sözü ilə əvəz olunur. Bu nümunədə də “quzu” metonimiya nümunəsi deyil, sadəcə, adın gizlədilməsi, basqa adla əvəz olunmasıdır. Adın gizlədilib-gizlədilməməsi arxaik tabu sistemi ilə bağlıdır – bu öz yerində. Amma mətləbin gizlədilib, sözün sözlə, ifadənin başqa ifadə ilə əvəzlənməsi, Kamal Abdullanın qənaətinə görə, məcazlaşmaya doğru atılan bir addımdır.

## 7. Dansökülən, Günortac və Qürub

Kamal Abdullanın “Kitabi-Dədə Qorqud” poetikasına giriş. Dansökülən variant” kitabı haqqında qeydlərimizi belə yekunlaşdırmaq istəyirik: irəlidə Dəşti-Məcaziyyənin olduğunu unutmamaq şərtilə bütün diqqəti Dəşti-Müstəqimiyyə adlı zaman-məkana yönəldən, immanent təhlil üsulu ilə bu zaman-məkanın daxilində nə varsa onu “Dədə Qorqud” əsasında incələyib üzə çıxaran və üzə çıxardıqlarının konturlarını cızıb əsaslı sistemini yaradan Kamal Abdulla “Dədə Qorqud”la bağlı yeni söz deyib, qorqudşünaslıq tarixində özünəməxsus səhifəyə imza atıb. Kamal Abdulla Dansökülən variantdan sonra Günortac və Qürub varintlarını da yazmaq, “Dədə Qorqud”u tarixi dövrün başlanğıcına və klassik yazı dövrünə bağlayan ana xətləri də ciddi elmi müstəvidə üzə çıxarmaq niyyətindədir. Uğur olsun!

## ELMİ ƏSƏR YAZIÇI TƏRCÜMƏSİNDƏ

Yazıçı Etimad Başkeçid dünya ədəbiyyatından dilimizə çevirmələrin dalınca ciddi bir elmi əsərin tərcüməsi ilə məşğul olursa, burada təəccüb doğuracaq bir şey yoxdur. Məsələ burasındadır ki, Etimad Başkeçid bir müddət Bakı Slavyan Universitetində "Tərcümə nəzəriyyəsi və praktikası" kafedrasına başçılıq edib və həmin Universitetdə akademik Kamal Abdullanın başladığı son dərəcə əhəmiyyətli işin davam etdirilməsinə can yandıran qələm sahiblərindən biri olub. Akademik Kamal Abdullanın başladığı o iş məhz tərcümə işi idi, dünya ədəbiyyatının və dünya humanitar elminin sayılıb-seçilən nümunələrini dilimizə peşəkarcasına çevirmək o vacib işdə başlıca məqsəd və məram kimi nəzərdə tutulurdu. Məqsəd və marama uyğun olaraq Bakı Slavyan Universitetində az vaxtda bir sıra qiymətli əsərlər tərcümə edildi və nəşr olundu. Bu gün Azərbaycan Tərcümə Mərkəzində çalışan Etimad Başkeçidin həmin Mərkəzdə dilimizə çevirib çap etdirdiyi ciddi elmi əsər "Xalq qəhrəmanlıq eposu"dur. Görkəmli dilçi və ədəbiyyatşünas Viktor Jirmunskinin (1891-1971) bu gün də aktuallığını itirməyən həmin əsərini dilimizə çevirməkdə ruscanı mükəmməl bilmək tələbi ilə yanaşı, bəzi başqa tələblər də ortaya çıxırdı: eposun nə demək olduğunu qəlbən duymaq, epos barədəki elmi ədəbiyyata az-çox bələd olmaq. Aşıq Əmrah, Aşıq Kamandar, Aşıq Hüseyn Saraclı kimi ustad dastan ifaçılarının ana yurdu olan Borçalıda boya-başa çatması Etimad Başkeçidə bəs edib ki, eposun nə demək olduğunu qəlbən duya bilsin. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun dissertantı olmaq isə Etimad Başkeçidə folklorun nəzəriyyəsinə, o cümlədən dastan poetikasına az-çox bələd olmaq imkanı verib. Və nəticədə Etimad Başkeçid – bu gün Tərcümə Mərkəzində çalışan dostumuz "Xalq qəhrə-

manlıq eposu" əsərinin dilimizə tərcüməsini başa çatdırıb. Düzdür, folklorşünaslığa aid bir çox ifadələrin tərcüməsində qarşıya çətinliklər də çıxıb, amma əsas işin öhdəsindən gəlmək mümkün olub. Əsas iş, əsas məsələ cümləni düzgün qurmaq, fikri oxucuya dəqiq çatdırmaqdır. Elmi əsərlərdə bu sarıdan heç də həmişə ürək açan mənzərənin şahidi olmadığımız bir şəraitdə Etimad Başkeçid rusca yazılmış ciddi elmi əsəri Azərbaycan türkcəsində səsləndirə bilib.

V.Jirmunskidən və onun "Xalq qəhrəmanlıq eposu" əsərindən qısaca danışmaq istəsək, hər şeydən qabaq, bu görkəmli alimin müqayisəli ədəbiyyatşünaslıq sahəsindəki xidmətini xatırlatmalıyıq. Qeyd etməliyik ki, V.Jirmunski dünya ədəbiyyatını vahid ədəbi proses müstəvisində araşdıran, dünya xalqlarının folklorunda ortaq cəhətlərin olmasını qarşılıqlı təsirdən daha çox sosial-etnoqrafik mühitin, həyat və düşüncə tərzinin oxşarlığında axtaran alimlərdəndir. O alimlərdəndir ki, Qərblə Şərqin tam fərqli mədəni məkanlar olması qənaətini qəbul etmək istəmir. V.Jirmunski bir vaxtlar şair Kiplinqin dediyi:

Bəli, Qərb Qərbdir, Şərq də Şərq,
Və onlar heç vaxt qovuşmazlar –

sözlərini yanlış bir fikrin ifadəsi sayır və bu fikrin yanlışlığını Şərq və Qərb qəhrəmanlıq eposlarının timsalında bir daha sübuta yetirməyə çalışır. Şərq – Qərb oxşarlığı və ortaqlığını əsaslandırmaqda V.Jirmunskinin üz tutduğu mühüm faktlar sırasında beynəlxalq obraz, motiv və süjetlər xüsusi yer tutur. Məğlubedilməz qəhrəman, sehrli at və sehrli qılıncla bağlı epos motivlərinin hind-Avropa mənşəli olmasına dair mülahizələri birtərəfli mülahizələr kimi qiymətləndirən alim diqqəti Şərq folkloruna, xüsusən də türk və monqol eposlarına yönəldir və qeyd etdiyimiz motivlərin bu xalqlara məxsus dastanlarda daha əhatəli şəkildə əks olunmasını səciyyəvi

misallarla ortaya qoyur. Bu, həmin "əhatəlilik" məsələsidir ki, vaxtilə yunan Polifemi ilə oğuz Təpəgözünü müqayisə edərkən almaq şərqşünası Fridrix fon Ditsin də diqqətini cəlb etmişdi. Yunan hekayətindən fərqli olaraq, oğuz hekayətində qeyri-adi varlığın doğulandan ölənə qədərki həyatının əhatəli təsvir edilməsinə əsaslanan Fridrix fon Dits Təpəgözü Polifemdən daha ilkin obraz saymışdı. Fridrix fon Dits kimi, Viktor Jirmunski də "Dədə Qorqud"dan və bütövlükdə türk eposundan böyük ehtiramla danışır. Ən başlıcası isə odur ki, V.Jirmunski dünya eposunun arxaik qatlarını dərindən və hərtərəfli öyrənməkdə türk nağıl və dastanlarının mühüm əhəmiyyət daşımasını xüsusi olaraq vurğulayır. Qərb eposunu Şərq eposu ilə qarşılıqlı əlaqədə araşdırmaq V.Jirmunskinin ümumiləşdirmələr aparıb mühüm qənaətlərə gəlmək imkanını xeyli dərəcədə artırır. Alimin Şərq və Qərb eposları ilə bağlı müşahidə və mülahizələri bu günün özündə dastan qəhrəmanları ətrafında gedən mübahisələrin sağlam məcraya yönəlməsinə öz təsirini göstərir. Bu gün bizdə müzakirə və mübahisə hədəfinə çevrilən dastan qəhrəmanlarından biri Koroğludur. Koroğluda triksterlik (yeri gəldikcə hiyləyə əlatma) əlamətləri, Koroğlunun yarıciddi-yarızarafat tərzdə "igidlik ondur, doqquzu qaçmaq" deməsi, ayrı-ayrı vilayətlərdən hökmdar qızlarını götürüb aparması bir çox hallarda düzgün anlaşılmır. Bu anlaşılmazlığın başlıca səbəbi epos qayda-qanununu lazımınca nəzərə almamaqda, Koroğluya uzaq keçmişin yox, bu günün gözü ilə baxmaqda, Koroğlunu bugünkü milli qəhrəman ölçü-biçisində görməkdədir. Ağıl işlədib düşmənə kələk gəlməyin arxaik düşüncədə güc-qüvvət işarəsi olması barədə az-çox söhbət açıldığına görə qızqaçırma məsələsinə ötəri toxunmaqla kifayətlənmək istəyirəm. Əvvəla, onu xatırladıram ki, Qərbi Avropa və Cənubi slavyan eposundan qızqaçırma motivini əks etdirən və V.Jirmunskinin də diqqətini

cəlb edən neçə-neçə epizoda əsaslanıb, bu motivin yalnız Şərq yox, həm də Qərb üçün səciyyəvi olmasına inanmaq lazımdır. Qəhrəmanlıq eposunda tez-tez qarşılaşdığımız qız-qaçırma motivinin arxaik mahiyyətinə varmaq üçünsə həmin motivin nağıllardakı semantikasını nəzərə almaq kifayətdir. Nağıllarda gözəlləri qaçırıb əsir-yesir edən divlər, əjdahalardır. Həm div, həm də əjdaha ölümün rəmzidir. Divin və əjdahanın gözəli qaçırması ölümün gözəli götürüb aparması mənasındadır. Amma belə mənalandırmaya əsaslanıb epos qəhrəmanını da ölüm rəmzi saysaq, əlbəttə, səhvə yol vermiş olarıq. Heç şübhəsiz, epos qəhrəmanı ölümə qarşı çıxan qəhrəmandır. Onun hansısa yad eldən gözəli qaçırması gözəli ölümün caynağından qurtarması deməkdir. Qəhrəmanın nağılda gözəli divin əlindən, yaxud əjdahanın ağzından xilas etməsi nədirsə, qəhrəmanın eposda gözəli zalım hökmdar sarayından götürüb aparması da arxaik mənasına görə odur. Belə olmasaydı, yəni epos qəhrəmanı xilasetmə funksiyası daşımasaydı, gözəl, namə göndərib epos qəhrəmanına "əgər igidsənsə, gəl apar məni" deməzdi.

"Xalq qəhrəmanlıq eposu" bir tərəfdən səyyar motivlərin bu cür araşdırılması üçün zəngin elmi mənbə rolunu oynayırsa, başqa bir tərəfdən diqqəti az öyrənilmiş məsələlərə yönəldir. Söyləyicilik məsələsi belə məsələlər sırasındadır. Dastanı söyləyən el sənətkarı kimdir, o necə yetişir, hansı forma, üsul və vasitələr hesabına dastan ifaçılığının incəliklərinə vara bilir? Söyləyicilik məsələsini öyrənmək bu tipdə suallara elmi cavab verməkdən keçir. Sualların ən düzgün cavabı isə söyləyici dediyimiz el sənətkarının özündədir. Avropada bu sənətkar yaşanmış tarix, bizdə isə həm yaşanmış tarix, həm də bu gündür. Yəni bu gün aşıq adlı dastan ifaçısı yaşamaqda, gözümüzün qabağında fəaliyyət göstərməkdədir. Biz istəsək, münasib imkan və şərait yaratsaq, həmin sənətkar

özünü kökləyib, “Koroğlu”dan, “Abbas-Gülgəz”dən saatlarla danışa, dastan üstündə, ənənəyə uyğun şəkildə çalıb-oxuya bilər. Avropa xalqlarından fərqli olaraq, bizdə və Orta Asiya xalqlarında dastanı canlı ifada dinləməyin və qeydə almağın mümkün olması V.Jirmunskinin də ciddi marağına səbəb olur və o, dünya eposunun açılmayan sirlərinin açarını türk dastan ifaçılığında görür: “Orta Asiya xalqları ... el sənətkarlarının … ifasında yaşayan zəngin və canlı xalq eposu xəzinəsilə haqlı olaraq fəxr edirlər. Elmi baxımdan biz burada bütövlükdə epos probleminə açar olduğunu görürük. Antik, Ortaçağ Qərbi Avropa, hind və İran eposları bizə yazılı abidələr vasitəsilə gəlib çatmışdır və bu eposların təbiəti yalnız günümüzdə yaranan və ifa olunan eposla müqayisədə aydınlaşır”. Yeri gəldikcə “Dədə Qorqud” və “Koroğlu” eposlarından bəhs etməklə, kitabda iki böyük oçerki ayrıca Orta Asiya xalqlarının epik yaradıcılığına və bu xalqlardakı epos ifaçılığına həsr etməklə, Orta Asiyanın əsas dastan söyləyiciləri olan baxşılardan, onların ustad – şəyird (şagird) münasibətlərindən geniş söhbət açmaqla V.Jirmunski bizlərə qədirşünaslıq nümunəsi göstərir, bu gün aramızda yaşayan el sənətkarlarının böyük bir ənənə və mədəniyyət daşıyıcısı olduğunu bir daha yadımıza salır.

Dastan ifaçıları barədə təsəvvürün inanclar sistemindən gəldiyini xüsusi vurğulayan V.Jirmunski baxşıları şamanlara bənzədir, şamanlar kimi baxşıların da vergili adamlar olması və ilahi missiya yerinə yetirməsi ilə bağlı arxaik düşüncələri xatırlatmağı vacib bilir. Şifahi söz sənətində özünə möhkəm yer tutmuş bu arxaik düşüncə tərzinin sonradan yazılı ədəbiyyata keçməsindən danışarkən V.Jirmunski türkmən şairi Məhdimqulunun dini müqəddəslərə, rus şairi Puşkinin muzalara üz tutması, hər iki sənətkarın öz ilhamını ilahi mənşəyə bağlaması faktlarına nəzər salır. Bu kimi faktların bizim şifahi

və yazılı sənətimiz üçün də səciyyəvi olmasını, “soy soylayan, boy boylayan” Dədə Qorqudun həm də bir övliya olub, gələcəkdən dürlü xəbərlər verməsini ayrıca xatırlatmağa ehtiyac görmədən bir məsələyə ötəri toxunub, yazını tamamlamaq istəyirəm. Ötəri toxunmaq istədiyim məsələ şairliyin Allah vergisi olmasının bu gün bayağı şəkildə dilə gətirilməsidir. Bir də görürsən “Şeiri necə yazırsınız?” sualı verilər-verilməz şairin cavabı belə olur: “Mən şeirin üstündə düşünüb-daşınmıram, şeir gəlir, oturub birnəfəsə yazıram”. Bir yox, iki yox, neçə-neçə şairin dilindən bu sözləri eşidib fikrə gedirsən: doğrudanmı şeir yazmaq beləcə su içmək kimi asan bir işdir? Əlbəttə, şeir yazmaq asan iş deyil və Allah vergisi saydığımız istedad ağır zəhmət dediyimiz bir xəmirlə yoğrulmasa, əsl şeirin yaranmasından söhbət gedə bilməz. Bu fikir, təbii ki tərcüməçilik sənətinə də aiddir. “Xalq qəhrəmanlıq eposu”nun tərcüməsi istedad və gərgin əmək hesabına başa gəldiyinə görə rahat oxunur və aydın başa düşülür.

## “HAMI İLƏ HƏMFİKİR OLUB YENİ SÖZ DEMƏK MÜMKÜN DEYİL”

**– “Oxu kitablarında vətənpərvərlik dərsləri” yazınızda qeyd edirsiniz ki, uşaq sual verirsə, demək, oxuduğunun doğruluğuna şübhə ilə yanaşır. Şübhə həqiqəti tapmaq üçün vasitə deyilmi, sual verməyən uşaq həqiqəti necə tapa bilər?**

– Nəyəsə şübhə ilə yanaşıb həqiqətin izinə düşmək məlum və məşhur bir məsələdir. Hüseyn Cavid də “Şübhədir hər həqiqətin anası” söyləyir. Uşaq dərsdə sadəcə olaraq öyrənmək üçün sual verir, uşağın hansısa bir həqiqət dalınca düşmək iddiası olmur. Böyüklərə gəlincə qeyd etməliyik ki, hər hansı alim araşdırdığı mövzuya, daha doğrusu, o mövzu ilə bağlı əvvəllər deyilmiş fikirlərə şübhə ilə yanaşmasa, elmdə yeni söz deyə bilməz. Və yaxud hər hansı yazıçı tapdanmış yolla gedib fərqli bədii əsər yarada bilməz. Hamı ilə həmfikir olub yeni söz demək, əlbəttə, mümkün deyil.

**– Ədəbi prosesi nə dərəcədə izləyə bilirsiniz və bu prosesdə görükən mənzərə barədə qənaətiniz necədir?**

– Ədəbi prosesi mütəmadi izləyə bilməsəm də, oradakı ümumi ab-havadan xəbərim var. Müasir ədəbiyyatda xoşuma gələn cəhətlərdən biri forma-üslub axtarışlarının geniş vüsət almasıdır. Bu gün şeir, nəsr və dramaturgiyada forma-üslub axtarışları aydın sezilir. Kamal Abdullanın yaradıcılığı buna bariz nümunədir. Postmodern biçimdə qələmə alınmış “Yarımçıq əlyazma”da və yaxud “Casus”da məlum obrazlar oxucuya yeni mahiyyətdə təqdim olunur. Yazıçı “Dədə Qorqud” dastanındakı epizodik Boğazca Fatma obrazı üstündə maraqlı bir süjet qurur. Və “heç nəyə birtərəfli yanaşmaq, heç kimi bütləşdirmək olmaz” mesajını oxucuya novatorcasına çatdıra

bilir. Düşünürəm ki, klassik mədəni irsə ayıq gözlə baxmaq çağdaş ədəbiyyatın ən işıqlı tərəflərindən biridir.

**– "Müasir Azərbaycan nəsrində psixologizm" kitabınızda hadisələrin insanda yaratdığı duyğu və düşüncələrin nəsr üçün xüsusi təsvir predmeti olmasından bəhs edirsiniz...**

– Bəli, qəhrəmanın duyğu və düşüncələrinin xüsusi əksetdirmə predmetinə çevrilməsi psixoloji nəsr üçün aparıcı cəhətdir. Psixoloji nəsr qeyri-psixoloji nəsrdən, qəhrəmanın könül dünyasına güzgü tutması ilə fərqlənir. Və hadisələr bizə bu güzgüdən təqdim olunur. Dünyaya, ətrafda baş verənlərə məhz bu güzgüdən baxırıq. Bu fərqi daha aydın başa düşmək üçün eyni müəllifin ayrı-ayrı əsərlərinə nəzər yetirmək kifayətdir. Məsələn, Anarın "Dantenin yubileyi" povesti ilə "Macal" povestini müqayisə eləsək, əlbəttə, daha çox "Macal"dakı hadisələrin psixoloji yöndə təqdim edildiyi məlum olar. Burada söhbət üslub fərqindən gedir. "Dantenin yubileyi"ndə Kəbirlinskinin daxili düşüncələri müəllifə o qədər də maraqlı deyil. Yazıçını maraqlandıran Kəbirlinskinin kimlə nə danışdığı, hara getdiyi, nə ilə məşğul olduğu məqamlardır. Mirzə Cəlil də öz oxucusuna Novruzəlini, Usta Zeynalı bu cür tanıdır. Yəni Novruzəli, Usta Zeynal və Kəbirlinski nümunələrində qəhrəmanın kənardan görünən hərəkət və davranışını təsvir etmək obraz yaratmağın mühüm bir forması kimi özünü göstərir. "Macal" povestində isə forma dəyişir. Bu əsər başdan-başa Fuadın düşüncələri əsasında qurulub. Fuad iş-gücə başı qarışan, baş qaşımağa macal tapmayan bir adamdır. Əsərin adı da burdan qaynaqlanır. Akvariumdakı balıqlara yem verməyə, öz ata-anasına baş çəkməyə Fuadın vaxtı – macalı yoxdur. Baş qəhrəmanın ən böyük arzusu "özü ilə görüşə" bilməsidir. "Qayğı"lar məngənəsində qalan bu adamın daxilində ikiləşmə baş verir, içində baş qal-

dıran iki səs onu müşayiət etməyə başlayır. Bu səslərdən biri Fuadın öz səsi, digəri isə onun ünsiyyətdə olduğu adamların səsidir. Fuad özünə ətrafdakı adamların gözü ilə baxır və hadisələr bizə onun daxili monoloqları vasitəsilə təqdim olunur. Daxili monoloq povestdə təhkiyənin əsas strukturuna çevrilir.

**– "Hüseyn Cavid və mifoloji düşüncə" yazınızı oxuyarkən adamda belə bir fikir əmələ gəlir: ən uğurlu əsərlər mifologiyaya, folklora, yəni dolayısı ilə keçmişə bağlı olanlardır. Dünya ədəbiyyatında da belədir. Hər seçilən əsərin mütləq qədim mətnlərlə bir bağlılığı olur. Sizcə, niyə belədir?**

– Hər seçilən müasir bədii əsərin qədim mətnlərlə bağlı olmasının əsl səbəbini bilmək istəyiriksə, İndi ilə Keçmiş, çağdaş insanla qədim insan arasındakı fərqlərin şərti və nisbi mahiyyət daşımasını yaddan çıxarmayaq gərək. Bu gün, hansı ölkədə yaranmasından asılı olmayaraq, dünya ədəbiyyatı vahid ədəbi proses kimi meydana çıxırsa, qədim dövrlərdə də mifologiya ayrı-ayrı xalqlarda məhz vahid dünyagörüş sistemi kimi meydana çıxıb. Təsadüfi deyil ki, folklorşünaslıqdakı müxtəlif məktəbləri bir sual daha çox düşündürüb: dünyanın ayrı-ayrı ölklərində, bir-birindən çox-çox uzaq məsafələrdə yaşayan xalqların folklorundakı süjetlər, qəhrəmanlar niyə bu qədər oxşardır, bu, təxəyyül yaxınlığı nədən irəli gəlir? Cavablar müxtəlif olub. Məsələn, mifoloji məktəb bu oxşarlığı xalqların qohumluğu ilə, miqrasiya məktəbi tarixdə baş verən müxtəlif yürüşlərlə əlaqələndirib. Nəhayət, antropoloji məktəbin nümayəndələri göstəriblər ki, heç bir qohumluq və mədəni əlaqələri olmayan, bir-birini tanımayan xalqların belə folklorundakı oxşarlıq insan psixikasının oxşarlığı ilə bağlıdır. İnsanın mifoloji düşüncəsi onun harada, hansı ölkədə yaşamasından asılı olmayaraq çox oxşardır. Yəni Afrikada da,

Azərbaycanda da insan insandır, ətrafda baş verən hadisələr insanlarda oxşar təəssürat doğurur. O ki qaldı yazılı ədəbiyyata, şübhəsiz ki, yazıçılar üçün mif çox cəlbedici bir aləmdir. Yazıçıların araya-ərsəyə gətirdikləri mətnlər mifoloji çalarlarla zəngindir. Romantizm cərəyanının nümayəndələri bu baxımdan xüsusilə seçilirlər. Mistik obrazlara – mələk, iblis, skelet obrazlarına romantiklərin yaradıcılığında tez-tez rast gəlirik. Romantik sənətkar bu mistik obrazlar vasitəsilə qəhrəmanın daxilindəki ziddiyyətləri daha qabarıq, daha dolğun ifadə edə bilir. Hüseyn Cavid yaradıcılığında belə nümunələr çoxdur. Mifdən, mifoloji düşüncə tərzindən ustalıqla istifadə çağdaş ədəbiyyata da xüsusi təravət və özünəməxsusluq gətirir. Yusif Səmədoğlunun "Qətl günü" romanı, Mövlud Süleymanlının "Şeytan" povesti bu qəbildəndir.

**–Yazılarınızın birində qeyd etmisiniz ki, uşaq vaxtı ananız Sizə nağıllar danışarmış. Ədəbi və elmi fəaliyyətinizi folklor istiqamətində davam etdirməyinizdə bu faktın təsiri varmı?**

– Heç şübhəsiz, var. Uşaq vaxtı anamdan eşitdiyim nağıllar, yəqin ki, mənə öz təsirini göstərib. Amma bu təsiri yalnız nağıl məsələsi ilə məhdudlaşdırmaq istəməzdim. İstər nağıl danışanda, istərsə də adi söhbət eləyəndə anam, eləcə də atam, əmim, əmcanım (yəni əmim arvadı) və başqaları canlı bir dillə danışardılar. O dilin nə qədər canlı, şəhd-şirəli olmasını adam sonralar – quru kitab dili ilə hər gün əlləşib-vuruşmağa başlayanda başa düşür. Bilirsiniz ki, bədii ədəbiyyatda, xüsusən təhkiyə üstündə qurulan nəsr əsərlərində təsvirə çətin gələn məqamlardan biri qəhrəmanın psixoloji vəziyyətidir. Bu saat sizinlə danışa-danışa canlı danışıq dilində psixoloji vəziyyəti ifadə edən maraqlı deyimin işlənmə məqamını yadıma salıram: Anam xəstələnib. Əmcanım onun halını xəbər alır. Anam belə deyir: «Səhərə kimi göydən asılı

qalmışam». Anam bununla ağrıdan səhərəcən yata bilməməsini bildirmək istəyir. Canlı dilə başqa misal. Anamdan əmim oğlunun kənddə nə iş gördüyünü soruşuram. Anam deyir: «Nə iş görəcək?! Uzun gedib, gödək gəlir. Küçələrin əyrisini düzəldir”. Anam bununla əmim oğlunun kənddə boş-bekar gəzib-dolanmasını bildirmək istəyir. Canlı danışıq dilinin bir gözəlliyi də arxaik qatları özündə qoruyub saxlamasıdır. Anamdan eşitdiyim iki ifadəni misal çəkmək istəyirəm: Səhərdən dilimə Tanrı qutu dəyməyib. Bir tikə yemək ye, ürəyində qut olsun”. Bu cümlələrdəki «qut» sözü yazılı abidələrimizdə, o cümlədən «Dədə Qorqud» dastanında gördüyümüz bir sözdür. Belə misallarla zəngin olan xalq danışıq dili tək mənə yox, sözlə az-çox bağlı olan hər bir kəsə öz təsirini göstərir.

– **Muxtar müəllim, Folklor İnstitutunun direktoru kimi deyə bilərsinizmi hal-hazırda folklorun həll edilməyə daha çox ehtiyacı olan, problemli sahəsi hansıdır? Yəni təhlilə açıq olan hansı mövzu daha çox işlənməlidir?**

– Folklor çox geniş anlayışdır. O həm sözdür, həm hərəkətdir, həm də maddi material. Şifahi ənənə üzərində formalaşan mədəniyyətə aid nə varsa, folklordur. Çox təəssüf ki, bizdə folkloru ancaq şifahi xalq ədəbiyyatı kimi qəbul edənlər daha çoxdur. Bir misal çəkim: tələbə vaxtı “Şifahi xalq ədəbiyyatı” adlı bir kitabdan dərs oxuyub imtahan vermişdik. Universiteti bitirdik və o fənni bizə tədris edən müəllim həmin kitabı “Azərbaycan folkloru” adı ilə təkrar nəşr etdirdi. Kitabın adı dəyişdi, amma içi dəyişmədi. Nə üçün? Əsas səbəb müəllimimizin folkloru yalnız şifahi xalq ədəbiyyatı hesab etməsi idi. Müəllimimiz nəzərə almırdı ki, şifahi xalq ədəbiyatı folklorun əsas sahələrindən biridir. Xalq ədəbiyyatı ilə yanaşı, xalq rəqsləri, xalq musiqisi, xalq təbabəti, xalçaçılıq, toxuculuq, xalq mətbəxi, xalq memarlığı və s. kimi sahələri də əhatə edən folklorda şifahi şəkildə

yaranma və şifahi şəkildə nəsildən-nəsilə ötürülmə bütün bu sahələr üçün ortaq cəhətdir. Folklorun əsl mahiyyətini bu cəhəti nəzərə almaqla doğru-düzgün başa düşmək olar. Söhbəti konkret olaraq xalq ədəbiyyatının üstünə gətirsək, qeyd etməliyik ki, bu ədəbiyyat şifahi ifa prosesi ilə qırılmaz surətdə bağlıdır. Hər hansı nağıl, dastan, bayatı… ifa olunduğu prosesla bir yerdə folklor hadisəsidir. İfa prosesindən ayrı götürülmüş nağıl, dastan və bayatı mətni folklor haqda tam təsəvvür yarada bilmir. Vaxtilə Aşıqlar Qurultayında professor Bülbül folklorşünaslara irad tuturdu ki, «Koroğlu» dastanlarındakı şeirlər aşıq havaları nəzərə alınmadan nəşr edilir. İrad haqlı iraddır. Doğrudan da, hər hansı bir dastan çap olunarkən onun musiqi konteksti xüsusi olaraq nəzərə alınmalı, dastanı aşığın necə söylədiyi, hansı şeiri hansı hava üstündə ifa etdiyi ortaya qoyulmalıdır. İfa konteksti xüsusi nəzərə alınmalı olan janrlardan biri bayatılardır. Bayatıların toy və yas mərasimlərində, Halay, Gülümey və Haxışta oyunlarında, tənbur məclislərində oxunması bəllidirsə, deməli, həmin janrı adları çəkilən ifa kontekstlərində qeydə almaq və məhz o şəkildə də araşdırmaq lazımdır. Bu gün Azərbaycan folklorşünaslığında bu yöndə toplama, tərtib və araşdırma işlərinin aparılmasına böyük ehtiyac var.

**– "Komik Qəhrəman. Molla Nəsrəddin" məqalənizdə sıravi adamların həyatını əks etdirən lövhələrin komik əsərlərdə aparıcı yer tutduğunu qeyd edirsiniz. Məsələn, göstərirsiniz ki, Nizami Gəncəvi "Xəmsə"sində çoban, əkinçi və kərpickəsən belə uca bir mərtəbəyə qaldırıldığı halda, Mirzə Cəlilin əsərlərində kəndlinin, bənnanın "göylərlə işi yoxdur". Nə üçün Cəlil Məmmədquluzadə o qədər əzəmətli obrazlardan sonra Novruzəliyə müraciət etdi?**

– Ona görə ki, Cəlil Məmmədquluzadə bir realist sənətkar kimi ədəbiyyata öz mövzusu, öz qəhrəmanları və öz

üslubu ilə gəlmək istəyirdi və gəldi. Əli Nazimin sözləri ilə desək, Cəlil Məmmədquluzadə ədəbiyyatın müqəddəs məbədinə Məhəmmədhəsən əminin eşşəyi ilə daxil oldu. Bu obrazlı cümlənin arxasında çox böyük elmi həqiqət dayanır. Əli Nazim demək istəyir ki, Xosrov, Bəhram, Şirin kimi qəhrəmanlar artıq Mirzə Cəlili maraqlandırmır, onun əsas hədəfi Novruzəli, Usta Zeynal kimi adidən də adi insanlardır. Böyük sənətkar "Molla Nəsrəddin" jurnalının ilk nömrəsində əbəs yerə demir: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər". Məzəli bir dillə qələmə aldığı bu adamlarda Mirzə Cəlili ağrıdan cəhət onların qəflət yuxusunda olub zamanla ayaqlaşa bilməməsi, ruhani cildinə girmiş Şeyx Nəsrullah kimi bir lotunun əlində oyuncağa çevrilməsidir.

**– Şeyx Nəsrullaha "mənfi əvəzedici" deyə bilərikmi?**

–Şeyx Nəsrullah mənfi əvəzedici deyil. Mənfi əvəzedici də folklorda müsbət əvəzedici kimi əkizlər mifi ilə bağlı bir obrazdır. Şeyx Nəsrullahı «Ölülər» tragikomediyasındakı faciəvi İskəndər obrazı ilə paralel götürüb onları birlikdə mifoloji qardaş baxımından təhlil etmək çətindir. Söhbətimiz aydın istiqamətdə getsin deyə mənfi əvəzedici saydığımız obrazın bir-iki səciyyəvi cizgisini yada salsaq, qeyd etməliyik ki, mifoloji təsəvvürə görə, əkizlər arasında rəğbət və məhəbbət olduğu kimi, rəqabət və ədavət də ola bilər. Bir-birinə rəqib olan əkizlər ayrı-ayrılıqda xeyirin və şərin təmsilçisinə çevrilirlər. Bu arxaik təsəvvürün folklorumuzda elementlərini axtarıb tapmaq elə də çətin deyil. Məsələn, belə elementlər «Dədə Qorqud» dastanında Basat – Təpəgöz, Beyrək – Yalançı

oğlu Yalancıq münasibətləri çərçivəsində qabarıq ifadəsini tapır. Təpəgözü Basatla birlikdə iki süd qardaşı kimi böyütməkdə Alp Aruzun niyyəti aslan südü ilə bəslənən Basatın gücünü (o cümlədən Oğuz elinin qüdrətini) birə-beş artırmaqdır. Bildiyimiz kimi, Alp Aruzun bu niyyəti baş tutmur. Hərəkətləri Alp Aruzun niyyəti ilə qətiyyən bir araya sığmayan Təpəgöz nəticədə Basatın həqiqi yox, yalançı qardaşı timsalında qarşımıza çıxır. Ona görə yox ki, Təpəgözlə Basatın ata-anası ayrıdır. Ən çox ona görə ki, Təpəgözlə Basatın bir obraz olaraq mifoloji semantikası başqa-başqadır. Basat xeyiri təmsil etdiyi halda, Təpəgöz şəri təmsil edir. Şər təmsilçisi xeyir təmsilçisinin həqiqi yox, yalançı qardaşı ola bilər. Başqa sözlə desək, Təpəgöz Basatın müsbət yox, mənfi əvəzedicisi ola bilər. Bu sözləri Yalançı oğlu Yalancıq barədə də demək mümkündür. Yalançı oğlu Yalancıq dastanda Bamsı Beyrəyin yaxın yoldaşlarından, arxadaşlarından biridir. O dərəcədə yaxın ki, Beyrək öz nişanlısı Banıçiçəyin toxuduğu köynəyi ona (Yalançı oğlu Yalancığa) bağışlayır. Belə bir münasibətin müqabilində Yalançı oğlu Yalancıq Beyrəyə sadiq olmalı, Beyrəyə münasibətdə Qazan, Uruz, Qaragünə, Qarabadaq tutan mövqeyi tutmalıdır. Amma Yalançı oğlu Yalancıq tamamilə əks mövqe tutur. Bütün igidlər Beyrəyin yoxa çıxmasından narahat olduğu, üzüntü keçirdiyi və onun tapılmasına çalışdığı halda, Yalançı oğlu Yalancıq fürsətdən istifadə edib Beyrəyin nişanlısı ilə evlənmək fikrinə düşür. Nəticədə Yalançı oğlu Yalancıq yalançı adaxlı timsalında ortaya çıxıb həqiqi adaxlı olan Beyrəklə paralellik yaradır. Mənfi əvəzedicilərin, yəni xatırlatdığımız misallarda yalançı qardaş və yalançı adaxlının mifoloji funksiyası öz məğlubiyyəti ilə baş qəhrəmana güc-qüvvət vermək, onun güc-qüvvətini birə-beş artırmaqdır.

Mənfi əvəzedicinin – yalançı qəhrəmanın qısaca olaraq sadaladığım bütün bu cəhətləri içərisində Şeyx Nəsrullaha

şəksiz-şübhəsiz aid edilən cəhət onun (Şeyx Nəsrullahın) qorxunc qara qüvvə daşıyıcısı olmasıdır. Təpəgöz və Yalançı oğlu Yalancıqdan bu qara qüvvənin başlıca fərqi sonda məğlubiyyətə uğramamasında, ətrafdakı adamları zəlil vəziyyətə salıb Kefli İskəndərin təsir imkanlarını heçə endirməsindədir. Finalda Şeyxin iç üzünün açılması və İskəndərin bu fürsətdən istifadə edib "diri ölülər"i acı qınaq hədəfinə çevirməsi nikbinlik üçün heç bir əsas vermir. İnanmaq olmur ki, Şeyx Nəsrullah fırıldaqçı kimi aradan çıxandan sonra Kefli İskəndər özündə güc-qüvvət tapıb cəhalət və rəzalətə rəşadətlə sinə gərə biləcək. Deməli, Kefli İskəndər nə Basatdır, nə Beyrək. Kefli İskəndər İsfahan şeyxlərinin at oynatdığı Hacı Həsənlər, Kərbəlayi Fatmalar mühitində məğlub bir qəhrəmandır. Məğlub qəhrəmanın müsbət və ya mənfi əvəzedicisinin olması mif modelinə uyğun gəlmir.

**– Bir neçə kitabınızda o dünya ilə bağlı fikirlərə rast gəlmək olur. Bu mövzu diqqətimizi niyə belə çox cəlb edir? Bu mövzunun Mirzə Cəlildəki ölülər mövzusu ilə nə dərəcədə əlaqəsi var?**

– O dünya ilə bağlı fikirlər folklordan gəlir. Sirli-sehrli aləm və güc-qüdrət mənbəyi kimi nişan verilən o dünyadan folklorda xüsusi olaraq bəhs edilir. Mirzə Cəlildəki ölülər mövzusu xalq gülüşündəki ölülər mövzusu ilə daha çox səsləşir. Folklor üçün səciyyəvi olan bir ənənədən – ölümü və ölünü həyatverici gülüş mənbəyinə çevirmək ənənəsindən Mirzə Cəlil məharətlə istifadə edir. "Ölülər" tragikomediyasında Mirzə Cəlil üç cür ölü obrazı yaradır: qəbiristanlıqda yatan ölülər, İsfahan şeyxlərinin əlində oyuncağa dönən "diri ölülər» və ayıq-sayıq bir ziyalı olduğu halda, ölü qiyafəsinə girmək məcburiyyətində qalan Kefli İskəndər. Əsərdə xüsusi xatırladılan ölü obrazı yalnız Hacı Həsənlərin çirkin əməllərini (məsələn, ölən adamların var-dövlətini ələ keçirib on-

ların ailəsini ac-yalavac qoymaqlarını) açıb göstərməyə xidmət etmir, həm də başqa bədii funksiyalar daşıyır. Həmin funksiyalardan biri Hacı Həsənlərin özünüdərk hissindən uzaq olmasını, məhz bu səbəbdən «ölülər» adı almasını göstərməkdirsə, digər bir funksiya İskəndərin ölü adam vəziyyətinə düşməsini göstərməkdir. Ağıllı olmağın, özünü və dünyanı dərk etməyin müsibətini yaşayan, ağrısını çəkən İskəndərdə idrak ölülüyü axtarmaq məntiqsizlik olardı. Hərəkətsizlik, fəaliyyətsizlik məsələsinə gəldikdə isə İskəndərin hünərvərliyindən danışmaq da çətindir. Obyektiv və subyektiv səbəblər üzündən əməli fəaliyyəti son dərəcədə məhdudlaşan, azyaşlı bacısının namusunun tapdanmasına belə kəskin etiraz edə bilməyən İskəndərin özü də müəyyən mənada ölüdür, Lev Tolstoyun Protasovu kimi canlı meyitdir. Ölüyə bənzərliyini İskəndərin özü də etiraf edir. Şeyx Nəsrullahın ölü diriltmək məsələsi ortaya çıxanda İskəndər atasına deyir: «Dadaş… qonaqdan təvəqqe elə ki, əvvəl qabaqca məni diriltsin; çünki elə mən də ölü kimi bir şeyəm»…

**– Ölülər və dəlilərə köklənmiş nəsrə, dramaturgiyaya xüsusi diqqət yetirirsiniz. Belə çıxır ki, Mirzə Cəlilin, Elçinin dəliləri Füzulinin dəlisindən daha «ağıllı»dır?**

– Mirzə Cəlilin, eləcə də Elçinin dəli obrazlarını qətiyyən Füzulinin dəli obrazına qarşı qoymaq olmaz. Axtarsan «Dədə Qorqud»dan, Nizamidən, Füzulidən tutmuş Mirzə Cəlilə və çağdaş yazıçılarımıza qədər bütün ədəbiyyatımız boyunca qarşılaşdığımız dəli obrazlarının hamısı hansısa baxımdan bir-birinə bağlıdır. Ən tipik bağlılıq nöqtələrindən biri mövcud davranış normalarından kənara çıxmaqdır. Dəli Domrul da, Məcnun da, Dəli Abbas da, Elçinin və Vaqif Səmədoğlunun dəli obrazları da, hər şeydən qabaq, başqalarının atmadığı addımı atması ilə maraq doğurur. Qəhrəmanın

«anormal» hərəkətlərinin təsviri cəmiyyət haqda normal və ciddi söz deməyin əlverişli vasitəsi kimi ortaya çıxır.

**– «Dədə Qorqud» dastanındakı Dəli Domrul obrazı ilə klassik şeirimizdəki Məcnun obrazının adını bir yerdə çəkdiniz və bizdə belə bir sual yarandı: romantik ədəbiyyatdakı mübaliğə şifahi xalq ədəbiyyatındakı mübaliğədən nə ilə fərqlənir?**

– Ən başlıca fərq üslubdadır. Yazılı ədəbiyyatda mübaliğəli şəkildə qələmə alınan qəhrəmanlardan hər biri yazıçının fərdi üslubunun mühüm göstəricisidir. Şifahi xalq ədəbiyyatında isə fərdi üslubdan yox, ümumi folklor üslubundan, hər janra aid ənənəvi formullar, klişelər, təsvir və təqdimetmə üsullarından danışmaq olar.

**– Yazılarınızın birində qeyd etmisiniz ki, ədəbiyyat sahəsini seçməyinizdə böyük qardaşınız Akif İmanlı və onun dostu İsa Həbibbəylinin xüsusi rolu olub. Necə düşünürsünüz, ədəbiyyat Sizi seçib, ya Siz ədəbiyyatı?**

– Ədəbiyyatın məni seçməsindən danışmaq çox yekə səslənər, mübaliğəli olardı. Yəqin ki, mənim ədəbiyyatı seçməyimdən danışmaq daha münasibdir. Görünür, ürəkdə şeirə-sənətə az-çox həvəs varmış, bu həvəsin artıb arzu-istəyə çevrilməsinə böyük qardaşım Akif İmanlı və onun dostu İsa Həbibbəyli əsaslı təsir göstərib. Bu gün tanınmış akademik olan İsa Həbibbəyli, filologiya üzrə elmlər doktoru olan Akif İmanlı o vaxt (1960-cı illərdə) tələbə idilər, Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan Filialının dil-ədəbiyyat fakültəsində oxuyurdular. Qardaşım Akif İsa müəllimlə hərdən onların kəndinə gedərdi, İsa müəllim də qardaşım Akiflə hərdən bizim kəndə gələrdi. İki tələbə yoldaşı dildən-ədəbiyyatdan danışardı, mən də bir qıraqda durub hədsiz maraqla onlara qulaq asardım. «Muğan» poemasından İsa müəllimin

necə həvəslə danışmağı və böyük bir parçanı necə şövqlə əzbər deməyi indi də gözümün qabağındadır:

Boz dağların arasından axan Kür
«Yandım» deyən səhraları dolaşır.
Onun qəlbi qəlbim kimi döyünür,
Dağlar yarıb öz eşqinə yol açır…

Səhv eləmirəmsə, o vaxt mən 6-cı sinifdə oxuyurdum. İsa müəllimin təsirilə «Muğam» poemasını kənd kitabxanasından alıb oxudum və ilk dəfə İsa müəllimdən eşitdiyim «Kür» adlı parçanı bütünlüklə əzbərlədim. Və bu parça 1972-ci ildə Universitetdə ədəbiyyatdan qəbul imtahanı verəndə mənim dadıma çatdı. İmtahan götürən müəllim (rəhmətlik Yolçu Piriyev) Süleyman Rəhimovun romanlarından sual verib məni əməlli-başlı çətinə saldı. İmtahana pis hazırlaşmadığıma müəllimi tam inandırmaq üçün əlavə suallar verilməsini xahiş etdim. Yolçu müəllim əlavə sual-cavabdan sonra: "Səməd Vurğundan şeir deyə bilərsənmi?" – dedi. Dərhal «Muğan»dan "Kür" adlı parçanı başdan-başa əzbər dedim və yuxarı qiymət məsələsi öz müsbət həllini beləcə tapdı.

**– Kamran Əliyev 60 illik yubileyinizə yazdığı təbrik məqaləsində qeyd edir ki, «Muxtar şair ola bilərdi, amma olmadı». Necə bilirsiniz, «Əyilib bulaqdan ulduz içəndə» kimi misranın müəllifi şair ömrünü yaşamağı bacarmadı, yoxsa bunu istəmədi?**

– Akademiyamızın müxbir üzvü, əməkdar elm xadimi, mənim qırx beş illik dostum Kamram Əliyevin xatırlatdığı o misra Universitetin birinci kursunda oxuyanda yazdığım «Bir gecənin romantikası» adlı şeirdəndir. Həmin misranın yer aldığı bənd belədir:

Bir gecəm qalıbdır illər köçündə –
Ulduz hıçqırtılı səması vardı.

Əyilib bulaqdan ulduz içəndə
Qəlbimin göylərlə təması vardı…

Bir məclisdə bu şeiri oxumağım, Xəlil Rzanın bu şeiri necə hərarətlə qarşılayıb tərifləməyi yaxşı yadımdadır: «Mən harda olurumsa, ordaca gündəliyimçin qeydlər aparıram. Bu məclisdə o qeydlərdən biri belə oldu: Bu gecə Muxtar bəy bizim hamımızı ötüb keçdi». Xəlil Rza şeirdəki ulduz içib göylərlə təmasda olmaq məsələsi üzərində xüsusi dayandı, Nəsimini, Füzulini yada saldı. Müxtəlif ədəbi dərnəklərdə şeirlərimin bu cür bəyənilməsindən, şeirlərimi müxtəlif məclislərdə tələbə yoldaşlarımın əzbər deməsindən də xeyli misallar çəkə bilərəm. Amma belə misallar heç də mənim şair olmağımdan xəbər vermir. Ondan xəbər verir ki, əksər ədəbiyyatçılar kimi mən də cavan vaxtlarımda ara-sıra şeir yazmışam…

**Müsahibəni Fərid Hüseyn və Aysu Kərimova götürüb. “Kaspi” qəzeti, 18-20 noyabr 2017-ci il**

## “ÖLÜLƏR” HƏMİŞƏYAŞAR ƏDƏBİYYAT NÜMUNƏSİDİR”

**– Hansı məziyyətlərinə görə “Ölülər” Sizin sevimli əsərinizdir?**

– “Ölülər” tragikomediyasında Cəlil Məmmədquluzadə son dərəcə ciddi mətləblərə toxunur və bu mətləbləri yüksək bədiiliklə ifadə edə bilir. Öz oxucusuna və tamaşaçısına nəyi çatdırması və necə çatdırması baxımından “Ölülər” həmişəyaşar ədəbiyyat nümunəsidir. Bu əsərə göz yummaq, bu əsərdə deyilənləri qulaqardına vurmaq, bu əsərdəki bədii ustalığı yüksək qiymətləndirməmək sadəcə olaraq mümkün deyil.

**– Sizcə, müasir dövrdə “Ölülər” əsərini aktual edən hansı tip insanlar və hansı tip hadisələrdir?**

– Varlanmaq, şan-şöhrət sahibi olmaq, hakimiyyət əldə etmək və başqa bu sayaq niyyətlərini xalqa xidmət pərdəsi altında gizlədib dondan-dona, cilddən-cildə girən insanlar, bu tip insanların məkri ilə törəyən xoşagəlməz, bir çox hallarda isə faciəvi hadisələr bizi təkrar-təkrar ölməz “Ölülər”ə qaytarır, bu əsərin nə qədər müasir bir əsər olduğunu dönə-dönə yadımıza salır.

**– “Ölülər” əsəri Qoqolun “Müfəttiş”inə çox bənzəyir. Ancaq bir xüsusi fərq var: “Müfəttiş”də məmurlar sonda aldandıqlarını özləri dərk edirlər, “Ölülər”də isə Hacı Həsənlər aldandıqlarını özləri anlamırlar, onları İskəndər başa salır. Sizcə, bu fərqlər cəmiyyətdəki hansı səbəblərdən dolayı üzə çıxır?**

– Bir adamın səhvən başqa bir adam kimi qəbul edilməsi dünya ədəbiyyatında Qoqoldan çox-çox əvvəl də mövcud olub. Məsələn, Şekspirin “Səhvlər komediyası” həmin süjet əsasında yazılıb. Buna baxmayaraq, Qoqolun “Müfəttiş” komediyasının bizim dramaturgiyamıza təsir göstərdiyini də

qətiyyən danmaq olmaz. Danmaq olmaz ki, “Ölülər”dən xeyli qabaq “Molla İbrahimxəlil kimyagər” komediyasının ortaya çıxmasında “Müfəttiş” öz müsbət və işıqlı rolunu oynayıb. O ki qaldı “Ölülər”lə “Müfəttiş” arasındakı fərqə, məncə, ən mühüm fərq ondadır ki, mövcud süjet əsasında hər bir sənətkar (Qoqol və Mirzə Cəlil) yaşadığı cəmiyyəti və dərindən müşahidə etdiyi sosial mühiti bütün koloriti ilə oxucu və tamaşaçıya təqdim edə bilir, rus və Azərbaycan cəmiyyətini təqdimetmə hər sənətkarın özünəməxsus üslubu sayəsində mümkün olur. Ümumi süjet daxilində ayrı-ayrı obraz və səhnələrin fərqinə gəlincə belə bir fərqi hər şeydən qabaq, baş qəhrəmanların təbiətində və davranışında axtarmaq lazım gəlir. “Müfəttiş”in aparıcı qəhrəmanı Xlestakovdursa, “Ölülər”in də aparıcı qəhrəmanı İskəndərdən daha çox Şeyx Nəsrullahdır. Şeyx Nəsrullah Xlestakovdan qat-qat məkrlidir. Xlestakov başqa adam kimi qəbul edilmək sərgüzəştinin təsadüfi iştirakçısıdırsa, Şeyx Nəsrullah, əksinə, həmin sərgüzəşt və qorxunc oyunun mahir təşkilatçısı və əsas oyunçusudur. “Ölülər”lə “Müfəttiş” arasındakı mühüm fərqlərdən birini, əlbəttə, ayıq-sayıq ziyalı obrazının yaradılmasında axtarmalıyıq. Mirzə Fətəli Axundovun Hacı Nurusu kimi bir obraza ehtiyac duyan Cəlil Məmmədquluzadə orijinal İskəndər obrazını əsərə daxil edib. “Müfəttiş” yerli məmurların öz səhvlərini başa düşməsi ilə bitirsə, “Ölülər”in finalında öz səhvlərini başa düşənlərin İskəndər tərəfindən ittihama məruz qalmasının da şahidi oluruq. Bu məşhur itiham səhnəsinə qədər də İskəndər ölü diriltmək məsələsinə özünün kinayəli münasibətini bildirməkdən çəkinmir.

**– Şeyx Nəsrullaha inanmağın dinə inanmaqla əlaqəsini nədə görürsünüz? Məsələn, dini düşüncədə “ölülər məzarlarından qalxacaqlar” fikrinə inam Şeyx Nəsrullaha inanmaq məsələsinə nə dərəcədə ayaq verir?**

– Həqiqi dindarlıqla Şeyx Nəsrullaha inanmağın elə bir əlaqəsi yoxdur. Dinə kor-koranə yox, ağıl-kamalla yanaşan Allah bəndəsi "ölülər məzarlarından qalxacaqlar" fikrini heç bir halda Şeyx Nəsrullah kimi bir lotunun kəramətinə bağlamaz. Dinə kor-koranə bağlananın isə işi, əlbəttə, Allaha qalıb. Belə adam nəinki Şeyx Nəsrullah kimi əjdahanın, hətta xırda çaqqal-çuqqalın da əlində oyuncaqdır. Mirzə Fətəli Axundovdan üzü bəri bizim bir çox qələm sahiblərinin amallarından biri bu olub: xalqı din pərdəsi altında gələn bəlalardan qorumaq.

**– Əsərdə İskəndər nələrisə deyir, ancaq sanki insanları inandırmaq istəmir. Fəqət Şeyx Nəsrullah əsər boyu inandırır. Bu baxımdan Şeyx Nəsrullah dram sənəti üçün daha xarakterik obrazdır. Siz necə düşünürsünüz?**

– Ölülər mühitində Şeyx Nəsrullah İskəndərlə müqayisədə, doğrudan da, çox fəaldır. Başqa sözlə desək, ölülər mühiti abırlı ziyalı olan İskəndərin yox, Şeyx Nəsrullah kimi bir fırıldaqçının fəaliyyətinə geniş meydan verir. Sağlam mühitdə İskəndərin cəmiyyətə nə qədər fayda verəcəyini, yəni daxildəki gücü real işə çevirəcəyini təsəvvür etmək çətin deyil. Sözümün canı odur ki, Şeyx Nəsrullah dram sənəti üçün nə qədər səciyyəvi obrazdırsa, İskəndər də bir o qədər, bəlkə ondan da artıq səciyyəvi obrazdır.

**– Şeyx Nəsrullah niyə İskəndəri görmək, onunla danışmaq istəyir, onu yanına çağırtdırır? Bu məqam əsərdə hansı düyünün açılmasına xidmət edir?**

– Şeyx Nəsrullahın İskəndəri görmək, onunla danışmaq istəməsi və onu yanına çağırtdırmasının çox sadə və aydın səbəbi var: bütün hacıları və məşədiləri, Heydər ağa və Əliqulu bəy kimi Avropa təhsili almışları dişinə vurub onlardan təhlükə gəlməyəcəyinə tam əmin olandan sonra Şeyx Nəsrullah, adını eşidib üzünü görmədiyi İskəndərdən də arxayın

olmaq istəyir. Ayıq-sayıq İskəndərin adamlar arasında, hətta doğmaca ata-anası yanında üç qəpiklik hörmətinin olmamasını gördükdə Şeyx Nəsrullahın İskəndərlə bağlı nigaranlıq və narahatlığına son qoyulur. Və Şeyx Nəsrullah Hacı Həsənlər arasında özünü dəryada balıq kimi hiss etməyə başlayır.

**– "Ölülər"də insanlar o dünyadan xəbərsizdirlər, ancaq o dünyaya hədsiz inam var onlarda. Farsca anlamaya-anlamaya o dildə danışmağa, şeir öyrənməyə meyil var insanlarda. Eləcə də, ərəbcə bilməsələr də, "Qurani-Kərim" dilinə maraq göstərirlər. "İnsan bilmədiyinin düşmənidir" deyirlər, fəqət bu məntiq əsərdə sanki tərs "yozulur".**

– O dünyaya inam əksər insanlarda var. Bilməmək məsələsinə gəlincə isə qeyd olunmalıdır ki, "Ölülər" məhz bilməzlik, korafəhmlik mətləbi üzərində qurulub. Hacı Həsənlərin bilməzliyi, korafəhmliyi imkan verir ki, Şeyx Nəsrullah özünü hədsiz bilik və böyük kəramət sahibi kimi göstərə bilsin. Farsca, ərəbcə mübhəm tərzdə danışmaq Şeyx Nəsrullaha avam kütləyə öz gücünü göstərmək, onu özünün muti quluna çevirmək üçün lazım olur.

**– Şeyx Nəsrullah nəyə görə insanları ancaq qorxu altında saxlamağa çalışır, daim cəhənnəmdən bəhs edir?**

– Mütiliyin, müticəsinə itaətin başlıca səbəblərindən biri qorxudur. Bunu çox gözəl bilən Şeyx Nəsrullah cəhənnəmdən-filandan o şəkildə moizə oxuyur ki, məhz xof yarada bilsin, kütlədəki qorxu hissini hədsiz artıra bilsin. Qorxunun artması itaətin də bir o qədər artması deməkdir.

**– Əslində ölülər cəmiyyətin avam təbəqəsidir. Amma İskəndər atasına deyir: "Dadaş, elə də qonaqdan (Şeyx Nəsrullahdan – F.H.) təvəqqe elə ki, əvvəl qabaqca məni diriltsin, elə mən də ölü kimi bir şeyəm". Əsərin əvvəlində İskəndər özünü, sonunda isə cəmiyyəti ölü hesab edir, bununla müəllif nə demək istəyir?**

– Ölü obrazı ilə müəllifin nə demək istədiyini doğru-düzgün başa düşmək üçün məsələyə bir az geniş çərçivədə yanaşmaq lazım gəlir. Məsələ burasındadır ki, ölü obrazı xalq gülüş mədəniyyətinin ənənəvi obrazlarından biridir. Komik folklor nümunələrində kələk qurub kiminsə başını yemək, axırına çıxmaq, ümumiyyətlə, ölüb-öldürmək şən gülüş yaratmağın səciyyəvi səhnələridir. Folklor üçün səciyyəvi olan bu ənənədən – ölümü və ölü obrazını yaşamaq rəmzi olan gülüş mənbəyinə çevirmək ənənəsindən yumoristik yazılı ədəbiyyatda, o cümlədən Cəlil Məmmədquluzadə yaradıcılığında özünəməxsus şəkildə istifadə edilir. Özünəməxsusluq başqa amillərlə yanaşı gülüşə tragizm elementlərinin hopdurulmasındadır. Xalq gülüşündə tragizmə yer verilmədiyi halda, Cəlil Məmmədquluzadə gülüşü göz yaşı içində olan bir gülüşdür. İstər həqiqi ölülərdən, istərsə də diri ola-ola ölüyə bənzəyən adamlardan danışılarkən Cəlil Məmmədquluzadə komizminin harda bitib Cəlil Məmmədquluzadə tragizminin harda başladığını ayırd etmək oxucu və tamaşaçı üçün çətin olur. Tragikomik səhnələrin yaradılmasında mühüm rol oynayan İskəndərin "Mən də ölü kimi bir şeyəm" deməsinə təsadüfi hal kimi baxmaq olmaz. Məsələ burasındadır ki, Hacı Həsənlər mühitində əl-qolu bağlanan və faydalı iş görmək imkanını itirən İskəndər ayıq-sayıq bir ziyalı olduğu halda, tale ilə barışmalı və ölü adam qiyafəsində ortaya çıxmalı olur. İskəndərin timsalında fərdin kütlə içərisində artıq adama çevrilməsinin ağrı-acısını əks etdirən "Ölülər" tragikomediyasında İskəndəri xalq gülüş mədəniyyətindəki baş qəhrəmanlara, ilk növbədə isə Molla Nəsrəddinə bağlayan başlıca cəhət bir obrazda iki obraz ifadə etməsidir. Bu obrazlardan biri ayıq-sayıq ziyalı obrazıdırsa, ikincisi məhz ölü adam obrazıdır. Müdrik Molla Nəsrəddin axmaq adam qiyafəsində göründüyü kimi idrakca dipdiri İskəndər də ölü adam qiyafəsində görünməli olur. Ətrafdakıların nəzərində zəlil və la-

zımsız adam təsiri bağışlayırsa, onda İskəndərin ölü adam qiyafəsində görünməsindən danışmaq yersiz və əsassız sayılmamalıdır. İskəndərin ölü adam qiyafəsindən danışmaq necə yersiz və əsassız sayıla bilər ki, Şeyx Nəsrullahın ən dözülməz əməli belə İskəndəri hərəkətə gətirə bilmir. Hadisələrə İskəndərin gözü ilə baxsaq, qeyd etməliyik ki, Şeyx Nəsrullahın ən dözülməz əməli azyaşlı Nazlını siğə etmək niyyətində olmasıdır. Başqa azyaşlı qızların dalınca bacısı Nazlının da İsfahan lotusuna ərməğan edilməsini bilən İskəndərin bu dözülməz hadisəyə etirazı tüpürüb otaqdan çıxmaq olur. Ruhdan düşüb daxilən sınan İskəndərin passivliyinin bu cür ifrat dərəcəyə çatması, əlbəttə, müəllifə hacı, məşədi və kərbəlayılar mühitinin hansı miqyas və hansı dərinlikdə ölüm girdabı içində olduğunu göstərmək üçün gərəkdir. Ölüm girdabı o miqyas və o dərinlikdədir ki, ondan yaxa qurtarmaq müşkül işdir. Ayıq-sayıq ziyalı olub girdaba ürəyində gülə bilərsən, amma mühitin girdab içində olduğunu heç kimə başa sala bilməzsən. Qol çırmayıb təmizlik işi görmək bir yana qalsın, bu girdabı açıq-aşkar lənətləməyin özü belə baş tutmayan işdir.

**– İskəndərin əlindəki şərab şüşəsindən danışaq…**

– Danışaq və bəri başdan onu xatırladaq ki, İskəndərin içkiyə qurşanması və yarı ölü vəziyyətinə düşməsi onun üzləşdiyi çarəsizliyin, naçarlığın acınacaqlı nəticəsi kimi meydana çıxır. Avropada yüksək təhsil alıb vətənə qayıdandan sonra mühafizəkar hacılar, məşədilər, kərbəlayılar mühitində tək-tənha olduğunu və mühitə təsir göstərmək gücündə olmadığını başa düşüb ümidsizliyə qatılan İskəndər içkiyə dərdini dağıtmaqdan ötrü meyil etməli olur. İskəndərin arağa qurşanıb faydalı işdən büsbütün uzaqlaşması hacı, məşədi, kərbəlayılara sərf edir. “Diri ölülər” bu qənaətdədirlər ki, Kefli İskəndər Allahın qəzəbinə gəlib zəlil vəziyyətinə düşən ve heç kəsə lazım olmayan bir adamdır. “Siz tək camaatın da igidi mənim

tək olar" deyən İskəndər özü də özü haqda yüksək fikirdə deyil. Və İskəndərin kefliliyi ətrafdakı adamlara sərf etdiyi kimi, müəyyən mənada onun özünə də sərf edir. Çünki ətraf ölülər mühiti ilə İskəndərin zahiri barışığı məhz onun kefliliyi hesabına baş tutur. Allahın qəzəbinə gəlmiş bir adamın hərəkəti kimi qarşılanan keflilik İskəndərin asudəliyinə az-çox imkan yaradır. Keflilk hesabına müəyyən sərbəstlik qazanan İskəndər davranış normalarından kənara çıxıb, məzə qurub dərdini az-çox dağıda bilir. Sərbəstlik ilk növbədə onda özünü göstərir ki, İskəndərin ayrı-ayrı adamlara sərxoş adam dilində dediyi tənəli sözlərə nə "diri ölülər", nə də Şeyx Nəsrullah baş qoşur. Lazımsız adamın sayıqlamaları kimi qarşılanan həmin tənəli sözlərin fərqinə yalnız oxucu və tamaşaçı varır. Yalnız oxucu və tamaşaçı hiss edir ki, İskəndərin kefliliyinin alt qatında sərt bir ittihamçılıq yatır və bu ittihamçılıq haçansa baş qaldıra bilər.

**– Asif Əfəndiyev "Şeyd Nəsrullah əsarəti" məqaləsində yazırdı ki, "Ölülər" əsərində Kefli İskəndərdən başqa düşünən obraz yoxdur? Bu fikirlə razısınızmı?**

– Düşünən qəhrəman özünü dərk edən qəhrəmandır. O mənada Kefli İskəndəri düşünən qəhrəman saymaq doğru-düzgündür. Amma o da var ki, böyük məkr ustası olan və şəri təmsil edən Şeyx Nəsrullahda da düşünən qəhrəman elementləri tapmaq mümkündür. Şeyx Nəsrullahın tək qalıb öz-özü ilə danışdığı epizodu yada salın. Həmin epizodda Şeyx Nəsrullah özü haqda deyir: "Mən həmişə xalqa deyəndə ki, naxoşam, elə bilirlər ki, xalqı aldadıram; amma Allah şahiddir ki… mən heç kəsi aldatmıram; çünki həqiqətdə mən naxoşam. Camaatın qabağında mən özümü naxoşluğa vuranda Şeyx Əhməd həmişə elə bilir ki, mən adamları ələ salıram; amma bu biçarənin heç xəyalına gələ bilməz ki, mənim mərəzim çox şiddətli mərəzdir… Həmin bu mərəzin bərəkətindəndir ki, mən bu bambılı Əhmədin yanında olmuşam bir balaca uşaq və ağlayıb

atamdan kişmiş istəyən kimi gündə bir dəfə utana-utana deyirəm: Şeyx Əhməd, mənə kişmiş". Bilirsiniz ki, Şeyx Əhməd əsərdə Şeyx Nəsrullahın köməkçisidir. Şeyx Nəsrullah şəhvət mərəzinin çarəsini məhz Şeyx Əhmədin yardımı ilə tapır. Şəhvət mərəzi ucbatından Şeyx Əhmədin yanında ağlağan uşağa dönməsini etiraf etmək heç də çirkin əməldən çəkilib düz yola gəlməyin əlaməti deyil. Məlum məsələdir ki, Şeyx Nəsrullah Hacı Həsən ağanın evində əxlaqsızlıq yuvasını bir az əvvəl xatırlatdığım etiraf monoloqundan sonra qurur. Bəs elədirsə, Şeyx Nəsrullahın etiraf monoloqunun dəyəri nədədir? Həcmcə çox da böyük olmayan həmin monoloqun başlıca dəyəri, məncə, Cəlil Məmmədquluzadə qələminin obraz yaratma meyarından xəbər verməsindədir. İskəndəri zəif tərəfləri ilə birlikdə təqdim edən müəllif Şeyx Nəsrullahı da ifrat birtərəflilikdən qismən uzaqlaşdırmaq istəyir və mərəz etirafı daha çox bu ehtiyacdan ortaya çıxmış olur.

**– Əsərdə belə bir fikir də aydın görünür: "İnsanlar öləndən sonra bu dünyada onlarla bağlı çox şey dəyişir və onların yenidən dünyaya qayıtması xaosa səbəb ola bilər". Ölənlərə bizim dünyamızda yer varmı?**

– O baxır ölüyə. Ayıbını qara torpaq örtmüş Şeyx Nəsrullah və Hacı Həsən ağaya bənzər ölülər dirilib yenidən bu dünyaya qayıtmasa yaxşıdır. İskəndərə bənzər ölülərin isə dirilib sıramıza qoşulması heç bir xaos yaratmaz, əksinə ab-havamız bir az təmizlənər, həmsöhbətimizin, həmdərdimizin biri də artmış olar.

**– Ölülərin ricəti-dirilməsi, daha doğrusu, onunla bağlı xahiş zamanı insanlar bir-birinin üzünə durur, işlər pozulur, xarakterlər açılır, günahlar üzə çıxır. İstərdim əsərdəki bu səhnənin mahiyyətindən danışasınız…**

– Əvvəla, onu deyim ki, "Ölülər"dəki qəbiristanlıq səhnəsi "Molla İbrahimxəlil Kimyagər"dəki meymunu yada

salmaq əhvalatı kimi böyük ustalıqla qələmə alınmış nadir səhnələrdən biridir. Hər iki əsərdə bədii ustalığın ortaq göstəricisi son dərəcə gərgin vəziyyətdən (camaatın gözü qarşısında misi gümüşə çevirmək və qəbirdəki ölüləri diriltmək müşkülündən) inandırıcı şəkildə çıxış yolu tapmaqdır. Amma Cəlil Məmmədquluzadə “Ölülər”də bir az da irəli gedib məlum və məşhur qəbiristanlıq səhnəsini, Siz deyən kimi, “günahların üzə çıxması” səhnəsinə çevirir. Hacı Həsənlərin – “diri ölülər”in bəd əməllərini açıb-tökmək əsərdə həqiqi ölülərin xatırlanması hesabına mümkün olur. “Diri ölüləri” diqqət mərkəzinə çəkən müəllif dolayı şəkildə həqiqi ölüləri də hadisələrin “iştirakçısı”na çevirir. Təsadüfi deyil ki, “Ölülər”də hadisələr ilk təkanı həqiqi ölüdən – Kərbəlayı Fətullahdan alır. Kərbəlayı Fətullahın “yazdığı” məktub Hacı Həsənlər arasına çaxnaşma salır və Şeyx Nəsrullah Hacı Həsənlər mühitinə məhz həmin çaxnaşmanın dalğası üstündə gəlir. Həqiqi ölülərin hadisələrdə “iştirakı” heç də Kərbəlayı Fətullahın “yazdığı” məktub məsələsi ilə bitmir. Şeyx Nəsrullahın ölü diriltmək möcüzəsinə tam inanan Hacı Həsənlər, narahatlıq və təlaş içində ölən qohum-əqrəbaları barədə düşünməyə başlayırlar. Bu narahatlıq və təlaşın xüsusi bir səbəbi də var. Həmin səbəb bizə məhz qəbiristanlıq səhnəsində aydın olur. Məlum olur ki, Hacı Həsənlər heç də bütün ölülərin dirilməyini istəmirlər. Məsələn, Hacı Həsən ağa özü atasının, anasının, iki oğlu və bir qızının dirilməyini istədiyi halda, qardaşının dirilməyini istəmir, çünki başqa hacı, məşədi və kərbəlayılar kimi, Hacı Həsən ağa da ölən qardaşımın “yanında” böyük günah sahibidir (çox güman ki, ölən qardaşımın mal-dövətini ələ keçirib). “Yanında” üzüqara olduğu qardaşının dirilmək məsələsi ortaya çıxdığına görədir ki, Hacı Həsən ağa təşviş içində qarabasma halı keçirir və onun gözünə ağ kəfənli ölü görünür. Həqiqi ölü hadisələrin bu cür dolayı iştirakçısı ol-

maqla "diri ölülər"in rahatlığına haram qatır. Deməli, əsərdə həqiqi ölülərin xatırlanması "diri ölülər"in mənəviyyatsızlığını açıb göstərməyin mühüm vasitəsinə çevrilir. Bunun ən bariz nümunəsi əsərdə, heç şübhəsiz qəbiristanlıq səhnəsidir. "Diri ölülər" qəbiristanlıqda "bəs sən niyə filan ölünün dirilməyinə razı deyilsən?" deyib bir-birlərini günahlandırmağa başlayırlar. Aydın olur ki, bəd əməlinə (o cümlədən ölən qardaşının arvadını almağına) görə onların hər biri özlüyündə bir Şeyx Nəsrullahdır. Atası Hacı Həsən ağa başda olmaqla ətrafdakı adamların çirkab içində olduğunu bildiyi üçündür ki, İskəndər kiçik qardaşı Cəlal və azyaşlı bacısı Nazlıdan başqa bir kəslə mehribançılıq eləyib ünsiyyət bağlaya bilmir. "Diri ölülər"lə heç cür barışa bilməyən İskəndər həqiqi ölülərə üz tutmalı, məhrəmanə bir şəkildə həqiqi ölülərlə danışmalı olur. Çünki adam yerinə qoyulmayan İskəndər ruhu incidilmiş həqiqi ölülərlə özü arasında bir yaxınlıq görür.

**– Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanım Kefli İskəndərin qismən real obraz olması haqqında yazır. Ölü diriltmək məsələsini isə Mirzə Cəlilə kimsə danışıb deyirlər. Ümumiyyətlə, bu əsərin real tərəfləri barədə nə deyərdiniz?**

– Onu deyə bilərəm ki, həm İskəndər obrazı, həm də ölü diriltmək əhvalatı, başqa sözlə desək Şeyx Nəsrullah obrazı həyatın özündən gəlir. Real həyatda kütlə psixologiyasından ucada dayanıb acı həqiqəti deməkdən çəkinməyən adamlar da var, kültə psixologiyasına uyğun söz deyib özünə xal qazanmaq, hansısa şəxsi istəyini gerçəkləşdirmək istəyən adamlar da var. Birinci qisim adamlar tək-təkdir, ikinci qisim adamlar isə kefin istəyən qədərdir. Arzu eləyək ki, birinci qisim adamlar cəmiyyətdə daha çox olsun.

**Müsahibəni Fərid Hüseyn götürüb.**
**"Kaspi" qəzeti, 11 avqust 2018-ci il**

## BAŞLIQLAR

Dövlətçilik düşüncəsi və folklor ........................................ 3
Milli mədəniyyət mücadiləsinin ibrət dərsləri...................... 45
Şifahi və yazılı ədəbiyyatımızda demonizm ........................ 90
"Dədə Qorqud" boylarında bəzi qaranlıq məqamlar ............ 140
Unudulmaz ədəbiyyatşünasın unudulması .......................... 155
Məmmədhüseyn Təhmasib və folklorumuzun
ağrılı nöqtələri.................................................................. 166
Nizami qəhrəmanlarının dialoji mahiyyəti.......................... 187
Dilimiz, nitqimiz və qayğılarımız........................................ 197
İlk sistemli dövrləşdirmə konsepsiyası.............................. 207
Kamal Abdulla "Dansökülən"i............................................ 228
Elmi əsər yazıçı tərcüməsində ............................................ 246
"Hamı ilə həmfikir olub yeni söz demək mümkün deyil" .... 252
"Ölülər" həmişəyaşar ədəbiyyat nümunəsidir" ................... 265

**Muxtar Kazımoğlu.**
**Söz haqqında söz.**
Məqalələr və müsahibələr.
Bakı, "Elm və təhsil", 2020.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 276 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.